# BAKI UNİVERSİTETİNİN
# XƏBƏRLƏRİ

# ВЕСТНИК
## БАКИНСКОГО УНИВЕРСИТЕТА

# NEWS
## OF BAKU UNIVERSITY

ISSN 1609-0586

**SOSİAL-SİYASİ**
*elmlər seriyası*

*серия*
**СОЦИАЛЬНО-ПОЛИТИЧЕСКИХ НАУК**

*series of*
**SOCIAL-POLITICAL SCIENCES**

***№1.2019***

***Baş redaksiya heyəti:***
**Məhərrəmov A.M.** (baş redaktor), **Kazımzadə A.H.** (baş redaktorun müavini), **Əliyeva İ.N., Məmmədov Y.Ə., Əliyev İ.Ə., Əfəndiyev V.Ə., Xələfov A.A., Məmmədəliyev V.M., Paşayeva N.A., Quliyeva Ş.T.** (məsul katib).

***Seriyanın redaksiya heyəti:***
**Məlikova M.F.** (redaktor), **Vahidov F.Q.** (redaktorun müavini), **Hacıyev Z.C.** (məsul katib), **Abbasbəyli A.N., Əhmədov Ə.C., Əliyev B.H., Əlizadə H.Ə., İsmayılov R.R., Məhərrəmov A.M., Qasımov A.M., Məmmədov R.F., Rüstəmov İ.Ə., Səməndərov F.Y., Əliyev Ə.İ., Həsənalıyev Z.M., Əliyeva K.R.**

B.310.30.IV.1999

*© «Bakı Universiteti Nəşriyyatı», 2019*

BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№1 Sosial-siyasi elmlər seriyası 2019

## HÜQUQ

UOT 321(091); UOT 342

# AZƏRBAYCANDA PARLAMENTARİZMİN FORMALAŞDIRILMASI VƏ İNKİŞAFININ TARİXİ-HÜQUQİ ƏSASLARI

**X.C.İSMAYILOV**
***Bakı Dövlət Universiteti***
***xayyam-ismail@mail.ru***

*Ötən əsrin əvvəllərində Rusiya imperiyasında baş verən inqilabi proseslər və nəticə etibarilə xalqa vəd edilən bir sıra hüquq və azadlıqların qanunvericiliklə təsbiti hakimiyyət təsisatlarının təkmilləşdirilməsi zərurətini ortaya çıxarmışdı. Yeni formalaşdırılan ali nümayəndəlik orqanı – Dövlət Duması (parlamentin aşağı palatası) ilk dəfə olaraq tərkib etibarilə əhalinin çoxsaylı müxtəlif təbəqələrinin təmsilçiliyi əsasında fəaliyyət göstərməyə başlamışdı. Dumanın işində fəal iştirak edən azərbaycanlı deputatların burada müəyyən təcrübə toplamaları sonradan ilk respublikanın hakimiyyət təsisatlarının normal fəaliyyətinin təmin edilməsində mühüm rol oynamışdı. Bütövlükdə götürdükdə, Azərbaycan ərazisində parlamentizm ənənələri ilkin olaraq ilk Cümhuriyyətin zamanında formalaşdı. Məqalədə ilk respublika dövründə ali nümayəndəli hakimiyyət təsisatlarının təşkili və fəaliyyətinin hüquqi tənziminə diqqət çəkilir, ilk parlamentin tərkibinə daxil olan siyasi qüvvələrin nisbəti, bütövlükdə bu ali təsisatın fəaliyyətinin ayrı-ayrı aspektləri təhlil olunur.*

**Açar sözlər:** Məclisi-məbusan, qanunvericilik aktları, siyasi partiyalar, deomkratik təsisatlar, hüquqi dövlət, seçki hüququ, hakimiyyətlər bölgüsü, reqlament.

Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının hüquqi əsasını təşkil edən və onun ilk konstitusion-hüquqi sənədi olan «İstiqlal Bəyannaməsi»nin məzmununda digər mühüm prinsiplərlə yanaşı, başlıca olaraq demokratik rejimli parlament respublikası idarəçilik formasının yaradılmasının təsbiti ilə parlamentiçilik ənənəsinin təməli qoyulmuşdu. Buna rəğmən dövlət quruculuğu yolunda ilkin addımların atılmasına– hakimiyyət strukturlarının təşkili işinə başlanılmışdı. «İstiqlal Bəyannaməsi»nin sonuncu maddəsində göstərildiyi kimi, Müəssislər Məclisi çağırılana qədər Azərbaycanda ilkin dövrdə ali hakimiyyəti Cümhuriyyətin Milli Şurası və onun qarşısında hesabatlı olan Azərbaycan hökuməti təmsil edirdi. 44 nəfər üzvdən ibarət olan və ilk parlament kimi qəbul edilən Azərbaycan Milli Şurası iki mərhələdə fəaliyyət göstərmişdi. Birinci mərhələ 1918-ci il mayın 27-dən iyunun 17-dək davam etmişdi. 20 günlük ilkin fəaliyyəti dövründə 7 iclas keçirmiş Milli Şura bir sıra mühüm qərarlar qəbul etmişdi. Bunların içərisində Azər-

baycanın istiqlalının elan edilməsi və İstiqlal Bəyannaməsinin qəbulunu, Azərbaycan hökumətinin ilk iki kabinetinin formalaşdırılmasını, respublika quruluşunun bərqərar edilməsi üçün müvafiq şəratin yaradılmasını özündə ehtiva edən qərarları göstərmək olar. Onu da qeyd etmək lazımdır ki, Milli Şuraya daxil olan nümayəndələr ümumi seçki əsasında seçilmişdilər, digər tərəfdən parlamentli idarə üsuluna müvafiq olaraq, hökuməti yaratmaq funksiyasını öz üzərinə götürmüşdü və nəhayət, Milli Şuranın qərarı ilə yaradılan hökumətə Milli Şura üzvləri də daxil edilmişdi.

Milli Şuranın fəaliyyətinin ikinci mərhələsi 1918-ci il noyabrın 16-dan dekabr ayının 7-dək olan dövrü əhatə edir. Ötən zaman ərzində məlum hadisələr ucbatından Azərbaycanın ali hakimiyyət orqanı olacaq Müəssislər Məclisinin çağırılmasının mümkün olmadığı (bu ali nümayəndəli orqanın formalaşdırılması ilə bağlı müvafiq qanun layihəsinin işlənilib hazırlanması üçün hökumət tərəfindən 1918-ci il sentyabrın 14-də yaradılmış və oktyabın 21-də tərkibi genişləndirilmiş komissiyaların fəaliyyətlərinin praktiki olaraq effektiv nəticə verməməsi ucbatından) Milli Şura tərəfindən etiraf edilmişdi. Bəzi nümayəndələrin fevral çevrilişindən sonra Rusiya demokratik hökuməti tərəfindən 1917-ci ilin sentyabrında qəbul edilmiş «Müəssislər Məclisinə seçkilər haqqında Əsasnamə»nin Azərbaycanda tətbiq olunmasının mümkünlüyü ilə bağlı fikirlər səsləndirmələrinə baxmayaraq, Azərbaycanın yerli şəraitinin tamam fərqli olması, mövcud ictimai-siyasi gerçəkliklər nöqteyi-nəzərindən belə yanaşmanın düzgün olmadığı qənaətinə gəlinmişdi. Eyni zamanda yeni qanunun işlənib hazırlanmasına, hətta ən intensiv iş rejimi şəraitində komissiya tərəfindən ən azı iki ay lazım gələcəyini, bundan əlavə nisbətən sadə, amma uzunmüddətli texniki işlər - əhalinin siyahıya alınması, yerli seçki komissiyalarının təşkili, bu komissiyaların müvafiq materiallarla təmin olunması və s. üçün daha iki ay vaxtın tələb olunduğu bildirilmiş və məhdud tərkibdə müvəqqəti də olsa fəaliyyət göstərmənin qarşıya qoyulmuş vəzifələrin yerinə yetirilməsi baxımından əlverişsizliyi ilə əlaqədar olaraq müvəqqəti Parlamentin təşkil olunması qərara alınmışdı. Beləliklə, 19 noyabr 1918-ci ildə keçirilən ikinci iclasında Milli Şura tərəfindən «Azərbaycan Parlamentinin yaradılması haqqında» qanun qəbul edilmişdi (6, 325).

Müvəqqəti Parlamentin yaradılması müxtəlif dövlət-hüquqi problemlərin həlli ilə əlaqədar həyata keçirilməli olan siyasi-hüquqi islahatların müvafiq qanunvericilik bazasının yaradılması nöqteyi-nəzərindən olduqca vacib idi. Ali qanunverici və nümayəndəli orqanın sürətli bir şəkildə formalaşdırılmasına olan ehtiyac həm bu, həm də digər səbəblərlə müşayiət olunurdu. Həmin səbəblərin içərisində ilk növbədə parlamentin istənilən demokratik ölkədə, respublika üsul-idarəsinin tətbiq olunduğu sistemdə ən vacib element olduğunu və parlamentin xalqla dövlət arasında birbaşa əlaqə, xalqın dövlətin idarə olunması prosesinə üfüqi və şaquli təsir göstərməsi mexanizmini özündə ehtiva etməsini göstərmək olar ki, bu da demokratiyanın başlıca şərti hesab olunur. Ali nümayəndəli orqanın Cümhuriyyətin hakimiyyətinin legitimləşdirilməsi və dövlət idarəetməsinin hüquqi bazasının yaradılması, habelə xalqın ən müxtəlif təbəqələrinin siyasi fəallığının artırıl-

ması yolu ilə onların dövlət idarəetməsinə cəlb olunması, xüsusən də o zaman üçün yetərincə beynəlmiləl tərkibə malik Bakı əhalisi arasında dini və milli harmoniyanın yaradılması, rus, yəhudi, polyak, alman, gürcü və erməni milli azlıqlarının ali qanunverici orqanda təmsilçiliyini təmin etmək yolu ilə etnik zəminli münaqişələrin baş vermə ehtimalının minimuma endirilməsi baxımından əhəmiyyəti şəksiz idi. Nəhayət, Cümhuriyyətin olduqca mürəkkəb beynəlxalq vəziyyəti ölkədə Avropa demokratiyası ilə möhkəm və sabit əlaqələr qurmaqla sonuncudan getdikcə artan rus-bolşevik təhlükəsindən qurtulmaq təminatı ala biləcək geniş tərkibli və əhatəli bir nümayəndəli orqanın formalaşdırılması prosesinin sürətləndirilməsini zəruri edirdi (8, 108-109).

Azərbaycan Xalq Cümhuriyyətinin dövlət-hüquqi problemlərindən, burada başlayan milli-demokratik dövlət quruculuğu proseslərindən danışarkən xarici təsirlər faktorunun mütəmadi qabardılması, bu amilə xüsusi önəm verilməsi heç də təsadüfü deyil. Cünki ölkənin taleyi həlledici dərəcədə regiondakı geopolitik proseslərin və iri dövlətlərin siyasi maraqlarının təmin olunmasına yönələn hadisələrin hansı məcrada gedəcəyindən, bolşevik Rusiyasının və Antanta üzrə müttəfiqlərin tutduğu mövqelərdən asılı idi. Yəni xarici təsirlər amili o dövrdə Azərbaycan Cümhuriyyəti ilə yanaşı, ümumən bütün Qafqaz regionu üçün başlıca faktorlardan sayılırdı.

Azərbaycanda fəaliyyət göstərmiş türk qoşunları komandanlığı Azərbaycan Cümhuriyyətinə sırf milli maraqlar nöqteyi-nəzərindən yanaşırdısa, onları məlum sülh müqaviləsindən sonra ölkəmizdə əvəz edən ingilislər əsasən siyasi maraqları üstün tuturdu. Onları müstəqil bir milli dövlətin, elə Qərb demokratiyasının gözü qarşısında daşnak-bolşevik təcavüzünə məruz qalan azadlıqsevər bir xalqın taleyindən daha çox Cümhuriyyətin, burada yaradılan hakimiyyət təsisatlarının nə dərəcədə demokratik, legitim olması, Qərb demokratiyasının standartlarına hansı səviyyədə cavab verməsi məsələsi daha çox maraqlandırırdı. Bütün bunlar isə Cümhuriyyətdə milli hakimiyyətin legitimləşdirilərək onun Qərb demokratiyasına uyğunlaşdırılmasını, respublikada hakimiyyət bölgüsünün rəsmiləşdirilməsini təxirəsalınmaz məsələyə çevirirdi. Cümhuriyyətin rəhbərliyi də bunu hələ xeyli əvvəl – 1918-ci ilin sentyabr-oktyabr aylarında başa düşürdü ki, ölkədə ali qanunverici orqan kimi parlamentin yaradılması, hakimiyyət bölgüsünün aparılması, xalqın ən geniş təbəqələrinin ölkənin siyasi idarəçiliyi prosesinə cəlb olunması ölkənin beynəlxalq aləmdəki nüfuzunun yüksəlməsinə, onun demokratik imicinin formalaşmasına, ölkə daxilində siyasi, sosial-iqtisadi və hüquqi münasibətlərin inkişafına əməli yardım göstərəcək. Dövlət quruculuğu prosesinin ləngiməsi Cümhuriyyətin xeyrinə deyildi.

Bu baxımdan Azərbaycan Parlamentinin təşkili ilə bağlı qəbul edilən qanun yalnız hüquqi deyil, həm də siyasi baxımdan mühüm əhəmiyyət kəsb edirdi. Qanunda göstərildiyi kimi, Azərbaycanda yalnız türklər deyil, digər millətlər də yaşadığından onların da parlamentdə nümayəndəliyi Azərbaycan Cümhuriyyəti əhalisinin milli tərkibinə proporsional şəkildə olmalıdır. Parlamentdə müxtəlif siyasi partiyaların nümayəndələrindən başqa, içtimai təşkilatların və əyalətlərdən

seçilən nümayəndələrin də iştirakı vacib sayılırdı.

Ali qanunvericilik hakimiyyətini həyata keçirən bir orqan kimi Parlament yarandığı gündən dövlətin siyasi sisteminin formalaşmasında mühüm rol oynayırdı. Onun təşkili bilavasitə Ümumrusiya Müəssislər Məclisinə nümayəndələrin seçilməsində ifadə olunan xalq iradəsi ilə sıx bağlı idi. Parlamentin təşkili qaydasını müəyyən edən qanunla bərabər nümayəndəlik, ümumi və gizli seçki hüququ təsbit edilmiş, istisnasız bütün vətəndaşlara, o cümlədən də müsəlman aləmində ilk dəfə olaraq qadınlara da seçki hüququ verilmişdi. Bunu həmin qanunda əks etdirilmiş və qanunverici orqanın ölkənin bütün əhalisini təmsil etməli, habelə bütün xalqın iradəsini ifadə etməli olmasını nəzərdə tutan müddəanın mahiyyətindən də görmək olar.

Azərbaycan Cümhuriyyətinin birpalatalı parlamenti 120 nümayəndədən ibarət olmalı idi. Həmin yerlər Milli Şuranın üzvləri (44 nəfər), milli azlıqların səlahiyyətli milli orqanlarının göndərdiyi nümayəndələri, kooptasiya yolu ilə daxil edilmiş müsəlman milli komitəsinin üzvləri və şəhər bələdiyyələrinin müsəlman müvəkkilləri, həmkarlar ittifaqlarının, neft sənayeçiləri şurasının və ticarət-sənaye ittifaqının üzvləri arasında bölüşdürülmüşdü. Belə ki, Parlamentdə 80 yer azərbaycanlılara, 21 yer ermənilərə, 10 yer ruslara, hərəyə bir yer almanlara, yəhudilərə, gürcülərə və polyaklara, 3 yer həmkarlar ittifaqına və 2 yer neft sənayeçilərinə və ticarət sənaye ittifaqına ayrılmışdı (6, 326). Göründüyü kimi, Cümhuriyyətin çoxmillətli tərkibi tam olaraq nəzərə alınmışdı. Həmin dövrdə mili azlıqda qalan xalqların hüquqlarına belə münasibəti qonşu ölkələrdə müşahidə etmək belə mümkün deyildi.

Parlament milli nümayəndəlik və çoxpartiyalılıq əsasında qurulmuşdu. Həmin dövrdə Azərbaycanda fəaliyyət göstərən bütün siyasi partiyalar, ictimai təşkilatlar ali nümayəndəli orqanda təmsil olunurdular. Parlamentin yaradılması ilə bağlı qanunun qəbulu Azərbaycanda olduqca gərgin siyasi vəziyyətə təsadüf etmişdi. Hələ dövlətin yenicə formalaşmağa başladığı, hərbi və siyasi xarakterli, anarxiya vəziyyətini yaradan hadisələrin bir-birini əvəzlədiyi bir şəraitdə ümumi seçkilərin əsasında nümayəndəli orqanın təşkili praktiki baxımdan mümkün olmadığından müxtəlif milli və ictimai-siyasi təşkilatlardan deleqiya və kooptasiya üsulunu tətbiq etmək məcburiyyətində qalan (belə vəziyyət müvafiq şəraitdə yaranan bütün ölkələr üçün xarakterikdir) Cümhuriyyət özünün ali nümayəndəli orqanının formalaşdırılmasında ümumi və gizli seçki hüququ ilə (44 nəfər seçilmiş nümayəndə) yanaşı göstərilən sistemin də tətbiqinə yer vermişdi. Azərbaycan Parlamenti müvəqqəti qanunverici orqan kimi yaradılmışdı və onun əsas vəzifələrindən biri Müəssislər Məclisinə seçkilərin keçirilməsinin təşkili idi.

7 dekabr 1918-ci ildə AXC Parlamentinin ilk iclası keçirildi. Bəzi milli azlıqların və həmkarlar ittifaqının nümayəndələri Azərbaycan parlamentinin ilk iclasının açılışında iştirak etməmişdilər. Belə ki, Bakı Rus Milli Şurası Azərbaycandakı rus əhalisi adından danışmaq üçün heç bir mənəvi hüququ olmadığı halda parlamentdə iştirak etməmək barədə qərar qəbul etmiş və belə bir iddia ilə çıxış etmişdilər ki, Azərbaycan özünün müstəqilliyini elan etməklə «Vahid və

bölünməz Rusiya» ideyasına qarşı çıxmışdır. Bu baxımdan da guya Rus Milli Şurasının parlament və hökumətdə iştirakı «Azərbaycanın Rusiyadan ayrılması faktının tanınması» demək olardı və bu da Azərbaycanın beynəlxalq aləmdə tanınması işini asanlaşdırardı. Həmin şuranın qərarının öz nümayəndələrinin parlamentdə iştirakını müdafiə edən rus əhalisinin fikrini əks etdirməməsini bu toplumun digər bir təşkilatının – «Slavyan-Rus Cəmiyyəti»nin Azərbaycan Milli Şurasının sədrinə müraciət edərək bu cəmiyyətin nümayəndələrinin Azərbaycanda «ümumi dövlət quruculuğu işlərində iştirak etmək üçün» Parlamentə daxil olmalarına razılıq verməklə əlaqədar xahişnaməsindən də görmək olar. Özünün 5 nəfərlik nümayəndəsi ilə «Slavyan-Rus Cəmiyyəti»nin Azərbaycanın ali nümayəndəli orqanında təmsil olunmasından bir qədər sonra – 1919-cu il yanvar ayının 31-də Azərbaycandakı rus əhalisinin təzyiqi ilə Rus Milli Şurası da parlamentin işində iştirak etmək barədə qərar qəbul edir. Azərbaycandakı erməni təşkilatlarının nümayəndələri də ilk əvvəl Parlamentin işində iştirak etməkdən boyun qaçırsalar da, bu orqanın fəaliyyətə başlamasından iki ay sonra onun işində iştiraklarını məqbul hesab etmiş və hətta Parlament daxilində «erməni» və «daşnaksütyun» fraksiyalarını da yaradırlar. Onu da qeyd etmək lazımdır ki, ermənilərin həmin dövrdə Azərbaycan Parlamentində iştirak etmələrinin başlıca səbəbi Azərbaycan dövlətçiliyinin formalaşmasına, Azərbaycanın sosial-iqtisadi, mədəni və hüquqi baxımdan inkişafına xidmət göstərmək üçün deyil, özlərinin şovinist separatçı «Böyük Ermənistan» xülyalarının təbliği məsələlərinə yeni bir tribuna əldə etmək idi.

Parlamentin ilk tədbirlərindən birincisi özünün fəaliyyətə başlaması münasibəti ilə siyasi dustaqlara amnistiyanın verilməsi ilə əlaqədar beş nəfərdən ibarət xüsusi komissiyanın yaradılması, digəri isə səlahiyyətli nümayəndələrin Beynəlxalq Paris Sülh Konfransına göndərilməsi ilə bağlı qərarları oldu. Xüsusən də Beynəlxalq Paris Sülh konfransına səlahiyyətli nümayəndələrin göndərilməsi haqqında qərar Azərbaycan Cümhuriyyətinin tanınması istiqamətində mühüm əhəmiyyətə malik idi. Həmin qərarla nümayəndə heyətinin üzərinə qoyulmuş əsas vəzifə Avropa və Amerikanın sivil dövlətlərinin ictimai fikrinin Azərbaycanın müstəqilliyinin tanınmasına əlverişli şəraitin yaradılması istiqamətində hazırlanması və bu ölkələrin işgüzar dairələri ilə kommersiya razılaşmalarının müəyyən edilməsindən ibarət idi. Parlamentin nümayəndə heyətinin tərkibinə sədr və ali qanunverici orqanın 8 üzvü daxil idi. Bunlardan başqa, tərkibə 3 katib və 3 tərcüməçi də daxil idi. Nümayəndələrin tərkibi də çoxpartiyalılıq əsasında qurulmuşdu, yəni burada müsavatçılarla yanaşı, hümmətçilərin, sosialistlərin, ittihadçıların və bitərəflərin nümayəndələri də yer almışdı (8, 113).

Fəaliyyətə başladığı ilk gündən öz işlərini demokratik dövlətlərə xas olan təşkilati prinsiplər üzərində quran Parlamentin strukturunda müxtəlif siyasi qruplar təmsil olunurdular. Parlamentin yaradılması haqqında qanuna əsasən Parlamentdə 120 deputat yeri nəzərdə tutulsa da, bu ali orqan 11 fraksiya və qrupdan ibarət olan 97 nümayəndə ilə təmsil olunmuşdu. Bir sıra mənbələrdə parlamentin işində iştirak edən üzvlərin sayı ilə bağlı müxtəlif rəqəmlər (85, 94, 96 və s.) gös-

tərilir ki, bu da bəzi yerlərdə seçkilərin (nümayəndələrin deleqiyası və ya kooptasiyası) başa çatmaması, Naxçıvan və Borçalının talelələrinin qeyri-müəyyənliyi nəticəsində həmin bölgələrdən nümayəndələrin deleqiya oluna bilməməsi, rus və erməni şuralarından üzvlərin parlamentə gec qatılmaları ilə şərtləndirilirdi.

Parlamentdəki siyasi partiyaların və qurumların nisbətinə nəzər saldıqda «Müsavat və bitərəflər fraksiyası»nın 38 nəfərlə, «İctihad» partiyasının 13 nəfərlə, «Əhrar»ın 6 nəfərlə, «Hümmət» və «Müsəlman sosialistlər bloku»nun 13 nəfərlə, heç bir partiyaya daxil olmayan qrupun 3 nəfərlə, müstəqillərin 4 nəfərlə, «Slavyan-Rus Cəmiyyəti»nin 5 nəfərlə, erməni fraksiyasının 5 nəfərlə, «daşnaksütyun» fraksiyasının 6 nəfərlə, azlıqda qalan millətlər fraksiyasının 4 nəfərlə təmsil olunduqlarını görmək olardı. Azərbaycan parlamentin ilk iclaslarında onun işində iştirak edən partiya fraksiya və qrupları öz fəaliyyət proqramları haqqında bəyanatlar vermişdilər. Bu bəyanatlarda ümumi məqsəd olaraq qarşıya qoyulan vəzifələr «İstiqlal Bəyannaməsi»ndə əks etdirilən müddəalarla səsləşirdi və əsasən gənc Azərbaycan Cümhuriyyətinin müstəqilliyi və ərazi toxunulmazlığının, milli və siyasi hüquqların qorunması, Azərbaycan xalqının və hökumətinin digər xalqlar və hökumətlərlə, xüsusən də qonşu dövlətlərlə dostluq əlaqələrinin yaradılması və möhkəmləndirilməsi, respublikada hüquqi demokratik dövlət quruluşunun bərqərar edilməsi, geniş və hərtərəfli sosial-iqtisadi və mədəni-hüquqi islahatların həyata keçirilməsi, ölkəni xarici basqılardan müdafiə etmək iqtidarında olan ordunun təşkili və s.dən ibarət idi. Buna rəğmən özünün təşkilində müxtəlif obyektiv faktorlardan qaynaqlanan xırda çatışmazlıqlara baxmayaraq Azərbaycan Xalq Cümhuriyyətinin Parlamenti özünün fəaliyyətini demokratik prinsiplər üzərində qurmuşdu və bu prinsiplər öz dövlətinin milli və siyasi hüquqlarının mühafizə edilməsini, onun müstəqilliyinin qorunmasını; demokratizmi; çoxpartiyalılığı və plüralizmi; milliyyətindən dini etiqadından asılı olmayaraq bütün vətəndaşların maraqlarının müdafiəsini; xalqların həmrəyliyini, eləcə də «İstiqlal Bəyannaməsi»ndə nəzərdə tutulan digər prinsipləri əhatə edirdi.

Əvvəlki dövrün tarixi-hüquqi ədəbiyyatında Azərbaycan Xalq Cümhuriyyətinin Parlamentinin «qeyri-demokratik, antimilli, irticaçı, müsavat hökuməti tərəfindən seçkisiz yaradılan və yalnız bir ideoloji xəttin daşıyıcısı olan» bir qurum kimi səciyyələndirilməsinə rəğmən, bütün tarixi sənədlərdə və xüsusən də müvafiq qanunvericilik aktlarında, parlamentin özünün steoqrafik hesabatlarında öz əksini tapmış faktlara istinadla bunun tam əksi göz önündə durur. Belə ki, demokratik seçki prosedurlarından keçmiş «Müsavat» partiya fraksiyası demokratik bitərəflər qrupu ilə birlikdə, demək olar ki, parlamentin, eləcə də hökumətin fəaliyyətinin əsas istiqamətlərini müəyyən etsə də, parlament iclaslarının snenoqrafik hesabatlarından da göründüyü kimi, bu ali orqanda əksəriyyət çoxluğu (lakin parlamentdəki yerlərin təxminən üçdə birinə malik olduğundan və ümumən say üstünlüyü olmadığından ayrı-ayrı məsələlərin çözülməsində həlledici qüvvə qismində də çıxış edə bilmirdi) təşkil etməsinə baxmayaraq «Müsavat» partiyası Cümhuriyyətin ümumi mənafeyini nəzərə alaraq digər fraksiya və qruplarla təmas və koalisiya şəraitində iş birliyi qurmuşdu (8, 115).

Özünü Azərbaycanda İttihadi-islam tərəfdarları hesab edən «İttihad» fraksiyası parlamentdə «Müsavat»dan sonra çoxluğu təşkil etmişdir. 1919-cu ilin dekabrına qədər, daimi olaraq hakim milli-demokrtaik cərəyana qarşı müxalifətdə olmuş və hökumət kabinetlərin təşkilində iştirakdan boyun qaçırmış bu fraksiyanın nümayəndələri parlamentdə öz fəaliyyətlərini hökumətin fəaliyyətinin tənqidi üzərində qurmuşdular. Parlamentdə bütün sosial-demokrat yönümlü nümayəndələri özündə birləşdirən, hümmətçiləri menşevikləri və eserləri əhatə edən sosialistlər bloku solçuluq istiqamətində fəaliyyət göstərən bir fraksiya idi. Bu fraksiya özünün fəaliyyətində fəhlə və kəndli təbəqələrinin hüquq və mənafelərinin müdafiəsini ön plana çıxarmaqla parlament tribunasından maksimum dərəcədə öz siyasi məqsədlərinin həyata keçirilməsinə nail olması üçün istifadə etmişlər. Onlar isqtisadi və sosial sahədə islahatların yalnız sosializm quruluşu şəraitində mümkün ola biləcəyəni təbliğ etmiş, bu baxımdan da Sovet Rusiyası ilə yaxınlaşmanı labüd hesab etmiş, yalnız Denikinin könüllülər ordusu tərəfindən Azərbaycana qarşı təhlükə yarandığı anda bu fraksiyanın nümayəndələri milli partiyalarla eyni mövqedən çıxış etməyə məcbur qalmışdılar.

Parlamentdə Əhrar partiyasının fraksiyası əsasən kəndlilərin mənafelərinin müdafiəçisi kimi çıxış etmiş, özünün siyasi baxışları nöqteyi-nəzərindən digər parlamentdaxili siyasi qüvvələrdən daha çox «Müsavat»a və başqa mili qüvvələrə yaxın olmuşlar. Ali nümayəndəli orqanda təmsil olunan erməni və «daşnaksütyun» fraksiyaları Azərbaycan parlamentində Ermənistan Ararat Respublikası və ermənilərin Azərbaycana qarşı ərazi iddialarına haqq qazandırmaq mövqeyindən çıxış edir, həmçinin bir sıra sosial-iqtisadi xarakterli məsələlərin müzakirəsində özlərinin siyasi məqsədlərinin təmin olunması baxımından «xüsusi fəallıq» nümayiş etdirirdilər.

Parlamentin tərkibi aşağıdakı kimi formalaşdırılmışdı: 1) Azərbaycan Parlamentinin Rəyasət heyəti – sədr, sədrin birinci müavini, sədrin müavini, parlamentin baş katibi və katiblər; 2) fraksiyalar və qruplar. Bütün hakimiyyətin parlamentə təhvil verilməsi ilə əlaqədar hökumətin istefası parlamentin qərarı ilə qəbul edilmişdi, lakin yeni kabinetin təşkilinə qədər onun öz işini davam etdirməsi tapşırılmışdı. Dekabrın 26-da yeni hökumət kabinetinin proqramı və hökumətin tərkibi barədə məruzə parlamentdə dinlənildikdən sonra geniş müzakirələr aparılmış və yeni üçüncü hökumət kabinetinin tərkibinə etimad göstərilir.

Azərbaycan Parlamenti çox gərgin siyasi şəraitdə fəaliyyət göstərməsinə baxmayaraq, hüquqi dövlətin əsas prinsiplərindən olan hakimiyyətlər bölgüsü prinsipini tətbiq etdi. 1919-cu il yanvarın 25-də Parlament həmin prinsipi rəhbər tutaraq parlamentin üzvü seçilmiş şəxslərin (nazirlər istisna olmaqla) dövlət idarə və müəssisələrində xidməti vəzifələrdən azad olunmalarını müəyyən edən «Dövlət xidməti ilə Parlament üzvlüyünün bir araya sığmaması haqqında» xüsusi qanun (14, 21; 4, 29.01.19, №19) qəbul etdi. Bu qanun qanunvericilik hakimiyyətinin icra hakimiyyətindən tam ayrı olmasını nəzərdə tuturdu.

Həmin məsələ ilə bağlı müzakirələr hələ yanvarın əvvəllərində başlanmışdı. Parlament uzun müzakirələrdən sonra «Müsavat»ın təklif etdiyi qanun layihə-

sini məqbul saymışdı. Parlamentin qərarı ilə qanunverici və icraedici hakimiyyətin bölünməsi prinsipinə uyğun olaraq parlament üzvünün dövlət orqanlarında işləməsi qadağan edildi. Dövlət qulluğunda işləyən parlament üzvü bir neçə gün ərzində iki vəzifədən birini seçib, parlamentin rəyasət heyətinə bildirməli idi. Həmin qanunla professorlar, müəllimlər, hüquq məsləhətçiləri, həkimlər və digər bu kimi dövlət qulluğunda olsalar da, hökumət məmurları sayılmayan, yəni inzibati funksiyaların daşınması ilə əlaqədar olmayan işlərdə çalışan azad peşə sahibləri üçün istisna nəzərdə tutulurdu.

Qanunda müəyyən edilmiş müddətlərdə (Bakıda yaşayanlar üçün üç gün, paytaxtın hüdudlarından kənarda yaşayanlar üçün isə 10 gün müddətində) özlərinin dövlət qulluğundan istefa vermələri ilə bağlı Parlamentin İdarəetmə Heyətinə məlumat verməyən şəxslər dövlət qulluğuna üstünlük verilmiş sayılır və Parlamentin tərkibindən çıxarılmış hesab olunurdular. Parlamentdə bu qanunun müzakirəsi zamanı onun əsas qayəsinin qanunvericilik hakimiyyətinin icra hakimiyyətindən ayrılması barədə demokratik yanaşmanın olduğu bildirilmiş və qeyd edilmişdi ki, «hüquqi dövlətin despotik dövlətdən fərqi hakimiyyətin heç də bir şəxsdən bir neçə şəxsə keçməsində ifadə olunmur. Hakimiyyətlərin bölgüsü sisteminin olmaması zamanı çoxsaylı insanların əllərində cəmlənən hakimiyyət despotiyaya daha çox yol açır. Hüquqi dövlətin əsası hakimiyyətin qanunverici, icraedici və məhkəmə hakimiyyətlərinə bölgüsünə söykənir» (4, 29.01.19, №19). Onu da qeyd etmək lazımdır ki, həmin qanunun icrası Parlamentin diqqət mərkəzində idi və onun müddəaları dəqiq şəkildə reallaşdırılırdı. Belə ki, qanunu tələblərinə uyğun olaraq Xalq Təhsili Nazirliyinin işçisi, Parlamentin üzvü seçilmiş S.M.Qəniyev tutduğu vəzifədən istefa vermiş və Parlament üzvlüyündə qalmışdı və yaxud Təftiş-İstintaq Komissiyasının üzvü B.Rzayev Parlamentin üzvü seçilməsi ilə əlaqədar tutduğu vəzifəni tərk etmişdi (4, 30.01.19, №21; 25.06.19, №130).

Parlamentin praktiki fəaliyyətinə nəzər saldıqda adı çəkilən qanunun göstərişlərinin gözlənilməsini daim müşahidə etmək olar. Bununla belə, hakimiyyətlərin bölgüsü prinsipi dövrün imkanları çərçivəsində həyata keçirilir, bir sıra hallarda, xüsusən də hərbi və fövqəladə vəziyyətdə müəyyən istisnalara yol verilirdi. Belə ki, Parlamentin fəaliyyətinin ilk dövrləri üçün hökumət kabinetinin üzvləri – nazirlər üçün parlament üzvlüyü məsələsində müəyyən istisnalara yol verilməsi dövləti maraqlardan və zərurətdən (parlamentdəki qüvvələr nisbəti, dövrün siyasi situasiyası, habelə hökumətin partiya koalisiyası prinsipi əsasında qurulması və s.dən) qaynaqlanan hal sayılmışdı. Məhkəmələrin təşkili və fəaliyyətində də eyni halı müşahidə etmək olar.

Haqqında danışılan qanundan bir qədər əvvəl – 1919-cu il yanvarın 16-da qəbul edilmiş «İştirak etməyən deputatlar haqqında» qanunla Parlamentin birinci iclasından – 7 dekabr 1918-ci il tarixdən başlayaraq ay yarım ərzində iclaslara gəlməyən və iştirak etməməsinin səbəbləri haqqında məlumat verməyən şəxslər Parlamentin tərkibindən çıxmış hesab olunurdular. Sonrakı dövrdə isə iki həftə müddətində işə çıxmayan və Parlamentin Rəyasət heyətinə bununla əlaqədar heç bir məlumat verməyən millət vəkilləri Parlament üzvlüyündən çıxarılırdılar. Par-

lamentdən çıxarılanların yerinə onların mənsub olduğu müvafiq partiya və təşkilatdan yeni üzvlər (kooptasiya yolu ilə) seçilirdi (8, 118-119).

Parlamentin və onun orqanlarının fəaliyyət qaydası 17 mart 1919-cu il tarixində qəbul edilmiş 200 bənddən ibarət «Azərbaycan Parlamentinin Təlimatı» (Reqlamenti) ilə müəyyən edilirdi. Bu hüquqi aktda ali nümayəndəli orqanın iclaslarının keçirilmə qaydası, gündəlikdə duran məsələlərin baxılması və həlli proseduru, qanunverici orqanın komissiyalarının təşkili və iş qaydası, rəhbər vəzifələrə seçkilərin keçirilməsi qaydası, parlament üzvlərinin hüquqi statusu, Parlamentin Rəyasət heyətinin tərkibi və səlahiyyətləri və s. məsələlər tənzimlənirdi. Reqlamentə görə parlamentin iclasları müəyyən olunmuş qaydalara görə, həftədə iki dəfə - bazar ertəsi və cümə axşamı keçirilirdi (6, 327).

Azərbaycan Parlamentində məsələlərə ilkin baxılması onun komissiyaları tərəfindən həyata keçirilirdi. Qanunvericiliyin ayrı-ayrı sahələri üzrə qanun layihələrinin hazırlanması və eyni növlü məsələlərə baxılması üçün daimi komissiyalar, ayrı-ayrı qanunvericilik layihələrinin və ya məsələlərin Parlamentdə baxılmağa hazırlanması üçün isə müvəqqəti komissiyalar yaradılmışdı.

Parlamentdə 12 komissiya – mandat, reqlament, təsərrüfat, maliyyə-büdcə, redaksiya, sorğu, fəhlə məsələləri üzrə, aqrar, hərbi işlər, qanunvericilik təklifləri üzrə, məhsuldar qüvvələrdən istifadə üzrə və Müəssislər məclisinin çağırılması üzrə komissiyalar fəaliyyət göstərirdi. Komissiyalara üzvlər 10 nəfərdən az üzvü olan fraksiyalardan bir nəfər, 10 nəfərdən çox üzvü olan fraksiyalardan isə hər 10 nəfərə bir nəfər olmaqla qəbul edilirdi (bu zaman 5 nəfərdən çox qalıq olduqda onlara görə əlavə bir nəfər də ayrılırdı). Parlamentin «Təlimatı»na əsasən, bu ali hakimiyyət orqanının cari məsələlərinin həlli məqsədi ilə sədrdən, müavindən və katiblərdən ibarət tərkibdə yaradılmış və Parlament iclaslarının gedişatını izləyən və təşkilati məsələləri həll edən Rəyasət heyəti fəaliyyət göstərirdi. Bu qurum gündəlikdə duran məsələləri Parlamentin təsdiqinə çıxarır, Parlament üzvlərinə məzuniyyətin verilməsi, onların iclaslarda iştirak edib-etməməsi, dəftərxana qulluqçularının işə qəbulu və işdən azad edilməsi və s. kimi məsələlərə baxırdı.

1920-ci ilin əvvəllərində Rəyasət heyətinin tərkibi yenilənmişdi. Parlamentin sədri tərəfindən formalaşdırılan Rəyasət heyəti ilə yanaşı, ali qanunverici orqanın cari işlərini həm də Senyoren-konvent adlanan sədr, müavin, katiblər və fraksiyaların sədrlərindən ibarət bir daimi orqanın da idarə etməsi barədə fikirlər də yürüdülür. Əslində isə adı çəkilən orqan binagüzarlıq xarakteri daşıyan məsələlərlə məşğul olmur və daha çox siyasi partiyalar arasında mühüm məsələlər üzrə razılaşmanın əldə olunması məqsədilə parlament fraksiyalarının sədrlərindən ibarət olmaqla yaradılmışdı.

Parlamentin istifadə etdiyi dil dövlət dili statusuna malik Azərbaycan türkcəsi idi. Bütün rəsmi sənədlərin hamısı dövlət dilində tərtib edilirdi. Bunu «Azərbaycan» qəzetində dərc olunmuş və bütün müəssisə və təşkilatlara Parlamentə və onun dəftərxanasına ünvanlanan bütün müraciətlərin yalnız dövlət dilində ifadə olunmasını nəzərdə tutan Parlament dəftərxanasının bəyanatından da görmək olar. Həmin bəyanatın mətnindən də aydın olur ki, Parlamentə göndərilən və dövlət

dilində yazılmayan bütün sənədlər baxılmamış, nəticəsiz qalacaqdır (4, 03.03.19, №47). Bununla belə, digər millətlərin nümayəndələrinin Parlament iclaslarında rus dilində çıxış etmələri ilə bağlı irəli sürdükləri təklif iclasların birində xüsusi olaraq müzakirə olunmuş və nəticədə qəbul edilmiş qərara əsasən, digər millətlərin nümayəndələrinə rus dilində çıxış etmələri üçün şərait yaradılması məqsədəuyğun hesab olunmuşdu.

Azərbaycan Parlamenti öz mövcudluğu ərzində 140-a qədər ümumi iclas keçirmişdir. Həmin iclasların bir neçəsi əlamətdar hadisələrə, yubileylərə, fövqəladə halların müzakirəsinə həsr olunmuş, 10-dan artıq iclas isə kvorumun olmaması baxımından baş tutmamışdı. Qalan iclasları Parlament özünün bilavasitə funksiyalarının həyata keçirilməsinə həsr etmişdi. Həmin iclaslarda ölkənin daxili və xarici siyasəti, iqtisadiyyat və maliyyə məsələləri, qanunvericilik aktlarının müzakirəsi və qəbulu, ordu quruculuğu və sair məsələlər müzakirə olunmuşdur. Parlamentdə müzakirə olunan qanunlar bir qayda olaraq yalnız üçüncü oxunuşdan sonra qəbul olunurdu.

Qəbul edilən bütün qanun və qərarlar ilk müstəqil dövlətin hüquqi aktları kimi mühüm əhəmiyyətə malik idi. Lakin Parlament tərəfindən qəbul edilən və tənzimlədiyi məsələlərin dairəsi, sosial-mədəni məsələlərin həlli, dövlətin gələcək inkişafı baxımından xüsusi əhəmiyyət kəsb edən qanunları əlahiddə qeyd etmək lazımdır ki, bunların da Azərbaycan Cümhuriyyətinin gələcək fəaliyyət istiqamətlərinin müəyyən edilməsində mühüm rolu danılmazdır. Onların arasında vətəndaşlıq haqqında, ümumi hərbi mükəlləfiyyət haqqında, mətbuat haqqında, Milli Bankın təsisi, Bakı Dövlət Universitetinin yaradılması, gömrük və poçt-teleqraf xidmətinin təşkili və təkmilləşdirilməsi haqqında, məhkəmələrin, digər hüquq mühafizə təsisatlarının, yerli özününidarəetmə orqanlarının təşkili və fəaliyyət qaydası haqqında və s. qanunvericilik aktlarını nümunə qismində göstərmək olar.

Parlamentin öz fəaliyyəti zamanı ən çox diqqət yetirdiyi mühüm məsələlərdən biri də ordu quruculuğu olmuşdur. Ölkənin siyasi müstəqilliyinin və ərazi bütövlüyünün qorunub saxlanılması üçün güclü ordunun yaradılması ehtiyacını Parlament üzvləri hamıdan yaxşı dərk edirdilər və bu baxımdan ali nümayəndəli orqanda ordu quruculuğuna dair qanunvericilik aktlarının müzakirəsi, demək olar ki, mübahisəsiz və ümumi razılıq əsasında keçirilir və qəbul olunurdu. Parlamentin fəaliyyətində ölkədə xalq maarifinin inkişafı məsələlərinə geniş yer verilirdi.

Tədris və teatr-tamaşa müəsisələrinin milliləşdirilməsi, yeni tədris müəssisələrinin açılması, orda dərs deyən müəllimlərin maddi vəziyyətinin yaxşılaşdırılması məsələsi daim Cümhuriyyətin Parlamentinin diqqət mərkəzində olmuşdur. Xüsusilə Bakı Dövlət Universitetinin açılıb-açılmaması məsələsi, demək olar ki, bir neçə ay müddətində Azərbaycan parlamentinin iclaslarında qızğın müzakirəyə səbəb olmuş və dəfələrlə bununla əlaqədar böyük mübahisələr ortaya çıxmışdı. Buna da səbəb universitetdə dərs demək üçün yüksək ixtisaslı hazırlıqlı milli kadrların olmaması səbəbindən universitetin rus dilində açılmasının nəzərdə tutulması idi. Bu işə, xüsusilə «İttihad», «Əhrar» partiyalarından olan nümayəndələr ciddi müqavimət göstərirdilər. Onlar universitetin rus dilində açılmasını Azərbay-

canda ruslaşdırma siyasətinin davam etdirilməsi kimi qəbul edirdilər (11, 23.05.98). «Müsavat», sosialistlər fraksiyalarını təmsil edən deputatlar isə universitetin rus dilində açılmasının heç bir təhlükə törətmədiyini qeyd edərək, bu ali təhsil ocağına daha çox azərbaycanlı tələbələrin cəlb edilməsinin, onların tərbiyə edilib milli kadrlar kimi yetişdirilməsindən sonra tədricən universitetdə tədrisin azərbaycanlaşdırılması prosesinə keçirilməsinin təmin olunmasının vacibliyini önə çəkirdilər.

Bütün bu müzakirələrin nəticəsində 1 sentyabr 1919-cu ildə «Bakı Dövlət Universiteti haqqında» qanun, 29 sentyabrda isə «Bakı Dövlət Universiteti»nin nizamnaməsi qəbul edilmişdi. Qanuna görə Universitetdə təhsil tarix-filologiya, hüquq, fizika-riyaziyyat, tibb fakultələrində aparılmalı idi. Universitetə ilk növbədə azərbaycan milliyyətindən olan qadınlar və kişilər qəbul olunurdular. Parlamentin 1 sentyabr 1919-cu il tarixli iclasında 1919-1920-ci tədris ili üçün 100 tələbənin xarici ölkələrin ali məktəblərinə təhsil almağa göndərilməsi üçün vəsait ayrılması qərara alınmışdı (8, 122).

Azərbaycan Cümhuriyyəti Parlamentinin qanunvericilik fəaliyyətinin həyata keçirilməsi, hökuməti və mərkəzi dövlət orqanlarını formalaşdırmaq, onların səlahiyyətlərini müəyyən etmək funksiyalarından başqa, bu və ya digər orqanın hesabatını dinləyib onlar haqqında müvafiq qərar qəbul etmək, eləcə də ali dövlət nəzarətini həyata keçirmək səlahiyyətləri də var idi. Müvəqqəti ali qanunverici orqanın – parlamentin iclaslarının xeyli hissəsi bu məsələlərə həsr edilmiş, mütəmadi olaraq daxili və xarici siyasət haqqında Hökumətin məruzələri dinlənilmiş, hətta bu barədə xüsusi qərarlar qəbul olunmuşdu. Belə ki, Azərbaycan Xalq Cümhuriyyətinin Paris sülh konfransında iştirak edəcək nümayəndələrinə ünvanlanmış Memorandumla onların qarşısında müvafiq tələblər qoyulurdu.

Həmin sənədin, eləcə də digər sənədlərin məzmunu ilə tanışlıqdan bəlli olur ki, bütün nazirliklərin, o cümlədən də Xarici İşlər Nazirliyinin, hərbi xidmətin bütün sahələrini əhatə edən və 50 minlik mütəşəkkil nizami ordu hissələrini özündə birləşdirən Hərbi Nazirliyin, inzibati, hüquqi, maliyyə, maarif, rabitə və s. sferalardakı dövlət institutlarının fəaliyyəti Parlamentin nəzarəti altında həyata keçirilirdi. Parlamentin fəaliyyət dairəsinə dövlət büdcəsinin təsdiq edilməsi, başqa dövlətlərlə bağlanmış bütün rəsmi sənədlərin ratifikasiya edilməsi də aid idi. Nümunə üçün deyək ki, Azərbaycan və Gürcüstan cümhuriyyətləri arasında bağlanmış və hər iki respublikanın ərazi bütövlüyünün və hüquqlarının birgə müdafiəsi haqqındakı Müqavilə 27 iyul 1919-cu il tarixində Parlament tərəfindən yekdilliklə təsdiq olunmuşdu.

Parlamentin həyata keçirdiyi mühüm fəaliyyət istiqamətlərindən biri də qaçqın və məcburi köçkünlərə yardım və səhiyyə məsələləri idi. 1919-cu ilin əvvəllərində Zəngəzurda müsəlmanlara qarşı törədilən qəddarlıqların nəticəsində həmin qəzanın dağlıq hissəsində məskunlaşmış 40 minə yaxın günahsız insan öz doğma yerlərini tərk etmək məcburiyyətində qalmışdılar. Bununla yanşı, Ermənistanda 1919-cu il ərzində baş verən hadisələr Azərbaycan ərazisində sığınacaq axtaran çoxsaylı müsəlman qaçqınların axınını gücləndirmişdi. Azərbaycan parla-

menti bu məsələlərlə əlaqədar özünün iclaslarında dəfələrlə qaçqınlar problemini müzakirəyə çıxarmış və müvafiq qərarlar qəbul etmişdi. Belə ki, Zəngəzur qaçqınlarına yardım məqsədilə 187,5 min manat, Ermənistanın müsəlman əhalisinə isə 3 milyon manat vəsaitin ayrılmasına qərar vermişdi. Qaçqınların vəziyyətinin yaxşılaşdırılması üzrə Parlament tərəfindən həyata keçirilən mühüm tədbirlərin içərisində Cümhuriyyətin əhali məskunlaşmamış ərazilərində qaçqın və məcburi köçkünlərin yaşamaları üçün daimi məskənlərin salınması məqsədilə 21 milyon manat vəsaitin ayrılmasını göstərmək olar (8, 123-124).

Səhiyyə sahəsində görülən tədbirlərə gəldikdə isə, Parlament tərəfindən yalnız 1919-cu il boyu səhiyyə ilə bağlı səkkiz qanunvericilik aktı qəbul edilmişdi. Həmçinin Zəngəzurun kəndlərində yoluxucu xəstəliklərlə mübarizə məqsədilə 12 epidemik dəstənin yaradılması haqqında 26 fevral 1920-ci il tarixli Parlament qərarının əsasında burada qeyd olunan tədbirlərin realizəsi üçün Səhiyyə Nazirliyinə dörd milyon manatdan artıq vəsait ayrılmışdı (4, 06.03.20). Bununla yanaşı, Parlamentin bu sahədə qəbul etdiyi qərarlarla Cümhuriyyət əhalisinin dərman preparatları ilə təminatını yaxşılaşdırmaq məqsədilə vəsaitlərin ayrılması da nəzərdə tutulurdu.

Azərbaycanın beynəlxalq hüquqi əlaqələrinin inkişafı baxımından Parlamentin atdığı addımlar təqdirəlayiqdir. Müxtəlif ölkələrlə bağlanmış beynəlxalq hüquqi sənədlərin ratifikasiyası ilə yanaşı, bu ali hakimiyyət orqanı xarici ölkələrdə Cümhuriyyətin diplomatik nümayəndələrinin təşkili və onların fəaliyyətinin təmini istiqamətində də bir sıra tədbirlər həyata keçirmişdi. Belə ki, Azərbaycanın müstəqilliyi Antanta Ali Şurası tərəfindən tanındıqdan sonra Hökumətin hazırladığı «Qərbi Avropada, Amerikada və Sovet Rusiyasında Azərbaycan Cümhuriyyətinin diplomatik missiyalarının yaradılması və Paris sülh konfransındakı Azərbaycan nümayəndəliyinin ləğv edilməsi haqqında qanun layihəsi Parlament tərəfindən müzakirə olunaraq qəbul edildi (1, f.895, siy.3, iş 314, v.45).

22 aprel 1920-ci il tarixində təsdiq olunmuş bu qanunla həmin ilin aprelin 1-dən etibarən Fransa, Böyük Britaniya, İsveçrə, İtaliya, Amerika Birləşmiş Ştatları, Almaniya, Rusiya və Polşada (Latviya, Litva, Estoniya, Finlandiya, Ukrayna, Rumıniya) Azərbaycan Xalq Cümhuriyyətinin diplomatik nümayəndələri təsis edilməli idi. Lakin bu tədbir də məlum səbəblər üzündən tam reallaşa bilmədi. Bununla belə, həmin qanunun qəbulunadək Azərbaycan hakimiyyəti bir sıra qonşu dövlətlərlə diplomatik əlaqələr saxlayır, onun səlahiyyətli diplomatik nümayəndələri və konsulları Gürcüstanda, Türkiyədə, İranda, Türküstanda və digər yerlərdə fəaliyyət göstərirdilər (8, 125).

Beləliklə, tarixi qaynaqlarda «parlaman», «Məclisi-məbusan» kimi adlandırılan Azərbaycan Parlamenti cəmi 17 ay fəaliyyət göstərsə də, yüksək işgüzarlıq qabiliyyətini nümayiş etdirməklə Azərbaycanda parlamentarizm ənənələrinin əsasını qoymuş oldu. AXC tipinə görə parlament respublikası olmaqla, xalqın geniş təmsilçiliyi prinsipinə və demokratizm ənənələrinə əsaslanırdı. Azərbaycan parlamentinin formalaşdırılması dövlət strukturlarının, bütövlükdə Azərbaycan Cümhuriyyətinin legitimləşdirilməsini, onun beynəlxalq aləmdə tanınmasını və beynəl-

xalq münasibətlərin subyektinə çevrilməsini təmin edirdi.

Müvəqqəti ali qanunvericilik orqanı kimi yaradılsa da, fəaliyyətinin ilk günlərindən etibarən Azərbaycan xalqının geniş təbəqələrinin iştirakına əsaslanmaqla onun istək və arzularını əks etdirən Parlament bilavasitə xalqın özü tərəfindən seçilərək formalaşdırılan ali nümayəndəlik orqanının təsis olunması işini özünün prioritet vəzifələrindən biri kimi gündəlikdə saxlayırdı. Müəssislər Məclisi adlandırılacaq bu təsisata seçkilərin demokratik əsaslarla keçirilməsi üçün uzun zamandan bəri hazırlıqlar aparılmışdı. Bu məqsədlə işlənib hazırlanmış və davamlı müzakirələrdən keçmiş «Azərbaycan Respublikasının Müəssislər Məclisinə seçkilər haqqında Əsasnamə» 1919-cu ilin iyulunda qəbul olunmuş, onun əsasında bu ali hakimiyyət orqanının formalaşdırılması üçün 1920-ci ilin aprel ayının əvvəllərindən geniş hazırlıq işlərinə başlınılmışdı.

Hələ mart ayının ortalarında Bakıda, Gəncədə, Qubada, Şamaxıda, Lənkəranda, Göyçayda, Şəmkirdə, Ərəşdə, Qazaxda, Cavanşirdə, Zəncəzurda, Cavadda, Şəkidə, Şuşada, Zaqatalada, Cəbrayılda, Şərurda, Naxçıvanda və digər şəhər və qəzalarda seçki komissiyaları yaradılmışdı. 15 aprel 1920-ci il tarixində «Azərbaycan» qəzetində Azərbaycan Müəssislər Məclisinə seçkilərin keçirilməsi üçün şəhər və kənd seçki məntəqələrinin bölgüsü ilə bağlı Mərkəzi Seçki Komissiyasının məlumatı dərc olunmuşdu (4, 15.04.20, №73). Aprel ayının 20-nə əhalinin siyahıya alınmasını təyin edən Mərkəzi Seçki Komissiyası bütövlükdə siyahıyaalmanı may ayının 5-dək başa çatdırmağı planlaşdırmışdı. Lakin ölkədə xarici təsirlərin fəallaşması və güclənməsi nəticəsində siyasi vəziyyətin gənginləşməsi, sonda daxili və xarici düşmən qüvvələrin təzyiqi altında Cümhuriyyətin qanuni hakimiyyət orqanlarının hakimiyyəti bolşeviklərə təhvil verməsi dövlət quruculuğu sahəsində nəzərdə tutulan mühüm tədbirlərin reallaşmasına imkan vermədi.

## ƏDƏBİYYAT


1. Azərbaycan Respublikasının Dövlət Tarix Arxivi (ARDTA), f.100, 894, 895, 2898.
2. Azərbaycan tarixi. 7 cilddə. 5-ci cild (1900-1920). Bakı: Elm, 2001, 672 s.
3. Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası. Bakı: Lider nəşriyyatı, 2 cilddə. I cild, 2004, 440 s.; II cild, 2005, 472 s.
4. «Azərbaycan» qəzeti, 1919, 29 yanvar, №19; 30 yanvar, №21; 3 mart, № 47; 25 iyun, №130; 1920, 6 mart; 15 aprel, №73;
5. Hüseyn Baykara. Azərbaycan istiqlal mübarizəsi tarixi. Bakı: Elm, 1992, 276 s. (İstambul, 1977), 254 s.
6. İsmayılov X.C. Azərbaycanın hüquq tarixi. Bakı: Elm və Təhsil, 2015, 572 s.
7. İsmayılov X.C. Azərbaycan Xalq Cümhuriyyətinin hüquqyaratma fəaliyyətinin bəzi aspektləri. //Bakı Universitetinin Xəbərləri (sosial-siyasi elmlər seriyası). Bakı, 1999, №1-2, s.66-83.
8. İsmayılov X.C. Azərbaycan Xalq Cümhuriyyəinin dövlət və hüququ. Bakı: Elm və Təhsil, 2018, 332 s.
9. İsmayılov S.Ə. Azərbaycan Xalq Cümhuriyyətinin parlament sənədləri (1918-1920-ci illər vətən tarixini öyrənmək üçün). Bakı, 2007, 168 s.
10. Məmmədzadə M.B. Milli Azərbaycan hərəkatı. Berlin, 1938, 274 s.; Bakı: Nicat, 246 s.
11. Paşayev A. Azərbaycan Xalq Cümhuriyyətinin Parlamenti // «Azərbaycan» qəzeti, 1998, 23 may.
12. Rəsulzadə M.Ə. Əsərləri. IV cild (1917-aprel 1918). Bakı: Qanun, 2013, 456 s.
13. Zaqafqaziya Seyminin müsəlman fraksiyası və Azərbaycan Milli Şurası iclaslarının protokolları. Bakı: Adiloğlu, 2006, 214 s.

14. Азербайджанская Демократическая Республика (1918-1920 гг.). Законодательные акты (Сборник документов). Баку: Азербайджан, 1998, 560 с.
15. Антология памятников права народов Кавказа. Т.18. Памятники права Азербайджана (1900-1918гг.), Ростов на-Дону: ООО «Альтаир», 2017, 480 с.
16. Расул-заде М.Э. Национальное движение в Азербайджане // Вопросы истории. 2002, № 2.
17. Собрание узаконений и распоряжений правительства Азербайджанской Республики. 1919, №1, ст.ст.18, 143, 145, 158.
18. Kazemzadeh F. (1951). The Struggle for Transcaucasus (1917–1921). – N.Y.: Philosophical Library, 356 p.
19. Swietochowski T. (2004). Russian Azerbaijan. 1905–1920. The Shaping of National Identity in a Muslim Community. – N.Y.: Cambridge University Press, 272 p.

## ИСТОРИКО-ПРАВОВЫЕ ОСНОВЫ ФОРМИРОВАНИЯ И РАЗВИТИЯ ПАРЛАМЕНТАРИЗМА В АЗЕРБАЙДЖАНЕ

**Х.Дж.ИСМАЙЛОВ**

### РЕЗЮМЕ

Коренные изменения, происходившие во всех сферах жизнедеятельности Российской империи в начале прошлого века и как результат всего этого, законодательное закрепление определенных прав и свобод, обещанных народу, привели к необходимости модернизации властных учреждений. Формировалась Государственная Дума (нижняя палата парламента с законодательными правами), как высший представительный орган, который впервые функционировал на основе широкого представительства разных слоев населения. Активно участвовавшие в работе Думы и накопившие определенный опыт в таком сложнейшем процессе, как законотворчество, азербайджанские депутаты впоследствии сыграли важную роль в обеспечении нормального функционирования государственного аппарата первой национальной республики. В целом, на территории Азербайджана традиции парламентаризма начинались формироваться в период функционирования Азербайджанской Демократической Республики. В статье внимание фокусируется на правовом регулировании организации и деятельности властных учреждений высших представительных органов первой республики, подвергаются анализу соотношение политических сил, представленных в парламенте, а также и отдельные аспекты деятельности данного высшего учреждения.

**Ключевые слова:** Парламент, правовое государство, демократические учреждения, разделение властей, законодательные акты, политические партии, избирательные права, регламент.

**HISTORICAL AND LEGAL BASES FOR FORMATION AND DEVELOPMENT OF PARLIAMENTARISM IN AZERBAIJAN**

**Kh.J.ISMAYILOV**

**SUMMARY**

Fundamental changes that took place in all spheres of life of the Russian Empire at the beginning of the last century, and, thereby the legislative consolidation of certain rights and freedoms promised to the people, led to the need to modernize the institutions of power. The State Duma (the lower house of Parliament with legislative rights) was formed as the highest representative body, which for the first time functioned on the basis of broad representation of different segments of the population. The Azerbaijani deputies, who actively participated in the work of the Duma and gained some experience in such a complex process as lawmaking, subsequently played an important role in ensuring the normal functioning of the state apparatus of the first national Republic. In General, the traditions of parliamentarism began to form in the territory of Azerbaijan during the functioning of the Azerbaijan Democratic Republic. The article focuses on the legal regulation of the organization and activities of power institutions of the Supreme representative bodies of the first Republic, analyzes the ratio of political forces represented in the Parliament, as well as certain aspects of the activity of this higher institution.

**Keywords:** Parliament, rule of law, democratic institutions, separation of powers, legislative acts, political parties, electoral rights, regulations.

BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ

*№1 Sosial-siyasi elmlər seriyası 2019*

**UOT 34: 349.2**

# İNTİZAM MƏSULİYYƏTİNİN ANLAYIŞI HAQQINDA MƏSƏLƏYƏ DAİR

**A.M.QASIMOV**
***Bakı Dövlət Universiteti***
***kasumov-bsu@rambler.ru***

*Məqalədə hüquqi məsuliyyətin müstəqil növlərindən biri olan əmək hüququ üzrə intizam məsuliyyətinin anlayışı haqqında elmi və tədris ədəbiyyatında mövcud olan yanaşmalar tədqiq olunur. Bundan başqa, intizam məsuliyyətinin bir çox müasir tərifləri əmək hüququnun inkişafının sovet dövrünün fundamental tədqiqatlarına söykəndiyindən onların arasında ciddi fərqlər yoxdur. Aparılmış tədqiqatlar nəticəsində əmək hüquq nəzəriyyəsində intizam məsuliyyətinin anlayışının müəyyən edilməsinə yeni yanaşma nümayiş etdirilərək belə bir qənaətə gəlinmişdir ki, intizam məsuliyyəti işçinin əmək vəzifələrini təqsirli və hüquqazidd surətdə icra etməməsinə görə əmək qanunvericiliyi ilə nəzərdə tutulmuş sanksiyaya məruz qalmaq vəzifəsidir.*

**Açar sözlər:** məsuliyyət**,** intizam məsuliyyəti, hüquqi məsuliyyət, intizam xətası

İntizam məsuliyyəti hüquqi məsuliyyətin müstəqil növlərindən biridir. İntizam məsuliyyəti bir qayda olaraq, öz əsasına-intizam xətasına, özünəməxsus sanksiyalara-intizam tənbehlərinə, intizam xətası subyektinə və məhkəmədən kənar qaydada intizam tənbehlərini tətbiq etmək səlahiyyəti olan intizam hakimiyyəti subyektinə malik olması ilə xarakterizə olunur.

İntizam məsuliyyətinin anlayışı, əsasları və intizam tənbeh tədbirlərinin tətbiqi məsələləri müxtəlif dövrlərdə müxtəlif müəlliflər tərəfindən tədqiq olunmasına baxmayaraq bu gün həmin məsələlər öz aktuallığını saxlamaqdadır.

Etiraf etmək lazımdır ki, əmək hüquq elmində bu hüquqi kateqoriyanın izahında yekdil fikir yoxdur ki, bu da onun çoxaspektliliyini və mürəkkəbliyini göstərir.

Dissertasiya tədqiqatlarında hüquqi məsuliyyət sosial məsuliyyətin (16, 165), yaxud ümumi mənəvi-siyasi məsuliyyətin tərkib hissəsi kimi (3, 42), fəlsəfi-sosioloji anlayış kimi (7) nəzərdən keçirilir. Hüquqi məsuliyyət hüquq pozuntusuna görə sanksiya (14), yaxud hüquq pozucusu barəsində məsuliyyət tədbirlərinin tətbiqi (2, 227) kimi, hüquqauyğun davranışın təmin edilməsinin hüquqi vasitəsi (12) kimi, yaxud hüquq tələblərinin icrasına dövlət məcburetməsi (18) kimi, hüquq tələblərinin pozucusu ilə müəyyən orqanların şəxsində dövlət arasında (20), yaxud hüquq tətbiqi subyekti ilə hüquq pozucusu arasında hüquq

münasibəti (24) kimi, habelə dövlət məcburetməsi əsasında hüquq pozucusunun daşımalı olduğu hüquqi vəzifə (6,6; 25,73) kimi müəyyən olunur.

Bir çox müəlliflər nəzərdən keçirilən hüquqi kateqoriyanın xarakteristikası üçün onun müxtəlif elementlərini seçirlər ki, bu da mövcud təriflərin birtərəfli olmasına gətirib çıxarır.

Hüquqi məsuliyyətin məzmununun müəyyən edilməsinə fərqli yanaşmalara baxmayaraq, müəlliflər onun yalnız hüquq normasının pozulması halında yaranması ilə razılaşır. Bu, hüquq normasında təsbitini tapmış qadağana riayət olunmaması, öz vəzifələrinin yerinə yetirilməməsi və yaxud lazımınca yerinə yetirilməməsi, yəni hüquq pozuntusunun törədilməsi ola bilər. Buradan belə bir nəticə çıxır ki, hüquqi məsuliyyəti qanunla onun üzərinə düşən vəzifələri yerinə yetirməmiş, yaxud lazımınca yerinə yetirməmiş şəxs üçün yaranan mənfi xarakterli hüquqi nəticələr vasitəsilə nəzərdən keçirmək olar.

Bütövlükdə hüquqi məsuliyyətin dərki və onun izahının birmənalı olmaması problemi əmək hüquq elmində intizam məsuliyyətinin anlayışının diskussion mövzular sırasına aid edilməsini şərtləndirir. İntizam məsuliyyəti ilə bağlı fərqli yanaşmaların mövcudluğu, həmçinin əmək qanunvericiliyində leqal tərifin olmaması və iqtisadiyyatda baş verən köklü dəyişikliklərlə müəyyən olunur.

İqtisadiyyatda inzibati idarəetmə metodlarının mövcudluğu, xüsusi mülkiyyətin mövcud olmadığı dövrdə bütün fəhlə və qulluqçular dövlət müəssisələri, idarələri və təşkilatları ilə əmək münasibətlərində idi. Dövlət işçilərə müəyyən əmək hüquqları verir və onların üzərinə müvafiq vəzifələr, o cümlədən intizam xətasının törədilməsi halında intizam məsuliyyəti vəzifəsini qoyurdu. Həmin dövrün iqtisadi gerçəkliyi intizam məsuliyyətinin təriflərində də öz əksini tapmışdır.

Ukraynalı alim A.T.Barabaş ötən əsrin yetmişinci illərinin sonunda intizam məsuliyyətini «fəhlə və ya qulluqçunun əmək hüquq münasibəti sahəsində mənəvi, maddi və ya təşkilati xarakterli mənfi nəticələrə məruz qalmaq vəzifəsi» kimi müəyən edirdi (4, 13). Sonralar V.N.Skobelkin intizam məsuliyyətinin aşağıdakı tərifini vermişdi: «İntizam məsuliyyəti fəhlə və qulluqçunun əmək vəzifələrini təqsirli və hüquqazidd surətdə icra etməməsinə görə əmək qanunvericiliyi ilə nəzərdə tutulmuş tənbehi daşımaq vəzifəsidir» (21, 11).

V.N.Skobelkin 1990-cı ildə işıq üzü görmüş «Fəhlə və qulluqçuların intizam və maddi məsuliyyəti» əsərində intizam məsuliyyətinin tətbiq sahəsini genişləndirir. O, göstərirdi ki, fəhlə və qulluqçunun intizam tənbehi daşımaq vəzifəsi «əmək prosesində, müəyyən şərtlərdə isə həm də ondan kənarda davranış qaydalarının təqsirli və hüquqazidd surətdə icra olunmamasına görə» yaranır (21, 25). Elə bu dövrdə rusiyalı alim L.A.Sırovatskaya yazırdı ki, intizam məsuliyyəti «fəhlə və qulluqçunun törətdiyi intizam xətasına görə müəssisənin (idarənin) müdiriyyəti qarşısında cavab vermək və əmək hüququnun intizam sanksiyalarında göstərilmiş təsir tədbirlərinə məruz qalmaq vəzifəsindən ibarətdir» (22, 47). Analoji fikir K.N.Qusov və V.N.Tolkunova tərəfindən də söylənilmişdir (11, 326-327).

Yuxarıda göstərilən təriflər arasındakı fərqlərə baxmayaraq, onlarda başlıca vurğu fəhlə və qulluqçunun müxtəlif xarakterli hər hansı «cəza»ya, «mənfi

nəticə»yə məruz qalmaq və ya «müəssisənin (idarənin) müdiriyyəti qarşısında cavab vermək» vəzifəsinin üzərinə salınır.

Digər müəlliflər intizam məsuliyyətinin anlayışını hüquq pozucusunun barəsində müvafiq tənbeh tədbirinin tətbiq edilməsi vasitəsilə açıqlayırlar. Məsələn, N.V.Plyuxin hesab edir ki, intizam məsuliyyəti «kollektivdə əmək intizamının təmin edilməsi məqsədilə səlahiyyətli vəzifəli şəxs və ya orqan tərəfindən intizam xətası törətmiş fəhlə və yaxud qulluqçunun üzərinə qanunda göstərilmiş intizam tənbehinin qoyulmasından ibarətdir» (19, 4).

N.Y.Əsgərovun fikrincə, əmək hüququ üzrə intizam məsuliyyəti dedikdə, intizam xətası törətməkdə təqsiri olan işçiyə işəgötürən tərəfindən əmək intizamının möhkəmləndirilməsi məqsədilə xüsusi qaydada tətbiq edilən və qanunla nəzərdə tutulan intizam tənbehinə məruz qalmasından ibarət olan məsuliyyət başa düşülür (31,195).

A.İ.İvanov başqa mövqedən çıxış edərək göstərir ki, intizam məsuliyyəti müdiriyyət tərəfindən intizam xətası törətmiş fəhlə və yaxud qulluqçu barəsində əmək qanunvericiliyində müəyyən olunmuş intizam tənbehi tədbirlərinin tətbiqindən ibarətdir (13, 8).

Digər alimlər intizam məsuliyyətinin bir qədər fərqli tərifini təklif edirlər. Məsələn, M.V.Luşnikova və A.M.Luşnikov intizam məsuliyyətinə «işçilərin intizam xətasının törədilməsinə görə əmək qanunvericiliyi ilə nəzərdə tutulmuş qaydada və şərtlərlə şəxsi xarakterli məhrumiyyətlər formasında əlverişsiz hüquqi nəticələrə məruz qalmaq vəzifəsi» kimi tərif verirlər (17, 509-510).

R.T.Əhmədovun fikrincə, intizam məsuliyyətinə verilmiş bu tərif mövcudluq hüququna malikdir, çünki o, əmək sahəsində intizam məsuliyyətinin ümumi mənasını və mahiyyətini dəyişmir. İntizam məsuliyyəti dövlət məcburetməsinin formalarından biri-intizam məcburetməsi olaraq, vəzifəli şəxslər tərəfindən hüquq pozuntusu törətmiş işçilərə qarşı tətbiq olunur və onlar üçün əlverişsiz nəticələr doğurur. O, həmişə təqsirli şəxsin davranışının rəsmən mənfi qiymətləndirilməsi və qınanması ilə bağlı olur (30, 86).

İntizam məsuliyyəti anlayışı haqqında fikir müxtəlifliyinə baxmayaraq və yuxarıda qeyd olunanları ümumiləşdirərək hesab edirik ki, işçinin intizam məsuliyyəti dedikdə, işçinin törətmiş olduğu intizam xətasına görə işəgötürən qarşısında cavab vermək və əmək hüquqi intizam sanksiyalarına məruz qalmaq vəzifəsi başa düşülür (10, 634).

Bazar münasibətlərinə keçid nəticəsində əmək hüquq nəzəriyyəsinə baş vermiş ictimai dəyişiklikləri daha tam surətdə əks etdirən və müasir reallıqlara uyğun yeni anlayışların daxil edilməsi tələbatı yaranmışdır. Təəssüf hissi ilə qeyd etmək istərdik ki, AR ƏM-dən fərqli olaraq Rusiya Federasiyası Əmək Məcəlləsi bu problemi müəyyən dərəcədə həll etmişdir.

Belə ki, əmək münasibətinin tərəfləri «işçi» və «işəgötürən» kimi müəyyən olunmuş, «kollektiv müqavilə», «əmək müqaviləsi» və digər anlayışlar açıqlanmışdır, lakin əvvəlki tək «intizam xətası»nın və «intizam məsuliyyəti»nin anlayışı təsbitini tapmamışdır.

Bir sıra müəlliflər yuxarıda açıqlanmış belə bir ənənəvi mövqeyi bölüşür ki, intizam məsuliyyəti fəhlə və qulluqçunun cəzaya məruz qalmaq vəzifəsi kimi nəzərdən keçirilir, bu zaman «fəhlə» və «qulluqçu» terminləri «işçi» termini ilə əvəzlənir. Belə ki, V.N.Tolkunova intizam məsuliyyətinə «işçinin intizam xətasına görə onun üzərinə qoyulmuş intizam tənbehinə məruz qalmaq vəzifəsi» kimi tərif verir (27, 205).

Digər alimlər intizam məsuliyyətini işəgötürənin təqsirli işçi barəsində hərəkətləri kimi açıqlayır. Belə ki, V.A.Vasilyev və V.Q.Malov yazırlar ki, intizam məsuliyyəti üzürlü səbəb olmadan özünün əmək vəzifələrinin icra olunmamasına və yaxud lazımınca icra olunmamasına yol vermiş işçi barəsində müəssisənin müdiriyyəti tərəfindən qanunvericiliklə nəzərdə tutulmuş intizam tənbehlərinin tətbiqindən ibarətdir (8,3; 9,3).

Hüquq ədəbiyyatında intizam məsuliyyətinə bəzən elə anlayış verirlər ki, bu da intizam məsuliyyətini hüquqi məsuliyyətin qarışıq növlərindən fərqləndirmək imkanından məhrum edir. Moskvada 1997-ci ildə nəşr edilmiş "Əmək hüququ" dərsliyinin müəllifləri intizam məsuliyyətinə müdiriyyətin intizam tənbehi hakimiyyəti ilə işçilərinin davranışının məzəmmət edilməsi kimi anlayış verirlər (28, 321).

N.Y.Əsgərovun fikrincə, intizam məsuliyyətinə verilən belə tərifi uğurlu hesab etmək olmaz, çünki intizam təsirinin bütün növləri və hər hansı intizam hakimiyyəti tədbirlərinin heç də hamısı işçilərin intizam məsuliyyəti üçün xarakterik deyildir (31, 189).

İntizam məsuliyyətinin yuxarıda göstərilən təriflərini təhlil edərək bir neçə nəticəyə gəlmək olar.

Birincisi, müəlliflər bu məsuliyyət növünü əmək intizamının pozucusu barəsində əmək qanunvericiliyi ilə nəzərdə tutulmuş tənbeh tədbirlərinin tətbiqi ilə bağlayırlar.

İkincisi, bəzi müəlliflərin fikrincə, bu zaman başlıca məqam işçinin müvafiq tənbeh tədbirinə məruz qalmaq vəzifəsidir, digər müəlliflərə görə, işəgötürən (müəssisənin müdiriyyəti, səlahiyyətli vəzifəli şəxs) tərəfindən işçi barəsində mahiyyəti təqsirli şəxsin cəzalandırılmasından ibarət olan müvafiq hərəkətlərin həyata keçirilməsindən ibarətdir. Təhlildən göründüyü kimi, bu iki yanaşma hələ sovet dövründə yaranmışdır və bu gün də mövcudluğunu davam etdirərək əmək hüquq elmində varisliyi təsdiqləyir.

Bu zaman hər iki halda intizam məsuliyyətinin anlayışı açıqlanarkən birtərəflilik müşahidə olunur. Bu gün belə bir mövqe müdafiə olunur ki, qanunvericilik sahəsi kimi əmək hüququnda əmək-hüquqi məsuliyyət mövcuddur, intizam məsuliyyəti isə onun növlərindən biri kimi çıxış edir (15, 11). Məsələn, Q.İ.Uqryumova intizam məsuliyyətinə aşağıdakı kimi tərif verir: «İntizam məsuliyyəti əmək-hüquqi məsuliyyətin növlərindən biri və intizam hakimiyyətinə malik işəgötürən tərəfindən intizam xətası törətmiş işçi barəsində intizam sanksiyalarının tətbiqində ifadəsini tapan hüquqi təsir formalarından biridir» (29, 51). P.S.Butovun belə bir fikri ilə razılaşmaq lazımdır ki, «əmək-hüquqi məsuliyyət» kateqoriyası artıq, süni

nəzəri konstruksiya olub, qüvvədə olan əmək qanunvericiliyinin müddəalarında öz təsdiqini tapmır; hüquqi məsuliyyətin növlərinin ümumi hüquq nəzəriyyəsində istifadə edilən ənənəvi bölgüsünə uyğun gəlmir; özünəməxsus əsaslara, şərtlərə, tətbiq qaydasına və nəticələrinə malik deyildir; əmək sahəsində hüquqi məsuliyyətlə bağlı bir çox problemlərin həllini çətinləşdirir (7, 44). Elmi ədəbiyyatda digər fikirlər də mövcuddur.

Hüquq ədəbiyyatında intizam məsuliyyəti və maddi məsuliyyət çox vaxt «əmək-hüquqi məsuliyyət» adlandırılır. M.V.Luşnikova və A.M.Luşnikov əmək-hüquqi məsuliyyətin əmək hüququnda məsuliyyətin bütün növlərini birləşdirən ümumi kateqoriya kimi tanınması mövqeyindən çıxış edirlər. Onların fikrincə, əmək-hüquqi məsuliyyətə işçilərin və işəgötürənlərin, onların nümayəndələrinin əmək qanunvericiliyi ilə nəzərdə tutulmuş qaydada və şərtlərlə şəxsi, təşkilati və əmlak xarakterli əlverişsiz hüquqi nəticələrə məruz qalmaq vəzifəsi kimi tərif vermək olar (17, 457).

Digər müəlliflərdən fərqli olaraq Y.A.Jukova intizam məsuliyyətini əmək münasibətlərinin hüquqi tənzimlənməsinin elementlərindən biri kimi açıqlayır (12, 25). Onun fikrincə, işəgötürən üçün intizam məsuliyyəti işçinin pozitiv davranışına təsir üsuludur, işçi üçün isə sanksiyanın tətbiqi ilə bağlı mənfi nəticələrə məruz qalmadır (12,25). Nəticədə intizam məsuliyyəti əmək vəzifələrinin icrasının təmin edilməsi vasitələrindən biri, işəgötürənin vicdanlı əmək hüququnun müdafiəsi üsulu kimi çıxış edir. Fikrimizcə, müəllifin bu fikri ilə razılaşmamaq çətindir. Həqiqətən, intizam məsuliyyəti əmək müqaviləsi tərəflərinin əmək vəzifələrini lazımi surətdə icra etməsinin təmin edilməsində böyük rol oynayır. Bununla yanaşı, intizam məsuliyyətinin belə izahı tədqiqatçılar qarşısında «hüquqi vasitə» anlayışının müəyyən edilməsi və əmək hüquq münasibəti iştirakçılarının davranışına digər hüquqi təsir vasitələrinin məcmusundan intizam məsuliyyətinin fərqləndirilməsinin meyarlarının axtarılması vəzifələrini qoyur.

O.Q.Smirnova işçinin intizam məsuliyyətinə «işəgötürənin əmək intizamı pozucusunun hüquqi vəziyyətini pisləşdirməklə ona təsir göstərmək hüququ və işçinin həmin təsirə məruz qalmaq vəzifəsi ilə xarakterizə olunan hüquq münasibəti» kimi tərif verir (24). Bu tərifdə işçinin vəzifəsi və işəgötürənin hüququ bir-birinə qarşı qoyulmur, çünki onlar eyni əmək hüquq münasibətinin müxtəlif tərəfləridir. Bu hüquq münasibətlərində işəgötürən işçinin üzərinə intizam tənbehini qoyarkən, qanunla müəyyən olunmuş tələblərə riayət etməyə (məsələn, işçidən yazılı izahat tələb etməyə və s.) borcludur. Öz növbəsində, işçi müvafiq intizam tənbehinə məruz qalmaq vəzifəsindən başqa, işəgötürənin qərarından qanunla müəyyən olunmuş qaydada şikayət vermək hüququna malikdir.

Bununla yanaşı, məsuliyyətin hüquq münasibəti vasitəsilə müəyyən olunması o qədər də düzgün deyildir. Çünki intizam məsuliyyəti və hüquq münasibəti eyni anlayışlar deyildir, onların hər biri özünəməxsus məzmuna və hüquqi təbiətə malikdir. Hüquq münasibəti intizam xətasının törədilməsi faktından yaranır, hüquqi məsuliyyət isə müvafiq əsaslar və şərtlər mövcud olduqda həmin hüquq münasibətinin nəticəsi kimi çıxış edir. Hüquq pozuntusu müvafiq hüquq müna-

sibətinin yaranmasına əsas təşkil edən hüquqi faktlardan biridir.

Qüvvədə olan qanunvericiliyi və onun tətbiqi təcrübəsini təhlil edən V.M.Lebedev belə bir nəticəyə gəlir ki, əmək hüququna görə məsuliyyət məcburetmənin bir növüdür və həmişə şəxsiyyətin hüquqi vəziyyəti, yəni hüquq münasibəti səviyyəsində onun hüquq və vəzifələrinin məcmusu vasitəsilə izah oluna bilər. Məruz qalmanın növü və tədbiri (subyektiv cəhət) subyektin hüquqi vəziyyətinin məcburi surətdə dəyişdirilməsinin növünü və tədbirini, yəni onun üzərinə müəyyən vəzifələrin qoyulmasını, yaxud onun müəyyən hüquqlardan məhrum edilməsini (obyektiv cəhət) ifadə edir (16, 170).

Vurğulamaq vacibdir ki, əmək hüquq münasibətinin xüsusiyyətlərindən biri özünün pozitiv hərəkətlərinə olan subyektiv hüququn sankisyaların müstəqil tətbiqi hüququnu ehtiva etməsindən ibarətdir.

Hüququn digər sahələrində vəzifə daşıyan şəxsin lazımi surətdə davranmaması halında hüquqa malik subyekt özünün hüquq və mənafelərinin müdafiəsi üçün dövlətə müraciət etmək məcburiyyətindədir. Əmək hüququnda hüquq münasibətlərinin subyektləri bir-birinə müstəqil surətdə, o cümlədən sanksiyaların tətbiqi yolu ilə təsir göstərə bilərlər (bu isə öz mənafelərinin müdafiəsi üçün dövlət orqanlarına müraciət imkanını istisna etmir). Sanksiyaların tətbiqi hüququnun realizəsi «hüquq münasibəti üzrə tərəfdaşa münaqişəli vəziyyəti tənzimləməyə, onu lazımi davranışa sövq etməyə, arzuolunmaz və ya yolverilməz hərəkətlərin törədilməsinə görə cəzalandırmağa qabil olan təsir göstərmək məqsədi güdür. Hesab edirik ki, hansı hüquq münasibətlərinin iştirakçısı olmalarından asılı olaraq, əmək hüququnun praktik olaraq, bütün subyektləri belə hüquqa malikdir» (5, 134).

İntizam məsuliyyətinin anlayışının müəyyən edilməsinə dair mövcud yanaşmaların təhlili aşağıdakı nəticələrə gəlməyə imkan verir:

1. İntizam məsuliyyətinin bir çox müasir tərifləri əmək hüququnun inkişafının sovet dövrünün fundamental tədqiqatlarına söykəndiyindən onların arasında ciddi fərqlər yoxdur.

2. Əmək hüququ nəzəriyyəsində intizam məsuliyyətinin anlayışının müəyyən edilməsinə aşağıdakı yanaşmalar fərqləndirilir:

Birincisi, intizam məsuliyyəti işçinin əmək vəzifələrini təqsirli və hüquqazidd surətdə icra etməməsinə görə əmək qanunvericiliyi ilə nəzərdə tutulmuş sanksiyaya məruz qalmaq vəzifəsi kimi nəzərdən keçirilir (A.M.Qasımov, N.Y.Əsgərov, V.N.Skobelkin, A.T.Barabaş, L.A.Sırovatskaya, V.N.Tolkunova, O.İ.Karpenko).

İkincisi, işəgötürən tərəfindən hüquq pozucusu barəsində müvafiq sanksiyanın tətbiqi kimi nəzərdən keçirilir (N.V.Plyuxin, V.A.Vasilyev, V.Q.Malov, A.İ.İvanov).

Üçüncüsü, o, «işəgötürənin əmək intizamı pozucusunun hüquqi vəziyyətini pisləşdirməklə ona təsir göstərmək hüququ və işçinin həmin təsirə məruz qalmaq vəzifəsilə xarakterizə olunan hüquq münasibəti, habelə işəgötürənin hüquq pozucusu barəsində müvafiq tənbehi tətbiq etməsi kimi həmin hüquq münasibətinin realizəsi prosesini təşkil edən işçinin və işəgötürənin davranışı» kimi nəzərdən

keçirilir (24, 91).

Dördüncüsü, o, əmək hüququ subyektinin məsuliyyətinin bir növü kimi nəzərdən keçirilir. Belə məsuliyyət dedikdə, cavabdeh şəxsin hüquqi vəziyyətinin dəyişdirilməsinin (pisləşdirilməsinin), onun hüquqlardan məhrum edilməyə, yaxud üzərinə əlavə hüquqi vəzifələrin qoyulmasına məcburi surətdə məruz qalmasının növünü və tədbirini müəyyən edən növü və tədbiri başa düşülür (V.M.Lebedev).

Beşincisi, o, əmək-hüquqi məsuliyyətin növlərindən biri kimi nəzərdən keçirilir (M.V.Luşnikova, A.M.Luşnikov, Y.A.Kuznetsov, Q.İ.Uqryumova).

Altıncısı, o, əmək vəzifələrinin icrasının təmin edilməsinin hüquqi vasitəsi, işəgötürənin vicdanlı əmək hüququnun müdafiəsi üsulu kimi nəzərdən keçirilir (Y.A.Jukova).

3. İntizam məsuliyyəti hüquq pozuntusu törətmiş təqsirli şəxsin davranışının mənfi qiymətləndirilməsi ilə bağlı olduğundan, ona hüquqi məsuliyyətin ümumi cəhətləri xasdır. Onun yaranması üçün hüquqi əsaslar, yəni bir tərəfdən intizam məsuliyyətinin subyektlərinə qarşı irəli sürülən tələbləri, digər tərəfdən isə onların pozulmasına görə intizam məsuliyyəti tədbirlərini təsbit edən normativ hüquqi aktların məcmusu zəruridir. Bundan başqa, intizam xətalarını ifadə edən faktiki əsaslar zəruridir. Buna görə də bizim fikrimizcə, intizam məsuliyyəti özünün əmək müqaviləsi ilə müəyyən olunmuş əmək vəzifələrini yerinə yetirməmiş, yaxud lazımınca yerinə yetirməmiş (yəni intizam xətası törətmiş) işçinin daşıdığı hüquqi məsuliyyət növüdür və işçinin işəgötürən tərəfindən əmək intizamının təmin edilməsi məqsədilə əmək qanunvericiliyi ilə müəyyən olunmuş hədlərdə və qaydada tətbiq etdiyi intizam tənbehinə məruz qalmaq vəzifəsindən ibarətdir.

İşəgötürənin intizam xətası törətmiş işçinin üzərinə intizam tənbehinin qoyulması haqqında müvafiq qərar qəbul etməsinə qədər həmin vəzifə statik formada mövcud olur, sonra isə dinamik forma kəsb edir və işçinin hüquqlardan məhrum edilməyə, yaxud onun üzərinə əlavə hüquqi vəzifələrin qoyulmasına məcburi surətdə məruz qalmasında öz ifadəsini tapır.

**ƏDƏBİYYAT**


1. Абрамова О.В. Санкции в советском трудовом праве. Автореф.дис. …канд.юр.наук. М., 1977, 27 с.
2. Алексеев С.С. Общая теория права. В 2 т., т.1. М., 1981, 360 с.
3. Алексеев С.С. Проблемы теории права. В 2-х т., т.2. Свердловск, 1972, 396 с.
4. Барабаш А.Т. Ответственность за нарушение трудовой дисциплины. Киев, 1977, 44 с.
5. Бодункова С.А. Санкции норм трудового права. Дис. …канд.юр.наук. Омск, 2002, 181 с.
6. Братусь С.Н. Спорные вопросы теории юридической ответственности // Советское государство и право, 1973, №4, с.31-37
7. Бутов П.С. Совершенствование материальных и процедурно-процессуальных норм о применении дисциплинарной ответственности работников по трудовому праву Российской Федерации. Дис. ... канд.юр.наук. Челябинск, 2005, 271 с.
8. Васильев В.А. Право и дисциплина труда. Челябинск, 1987, 45 с.
9. Малов В.Г. Дисциплинарная ответственность работников. М., 1993, 161 с.
10. Qasımov A.M. Əmək hüququ: Dərslik. Bakı: Letterpress nəşriyyat evi, 2016, 840 s.

11. Гусов К.Н., Толкунова В.Н. Трудовое право России: Учебник. М.: Проспект, 2006, 496 с.
12. Жукова Ю.А. Дисциплинарная ответственность работников как средство обеспечения исполнения трудовых обязанностей. Автореф. дис. …канд.юр.наук. Саратов, 2005, 25 с.
13. Иванов А.И. Дисциплина труда и ответственность по трудовому праву: Монография. Мурманск, 1988,120 с.
14. Иоффе О.С. Ответственность по советскому гражданскому праву. Автореф.дис. …канд.юр.наук. Л., 1954, 28 с.
15. Кузнецов Ю.А. Трудоправовая ответственность: понятие, виды. Автореф. дис. …канд.юр.наук. Пермь, 2005, 27 с.
16. Лебедев В.М. Трудовое право: проблемы общей части. Томск, 1998, 184 с.
17. Лушникова М.В., Лушников А.М. Курс трудового права. В 2-х т. Т.2. Трудовые права в системе прав человека. Индивидуальное трудовое право: Учебник. М.: Проспект, 2004
18. Общая теория советского права/Под ред. С.Н.Братуся и И.С.Самощенко. М., 1996, 675 с.
19. Плюхин Н.В. Дисциплинарная ответственность рабочих и служащих. М., 1978, 72 с.
20. Самощенко И.С. Правомерное поведение, правонарушение и юридическая ответственность/Теория государства и права. М., 1972, 610 с.
21. Скобелкин В.Н. Дисциплинарная и материальная ответственность рабочих и служащих. Воронеж, 1990, 112 с.
22. Сыроватская Л.А. Ответственность за нарушение трудового законодательства: Монография. М.: Юрид.лит., 1990, 176 с.
23. Сыроватская Л.А. Трудовое право: Учебник. М.: Юрид.лит., 1998
24. Смирнова О.Г. Ответственность работника по трудовому праву: современное состояние и перспективы развития. Дис. …канд.юр.наук. М., 2002, 208 с.
25. Строгович М.С. Сущность юридической ответственности // Советское государство и право, 1979, №5, с.72-78
26. Тархов В.А. Ответственность по советскому праву: Монография. Саратов, 1973, 456 с.
27. Толкунова В.Н. Трудовое право: Курс лекций. М.: Проспект, 2002, 320 с.
28. Трудовое право: Учебник/Под ред.О.В.Смирнова. М.: Проспект, 1997, 448 с.
29. Угрюмова Г.И. Правовое регулирование увольнения за нарушения трудовой дисциплины. Дис. …канд.юр.наук. М., 2003, 187 с.
30. Əhmədov R.T. Əmək-hüquqi məsuliyyət hüquqi məsuliyyətin bir növü kimi: anlayışı, mahiyyəti və növləri//Qanun, Bakı, 2007, № 9, s.81-88
31. Əsgərov N.Y. Əmək hüququ üzrə intizam məsuliyyətinin anlayışı/Azərbaycan Respublikasında dövlət və hüquq quruculuğunun aktual problemləri. Elmi məqalələr məcmuəsi. 10-cu buraxılış. Bakı, 2004, s.187-195.

## О ПОНЯТИИ ДИСЦИПЛИНАРНОЙ ОТВЕТСТВЕННОСТИ

**А.М.ГАСЫМОВ**

### РЕЗЮМЕ

В статье исследуются научные подходы к вопросу о понятии дисциплинарной ответственности по трудовому праву как самостоятельном виде юридической ответственности. Отмечается многообразие мнений, которые, на взгляд автора, преимущественно опирается на фундаментальные исследования советского периода, а также отсутствие существенных отличий между ними.

В результате проведенного исследования был разработан новый подход к определению дисциплинарной ответственности в теории трудового права, согласно которому дисциплинарная ответственность - это обязанность работника претерпеть санкцию, пред-

усмотренную трудовым законодательством за виновное и противоправное неисполнение трудовых обязанностей.

**Ключевые слова:** ответственность, юридическая ответственность, дисциплинарная ответственность, дисциплинарной проступок, неисполнение трудовых обязанностей.

**ON THE CONCEPT OF DISCIPLINARY RESPONSIBILITY**

**A.M.GASYMOV**

**SUMMARY**

The article investigates scientific approaches to the issue of the concept of disciplinary liability under labor law as an independent form of legal liability. There is a variety of opinions, which, in the author's opinion, is mainly based on the fundamental research of the Soviet period, as well as the lack of significant differences between them.

As a result of the study, a new approach to the definition of disciplinary liability in the theory of labor law was developed, according to which disciplinary liability is the obligation of an employee to undergo a sanction prescribed by labor law for guilty and unlawful non-performance of labor duties.

**Keywords:** responsibility, disciplinary responsibility, legal responsibility, disciplinary offence

**UOT.341.2;**
**341.231.14**

# İNSAN HÜQUQLARININ POZULMASI SAHƏSİNDƏ DÖVLƏTLƏRİN MƏSULİYYƏTİ

**N.H.MEHDİYEV**
***Bakı Dövlət Universiteti***
***novruz_mehdiyev@bk.ru***

*Dövlət törətdiyi beynəlxalq hüquqa zidd əməl nəticəsində ziyan çəkmiş digər dövlətə və onun əhalisinə ziyanın əvəzini tam ödəməli, onun pozulmuş hüquqlarını bərpa etməlidir.*

*İnsan hüquqlarının pozulması sahəsində dövlətlərin məsuliyyəti cinayət xarakterindən çox siyasi xarakter daşıdığından, bu problemin həllinə beynəlxalq hüquq prizmasından yanaşılmalıdır. Bu da müasir dövrdə beynəlxalq hüququn rolunun danılmazlığını sübut edir. Həmçinin qeyd edilir ki, insan hüquqlarının pozulması məhkəmələr tərəfindən maddi və prosessual hüquq normalarının düzgün tətbiq edilməməsi nəticəsində də yarana bilər. Beynəlxalq hüquq dövlətlərin beynəlxalq vəzifələrinə uyğun olaraq dövlətlərin beynəlxalq hüquqlarını, həmçinin fərdlərin beynəlxalq hüquqlarını da müdafiə edir.*

**Açar sözlər**: insan hüquqları, dövlət məsuliyyəti, insan hüquqlarının pozulması, insan hüquqlarının müdafiəsi, beynəlxalq müqavilələr, Beynəlxalq Cinayət Məhkəməsi

İnsan hüquqlarının müdafiəsi beynəlxalq hüququn bu yeni sahələrində böyük əhəmiyyət kəsb edir.Məlum olduğu kimi daha çox ənənəvi və həmçinin bir sıra adi beynəlxalq normalar vardır ki, bunlar da dövlətlərdən əsaslı insan hüquqlarının müdafiəsini tələb edir. Bəs beynəlxalq hüquq dövlətlərin beynəlxalq vəzifələrinə uyğun olaraq təkcə digər dövlətlərin beynəlxalq hüquqlarını, yoxsa, həmçinin fərdlərin beynəlxalq hüquqlarını da müdafiə edir. Və əgər axırıncı fərziyyə doğrudursa biz beynəlxalq hüquqda həqiqi stuktur dəyişikliyi ilə üzləşirikmi?.

İndiyə kimi beynəlxalq fərdin şəxsiyyəti və insan hüquqlarının müdafiəsi üzərində əldə edilən biliklər insan hüquqlarının müdafəsi üçün beynəlxalq təşkilatlar qarşısında fərdə aid olan üsuli mexanizm və insan hüquqları üzrə əsas beynəlxalq normaları ilə əsaslı surətdə əlaqələndirilib.

Dövlət törətdiyi beynəlxalq hüquqa zidd əməl nəticəsində ziyan çəkmiş digər dövlətə və onun əhalisinə ziyanın əvəzini tam ödəməli, onun pozulmuş hüquqlarını bərpa etməlidir. Bildiyimiz kimi, beynəlxalq cinayətlər dövlətlərin və xalqların varlığının əsaslarına qəsd edən, beynəlxalq hüququn başlıca prinsiplərini sarsıdan, beynəlxalq sülhə və təhlükəsizliyə qorxu törədən ən ağır beynəlxalq hüquqa

zidd əməllərə aiddir. Beynəlxalq ictimaiyyətdə mövcud olan cinayətlər nəticəsində insan hüquqlarının müdafiəsini təşkil etmək nəinki yalnız dövlətlərin öz milli hüquq normaları, hətta beynəlxalq hüquq normaları ilə də müəyyən olunmalıdır. Hal-hazırda dünyada gedən bütün proseslərə, dövlətlərarası münasibətlərə tətbiq edilən, beynəlxalq hüquq normalarının rolu artmaqdadır. Bu normalar hazırda bütün dünya dövlətlərində baş verən hüquq pozuntuları nəticəsində yaranan müxtəlif hadisələrə müdaxilə edir. Bu özünü bir sıra beynəlxalq sənədlərdə, məsələn, Genosid cinayətinin qarşısının alınması və cəzalandırılması haqqında 1948-ci il konvensiyada, Aparteid cinayətinin qarşısının alınması və cəzalandırılması haqqında 1973-cü il konvensiyasında və s.-də göstərir.

Qeyd olunan insan hüquqlarının pozulması sahəsində dövlətlərin məsuliyyəti cinayət xarakterindən çox siyasi xarakter daşıdığından, bu problemin həllinə beynəlxalq hüquq prizmasından yanaşılmalıdır. Bu da beynəlxalq ümumi hüququn ümum tanınmış prinsip və normalarının jus cogens xarakterli olmasının dünyanın əksər dövlətləri tərəfindən tanınması, müxtəlif problemlərin həllində bu normalardan istifadə edilməsi müasir dövrdə beynəlxalq hüququn rolunun danılmazlığını sübut edir.

1965-ci ildə M.Y.Rapport belə bir fikirlə çıxış etdi ki, Beynəlxalq hüquqda insanlıq əleyhinə törədilmiş cinayətlərə görə dövlətlərin məsuliyyəti cinayət hüquq məsuliyyəti daşıyır. O, öz fikrini belə əsaslandırır ki, cinayət məsuliyyətinin əsas xüsusiyyəti Beynəlxalq hüquqla tanınan cinayətkara cəza tətbiq etməkdirsə, onda insanlıq əleyhinə törədilmiş cinayətlər də cinayət hüquqi xarakteri daşıyır (4, 79). Q.Kelzen qeyd edir ki, dövlət onun tərəfindən əhalini təşkil edən fərdlərə qarşı törədilmiş deliktə görə məsuliyyət daşıyır. O, hesab edir ki, beynəlxalq hüququn pozulmasına görə dövlətlərin məsuliyyəti elə onun beynəlxalq öhdəliklərinin dövlət orqanları tərəfindən yerinə yetirilməməsi zamanı yaranan kollektiv məsuliyyətdir. O, izah etmyə çalışır ki, Beynəlxalq hüquq qaydası konkret məsuliyyət daşıyan şəxsi müəyyən etmir, sadəcə olaraq həmin şəxsin daxil olduğu qrupu göstərir. Buna görə də sanksiya delikvent qismində çıxış edən dövlət orqanlarına qarşı deyil, həmin dövlətin özünə qarşı yönəlir. İnsan hüquq və azadlıqlarının pozulması fərdlərlə daha sıx əlaqədə olan daimi orqanlar vasitəsilə verir. Adətən cinayət iki kateqoriyaya ayrılır: beynəlxalq hüquq pozuntuları və beynəlxalq cinayətlər (xüsusi təhlükəli hüquq pozuntuları).

Bir sıra beynəlxalq sənədlərə müvafiq olaraq, «beynəlxalq cinayət» anlayışına «sülh və bəşəriyyətə qarşı cinayətlər» və «beynəlxalq hüquqa qarşı cinayətlər» aid olunur. Onlar sülhün təmin olunması, insan şəxsiyyətinin və bütünlüklə beynəlxalq cəmiyyətin həyatı üçün vacib olan maraqların müdafiəsinin təmin olunmasında əsas əhəmiyyətə malik olan beynəlxalq hüququn norma və prinsiplərinin pozulmasında özünü göstərir.

Hərbi cinayətlər üzərində mühakimə üçün yaranmış Beynəlxalq hərbi tribunalın Nizamnaməsinin 6-cı maddəsi bəşəriyyətə qarşı beynəlxalq cinayətin üç növünü öz kateqoriyasına aid edir:

a) Sülhə qarşı cinayətlər, o cümlədən: təcavüzkar müharibənin, yaxud

beynəlxalq müqavilə, saziş və təminatların pozulması ilə baş verən müharibənin planlaşdırılması, hazırlanması, başlanması və aparılması və ya yuxarıda sadalanan hərəkətlərdən hər hansının yerinə yetirilməsinə yönələn sui-qəsddə və ya ümumi planda iştirak etmək;

b) hərbi cinayətlər, o cümlədən: müharibənin qanun və ya qaydasının pozulması. Bu pozuntulara aiddir: işğal olunmuş ərazilərdə mülki əhalinin qətli, işgəncələri, köləlik və ya başqa məqsədlər üçün aparılması: hərbi dustaqların və ya dənizdə olan şəxslərin öldürülməsi: ictimai və ya şəxsi mülkiyyətin talan edilməsi; şəhər və kəndlərin əsassız dağıdılması; hərbi zərurət olmadan xaraba qoyma və başqa cinayətlər.

c) insanlığa qarşı cinayətlər, o cümlədən: qətl, işgəncə, köləlik, sürgün və mülki əhaliyə qarşı müharibəyə qədər və ya onun gedişində törədildiyi yerdə ölkənin daxili hüququnu pozub-pozulmamasından asılı olmayaraq Tribunalın yurisdiksiyasına aid olan hər hansı cinayətlə əlaqədar olan və ya həmin cinayətin həyata keçirilməsi məqsədilə edilən siyasi, irqi və ya dini motivlər üzrə təqiblər».

Dövlətlərin məsuliyyəti ilə bağlı konvensiyalardan biri 9 dekabr 1948-ci il genosid cinayətlərinə görə xəbərdarlıq və cəzanın nəzərdə tutulması haqqında konvensiyadır. 1-ci və 9-cu maddələr genosid cinayətinin törədilməsinə görə dövlətlərin məsuliyyətini nəzərdə tutur. Bu konvensiya genosidi də beynəlxalq cinayət kateqoriyasına aid edilir (maddə 1).

Hərbi və bəşəriyyətə qarşı edilmiş cinayətlərə müddətin keçməsinin qeyri-tətbiqi haqqında 1968-ci il Konvensiyası beynəlxalq hərbi cinayətlər kimi bəşəriyyətə qarşı edilən cinayətləri, silahlı hücum və ya işğal nəticəsində qovulmanı, aparteid siyasəti və genosidin nəticəsi olan qeyri-insani hərəkətləri nəzədən keçirir (maddə 1).

İnsan hüquqlarının pozuntusu dövlət siyasəti xarakterinə malik olduqda da bütövlükdə beynəlxalq hüquq pozuntusunun və beynəlxalq məsuliyyət pozuntusunun baş verməsi barədə məsələ ortaya çıxır.

Rasizm təkcə dövlətdaxili cinayət kimi yox, eləcə də beynəlxalq hüquqpozuntusu kimi BMT nizamnaməsinin və müasir beynəlxalq hüququn prinsip və məqsədlərinin pozuntusu kimi nəzərə alınır. Elə məhz bu nöqteyi-nəzərdən də millətpərəstlik, aparteid, rasizm və s. bu kimi hüquq əleyhinə ictimai siyasi təzahürləri qeyd etmək lazımdır.

Buna görə də hələ 1962-ci ildə BMT Baş Assambleyası BMT-yə üzv olan dövlətlərə Cənubi Afrika respublikasındakı aparteid siyasətinin ləğv edilməsi məqsədilə onunla siyasi və iqtisadi əlaqələrin kəsilməsi təklifini verdi.1964-cü ilin iyununda Təhlükəsizlik Şurası silah və zirehli texnika istehsalı üçün lazım olan material və vasitələrin, habelə silahların CAR-a yerləşdirilməsi və satılmasının dərhal dayandırılması barədə qərar qəbul etdi.

1968-ci ilin oktyabrı BMT-nin insan hüquqları üzrə komissiyası, azlıqlarının diskriminasiyası və müdafiəsi barədə xəbərdarlıq edilməsi üzrə komissiyanın rəhbərliyi ilə XXI Cenevrə sessiyasında Afrika birliyi təşkilatının nümayəndəsi aydın nitqlə çıxış edərək göstərmişdir ki, CAR rejimləri və Qərb tərəfindən isə

cənubi Rodeziyanın siyasi, iqtisadi, maliyyə və hərbi dəstəyi nəticəsində hələ də 30 mln afrikalı özündə aparteid və irqpərəstlik diskriminasiyası siyasətinin təsirini hiss etməkdə davam edir.

İnsan hüquqlarının beynəlxalq ili kimi qəbul edilmiş 1968-ci il çox təəssüf ki, Cənubi Afrika əhalisinə azadlıq və hüquq bərabərliyi gətirmədi (8, 191). Məhz buna görə də BMT Baş assambleyasının XXIII sessiyası yenidən Cənubi Rodeziya haqqında məsələyə baxmaq və qəbul edilmiş qətnamədə Cənubi Rodaziyadakı xoşagəlməz vəziyyətə görə idarəedici dövlət kimi İngiltərənin cavabdehliyini yenidən sübut etmək və qiyamın yatırılmasının yeganə effektli yolunun idarəedici dövlətin qüvvəsinin tətbiqi olduğu haqqında təəssürat yaratmaq məcburiyyəti qarşısında qaldı .

Baş Assambleya İngiltərəni Cənubi Rodeziyadakı qanunsuz rejimin dərhal ləğv edilməsi məqsədilə güc tətbiq etməyə çağırdı.

Qətnamədə Təhlükəsizlik Şurasının Cənubi Rodeziyadakı irqpərəst rejimlə münasibətdə sanksiyaların həcminin genişləndirilməsinin təcili zəruriliyinə və Cənubi Rodeziyadakı irqpərəst azlığa hər cür yardımın dayandırılması barədə Təhlükəsizlik Şurasının vacib qərarının həyata keçirilməsində açıq-aşkar imtina etmiş Cənubi Afrika və Portuqaliya ilə münasibətdə sanksiyalar tətbiqinin zəruriliyinə diqqət yetirilirdi.

İrqpərəstlik diskriminasiyası müxtəlif formalarda həyata keçir, Cənubi Afrika Respublikasında və Cənubi Rodeziyada bu ərazilərin sakinlərinin çoxunu təşkil edən ağ dərili insanlarla münasibətdə aparteid siyasəti həyata keçirilir. Rəsmi dövlət siyasətinə çevrilərək o, bütün beynəlxalq cəmiyyətin həyatına təsir göstərir. Artıq 1946-cı il BMT Baş Assambleyasının birinci sessiyası qəbul etdiyi qərarda deyilirdi:

“Bəşəriyyətin yüksək maraqlarından irəli gəlir ki, dini və irqi izləmələrə və diskriminasiyalara son qoymaq zəruridir. Bu qətnamə hökumətləri BMT nizamnaməsinin prinsiplərinə sadiq qalmağa və bu məqsədlə təcili və ciddi tədbirlər görməyə çağırırdı. Bu arada bir daha yada salmaq artıq olardı ki, BMT nizamnaməsi irqi, cinsi, dili və dinindən asılı olmayaraq hamı üçün insan hüquqlarına və əsas azadlıqlara qarşı hörmətin rəğbətləndirilməsi və inkişaf etdirilməsi kimi dövlət öhdəliklərindən ərsəyə gəlmiş və bu Nizamnamə hələ irqi üstünlüyün milli nəzəriyyəsinə çevrilmiş, Hitlerizm tamam məhv olmamışdan əvvəl hazırlanmağa başlanmışdır. Bir çox dövlətlərin millətləri, xüsusilə SSRİ və Avropanın İkinci Dünya müharibəsi illərində verdiyi itki və çəkdiyi əziyyətlər on milyonlarla insanın məhv edilməsi və dünya sivilizasiyası inkişafının çox illər geri düşməsi dövlətləri belə bir nəticənin dərk olunmasına gətirib çıxardı ki, irqi diskriminasiya və rasizm ideologiyası, hətta hər hansı bir dövlətin hüdudları daxilində həyata keçirildikdə belə çox təhlükəlidir. İrqpərəst diskriminasiyasının qeyri-qanuniliyinin sonradan tanınması, 1963-cü ildə BMT tərəfindən qəbul edilmiş deklarasiyada və eləcə də 1965-ci il 21 Dekabr tarixində irqpərəst diskriminasiyanın bütün formalarının ləğv edilməsi haqqında Beynəlxalq konvensiyada öz əksini tapmışdır. 1969-cu il 14 Mart tarixində konvensiyada göstərilmiş irqpərəst diskriminasiyanın qadağan

olunması və onunla mübarizə zərurəti dövlətlərin davranış qaydası üçün vacib məsələyə çevrilir.

Dövlət-Konvensiya iştirakçıları irqi diskriminasiyanı onun bütün formalarında qadağan və ləğv etmək və hər bir insanın qanun qarşısında hüquq bərabərliyini təmin etmək öhdəliyini öz üzərinə götürür.

İrqpərəst diskriminasiya ilə mübarizənin əsas ağırlığı irqpərəstliyə həvəsləndirən və onu rəsmi dövlət dərəcəsinə çatdıran ölkələrin millətləri üzərinə düşür.

1948-ci ildən sonra CAR-da aparteid rəsmi dövlət doktrinası oldu və o vaxtdan ölkənin yerli əhalisi seqrasiyaya qarşı müntəzəm mübarizə aparır. CAR-da seqrasiya ailə-nigah münasibətlərindən tutmuş idmanadək həyatın bütün sferasında yayılır.

1960-cı il Martın 21-də Cənubi Afrika şəhərləri arasında diskriminasion tələbə qarşı etirazın sülh kompaniyası başladı ki, Afrikalılar həmişə özlərində ölkə ərazisində hərəkət etməyə yeganə sənədə malik olsunlar. Şarpevil şəhərində silahsız, sülhsevər nümayişçilərə qarşı polis zirehli maşın və hətta reaktiv qırıcı təyyarələr tətbiq etdi. Atışma nəticəsində 74 nəfər ölmüş, 184 nəfər yaralanmışdır. BMT Baş assambleyası qərarına görə 1966-cı ilin 26 oktyabr tarixindən 21 martı Şarpevildəki döyüşün 6 illiyini irqi diskriminasiyanın ləğv edilməsi ilə mübarizənin Beynəlxalq günü kimi keçirmək qərara alındı.

Təəssüflər olsun ki, Cənubi Afrikadakı irqçilik rejimlərinin boykot edilməsi, Cənubi Rodeziya rejiminə qarşı siyasi və iqtisadi sanksiyalar haqqında Təhlükəsiz Şurasının çoxsaylı qərarları bir çox dövlətlərin səhlənkarlıq siyasətinin nəticəsində hal-hazırkı zamanadək yerinə yetirilməmiş qaldı.

Məhz buna görədir ki, irqçi diskriminasiya siyasəti yürüdülən dövlətlərin hökuməti, eləcə də irqçilik rejimləri ilə qərarlı mübarizədən imtina edən və onlara himayəçilik edən hökumətlər bütün beynəlxalq ictimaiyyət qarşısında, bütün dünya xalqları qarşısında məsuliyyət daşımalıdırlar.

Aparteid cinayətinin qarşısını almaq və onun cəzalandırılması haqqında 1973-cü ilin Konvensiyası da aparteidi beynəlxalq hüquq prinsiplərini pozan cinayət kimi təsnif edir. Bu Konvensiyada cinayət kimi aparteidə yaxın olan irqi seqreqasiya və ayrı-seçkilik siyasəti və təcrübəsi təsnif olunur (maddə I və II).

Cənubi Afrikada keçmiş konfliktlərdən zərər çəkənləri təzminatla təmin etmək üçün hüquqi baza Millətlər Birliyinin fəaliyyəti və Barışma Aktıdır. Bu qanun 1995-ci ildə əvvəlki idarəedici tərəfin sıralarından güclü qarşıdurma nəticəsində yarandı və onun aşağıdakı məqsədləri var:

1. 1960-cı il martın 1-ə qədər olan müddət ərzində dövlət daxilində və xaricində yaranmış kütləvi insan hüquqlarının pozulmasının dərəcəsini, səbəblərini, xarakterinin həyata keçirilməsini, araşdırılmasını və zərər çəkənlərin həyatlarının təminatını təmin etmək;
2. Qeyd edilən dövrdə konfliktlər zamanı baş vermiş siyasi obyektivliklə əlaqələnmiş aktlara münasibətdə adamlara amnistiya vermək, zəmanət vermək;
3. Zərər çəkənlərin insan və vətəndaş ləyaqətinin yenidən bərpası və təzminata zəmanətdə əldə edilmiş tədbirləri həyata keçirtmək;

4. Hüquq pozuntuları və zərər çəkənlər haqqında xalqa məruzə etmək.

Akt Həqiqət və Barışıq Komissiyasının, İnsan hüquqlarının pozulması üzrə Komitənin, Amnistiya üzrə Komitə və Təzminat və bərpaetmə üzrə Komitəsinin yaradılmasını təmin edir. Prezident Mandela tərəfindən təyin olunmuş Həqiqət və Barışıq Komissiyası 1996-cı ildən qüvvədə olub və 1998-ci ilin iyun ayına kimi öz vəzifəsini tamamlayıb.

Təzminat və bərpaetmə komitəsi aktın razılaşdırma şəraitində təhqiqat və barışıq komitəsi funksiyalarından biri aşağıdakılarla bağlı prezidentə müraciət etməsidir:

1. Zərər çəkənlərə təzminat ödəmək və yaxud zərər çəkənin vətəndaş və insani layəqətinin bərpası və zərərin ödənilməsinə münasibətdə digər tədbirlərini nəzərə almaqla siyasət izlənilməli və yaxud uyğun gəlməlidir;
2. Zərər çəkənləri müvəqqəti tez həyata keçən təzminat ilə təmin etmək üçün tədbirlər həyata keçirilməlidir.

Təzminat və bərpaetmə Komitəsi TBK-nin təzminat siyasətini həyata keçirmək üçün əsasdır (14, 124).

BMT-nin himayəsi altında olan dövlət səlahiyyətli nümayəndələrinin diplomatik konfransı tərəfindən 1998-ci ilin iyul ayında qəbul edilmiş Beynəlxalq Cinayət məhkəməsinin Nizamnaməsi beynəlxalq cinayətlərin kateqoriyasını olduqca genişləndirdi.

Bu kateqoriyaya Məhkəmə: genosid cinayətini, insanlığa qarşı cinayəti, hərbi cinayət və təcavüzü daxil etdi.

Bununla belə hərbi cinayət və insaniyyətə qarşı cinayət kateqoriyasına kifayət qədər yeni cinayət tərkibi daxil olunub: mülki şəxslərə qarşı: qətl, məhv etmə, əsarət, deportasiya, azaldlıqdan məhrumetmə, işgəncələr, seksual zorakılığın müxtəlif formaları kimi cinayətlər, cəmiyyətin hər hansı bir qrupunun siyasi, milli, etnik, mədəni, dini, cinsi və başqa səbəblərə görə təqib edilməsi, insanların məcburi yox olması; aparteid; oxşar xarakterli digər qeyri-insani hərəkətlər.

Beynəlxalq hüquq üzrə ədəbiyyatda belə bir fikir geniş yayılmışdır ki, beynəlxalq hüquq pozuntusunun və cinayətin subyekti yalnız dövlətdir, fərd isə yalnız dövlətdaxili hüququn normaları əsasında cavab verə bilər.

Bu fikir müasir beynəlxalq münasibətlərin təcrübəsi və əksər beynəlxalq müqavilələrin nizamnamələri ilə təkzib olunur. Fərd beynəlxalq hüququn subyekti olmaq etibarı ilə öz hərəkətləri ilə beynəlxalq hüququn bu və ya digər prinsip və normalarını bilavasitə poza bilər. Belə hallarda o, beynəlxalq müqavilə ilə nəzərdə tutulan məsuliyyəti daşıyır. Bu zaman onun dövlət nümayəndəsi və ya xüsusi şəxs olmasının əhəmiyyəti yoxdur.

Hələ Nurnberq tribunalı öz hökmündə belə bir fikri təkzib etdi ki, guya beynəlxalq hüquq onun pozulmasına görə cinayət məsuliyyəti daşıya biləcək fiziki şəxslərin üzərinə müəyyən vəzifələr qoymur: «Beynəlxalq hüquqa qarşı cinayətlər abstrakt kateqoriyalar tərəfindən yox, insanlar tərəfindən edilir və yalnız belə cinayətləri edən ayrı-ayrı şəxsləri cəzalandırmaq yolu ilə beynəlxalq hüququn qanunlarına riayət etmək olar».

BMT səlahiyyətləri daxilində qəbul olunmuş müqavilələrin əksəriyyəti, bilavasitə fərdə ünvanlanmışdır.

Onlar fərdin bu və ya digər hərəkətinin bilavasitə cinayətə, yaxud digər məsuliyyətə səbəb olduğunu elan edərək, təqsirkar şəxsləri cəzalandırmağı dövlətlərə tapşırır. Adətən belə şəxslər yerləşdikləri ərazidə həm beynəlxalq hüququ, həm də bilavasitə dövlətin qanunlarını pozurlar. İştirakçı-dövlətlər belə öhdəliklərin yerinə yetirilməsi məqsədilə öz daxili qanunvericiliyində təcrübədə tətbiq olunan müvafiq normalar maliyyələşdirir.

Bir sıra beynəlxalq cinayətlərə görə məsuliyyət harda və nə vaxt törədilməsindən asılı olmayaraq yaranır. Belə halda törədilən cinayətlərin dövlətin qanununda nəzərdə tutulması və həmin şəxsin dövlətin vətəndaşı və ya xarici vətəndaş olması heç bir əhəmiyyət kəsb etmir. Belə şəxs, bilavasitə beynəlxalq prinsip və normaları pozur, dövlətdaxili hüquqda buna müvafiq normaların olmaması onu heç də məsuliyyətdən azad etmir.

Hər bir dövlət beynəlxalq hüquq normalarına müvafiq olaraq belə şəxsləri cinayətkar kimi qəbul etməlidir.

Fərd dövlət adından hərəkət edərək beynəlxalq cinayət törədərsə, onda həmin dövlətin beynəlxalq-hüquqi məsuliyyət məsələsi ortaya çıxır.

Əksər beynəlxalq cinayətlərin xüsusiyyəti ondan ibarətdir ki, onlar xüsusi şəxslər tərəfindən yox, rəsmi mövqe tutmuş və belə cinayətləri təşkil etmiş dövlət adından hərəkət edən şəxslər tərəfindən törədilir. Bununla əlaqədar olaraq, beynəlxalq cinayətlərdə təqsirləndirilən hökumətin onun sərəncamını yerinə yetirənlərin məhkəməyə verilməsinə, ələlxüsus da, ona qarşı ittiham hökmünün çıxarılmasına razılaşmasını çətin təsəvvür etmək olar. Bu isə Beynəlxalq Cinayət Məhkəməsinin yaranmasının əsas səbəblərindən biri oldu. O, dövləti yox, beynəlxalq cinayətlərdə günahkar sayılan konkret fiziki şəxsləri mühakimə edir. Belə halda, Məhkəmənin Nizamnaməsində xüsusi qeyd olunmuşdur ki, tutduğu vəzifədən asılı olmayaraq o bütün şəxslərə tətbiq olunur.

Beynəlxalq cinayət məhkəməsinin yaranması o demək deyildir ki, dövlət beynəlxalq cinayətlərdə təqsiri olan vətəndaşlarını və başqa şəxsləri mühakimə etmək yurisdiksiyasından məhrum olur. Lakin dünya ictimaiyyətinə ciddi təhlükə törədən cinayət törədənlər, bundan sonra Beynəlxalq Cinayət Məhkəməsinin yurisdiksiyasının təsiri altına düşür.

Ümumiyyətlə, 20-ci əsrin başlanğıcına kimi beynəlxalq hüquqda beynəlxalq cinayət anlayışı yox idi.

İkinci Dünya müharibəsində Almaniyanın və Yaponiyanın məğlub edilməsi, Nürnberq və Tokio hərbi tribunalların yaranması, beynəlxalq hüququn inkişaf etməsi və bir sıra qanunazidd hərəkətlərin beynəlxalq cinayət kimi tanınması dünya ictimaiyyətinin daimi fəaliyyətdə olan Beynəlxalq Cinayət Məhkəməsinin yaradılmasının zəruriliyini dərk etməsinə gətirib çıxardı. Bu, xüsusən aktualdır, çünki insan hüquqlarının pozulmasında təqsirkar olan, sülh və bəşəriyyətə qarşı cinayət törədən cinayətkar şəxslərin əksəriyyəti BMT yaranandan və BMT Nizamnaməsi qəbul ediləndən sonra cəzasız qaldılar. Qeyd olunduğu kimi, belə

vəziyyət ona görə yaranır ki, adətən bu cinayətləri hökumət üzvləri və başqa rəsmi şəxslər edir və dövlətlərin məhkəmələri onları məsuliyyətə cəlb etmirlər. Tamamilə aydındır ki, dövlət məhkəmələri, xüsusən dövlətlər tərəfindən təşkil olunan və onun rəsmi şəxsləri tərəfindən yerinə yetirilən beynəlxalq cinayət işlərinin həll edilməsində heç bir vaxt təqsirli ola bilməz (16, 29).

Beynəlxalq cinayətlərin çoxu son vaxtlarda baş vermişdir. Ümumiyyətlə, diplomatik nümayəndələrin və birləşmiş millətlərin orqanlarının məsləhətləri, ifrat dərəcədə tənqidləri insan hüquqları sahəsində öhdəliklərin pozulmasına son qoyulmaq məqsədi daşıyır. BMT-nin çoxlu sayda qəbul etdiyi qətnamələr dəyən zərərə görə əvəzin ödənilməsi məqsədini daşıyır. Məs.: Keçmiş Yuqoslaviyada etnik təmizləmə nəticəsində təqibə məruz qalan zərərçəkənlərə müavinat haqqında qətnamələr. Baş Assambleyanın 47/147, 18 Dekabr 1992-ci il; 48/153, 20 Dekabr 1993-cü il; 49/196, Dekabr 1994-cü il ;50/193, 22 Dekabr 1995-ci il qətnamələri.

1993-cü ildə Təhlükəsizlik Şurasının qərarı ilə keçmiş Yuqoslaviya ərazisində insan hüquqlarının pozulmasında cinayətkar şəxslərin məhkəmə təqibi üçün müvəqqəti Beynəlxalq cinayət tribunalı yaradılmışdır.

18 aydan sona, 1994-cü ilin noyabrında həm Burundi, həm də qonşu ölkələrdə kütləvi qətl əməlləri törədən şəxsləri məsuliyyətə cəlb etmək üçün Təhlükəsizlik Şurası Burundi üzrə Beynəlxalq tibunal təsis etdi: lazımi qədər maliyyə vəsaitinin olmaması; bir sıra dövlətlərin Tribunalla əməkdaşlıq etməmək və onların qərarlarına tabe olmaması; inzibati və texniki çətinliklər. Belə strukturların yaranması, daimi fəaliyyətində olan Məhkəmənin təsis olunması barədə məsələni beynəlxalq birliyin gündəliyindən çıxarmadı.

1995-cı ildə Baş Məclis dövlətlərin əksəriyyəti üçün münasib olan Beynəlxalq Cinayət Məhkəməsi Nizamnaməsinin son mətnini tərtib etmək məqsədilə hazırlıq komitəsinin təsis olunması barədə qərar qəbul etdi. Hazırlıq komitəsi iki il ərzində Nizamnamənin layihəsini işləyib hazırladı.

1988-ci ilin iyunun 15-dən İyulun 17-nə kimi layihə Romada beynəlxalq konfransda müzakirə olundu, burada iştirak etmək üçün BMT və onun xüsusi idarələrinin üzvləri olan bütün dövlətlər dəvət olunmuşdular. Layihənin geniş və təfsilatlı müzakirəsinin nəticəsində 120 dövlət layihənin qədul edilməsinə tərəfdar oldu, 21 dövlət bitərəf qaldı, yeddi nəfər isə əleyhinə səs verdi. Bir sıra ölkələr müstəqillik prinspilərinə istinad edərək və yüksək vəzifəli şəxslər də daxil olmaqla onların vətəndaşlarının Məhkəmənin yurisdiksiyasının təsiri altına düşən cinayətlərə görə məsuliyyətə cəlb olunmasından qorxaraq Məhkəmənin Nizamnaməsinin qəbul edilməsinə tərəfdar olmadılar.

Beynəlxalq Cinayət Məhkəməsinin yaranması haqqında qərar və onun Nizamnaməsinin qəbul edilməsi-dövlətlərarası münasibətlərin və beynəlxalq hüququn inkişafında keyfiyyətcə yeni mərhələnin başlanğıcıdır. Hitlerin hərbi cinayətkarları Nyunberqdə tribunal qarşısında durandan sonra ilk dəfə olaraq Beynəlxalq birlik əksər səs çoxluğu ilə təcavüzkar müharibələrin başlanmasında təqsirkar olan şəxslərə; tutduğu vəzifədən asılı olmayaraq hərbi cinayət və bəşəriyyətə qarşı cinayətlərin törədilməsində təqsirkar olan hər bir kəsə hökm çıxa-

raraq daimi işləyən ali məhkəmə instansiyasını yaratmaq qərarını qəbul etdi. Bu sahədə Məhkəmənin yurisdiksiyası genişdir.

Dünya ictimaiyyətini təşvişə salan bütün təhlükəli cinayətləri əhatə edən cinayət tərkibləri Beynəlxalq Cinayət Məhkəməsinin Nizamnaməsində ifadə olunmuşdur.

Mövcud vəziyyətdə insan hüquqlarının müdafiəsi yalnız ayrı-ayrı dövlətlərin problemi deyil, bütünlükdə beynəlxalq ictimaiyyətin problemidir. Şübhəsiz ki, insan hüquq və azadlıqlarının beynəlxalq hüquqi müdafiə mexanizmlərinin sabit işləməsinin təminatçısı dövlətlərin insan hüquqlarına dair beynəlxalq öhdəliklərinin pozulması zamanı məsuliyyətin olmasıdır. Belə məsuliyyəti dövlət həm digər dövlət, həm də onun yurisdiksiyası altında olan fərdlər qarşısında daşıyır. İnsan hüquq və azadlıqlarının təmin edilməsində dövlətlərin beynəlxalq hüquq öhdəliklərinin implementasiyasında mərkəzi yerdə olan qanunverici orqan mühüm rola malikdir.

Məhz insan hüquqları sahəsində dövlətlərin beynəlxalq öhdəliklərə cavab verən və ya cavab verməyən qanunverici aktların qəbul edilməsi nəticəsində insan hüquqlarının pozulmasına səbəb olur. İnsan hüquqlarının pozulması məhkəmələr tərəfindən maddi və prosessual hüquq normalarının düzgün tətbiq edilməməsi nəticəsində də yarana bilər.

İnsan hüquq və azadlıqları sahəsində bağlanan beynəlxalq müqavilələrdən yaranan dövlətlərin öhdəlikləri, onunla xarakterizə olunur ki, dövlətlər yalnız beynəlxalq müqavilənin iştirakçısı olan dövlətlər qarşısında insan hüquqlarının müdafiəsinin təmini sahəsində deyil, həm də hüquqpozan dövlətin qurbanı olan fərdlər qarşısında məsuliyyət daşıyır. Dövlətin dövlətlər və fərdlər qarşısında məsuliyyətində fərqlər mövcuddur. Birinci halda söhbət siyasi məsuliyyətdən gedirsə, ikinci halda söhbət maddi məsuliyyətdən gedir. Dövlətlərin fərdlər qarşısında məsuliyyətin maddi ziyanın mövcud olmasından asılı olmayaraq beynəlxalq öhdəliklərin pozulması faktından yaranır. İnsan hüquqlarına aid beynəlxalq hüquqi aktlardan yaranan öhdəliklər müddətsiz xarakter daşıyır. Həmin aktlar dövlətdaxili normativ aktlar üzərində üstünlüyə malikdirlər və dövlətlərin hüquq sistemində xüsusi yer tuturlar. Məs.: AR Konstitusiyasının 12-ci maddəsində qeyd olunur ki, insan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi dövlətin ali məqsədidir. Bu konstitusiyada sadalanan insan və vətəndaş hüquqları və azadlıqları Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun tətbiq edilir.

Bundan başqa insan hüquqları sahəsindəki öhdəliklər dövlətlərin digər beynəlxalq hüquq öhdəlikləri üzərində üstünlüyə malikdirlər. İnsan hüquq və azadlıqlarına aid olan müqavilələr qüvvəyə minəndən sonra onların pozulmasına görə konkret dövlətlərə qarşı münasibət yaranır.

Dövlət adətən onun ərazisində yaşayan insanların hüquq və azadlıqlarının təmin edilməsinə görə məsuliyyət daşıyır. Avropa konvensiyasının (1950-ci il) 1-ci maddəsi və Mülki və siyasi hüquqlar haqqında (1966-cı il) paktında dövlət ərazisində və ondan kənarda yaşayan şəxslərin hüquqlarının müdafiəsinin təmin edilməsində məsuliyyət daşıyır.

Dövlətlərin məsuliyyətinin əsasını insan hüquqlarının müdafiəsi ilə yanaşı həm də onların təmin olunmasına nəzarət təşkil edir. Dövlətlər öz ərazisində yaşayan bütün əhali üçün insan hüquqlarının müdafiəsini təmin etməlidir.Bəzi insan hüquqları vardır ki, dövlət tərəfindən yalnız müəyyən insan qruplarına verilir, məs.: Seçkilərdə iştirak etmə hüququ yalnız dövlətin öz vətəndaşlarına verilir. Dövlət hüquqları pozulmuş insanlara hüquqların bərpa edilməsi, müdafiəsi sahəsində effektiv vasitələr təqdim etməlidir və həmin hüquqpozmalarının qarşısını almalıdır. Beynəlxalq hüquqa müvafiq olaraq konkret hallarda həmin hüquqlar məhdudlaşdırıla bilər. Məsələn: Əgər şəxsin təqsiri ədalətli məhkəmə araşdırılması zamanı müəyyən edilirsə, bu zaman dövlət qanun əsasında həmin şəxsin azad hərəkət etməsini onu həbs etməklə məhdudlaşdırır. Mülki və siyasi hüquqların məhdudlaşdırılması yalnız o halda mümkündür ki, bu məhdudiyyətlər qanunla müəyyən edilsin, digər şəxslərin hüquqlarının təmin edilməsinə yönəlsin və demokratik cəmiyyətin qayda-qanunlarının riayət edilməsinin təmininə şərait yaratsın. Bəzi insan hüquqları müharibə və ya silahlı münaqişə zamanı olduqda belə məhdudlaşdırıla bilməz. Məs.: yaşamaq hüququ, fikir, vicdan və din azadlığı və s. (Mülki və siyasi hüquqlar haqqında paktın 4-cü bölməsinin 3-cü bəndi) İnsan hüquq və azadlıqlarının müdafiəsi sahəsində, xüsusilə fərqlənən konvensiya Avropa İnsan Haqları konvensiyasıdır.

## ƏDƏBİYYAT


1. Əliyev Ə.İ. İnsan hüquqlarının beynəlxalq hüquqi müdafiəsi. Bakı, 2009
2. Əliyev Ə.İ. Müasir beynəlxalq hüquqda insan hüquqları, əhali və miqrasiya problemləri. Bakı, 2007
3. Əliyev Ə.İ. İnsan hüquqları. Dərslik. Bakı, 2013
4. Məmmədov R.F. Beynəlxalq hüquq. Dərslik. Bakı, 2005
5. Гусейнов Л.Г. Международная ответственность государств за нарушения прав человека. Киев, 2000.
6. Гусейнов Л.Г. Ответственность государств за нарушения договорных обязательств в области прав человека (на примере Европейской Конвенции о защите прав и основных свобод человека). // МЖМП, 1998, Специальный выпуск.
7. Гусейнов Л.Г. Проблема присвоения государству нарушений прав человека. // «Вопросы устойчивого и бескризисного развития» (научно-периодическое издание Международной кафедры ЮНЕСКО и Сибирского Отделения РАН), №2/1, Новосибирск, 2000.
8. Раппопорт М.Я. К вопросу об ответственности за преступления против человечества Вестник ЛГУ, серия, экономики философии и права 1965 № 5, с. 78-86
9. Раскалей С.Б. Обьективная ответственность государств в международном праве Киев, 2002
10. Скакунов Э.И. Самопомощь как форма принудительного обеспечения субъективных прав государств. Авто реферафт канд.дис. М., 2008
11. Фаруkшин М.Х . Международно правовая ответственность. М., 1988
12. Bastid S. Cours de droit iternational public. Paris, 2006
13. Garcia-Mora M.R.. (2004). International responsibility for hostile act of private persons against foreign states .Hague M. Nijhoff,
14. Kelsen H. Theorie du droit iternational public- “recueil des cours” ,2000, III, t 84.
15. M. Sorensen. Principes de droit iternational public. “Rekueil des cours” 1992

16. Monaco R. Cours general de droit international public.Extrait du “Recueil des cours” 1968 III .
17. P. Ruter. Prinsipies de droit iternational public. “Rekueil des cours” 1991 T II ., 2009

## ОТВЕТСТВЕННОСТЬ ГОСУДАРСТВ В ОБЛАСТИ НАРУШЕНИЙ ПРАВ ЧЕЛОВЕКА

**Н.Г.МЕХТИЕВ**

### РЕЗЮМЕ

Государство должно полностью возместить ущерб, причиненный другому государству и его затронутым лицам, в результате нарушения международного права и восстановления его нарушенных прав.

Поскольку ответственность государств в области нарушений прав человека носит более политический характер, чем криминальный характер, решение этой проблемы должно решаться через призму международного права. Это доказывает неадекватность роли международного права в современном мире. Также отмечается, что нарушение прав человека может возникнуть в результате ненадлежащего применения судами правовых и процессуальных норм. Международное право защищает международное право государств, а также международные права отдельных лиц в соответствии с международными обязательствами государств.

**Ключевые слова:** права человека, ответственность государства, нарушения прав человека, защита прав человека, международные договоры, Международный уголовный суд

## STATE RESPONSIBILITY IN THE AREA OF HUMAN RIGHTS VIOLATIONS

**N.H.MEHTIYEV**

### SUMMARY

The state must fully compensate the damage caused to another state and its persons affected as a result of the violation of international law and the restoration of its rights violated.

Since the responsibility of states in the area of human rights violations is more political than criminal in nature, the solution of this problem should be solved by the prism of international law. This proves the inadequacy of the role of international law in our time. It is also noted that a violation of human rights may arise as a result of the inappropriate application of legal and procedural rules by the courts. International law protects the international law of States, as well as the international rights of individuals in accordance with the international obligations of States.

**Keywords:** human rights, state responsibility, human rights violations, protection of human rights, international treaties, International Criminal Court

BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№1 Sosial-siyasi elmlər seriyası 2019

UOT 343.1

# HƏRBİ XİDMƏT ƏLEYHİNƏ OLAN CİNAYƏTLƏR ÜZRƏ CİNAYƏT İŞİNİN BAŞLANMASI MƏRHƏLƏSİNİN BƏZİ PROBLEMLƏRİ

**C.H.ƏZİZOV**
***Bakı Dövlət Universiteti***
***ceyhundmx@gmail.com***

*Çağırış və ya kontrakt üzrə Azərbaycan Respublikası Silahlı Qüvvələrində, digər qoşun və hərbi birləşmələrdə hərbi xidmət keçən hərbi qulluqçuların, qanunla müəyyən edilmiş qaydada hərbi qulluqçu statusuna malik olan başqa şəxslərin, habelə təlim və ya yoxlama toplanışlarına cəlb edilmiş hərbi vəzifəlilərin hərbi qulluğun müəyyən edilmiş qaydaları əleyhinə yönələn və bu fəsildə nəzərdə tutulmuş cinayətləri hərbi xidmət əleyhinə olan cinayətlər hesab olunur. Cinayət prosesi cinayət işinin başlanması mərhələsində başlayır və ibtidai araşdırma mərhələsində davam edir. Cinayət işinin başlandığı andan etibarən cinayət təqibi mexanizmi işə salınır və cinayət təqibi orqanları vətəndaşların hüquq və qanuni maraqlarını təmin etmək və obyektiv həqiqəti yaratmaq üçün qanunla nəzərdə tutulmuş bütün vasitələrdən istifadə etmək imkanına malikdir.*

**Açar sözlər:** cinayət-prosessual hüquq, mərhələlər, cinayət işi başlama, prosessual forma, problemlər, təhlil.

1999-cu ildə qəbul olunmuş Cinayət Məcəlləsində hərbi xidmət əleyhinə olan cinayətlərə eyniadlı XII Bölmə və həmin bölmənin tərkib hissəsi kimi XXXV Fəsil həsr edilmişdir. Bu Fəslin ilk maddəsi, yəni 327-ci maddəsi hərbi xidmət əleyhinə olan cinayətlərin leqal tərifini, digər 26 maddəsi isə, yəni 328-353-cü maddələr hazırda hərbi cinayət hesab edilən əməllərin dairəsini və bu əməllərə görə verilməli olan cəzaların növ və hədlərini nəzərdə tutur.

Qüvvədə olan AR CM-in 327.1-ci maddəsinə əsasən, çağırış və ya kontrakt üzrə Azərbaycan Respublikası Silahlı Qüvvələrində, digər qoşun və hərbi birləşmələrdə hərbi xidmət keçən hərbi qulluqçuların, qanunla müəyyən edilmiş qaydada hərbi qulluqçu statusuna malik olan başqa şəxslərin, habelə təlim və ya yoxlama toplanışlarına cəlb edilmiş hərbi vəzifəlilərin hərbi qulluğun müəyyən edilmiş qaydaları əleyhinə yönələn və CM-in 35-ci fəslində nəzərdə tutulmuş cinayətləri hərbi xidmət əleyhinə olan cinayətlər hesab olunur. Qeyd edilməlidir ki, CM-in 327.1-ci maddəsində göstərilməmiş şəxslərin hərbi xidmət əleyhinə olan cinayətlərdə iştirakı 35-ci fəslin müvafiq maddələri üzrə məsuliyyətə səbəb olur.

Hazırda qüvvədə olan cinayət qanunvericiliyinə görə hərbi xidmət əleyhinə

olan cinayətlərin sisteminə aşağıdakı əməllər aiddir:

1) Əmri icra etməmə (328-ci maddə);

2) Rəisə müqavimət göstərmə və ya onu qulluq vəzifəsini pozmağa məcbur etmə (329-cu maddə);

3) Rəisə qarşı zorakı hərəkətlər etmə (330-cu maddə);

4) Hərbi qulluqçunu təhqir etmə, döymə və ya işgəncə vermə (331-ci maddə);

5) Tabelik münasibətlərində olmayan hərbi qulluqçular arasında qarşılıqlı münasibətlərin nizamnamə qaydalarını pozma (332-ci maddə);

6) Hərbi hissəni və ya xidmət yerini özbaşına tərk etmə (333-cü maddə);

7) Fərarilik (334-cü maddə);

8) Öz sağlamlığına zərər vurmaqla və ya sair üsulla hərbi xidmətdən boyun qaçırma (335-ci maddə);

9) Qarovul xidmətinin nizamnamə qaydalarını pozma (336-cı maddə);

10) Daxili xidmətin və ya patrul xidmətinin nizamnamə qaydalarını pozma (337-ci maddə);

11) Döyüş növbəsi çəkmə qaydalarını pozma (338-ci maddə);

12) Sərhəd xidməti qaydalarını pozma (339-cu maddə);

13) İctimai qaydanın mühafizəsi və ictimai təhlükəsizliyin təmin edilməsi üzrə xidmət qaydalarını pozma (340-cı maddə);

14) Hakimiyyətdən sui-istifadə etmə, hakimiyyət həddini aşma və ya hakimiyyətdən istifadə etməmə (341-ci maddə);

15) Qulluğa səhlənkar yanaşma (342-ci maddə);

16) Müharibə aparma vasitələrini düşmən üçün qoyub getmə (343-cü maddə);

17) Batmaqda olan hərbi gəmini tərk etmə (344-cü maddə);

18) Döyüş meydanını özbaşına tərk etmə və ya silah işlətməkdən boyun qaçırma (345-ci maddə);

19) Əsirlikdə olan hərbi qulluqçunun cinayət hərəkətləri (346-cı maddə);

20) Hərbi əmlakı itirmə (347-ci maddə);

21) Hərbi əmlakı ehtiyatsızlıqdan zədələmə, xarab etmə və ya məhv etmə (348-ci maddə);

22) Hərbi əmlakı qəsdən məhv etmə və ya zədələmə (349-cu maddə);

23) Silahla və ətrafdakılar üçün yüksək təhlükə törədən əşyalarla davranış qaydalarını pozma (350-ci maddə);

24) Maşınları idarəetmə və istismar qaydalarını pozma (351-ci maddə); 25) Uçuş və ya uçuşa hazırlıq qaydalarını pozma (352-ci maddə);

26) Hərbi gəmiləri idarəetmə qaydalarını pozma (353-cü maddə).

1999-cu il CM-in XXXV Fəslinin əsas xüsusiyyətlərindən biri ondan ibarətdir ki, əvvəllər qüvvədə olmuş Cinayət Məcəlləsi ilə müqayisədə, onda nəzərdə tutulan cinayət tərkiblərinin sayı nisbətən məhdudlaşdırılmışdır. Bu fəsildə yalnız hərbi xidmət keçmənin müəyyən edilmiş qaydaları (yəni hərbi intizam tələbləri və hərbi qulluqçuların funksional vəzifələri əleyhinə olan cinayətləri nəzərdə tutan

tərkiblər saxlanmışdır (10, 529-532).

Cinayət prosesi quruluşuna görə ardıcıl, lakin mürəkkəb struktura malikdir. Cinayət prosesinin ardıcıllığı onda təzahür olunur ki, o, bir-birini ciddi ardıcıllıqla əvəz edən müstəqil mərhələlərdən ibarətdir (məsələn, cinayət prosesi cinayət işinin başlanması mərhələsində başlayır, ibtidai araşdırma mərhələsində davam edir və daha sonra məhkəmə baxışı mərhələsinə keçir və s.). Onun mürəkkəbliyi isə onda ifadə olunur ki, cinayət prosesinin həyata keçirilməsi bir sıra icraat növlərinin realizəsindən ibarətdir. Hətta bəzən bir mərhələ daxilində bir neçə icraat növünün realizəsinin də şahidi olmaq mümkündür (məsələn, ibtidai araşdırma mərhələsində eyni zamanda həm ibtidai istintaq icraatı, həm də məhkəmə nəzarəti üzrə icraat həyata keçirilə bilər və s.) (7, 316).

Cinayət işinin başlanması mərhələsi cinayət prosesinin ilk mərhələsidir. C.H.Mövsümov müstəqilliyə qədərki cinayət prosesinin cinayət işi başlama mərhələsini xarakterizə edərkən qeyd edirdi ki, cinayət işi başlama cinayət prosesinin ilk və müstəqil mərhələsi olub, buna səlahiyyəti olan dövlət orqanları tərəfindən cinayət işi üzrə icraata başlamaq üçün qanunda nəzərdə tutulan zəruri şərtlərin mövcud olmasının aydınlaşdırılması və bundan asılı olaraq cinayət işi başlama və ya cinayət işini başlamanı rədd etmə haqqında məsələnin həll edilməsi məqsədilə həyata keçirilən prosessual fəaliyyətdir (6, 127). Müstəqillikdən sonrakı cinayət prosesinin cinayət işinin başlanması mərhələsinin mahiyyətini izah edən M.Ə.Cəfərquliyevin mövqeyinə görə, bu mərhələni tənzim edən normalar sistemi cinayət işi başlamanın və ya onu rədd etmənin şərtlərini və prosessual formasını müəyyən edir. Həm C.H.Mövsümov, həm də M.Ə.Cəfərquliyev qeyd edirlər ki, cinayət işi başlama mərhələsinin mühüm prosessual əhəmiyyəti onunla izah edilir ki, hər bir konkret iş üzrə cinayət prosesi cinayət işinin başlanması ilə həyata keçirilir, qanunla müəyyən edilmiş istintaq və məhkəmə hərəkətləri yalnız cinayət işi başlandıqdan sonra həyata keçirilə bilər (3, 362; 6, 127).

Cinayət işinin başlanması mərhələsində söhbət vəzifəli şəxslərin birtərəfli hərəkətlərindən deyil, eyni zamanda, bu mərhələdə fəaliyyət göstərən proses iştirakçıları ilə cinayət-prosessual münasibətlər çərçivəsində hərəkətlərdən gedir. Onların arasında, yəni vəzifəli şəxslər və proses iştirakçıları arasında müəyyən hüquq və vəzifələri nəzərdə tutan prosessual hüquq münasibətləri formasında müvafiq əlaqələr yaranır (3, 363).

F.M.Abbasova göstərir ki, cinayət işinin başlanması mərhələsinin vəzifələri cinayət mühakimə icraatının ümumi vəzifələri ilə uzlaşır, onları konkretləşdirir və törədilmiş və hazırlanan cinayətlər haqqında ərizə və məlumatlara səlahiyyətli dövlət orqanlarının reaksiyasının – onların qeydiyyatının aparılmasının və baxılmasının təmin edilməsi; yoxlanılan hadisə ilə bağlı izlərin və sübutların qorunması; cinayət işinin başlanması üçün əsasların olub-olmamasının müəyyən edilməsi – yoxlanılan hadisə ilə bağlı cinayət təqibinin həyata keçirilməli olub-olmamasının müəyyən edilməsi; yoxlanılan hadisənin əlamətləri əsasında əməlin ilkin tövsif edilməsi; işin istintaq və ya məhkəmə aidiyyətinin müəyyən edilməsi kimi xüsusi vəzifələr qismində təzahür edir. Bu mərhələ cinayət prosesinin müstəqil

mərhələsi kimi özünün başlanma və bitmə anına malikdir. Cinayət işinin başlanması (müvafiq prosessual qərarın – yəni cinayət işinin başlanması haqqında qərarın qəbul edilməsi nəzərdə tutulur) əslində həmin mərhələnin bitmə və işin icraata qəbul edildiyi halda ibtidai araşdırmanın başlanma anıdır. Cinayət işinin başlanma mərhələsinin özü, törədilmiş və ya hazırlanan cinayətlər haqqında məlumatların səlahiyyətli dövlət orqanlarına məlum olduğu və rəsmiləşdirildiyi andan başlayır. Bu mərhələnin başlandığı andan etibarən həyata keçirilən fəaliyyət artıq cinayət-prosessual xarakterli fəaliyyət kimi çıxış edir, yəni o, qanunla tənzimlənir və nəticələri prosessual-hüquqi əhəmiyyət kəsb edir (1, 13).

Hərbi xidmət əleyhinə olan cinayətlər üzrə cinayət işinin başlanmasını ona görə müəyyən xüsusi hal kimi xarakterizə etmək olar ki, bu kimi cinayətlər üzrə ibtidai araşdırma icraatının digər növünün, yəni böyük ictimai təhlükə törətməyən aşkar cinayətlər üzrə sadələşdirilmiş icraatın açılması və ibtidai araşdırmanın məhz bu formada həyata keçirilməsi istisna edilir. Belə ki, CPM-in 214.4-cü maddəsinə əsasən, məhkəməyədək sadələşdirilmiş icraat şəklində təhqiqat CM-in 127.1, 128-131, 174, 175, 177.1, 185.1, 186.1, 187.1, 187.2, 188, 197.1, 200.1, 201.1, 221.1, 256.1, 256.2, 258.1, 258.2, 259.1, 263.1 və 326-cı maddələri ilə nəzərdə tutulmuş böyük ictimai təhlükə törətməyən aşkar cinayətlər üzrə aparılır. Göründüyü kimi, bu cinayətlər arasında hərbi xidmət əleyhinə olan cinayətlər (CM-in 328-353-cü maddələri) nəzərdə tutulmamışdır.

Hərbi xidmət əleyhinə olan cinayətlər üzrə ibtidai araşdırma yalnız ibtidai istintaq şəklində aparıla bilər və bu səbəbdən həmin cinayətlərə dair cinayət işinin başlanması haqqında qərarın vaxtında, eləcə də qanuni və əsaslı şəkildə qəbul edilməsi, xüsusilə əhəmiyyətlidir.

Azərbaycan Respublikasının cinayət prosesində cinayət işinin başlanması mərhələsinin hüquqi tənzimetmə səviyyəsini birmənalı şəkildə qiymətləndirmək çətindir. Məsələ burasındadır ki, bəzi məsələlərdə qanunvericilik cinayət işinin başlanması mərhələsini müfəssəl şəkildə tənzim etsə də, bəzi məsələlərə dair qanunvericilikdə hələ də müəyyən qədər natamamlıqlar qalmaqdadır. Hesab edirik ki, ilk öncə, qanunvericilikdəki natamamlıqlarla bağlı fikir bildirmək yerinə düşər. Belə ki, əminliklə demək olar ki, hazırda cinayət işinin başlanması mərhələsinin ən aktual və həllini tapmamış problemi onun subyektlərinin prosessual vəziyyəti problemidir.

Cinayət işinin başlanması mərhələsində, o cümlədən, hərbi xidmət əleyhinə olan cinayətlərə dair işlər üzrə də bu mərhələdə əsas prosessual fəaliyyət bu mərhələdə müvafiq icraatı (törədilmiş və ya hazırlanan cinayətlər haqqında məlumatlara baxılmasını, zəruri hallarda ilkin yoxlamanın həyata keçirilməsini, eləcə də sonuncunun həyata keçirilməsi ilə əlaqədar müxtəlif prosessual və istintaq hərəkətlərinin icraatını, müvafiq qərarların qəbul edilməsini və s.) həyata keçirən vəzifəli şəxslər – təhqiqatçı və müstəntiq və onların fəaliyyətinə prosessual rəhbərlik və nəzarəti həyata keçirən vəzifəli şəxs – prokuror tərəfindən realizə edilir. Bu fikrin əsas dəlili qismində CPM-in 207-ci maddəsində məhz həmin vəzifəli şəxslərin adlarının sadalanmış olması çıxış edir. Bununla belə, qüvvədə olan cinayət-

prosessual qanunvericiliyin təhlili göstərir ki, qanunverici orqan tərəfindən adları çəkilən vəzifəli şəxslərin leqal tərifləri müəyyən edilərkən, məlum olmayan səbəblərə görə, onların prosessual fəaliyyəti sırf ibtidai araşdırma fəaliyyəti ilə, yəni başqa sözlə desək, cinayət işinin başlanması haqqında qərarın qəbul edilməsi və icraata götürülməsindən (verilməsindən) sonrakı dövrdə həyata keçirilən fəaliyyətlə əlaqələndirilmişdir. Qanunvericilikdə təsbit edilmiş normativ definisiyalarda təhqiqatçının, müstəntiqin və prokurorun cinayət prosesinin ən birinci mərhələsi ilə əlaqədar fəaliyyəti (səlahiyyətləri, hüquqları, vəzifələri, məsuliyyəti) nəzərə alınmamışdır.

Belə ki, CPM-in 7.0.23-cü maddəsinə əsasən, prokuror – öz səlahiyyətləri daxilində qanunda nəzərdə tutulmuş qaydada cinayət işləri üzrə ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən və ya dövlət ittihamçısı qismində məhkəmədə ictimai, yaxud ictimai-xüsusi ittihamı müdafiə edən şəxsdir; 7.0.24-cü maddəsinə əsasən, müstəntiq – öz səlahiyyətləri daxilində qanunda nəzərdə tutulmuş qaydada cinayət işi üzrə ibtidai istintaqı aparan şəxsdir; 7.0.25-ci maddəsinə əsasən isə təhqiqatçı – öz səlahiyyətləri daxilində qanunda nəzərdə tutulmuş hallarda və qaydada cinayət təqibi üzrə təhqiqat aparan şəxsdir.

Göründüyü kimi, yuxarıda qeyd edilmiş leqal definisiyaların məzmunundan belə nəticə çıxarmaq olar ki, Azərbaycan Respublikasının cinayət prosesində təhqiqatçı və müstəntiq kimi vəzifəli şəxslər müvafiq olaraq ibtidai araşdırmanın təhqiqat və ibtidai istintaq formaları üzrə icraat aparırlar, prokuror isə ibtidai araşdırma fəaliyyətinə prosessual rəhbərliyi həyata keçirir. Mübahisəsiz bir faktdır ki, ibtidai araşdırma cinayət işinin (bəzi hallarda məhkəməyədək sadələşdirilmiş icraatın) başlanmasından sonra həyata keçirilir. Bununla belə, cinayət-prosessual qanunvericilik aşkar şəkildə ona dəlalət edir ki, təhqiqatçının və müstəntiqin cinayət işinin başlanmasına (məhkəməyədək sadələşdirilmiş icraatın açılmasına) qədər də prosessual fəaliyyəti mövcuddur və bu fəaliyyət hazırlanan və ya törədilmiş cinayətlərə dair məlumatlara baxılmasından, zəruri hallarda ilkin yoxlamanın həyata keçirilməsindən və bununla əlaqədar olaraq, bir sıra istintaq hərəkətlərinin və prosessual hərəkətlərin icraatından ibarətdir. Tamamilə aşkardır ki, təhqiqatçı və müstəntiqin bu fəaliyyəti heç cür ibtidai araşdırmanın tərkib hissəsi hesab edilə bilməz və bu fəaliyyət birmənalı olaraq ibtidai araşdırmaya qədər həyata keçirilir və özü-özlüyündə gələcəkdə ibtidai araşdırmanın, ümumiyyətlə, həyata keçiriləcəyinin, yaxud həyata keçirilməyəcəyinin "taleyini həll edir".

Bu zaman sual yarana bilər ki, əgər qüvvədə olan cinayət-prosessual qanunvericilik təhqiqatçı, müstəntiq və prokurorun leqal təriflərini təsbit edərkən, onların prosessual fəaliyyətini yalnız ibtidai araşdırma ilə bağlamışdırsa, o zaman cinayət işinin başlanması mərhələsində onların səlahiyyət hədləri hansı həcmdədir? Təhqiqatçı və müstəntiq ibtidai araşdırma ilə bağlı bütün prosessual hüquqlarından cinayət işinin başlanması mərhələsində də istifadə edə bilərlərmi, yoxsa yox?

Hesab edirik ki, bu kimi suallara cavab tapmaq üçün təhqiqatçı, müstəntiq və prokuror kimi subyektlərin cinayət işinin başlanması mərhələsindəki prosessual fəaliyyətinə hüquqi əsas verən normalar təhlil edilməlidir və bu təhlil zamanı

diqqəti cəlb edən əsas məsələ ondan ibarətdir ki, baxmayaraq ki, CPM-in 7-ci maddəsində prosessual statusu tədqiq edilən subyektlərə verilmiş leqal təriflərdə belə bir əlamət qeyd edilməmişdir, əslində, təhqiqatçı, müstəntiq və prokurorun cinayət işinin başlanması mərhələsində konkret məzmunlu prosessual fəaliyyət həyata keçirməsi qanuna zidd deyil, hətta qanunla tənzim edilmişdir. Belə ki, CPM-in sistemli təhlilindən nəticə çıxarmaq olar ki, Məcəllənin bir sıra digər normaları adları çəkilən subyektlərin cinayət işinin başlanması mərhələsində iştirakının hüquqi əsaslarını müəyyən edir.

Bu məsələ ilə əlaqədar olaraq, biz, ilk növbədə, CPM-in 207.1-ci maddəsinə diqqət yetirməyi məqsədəuyğun hesab edirik. Bu maddənin müddəalarından belə nəticə çıxarmaq olar ki, cinayət işinin başlanması mərhələsində təhqiqatçı, müstəntiq və ya ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror törədilmiş və ya hazırlanan cinayət haqqında fiziki və ya hüquqi şəxs tərəfindən daxil olmuş, habelə onun səlahiyyətlərinə aid olan və kütləvi informasiya vasitələrində əks etdirilmiş və təsdiq edən sənədlərlə birgə təqdim edilmiş məlumatı dərhal qeydə almalı və onlara baxmalı, zəruri hallarda törədilmiş və ya hazırlanan cinayət haqqında məlumat (aşkar cinayətlər haqqında məlumatlar istisna olmaqla) alındıqdan sonra 3 (üç) gün müddətində, bu mümkün olmadıqda 10 (on) gündən, ekspertin rəyinin alınması ilə əlaqədar və ya qanunla nəzərdə tutulmuş hallarda isə 30 (otuz) gündən artıq olmayan müddətdə cinayət işinin başlanması üçün əsasların kifayət qədər olmasına dair ilkin yoxlama aparmalı, törədilmiş və ya hazırlanan cinayət haqqında məlumatlara baxılmasının (aparılmış yoxlamanın) nəticələri üzrə cinayət işinin başlanması və ya cinayət işinin başlanmasının rədd edilməsi haqqında qərar qəbul etməlidirlər.

Bundan başqa, hüquqi vəziyyətləri araşdırılan subyektlərin hər birinin prosessual statusunu müəyyən edən normalarda onların cinayət işinin başlanması mərhələsində səlahiyyətlərini təsbit edən müddəalara rast gəlmək olar. Belə ki, CPM-in 84.2.1-ci maddəsinə əsasən, prokurorun törədilmiş və ya hazırlanan cinayətlərə dair daxil olmuş ərizə və digər məlumatlara baxmaq, kifayət qədər səbəblər və əsaslar olduqda cinayət işi başlamaq və bu halda müstəntiqin səlahiyyətlərindən istifadə edərək onun ibtidai istintaqını aparmaq, yaxud onu təhqiqatçıya və ya müstəntiqə tapşırmaq vəzifəsi vardır ki, burada ərizə və məlumatlara baxmaq dedikdə, həm də zəruri hallarda ilkin yoxlama aparmaq başa düşülməlidir. CPM-in 84.5.1-ci maddəsinə əsasən isə prokurorun törədilmiş və ya hazırlanan cinayətlərə dair daxil olmuş ərizə və digər məlumatların təhqiqat və ibtidai istintaq orqanları tərəfindən qəbulu, qeydiyyatı və həll edilməsində qanunun tələblərinin yerinə yetirilməsi vəziyyətini yoxlamaq hüququ vardır. Deməli, prokuror cinayət işinin başlanması mərhələsində həyata keçirilən ilkin yoxlamada həm bilavasitə iştirak edir, yəni onu özü həyata keçirir, həm də vasitəli şəkildə iştirak edir, yəni ilkin yoxlamanı həyata keçirən şəxsin fəaliyyətinin qanuniliyini yoxlayır və ikinci iştirak növü prosessual rəhbərlikdən daha çox prosessual nəzarət xarakterlidir, çünki qanunda prokurorun ilkin yoxlama fəaliyyətinin istiqamətləri barədə göstəriş vermək hüququndan yox, məhz həmin fəaliyyətin gedişində qanu-

nun tələblərinin yerinə yetirilib-yetirilməməsinin yoxlanılması hüququndan bəhs edilir.

Cinayət işinin başlanması mərhələsi ilə bağlı müstəntiqin vəzifəsi CPM-in 85.2.1-ci maddəsində təsbit edilmişdir. Həmin maddəyə əsasən, müstəntiq törədilmiş və ya hazırlanan cinayətlərə dair daxil olmuş ərizə və digər məlumatlara baxmaq, kifayət qədər səbəblər və əsaslar olduqda cinayət işi başlamaq, işi öz icraatına götürmək, cinayətin açılması, işin hərtərəfli, tam və obyektiv araşdırılması üçün zəruri tədbirlər görmək, səlahiyyəti daxilində bütün istintaq və ya digər prosessual hərəkətləri həyata keçirmək vəzifəsi daşıyır.

Şübhəsiz, cinayət işinin başlanması mərhələsində zəruri prosessual fəaliyyəti həyata keçirmək üçün müstəntiqə prosessual hüquqlar da verilmiş olmalıdır. Fikrimizcə, müstəntiqin belə hüquqlarına aşağıdakıları aid etmək olar: hadisə və onunla əlaqəsi olan şəxslər barəsində məlumatları əks etdirən sənədləri və digər materialları tələb etmək (CPM-in 85.4.1-ci maddəsi), müvafiq təhqiqat orqanına cinayətin açılması, itkin düşmüş şəxsin və ya əmlakın tapılması üçün əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsini tapşırmaq və görülmüş tədbirlər barədə məlumat almaq (CPM-in 85.4.5-ci maddəsi) və s.

Eləcə də, təhqiqatçının prosessual vəziyyətini müəyyən edən normaya diqqət yetirsək, onun da cinayət işinin başlanması mərhələsində iştirak edən subyekt kimi hüquq və vəzifələrinə dair müddəalara rast gələ bilərik. Belə ki, CPM-in 86.2.1-ci maddəsi təhqiqatçı üçün də törədilmiş və ya hazırlanan cinayətlərə dair daxil olmuş ərizə və digər məlumatlara baxmaq, kifayət qədər səbəblər və əsaslar olduqda cinayət işi başlamaq, işi öz icraatına götürmək, cinayətin açılması, işin hərtərəfli, tam və obyektiv araşdırılması üçün zəruri tədbirlər görmək, səlahiyyəti daxilində bütün istintaq və ya digər prosessual hərəkətləri həyata keçirmək vəzifəsini müəyyən etmişdir. Eyni zamanda, təhqiqatçının CPM-in 86.4.1-ci maddəsində təsbit edilmiş hadisənin şahidlərinin izahatını almaq, hadisənin baş vermə şəraiti ilə tanış olmaq, hadisə və onunla əlaqəsi olan şəxslər barəsində məlumatları əks etdirən sənədləri və digər materialları tələb etmək hüququnun da cinayət işinin başlanması mərhələsindəki prosessual fəaliyyət üçün əhəmiyyəti böyükdür.

Beləliklə, təhqiqatçı, müstəntiq və prokuror cinayət işinin başlanması mərhələsindəki zəruri prosessual icraatı həyata keçirən subyektlərdir, onlar ibtidai araşdırma ilə bağlı onlara verilmiş hüquq və vəzifələrdən cinayət işinin başlanması mərhələsinin məqsəd və prosessual qaydaları hüdudlarında istifadə edirlər. Bu etapda prokuror daha çox prosessual nəzarət funksiyasını həyata keçirir, lakin müstəsna hallarda ilkin yoxlamanı şəxsən aparır.

Cinayət işinin başlanması mərhələsində iştirak edən subyektlərin prosessual hüquqi statusu ilə bağlı daha bir aktual sual X.R.Vəliyev tərəfindən aşağıdakı kimi formulə edilmişdir: Cinayət işinin başlanması haqqında qərarın qəbul edilməsinə qədər törədilmiş əməldən (baş vermiş hadisədən) *de facto* ziyan görmüş, lakin *de jure* barəsində hələ müvafiq prosessual qərar qəbul edilməmiş, yəni potensial olaraq başlanacaq cinayət işi üzrə gələcəkdə zərərçəkmiş şəxs kimi çıxış edəcək şəxs hansı prosessual statusa malikdir? (7, 320)

Hesab edirik ki, fikrinə istinad edilmiş müəllifin özü həmin sualı kifayət qədər əsaslı şəkildə cavablandırmışdır. O, qeyd edir ki, belə şəxslərin özləri onlar barəsində törədilmiş əməl haqqında məlumat verərlərsə, "ərizəçi", yaxud "məlumat verən şəxs" statusunda, əməl barəsində məlumat hüquq-mühafizə orqanlarına digər mənbələrdən daxil olarsa və əməldən ziyan görmüş şəxslər istintaqa qədərki yoxlamaya (ilkin yoxlamaya) izahat verilməsi üçün dəvət olunarlarsa, "izahat verən şəxs" statusunda çıxış edirlər. Cinayət işinin başlanması mərhələsində məlumat və ya izahat verən şəxslər cinayət prosesində iştirak edən digər şəxslər kateqoriyasının funksional əlamətinə daha çox uyğun gəlirlər, yəni onlarla eyni funksiyanı yerinə yetirirlər. Bu əlamət ilkin yoxlamada izahat və məlumat verən şəxslərin cinayət prosesində iştirak edən digər şəxslərə aid edilməli olmasının daha ağlabatan olduğuna dəlalət edir. Nəzərdən keçirilən mərhələdə məlumat və ya izahat verən şəxsləri şahidlə yalnız qnoseologiya baxımından eyniləşdirmək olar, lakin prosessual anlamda onların da eyniləşdirilməsi mümkün deyil. Baxmayaraq ki, qnoseoloji aspektdən məlumat və ya izahat verən şəxs ona bilavasitə müşahidə və ya başqa yolla qavrama vasitəsilə məlum olmuş bilikləri, cinayət hadisəsinin müxtəlif halları barədə faktları hüquq-mühafizə orqanlarına, bir qayda olaraq, verbal yolla ötürür və bu mənada onların bilik ötürmə fəaliyyəti dərketmə prosesinin qanunauyğunluqları baxımından şahidin ifadə verməsi ilə eynidir, nəzərə alınmalıdır ki, prosessual hüquq baxımından bu fəaliyyət eyniyyət təşkil etmir. Belə ki, şahid, hər şeydən əvvəl, dindirmə istintaq hərəkətinin iştirakçısıdır, cinayət işinin başlanması mərhələsində isə dindirmə istintaq hərəkətinin həyata keçirilməsinə yol verilmir. Odur ki, izahat və məlumat verən şəxsin prosessual vəziyyəti şahidlə tam mənada eyniyyət təşkil etmir və onların spesifik xüsusiyyətləri var (7, 321-322).

Nəhayət, müəyyən etmək lazımdır ki, cinayət işinin başlanması mərhələsi kimin barəsində, yəni hansı prosessual statusa malik olan şəxs barəsində həyata keçirilir? Bir qayda olaraq, cinayət-prosessual hüquqda belə qəbul edilmişdir ki, barəsində cinayət mühakimə icraatı həyata keçirilən şəxs şübhəli şəxs, əgər ona rəsmi ittiham elan edilmiş olarsa, artıq təqsirləndirilən şəxs hesab edilir. Azərbaycan Respublikasının qüvvədə olan cinayət-prosessual qanunvericiliyi isə "şübhəli şəxs" anlayışını yalnız şəxsə prosessual məcburiyyət tədbirlərinin tətbiqi ilə bağlayır (CPM-in 90.1-ci maddəsi). Belə olan halda, nəinki cinayət işinin başlanmasına qədər, hətta barəsində cinayət işi başlanmış olsa da, prosessual məcburiyyətə məruz qalmamış şəxs, faktiki olaraq barəsində icraatın getməsinə baxmayaraq, "şübhəli şəxs" anlayışından kənarda qalır. Bu problemi cinayət mühakimə icraatında şəxsiyyətin hüquqları baxımından nəzərdən keçirmiş M.S.Qəfərov da belə hesab edir ki, konkret şəxs barəsində cinayət işinin başlanması anından onun şübhəli şəxs qismində tanınması barədə qaydanın qanunvericiliyə daxil edilməsi prinsipial əhəmiyyətə malikdir. Belə bir qayda araşdırma aparan orqana məlum olan və cinayət törətməkdə şübhə edilən şəxsin hüquqi vəziyyətinin qeyri-müəyyənliyini aradan qaldıra bilər. Cinayət işinin başlanmasından şəxsin tutulmasına və ya ona ittiham irəli sürülməsinə qədər olan dövrdə faktiki olaraq

şübhəli şəxs istintaq hərəkətlərinin icraatında şahid qismində iştirak etməyə məcbur olur, bununla da belə şəxsin süni olaraq müdafiə hüququndan istifadə imkanı məhdudlaşır (5, 95).

Həqiqətən də, cinayət işinin başlanması mərhələsində faktiki olaraq barəsində icraat aparılan şəxs ona prosessual məcburiyyət tədbiri tətbiq edilməyənə kimi, bu icraatda yalnız izahat vermək üçün çağırılmış şəxs kimi çıxış edir və onun barəsində mahiyyətcə ifşaedici fəaliyyət həyata keçirildiyi halda müdafiə olunmaq imkanlarından məhrum olur (13, 321). Halbuki, faktiki olaraq, şəxs barəsində cinayət işinin başlanması onun barəsində mövcud olan şübhənin leqallaşdırılmasıdır (11, 92).

Qoyulan problemə münasibət bildirmək üçün həll edilməli olan əsas sual ondan ibarətdir ki, cinayət işinin başlanması mərhələsində konkret şəxsin barəsində icraat aparılması, yəni onun əməllərində cinayət tərkibinin əlamətlərinin axtarışı, onun barəsində cinayət işinin başlanması üçün əsasların mövcud olub-olmamasının müəyyənləşdirilməsi üçün istintaq və prosessual hərəkətlərin həyata keçirilməsi və s. bu kimi fəaliyyət cinayət təqibi hesab edilməlidirmi?

Doktrinada bu sual ətrafında tamamilə fərqli yanaşmalar nümayiş etdirilmişdir. Məsələn, bəzi müəlliflər ilkin yoxlamanın nəticələri əsasında qəbul edilən prosessual qərarları və ya həyata keçirilən prosessual hərəkətləri (məsələn, cinayət işinin başlanması haqqında qərarın qəbul edilməsini), eləcə də, məzmununa görə şəxsin ifşa edilməsinə və onun təqsirinin müəyyən edilməsinə yönəlmiş istintaq hərəkətlərinin həyata keçirilməsini cinayət təqibinin məzmununa aid edirlər (12, 26-27). Digər yanaşma tərəfdarı olan müəlliflər isə belə hesab edirlər ki, yoxlama mərhələlərində, məsələn, cinayət işi başlanmazdan əvvəl həyata keçirilən ilkin yoxlamada, hökmün icra edilməsi mərhələsində, eləcə də yeni açılmış hallar üzrə icraat zamanı cinayət təqibi həyata keçirilmir (8, 86-87). Üçüncü qrup müəlliflər isə hesab edirlər ki, cinayət təqibi konkret şəxsə qarşı yönəlmiş bir fəaliyyət olduğu üçün cinayət işi fakt barəsində başlandığı hallarda, məsələn, cinayət işinin başlanması mərhələsində hər hansı bir hadisənin halları konkret şəxsin onda iştirakı müəyyən edilmədən araşdırıldıqda, cinayət işinin başlanması cinayət təqibinin başlanması demək deyildir, lakin cinayət işi konkret şəxs barəsində başlandığı, yəni cinayət işinin başlanması mərhələsində ki prosessual fəaliyyətin konkret şəxsin ifşa edilməsinə, ona qarşı şübhələrin yaranmasına yönəldiyi hallarda hər bir halda cinayət işinin başlanması həmin şəxs barəsində cinayət təqibinin həyata keçirilməsi kimi başa düşülməlidir (9, 110-112).

Fikrimizcə, milli hüquq ədəbiyyatında, haqlı olaraq, qeyd edilmişdir ki, milli qanunvericilikdən asılı olmayaraq, Avropa Məhkəməsi təcrübəsində şəxsə ona qarşı cinayət təqibinin başlanması haqqında məlumatın verilməsi, cinayət hadisəsinin araşdırılması ilə əlaqədar şəxsin bank hesabının dondurulması, şəxs barəsində həbs qətimkan tədbiri seçilməsi haqqında qərarın çıxarılması və s. bu kimi hərəkətlərin edilməsi artıq şəxsin cinayətdə ittiham edilməsi hesab olunur. Başqa sözlə, İnsan hüquqları haqqında Avropa Konvensiyası ilə təmin olunan hüquqların təsir dairəsi baxımından, 6-cı maddənin 3-cü hissəsində təsbit edilmiş minimal

hüquqlar cinayətdə ifşaedici fəaliyyətə *de facto* məruz qalmış hər bir şəxsə aiddir. Avropa Məhkəməsinin presedent hüququnda sərgilənən bu yanaşma (*Angelucci v. Italy,* 19.02.1991, Application no. 12666/87; *Deweer v. Belgium,* 27.02.1980, Application no. 6903/75; *Funke v. France,* 25.02.1993, Application no. 10828/84) (14) ilə CPM-də cinayət təqibinə məruz qalan subyektlərə, ilk növbədə, şübhəli və təqsirləndirilən şəxslərə verilən anlayışlar arasında paralel apardıqda, sonuncuların aşkar natamamlığı müşahidə edilir. Belə ki, CPM-in 90.1-ci maddəsində şübhəli şəxsin prosessual statusu yalnız şəxsə qarşı prosessual məcburiyyət tədbirinin tətbiq edilməsi ilə əlaqələndirilmişdir. Halbuki, şəxsə qarşı hər hansı prosessual məcburiyyət tədbiri tətbiq etmədən də onun barəsində ifşaedici fəaliyyət həyata keçirmək mümkündür və bu zaman, həmin şəxs *de facto* şübhəli şəxs statusunda çıxış edəcəkdir. Əslində, əgər səlahiyyətli dövlət orqanı tərəfindən şəxsin cinayət törətməsi, yaxud cinayət törətməyə hazırlaşması haqqında ərizə və ya məlumatlara baxılırsa, yəni şəxs barəsində ilkin yoxlama həyata keçirilirsə (CPM-in 207.1.2-ci maddəsi), habelə, şəxsə qarşı hər hansı prosessual məcburiyyət tədbiri tətbiq edilməsə də, onun barəsində cinayət işi başlanmışdırsa (CPM-in 210-cu maddəsi), o cümlədən, şəxsin cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılması və ya terrorçuluğun maliyyələşdirilməsinə şübhə yaradan bank (maliyyə) əməliyyatlarının icrası dayandırılmışdırsa (CPM-in 177.4.5-ci maddəsi), həmin şəxs şübhəli şəxs hesab edilməli və həm Konvensiyanın 6-cı maddəsində, həm və CPM-də təsbit edilmiş müvafiq hüquqlardan istifadə edə bilməlidir (4, 365-367).

Biz də hesab edirik ki, cinayət təqibi, ilk növbədə, ifşaedici prosessual fəaliyyətdir və cinayət prosesinin mərhələsindən asılı olmayaraq şəxsi ifşa edən, cinayət işinin başlanması mərhələsinə münasibətdə isə, şəxsin cinayət hadisəsi ilə əlaqədar olmasına işarə edən sübutların əldə edilməsinə yönəlmiş fəaliyyətin həyata keçirilməsi, mahiyyətcə, həmin şəxsin barəsində cinayət təqibinin həyata keçirilməsidir. Cinayət təqibinə məruz qalan şəxsə minimal müdafiə imkanları verilməlidir. Cinayət təqibinin ən sadə formasına şübhəli şəxs məruz qaldığı üçün minimal müdafiə imkanları məhz onun prosessual hüquqi statusunda təsbit edilmişdir. Odur ki, cinayət işinin başlanması mərhələsində barəsində icraat aparılan şəxslə şübhəli şəxsin prosessual vəziyyətinin eyniləşdirilməli olmasını doğru hesab edirik.

Bununla belə, əvvəldə də qeyd etdiyimiz kimi, cinayət işinin başlanması mərhələsinin subyektlərinin prosessual vəziyyəti ilə məsələ müzakirələrə açıq qalsa da, bu mərhələnin bir sıra digər məsələləri qanunla kifayət qədər dəqiq tənzim edilmişdir.

CPM-in 209.1-ci maddəsinə görə, qanunda nəzərdə tutulmuş səbəblər və əsaslar olduğu bütün hallarda təhqiqatçı, müstəntiq və ya ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror dərhal cinayət işi başlamalıdır. CPM-in 46.3-cü maddəsinə əsasən, cinayət işinin başlanması üçün əsas cinayətin əlamətlərinə işarə edən kifayət qədər dəlillərin olmasıdır. Cinayətin əlamətlərini əks etdirən əməlin törədilməsini və cinayət təqibini istisna edən halların olmadığını

güman etməyə əsaslar mövcuddursa, öz səlahiyyətləri daxilində fəaliyyət göstərən təhqiqatçı, müstəntiq və ya prokuror dərhal cinayət işi başlamalıdır. Cinayətin əlamətlərini göstərən dəlillərin kifayət qədər olması dedikdə, həmin dəlillərin elə bir məcmusu nəzərdə tutulur ki, bu, qanunda təsbit olunmuş cinayət əməlinin törədilməsi barədə ilkin nəticə çıxarmağa əsas versin, dəlillərin kifayət qədər olmasını qiymətləndirərkən əsas diqqəti cinayət tərkibinin obyektinə və obyektiv cəhətinə yönəltmək lazımdır, çünki cinayət işi başlama mərhələsində hələ subyektin şəxsiyyəti haqqında məlumat olmaya da bilər, törədilmiş əməlin subyektiv cəhətinin əlamətlərini isə dərhal müəyyən etmək çətindir (2).

Cinayət işi başlamağa səbəblər dedikdə, ümumi mənada, səlahiyyətli dövlət orqanlarının cinayətin edilməsi haqqında aldıqları qanunla müəyyən edilmiş məlumat mənbələri başa düşülə bilər. CPM-in 46.2-ci maddəsinə əsasən, cinayət işinin başlanması üçün səbəb kimi törədilmiş və ya hazırlanan cinayət haqqında fiziki şəxs tərəfindən verilən ərizə, hüquqi şəxsin (vəzifəli şəxsin) və ya kütləvi informasiya vasitələrinin məlumatları, yaxud bu məlumatların təhqiqatçı, müstəntiq və ya prokuror tərəfindən bilavasitə aşkar edilməsi ola bilər. Nəzərə almaq lazımdır ki, CPM-in 502-ci maddəsinə əsasən, xarici dövlətin səlahiyyətli hakimiyyət orqanının müraciəti də cinayət işinin başlanması üçün səbəb kimi çıxış edə bilər.

Cinayət işinin başlanması müvafiq prosessual aktla – cinayət işinin başlanması haqqında qərarla rəsmiləşdirilməlidir. Qanunvericiliyin tələblərinə görə, cinayət işinin başlanması barədə qərarda qərarın çıxarıldığı tarix, vaxt və yer; qərarı çıxarmış şəxsin soyadı, adı və atasının adı, vəzifəsi; cinayət işinin başlanmasına səbəb, əsas və ya fakt; cinayət işinin başlanmasına dair cinayəti nəzərdə tutan cinayət qanununun maddəsi; cinayət işinin başlanmasından sonra onun ibtidai araşdırılma aparılması üçün icraata götürülməsi və ya verilməsi göstərilməlidir.

Cinayət işinin başlanması haqqında qərar qəbul edilərkən icraatı aparan orqanın sərəncamında olan məlumatların həcmindən asılı olaraq, cinayət işinin başlanması haqqında qərarın qəbul edilməsi ilə paralel olaraq (eyni anda) cinayətin törədilməsindən zərər çəkmiş şəxs məlum olduqda, konkret şəxsin zərər çəkmiş şəxs qismində tanınması haqqında, eləcə də cinayətin törədilməsi barədə məlumatla birlikdə mülki iddia verilmiş olarsa, ərizə vermiş şəxsin mülki iddiaçı kimi tanınması üçün əsas mövcud olduqda, konkret şəxsin mülki iddiaçı qismində tanınması haqqında qərarlar da qəbul edilə bilər. Bundan başqa, cinayət işinin başlanması ilə eyni vaxtda davam edən və təkrar cinayətlərin qarşısının alınması, habelə cinayətin izlərinin, iş üçün əhəmiyyətli ola biləcək əşya və sənədlərin saxlanılması və mühafizəsi üçün tədbirlər görülməlidir.

Cinayət işinin başlanması barədə qərarın surəti həmin qərarı qəbul etmiş şəxs tərəfindən 24 saat müddətində cinayət haqqında məlumat vermiş fiziki, hüquqi və ya vəzifəli şəxsə, habelə ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora göndərilir.

Cinayət işinin başlanmasından sonra ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror cinayət işinin icraata götürülməsi və ibtidai istintaq

aparılması üçün cinayət işini müstəntiqə göndərir və ya cinayət işini öz icraatına götürür və ibtidai istintaq aparır. İş müstəntiqə göndərildikdə, müstəntiq ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuroru cinayət işinin başlanması haqda məlumatlandırmaqla cinayət işi üzrə ibtidai istintaq aparır. Əgər cinayət işini təhqiqatçı başlamış olarsa, o, ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuroru cinayət işinin başlanması haqda məlumatlandırmaqla cinayət işi üzrə təhqiqat (təxirəsalınmaz istintaq hərəkətlərinin icraatı formasında – müəllif) aparır.

## ƏDƏBİYYAT


1. Abbasova F.M. Cinayət prosesi. Xüsusi hissə. Dərslik. Bakı: Zərdabi LTD MMC, 2016, 500 s.
2. Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsinin kommentariyası / red. C.H. Mövsümov, B.C. Kərimov, Ə.H. Hüseynov. Bakı: Digesta, 2016, 1336 s.
3. Cəfərquliyev M.Ə. Azərbaycan Respublikasının cinayət prosesi. Bakı: Qanun, 2008, 768 s.
4. Xəlilov F.Y. İnsan hüquqları üzrə Avropa Konvensiyasının 6-cı maddəsinin 3-cü hissəsi kimlər üçün minimal hüquqlar müəyyən edir? / Bakı Dövlət Universitetinin 90 illik yubileyinə həsr olunmuş "Azərbaycan Respublikasının beynəlxalq cəmiyyətə inteqrasiyası və hüquqi dövlət quruculuğunda hüquq elminin müasir inkişafı tendensiyaları" mövzusunda Beynəlxalq elmi-praktik konfransın materialları. Bakı Dövlət Universiteti, Hüquq fakültəsi. Bakı, 14 dekabr 2018-ci il, s. 365-367.
5. Qəfərov M.S. Azərbaycan Respublikasının cinayət prosesində şəxsiyyətin hüquqi vəziyyəti: nəzəri və təcrübi məsələlər. Bakı: Qanun, 2008, 340 s.
6. Mövsümov C.H. Sovet cinayət prosesi. Bakı: Maarif, 1989, 312 s.
7. Vəliyev X.R. Cinayət mühakimə icraatında zərərçəkmiş şəxs. Monoqrafiya. Bakı: Hərbi Nəşriyyat, 2018, 440 s.
8. Жук О.Д. О понятии содержании функции уголовного преследования в уголовном процессе России // Законодательство, 2004, № 2, с. 77-87.
9. Рылков Д.В. Является ли возбуждение уголовного дела уголовным преследованием // Черные дыры в Российском законодательстве, 2008, № 6, с. 110-112.
10. Самедова Ш.Т. Проблемы уголовного права: классификация преступлений, дифференциация уголовной ответственности и построение санкций. Баку: Экопринт, 2017, 746 с.
11. Сопнева Е.В. Возбуждение уголовного дела ка способ легализации подозрения // Пробелы в российском законодательстве, 2009, № 3, с. 92-94.
12. Тишковец Е.И. Следователь как субъект уголовного преследования. Диссертация на соискание ученой степени кандидата юридических наук. Воронеж, 2003, 209 с.
13. Чеботарева И.Н. Проблемные вопросы обеспечения права на защиту в стадии возбуждения уголовного дела / Адвокатура. Государство. Общество. Материалы научно-практической конференции. Москва, 2010 г., с 317-322.
14. URL: https://www.echr.coe.int *(Angelucci v. Italy,* 19.02.1991, Application no. 12666/87; *Deweer v. Belgium,* 27.02.1980, Application no. 6903/75; *Funke v. France,* 25.02.1993, Application no. 10828/84).

## НЕКОТОРЫЕ ПРОБЛЕМЫ СТАДИИ ВОЗБУЖДЕНИЯ УГОЛОВНОГО ДЕЛА ПО ПРЕСТУПЛЕНИЯМ ПРОТИВ ВОЕННОЙ СЛУЖБЫ

**Дж.Г.АЗИЗОВ**

### РЕЗЮМЕ

Преступлениями против военной службы признаются предусмотренные главой 35 УК АР преступления против установленного порядка прохождения военной службы, совершенные военнослужащими, проходящими военную службу по призыву либо по контракту в Вооруженных Силах Азербайджанской Республики, других войсках и воинских формированиях Азербайджанской Республики, иными лицами, имеющими на законных основаниях статус военнослужащих, а также военнообязанными, привлеченными на учебные или проверочные сборы. Стадия возбуждения уголовного дела предшествует стадии предварительного расследования. Ее основная задача – обеспечить быстрое реагирование на каждое преступление и создать возможность для всестороннего, полного и объективного исследования всех обстоятельств происшедшего. Уголовное дело должно быть возбуждено в каждом случае, когда существует хотя бы самая малая вероятность того, что было совершено преступление. С момента возбуждения дела приводится в действие механизм уголовного преследования, и органы уголовного преследования получают возможность использовать все предусмотренные законом способы и средства в целях обеспечения прав и законных интересов граждан и установления объективной истины.

**Ключевые слова:** уголовно-процессуальное право, стадии, возбуждение уголовного дела, процессуальная форма, проблемы, анализ.

## SOME PROBLEMS OF THE STAGE OF INITIATION OF LEGAL PROCEEDINGS ON CRIMES AGAINST MILITARY SERVICE

**J.H.AZIZOV**

### SUMMARY

As provided by Chapter 35 of Criminal Code of AR, crimes against military service are the ones commited against the established order of military service committed by servicemen undergoing military service by conscription or contract in the Armed Forces of the Republic of Azerbaijan, other troops and military formations of the Republic of Azerbaijan, persons who have military status on legal grounds, as well as those who are involved in training. The stage of initiation of criminal proceedings precedes the stage of preliminary investigation. Its main task is to ensure a rapid response to each crime and to create an opportunity for a comprehensive, full and objective study of all the circumstances of the incident. A criminal case should be initiated in every case where there is at least the slightest certainty that a crime has been committed. Since the initiation of the case, a mechanism of criminal prosecution has been put in place, and the criminal prosecution authorities have been able to use all the methods and means provided by law to ensure the rights and legitimate interests of citizens and to establish the objective truth.

**Keywords:** criminal procedural law, stages, initiation of legal proceedings, procedural form, problems, analysis.

UOT 342.721

# MƏLUMATLARIN PORTABİLLİYİ HÜQUQU AVROPA İTTİFAQININ QANUNVERİCİLİYİ PERSPEKTİVİNDƏN

**A.G.POLADOV**
***Bakı Dövlət Universiteti***
***araz.poladov1@gmail.com***

*Məqalənin əsas məqsədi Fərdi Məlumatların Mühafizəsinin Ümumi Reqυlasiyanın (General Data Protection Regulation) 20-ci maddəsi ilə ərsəyə gəlmiş "məlumatların portabilliyi hüququnun" əsaslarını və həyata keçirilmə şərtlərini analiz etməkdir. Müasir cəmiyyətdə informasiya texnologiyalarının sürətli inkişafı, fərdi məlumatların yeni texnologiyalar vasitəsilə toplanılması və işlənilməsi, fərdi məlumatların regional və beynəlxalq səviyyədə qorunmasını zəruri edir. Fərdi məlumatların toplanılmasının, işlənilməsinin və istifadəsinin qanunun tələblərinə cavab verməyini təmin etmək üçün subyektlərə bir sıra hüquqlar, məsələn, fərdi məlumatlara düzəlişlərin edilməsi və fərdi məlumatların işlənilməsinə etiraz etmək, o cümlədən məlumatların portabilliyi kimi hüquqlar verilmişdir.*

**Açar sözlər:** Fərdi məlumatların mühafizəsi, fərdi məlumatlar, fərdi məlumat subyektləri, məlumatların portabilliyi hüququ, portabillik.

İnformasiya əsri olan XXI əsrdə şəxsi (fərdi - bu məqalədə "fərdi məlumatlar" və "şəxsi məlumatlar" anlayışlarından eyni mənada istifadə edilmişdir) məlumatların dəyəri günü-gündən artır. Hal-hazırda internetdə milyonlarla insanın hər gün istifadə etdiyi və ilk baxışdan heç bir ödəniş tələb etməyən pulsuz vebsaytlar, xidmətlər və portallar fəaliyyət göstərir. Bu portallardan istifadə ödənişsiz görünsə də, əslində belə deyil. Bu cür vebsaytlarda və portallarda göstərilən "ödənişsiz" xidmətlər qarşılığında istifadəçilər öz məlumatlarını xidmət provayderlərinə ötürürlər. Bu cür məlumatlar isə öz növbəsində, toplanmış fərdi məlumatlardan külli miqdarda gəlir əldə edən korporasiyalara satılır [1]. Lakin bu, şəxsi məlumatların toplanmasının, işlənilməsinin və saxlanılmasının tək yolu deyil. Gündəlik həyatda gördüyümüz işlər, məsələn, onlayn alış-veriş, həkim qəbulunda olma, sadə elektron qeydiyyat formalarının doldurulması insanların öz məlumatlarını digər şəxslərə ötürməsini ehtiva edir. Bir çox hallarda isə bu cür şəxsi məlumatlar məlumat sahibinin razılığı və ya ümumiyyətlə, xəbəri belə olmadan tamamilə aidiyyəti olmayan korporasiyaların əlinə keçir və işlənilir [2].

Bəs fərdi məlumatların sahib olduğu şəxs öz məlumatlarından sui-istifadənin qarşısını necə ala bilər? Öz məlumatlarına münasibətdə subyektlərin ("subyekt" və ya "fərdi məlumat subyekti" dedikdə fərdi (şəxsi) məlumatların aid olduğu və ya

onların sahibi olan şəxs başa düşülür) hansı hüquqları var? Bu sualın cavabı fərdi məlumatların mühafizə rejimini təsbit edən qanunvericilik aktlarının və müəyyən hüquqi mexanizmlərinin olmasıdır. Fərdi məlumatların qorunması barədə qanunvericilik normaları *("privacy laws"* və ya *"data protection laws"*) bu cür sui-istifadənin qarşısının alınması və informasiya texnologiyaların inkişafının neqativ effektlərindən qorunmaq üçün qəbul olunur [3-4].

Fərdi məlumatların qorunması Avropa İttifaqında 95/46/EC saylı, 1995-ci il tarixli "Fərdi məlumatların işlənilməsi və sərbəst dövriyyəsi zamanı şəxslərin hüquqlarının qorunması" Direktivinin [4] (bundan sonra "**Direktiv**") qəbul olunmasından sonra tam olaraq harmonizasiya olunmuşdur. Buna baxmayaraq, Direktiv fərdi məlumatların mühafizəsi üçün hazırkı dövrün tələblərinə və təhlükələrinə tam cavab vermir. Belə ki, Avropa İttifaqının keçmiş Ədliyyə Komissarı Viviane Redingin öz bəyanatında bildirdiyi kimi, bu Direktiv qəbul olunan zaman "Avropa İttifaqının əhalisinin yalnız 1%-i internetdən istifadə edirdi" və Facebook, Google, Amazon kimi nəhəng korporasiyalar mövcud belə deyildi [5]. Bu səbəbdən, demək olar ki, insan həyatının bütün sahələrinin rəqəmsallaşdırıldığı bir əsrdə, bu Direktivi "antik" hesab etmək olar [6].

Qeyd olunan səbəblərdən, Avropa Komissiyası 2012-ci ilin yanvar ayında 1995-ci il Direktivinin yenilənməsi və müasir tələblərə uyğunlaşdırılması məqsədilə qanunvericiliyə bir sıra dəyişikliklər təşəbbüsünü irəli sürdü. Təklif olunan islahatlar paketinin əsas məqsədi Avropa İttifaqında "rəqəmsal əsrin" tələblərinə cavab verən ümumi standartların qəbul edilməsi və Rəqəmsal Vahid Bazarda (*Digital Single Market*) istehlakçıların və sahibkarlıq subyektlərinin hüquqlarının daha yüksək səviyyədə təmin edilməsi idi.

Bu islahatların nəticəsi olaraq 14 aprel 2016-cı il tarixdə Fərdi Məlumatların Qorunması Requlyasiyası (*General Data Protection Regulation*) [7] qəbul edildi. Direktivdən fərqli olaraq, Requlyasiya Avropa İttifaqının üzv dövlətlərin qanunvericiliyinə daxil edilmə (inkorporasiya və ya transpozisiya) zərurəti olmadan, birbaşa hüquqi qüvvəyə malik olan bir hüquqi sənəddir. Bu Requlyasiya şəxslərə öz fərdi məlumatlarına münasibətdə daha geniş hüquqlar verir, sahibkarlıq subyektləri və korporasiyaların bu sahədə olan öhdəliklərini daha da genişləndirir, habelə fərdi məlumatların qorunması orqanlarının (*Data Protection Authorities*) rolunu daha da gücləndirir.

Direktivin müəyyən etdiyi hüquqlardan əlavə, Requlyasiya, *inter alia*, iki yeni hüquq təsbit edir. Bu hüquqlar Unudulmaq Hüququ (*the Right to be Forgotten*) [7-17] və Məlumatların Portabilliyi Hüququdur (*the Right to Data Portability*) [7-20]. Hazırkı məqalə məlumatların portabilliyi hüququnun anlayışının, tətbiq olunma şərtlərinin və hüquqi əsaslarının detallı analizini aparır.

Rəqəmsal əsrdə, istənilən internet istifadəçisi internetdən istifadə zamanı öz məlumatlarını xidmət provayderlərinə ötürür. Bu cür məlumatlar xidmət provayderləri tərəfindən toplanılır və nəticədə istifadəçi haqqında çox geniş məlumat bazası yaranır. Məsələn, elektron poçt istifadəçilərinin göndərdiyi və qəbul etdiyi bütün emaillər, kontaktların siyahısı onun məlumat bazasını təşkil edir. Sosial şəbə-

kələrdə istifadəçilərin əlavə etdiyi bütün şəkillər, postlar (paylaşmalar), dostların siyahısı və sair məlumatlar həmin istifadəçinin məlumat profilini təşkil edir. Bu cür məlumatların illər ərzində toplanılması, məlumatların geniş həcmi istifadəçilərin bir xidmət provayderindən digərinə keçməyini çətinləşdirir. Məsələn, fərz edək ki, son bir neçə il ərzində Dropbox proqramından istifadə edən bir şəxs bu proqramın istifadəsinin çətinliyindən narazıdır. Yeni yaradılmış Google Docs proqram təminatın funksiyalarının daha geniş olmasından əlavə, istifadəsi də çox sadə və rahatdır. Buna baxmayaraq, Dropbox istifadəçisi yeni proqramdan istifadə etməkdə maraqlı deyil, çünki illər boyu Dropboxda saxladığı və topladığı məlumatları Google Docs-a ötürməyə həddən çox vaxt və enerji sərf etməlidir.

Yeni ərsəyə gəlmiş məlumatların portabilliyi hüququ məhz bu cür məlumatların bir provayderdən digər provayderə ötürülməsi ilə bağlı çətinlikləri aradan qaldırır. Portabillik dedikdə, hər hansı bir proqram təminatının bir hesablama maşınından digərinə asanlıqla daşına və ya ötürülə bilməsi başa düşülür [8]. Requlyasinanın 20-ci maddəsi ilə təsbit edilmiş "məlumatların portabilliyi hüququ" istifadəçilərə öz məlumatlarını operatordan əldə etmək və bir operatordan digərinə ötürmək imkanı verir. Məsələn, Gmail istifadəçisi öz bütün emaillərini, kontaktlarının siyahısını, Gmail hesabında saxladığı sənədləri və bütün digər məlumatları öz yeni Yahoo hesabına ötürməyi Gmail-dən tələb edə bilər.

Fərdi məlumatların mühazifəsi sahəsində qanunvericilik aktlarının əsas məqsədlərindən biri də Avropa İttifaqı səviyyəsində fərdi məlumatların sərbəst axınını təmin etmək və operatorlara fərdi məlumatların transsərhəd otürülməsində iştirak imkanı yaratmaqdır [9]. Məlumatların portabilliyi hüququ, öz növbəsində, operatorlar arasında sağlam rəqabətin təmin olunmasında vacib bir alət kimi çıxış edir [10 - 3].

Məlumatların portabilliyi hüququ bazar qüsurlarının (*market imperfections*) aradan qaldırılmasında və fərdi məlumatların sərbəst axınının təmin edilməsində çox zəruri bir element kimi çıxış edir. Belə ki, ideal bazarın və rəqabətin ən mühüm şərtlərindən biri "bir istehsalçının və ya xidmət göstərənin mallarının və ya xidmətlərinin əvəz edilə bilmə imkanıdır" [11]. Normal halda heç bir sahibkarlıq subyekti (operator) istifadəçisinə məxsus məlumatları öz rəqibinə ötürmür, belə ki, bu, "müştərinin" itirilməsi demək olar. Yeni yaranmış hüquq isə istənilən istifadəçiyə öz məlumatlarını bir xidmət göstərən subyektdən əldə edib digərinə ötürmək və ya birbaşa digər subyektə ötürməyi tələb etmək səlahiyyəti verir. Bu, fərdi məlumatların sərbəst axınını təmin etmək və sahibkarlıq subyektləri arasında rəqabətə təkan vermək üçün geniş zəmin yaradır.

Bu yeni yaranmış hüququn vəd etdiyi müsbət dəyişikliklərə baxmayaraq, hüququn tətbiqi zamanı bir sıra suallar ortaya çıxır. Məlumatların məxsus olduğu şəxs istənilən halda onun məlumatlarının digər operatora ötürülməsini tələb edə bilərmi? Bu məlumatların içində digər üçüncü şəxslərə dair məlumat (məsələn, telefon nömrəsi, ünvan, fotoşəkillər) və ya bir operatorun kommersiya sirri və ya əqli mülkiyyət hüquqları varsa, bu cür məlumatlar digər operatora ötürülə bilərmi? Bu suallara cavab tapmaq üçün məlumatların portabilliyi hüququnun qanuni əsaslarına nəzər salmaq lazımdır.

**Hüquqi əsaslar.** Requlyasiyanın 20-ci maddəsinin I hissəsinə müvafiq olaraq, *"Fərdi məlumat subyektinin ona aid olan və özünün operatora təqdim etdiyi fərdi məlumatları strukturlu, ümumişlək və hesablama maşını tərəfindən oxuna bilən formatda* ***almaq*** *və bu məlumatları birinci operator tərəfindən heç bir maneçilik törədilmədən digər operatora* ***ötürmək*** *hüququ vardır ..."* [7 - 20(1)].

Konseptual olaraq, Requlyasiyanın 20-ci bəndi fərdi məlumat subyektinə iki hüquq – "məlumatı almaq" və "məlumatı ötürmək" hüquqları verir. "Məlumatı almaq" hüququ fərdi məlumat subyektinə öz fərdi məlumatlarını operatordan əldə etmək hüququ verir, bir şərtlə ki, subyekt bu məlumatları operatora "strukturlu, ümumişlək, hesablama maşını tərəfindən oxuna bilən və ötürülə bilən formatda" [7 - preambula 68] təqdim etmiş olsun. Bu format Direktivin təsbit etdiyi "fərdi məlumatları əldə etmək hüququ (right of access)" [4 - 12] üçün müəyyən edilmiş formata oxşardır. Buna baxmayaraq, məlumatların portabilliyi hüququ fərdi məlumatları əldə etmək hüququnun gücləndirilmiş formasıdır. Belə ki, "fərdi məlumatları əldə etmək" hüququnun həyata keçirilməsi zamanı məlumatlar "ümumişlək formatda" [7 - 15 (3)] təqdim edilirdisə, məlumatların portabilliyi hüququ operator üzərinə məlumatları "strukturlu, ümumişlək, hesablama maşını tərəfindən oxuna bilən və ötürülə bilən formatda" [7 - preambula 68] təqdim etmək öhdəliyi qoyur.

"Məlumatı ötürmək" hüququ subyektlərə öz məlumatlarını heç bir maneə olmadan digər operatora köçürmək hüququ verir [7 - 20 (1), preambula 68]. Məlumatı əldə etmək və məlumatı ötürmək hüquqlarından əlavə, Requlyasiya fərdi məlumat subyektlərinə onlara məxsus məlumatların birbaşa digər operatorlara ötürülməsi barədə operatora müraciət etmək hüququnu müəyyən edir [7 - 20 (2)].

Məlumatların portabilliyi hüququ yalnız avtomatlaşdırılmış qaydada (yəni, kompyuter və ya digər hesablama maşınları tərəfindən) işlənilən fərdi məlumatlara şamil olunur [7 – 20 (1)(b)]. 29-cu Maddə İşçi Qrupun (bundan sonra "**İşçi Qrup**") Məlumatların Portabilliyi haqqında Təlimatlarında qeyd edildiyi kimi, məlumatların portabilliyi hüququ yalnız avtomatlaşdırılmış qaydada işlənilən məlumatlara şamil olunur, bu isə bu hüququn kağız daşıyıcılarda saxlanılan məlumatlara münasibətdə həyata keçirilməsini istisna edir [10 – 9].

**Hüququn həyata keçirilməsi əsasları**

Məlum olduğu kimi, fərdi məlumatlar haqqında qanunvericilik (həm qüvvədən düşmüş Driektiv, həm də Requlyasiya) fərdi məlumatların operatorlar tərəfindən işlənilməsi üçün bir neçə əsas müəyyən edir [7 – 6]. Bu əsaslara, *inter alia,* fərdi məlumat subyektinin razılığı, müqavilə öhdəliklərinin həyata keçirilməsi, operatorun qanundan irəli gələn öhdəlikləri, ictimai və dövlət maraqları və digər əsaslar daxildir [7 – 6 (1)].

Məlumatların portabilliyi hüququ yalnız iki əsasla işlənilmiş məlumatlara münasibətdə həyata keçirilə bilər: birincisi, fərdi məlumat subyektinin razılığı; ikincisi, müqavilə öhdəliklərinin həyata keçirilməsi. Subyekt razılığı dedikdə, fərdi məlumat subyektinin "azad, spesifik, məlumatlı (*informed*) və dəqiq" iradə ifadəsi başa düşülür [7 – 4 (11)].

*Misal 1: Telegram proqamının istifadəçisi öz hesabında (account) olan məlu-*

*matları (yazışmaları, audio faylları, fotoşəkilləri) öz Whatsapp hesabına köçürmək istəyir. Onun məlumatları öz razılığı əsasında toplandığı və saxlandığından fərdi məlumatların digər xidmət provayderinə (Whatsapp-a) ötürülməsi mümkündür.*

*Misal 2: İşəgötürənin öz işçisinin sosial sığorta ödənişləri, vergi məsələləri ilə bağlı məlumatların toplanılması və saxlanılması işçinin razılığı əsasında deyil, işəgötürənin (bu halda operator) qanundan irəli gələn öhdəlikləri əsasında həyata keçirilir. Belə olan halda işçi sığorta ödənişləri və vergi məsələləri ilə bağlı məlumatları hər hansı bir kredit reyestrinə və ya banka ötürməyi işəgötürəndən tələb edə bilməz.*

Məlumatların portabilliyi hüququnun həyata keçirilməsinin yalnız iki əsasla mümkünlüyü bu hüququn məhdudlaşdırılmasına və sui-istifadə hallarına zəmin yarada bilər. Məsələn, hər hansı bir operator fərdi məlumatın işlənilməsi üçün digər bir əsası (məsələn, qanundan irəli gələn öhdəliyi) əsas gətirərək bu hüququn həyata keçirilməsinin qarşısını ala bilər. Buna baxmayaraq, operatorlar bu cür öhdəliyin mövcud olmasının sübutetmə yükünü daşıyırlar (*burden of proof*) [12].

Requlyasiyanın 20(3)-cü maddəsinə müvafiq olaraq, məlumatların portabilliyi hüququ fərdi məlumatların ictimai maraqlar naminə və ya operatorun hakimiyyət səlahiyyətlərini həyata keçirdiyi zaman emalı (işlənilməsi) və ya bu hüququn həyata keçirilməsinin digər şəxslərin hüquq və azadlıqlarına ziyan vurduğu hallarda tətbiq olunmur [7 – 20 (4)].

Requlyasiya portabillik hüququnun həyata keçirilməsinin mümkün olması üçün bir neçə şərt müəyyən etmişdir. Birincisi, məlumatların portativliyi hüququ yalnız fərdi məlumat subyektinə "**aid olan**" və "**özünün operatora təqdim etdiyi**" məlumatları əhatə edir [7 – 20(1)]. Anonimləşdirilmiş məlumatlar, yəni fərdi məlumat subyekti ilə bütün bağlılığı itirmiş məlumatlar portabillik hüququnun tətbiqini istisna edir [10 – 9]. Bundan fərqli olaraq, portabillik hüququ psevdonimləşdirilmiş (psevdonimləşdirmə dedikdə fərdi məlumat subyektlərini identifikasiya (eyniləşdirmə) etmək imkanı verən məlumatların həmin fərdi məlumatlardan ayrılması başa düşülür) məlumatlara tətbiq oluna bilər [13 – 36].

Fərdi məlumat subyektlərinə aid olan məlumatlar daxilində digər üçüncü şəxslərə aid olan məlumatların mövcudluğu bir qədər çaşqınlıq yaradır. Buna baxmayaraq, İşçi Qrup öz təlimatlarında bildirimişdir ki, telefon danışıqları, şəxsi yazışmalar, səsli mesajlar, VoIP yazıları üçüncü şəxlərə aid olan məlumatın olub-olmamasından asılı olmayaraq, hər hansı bir subyektə aid məlumat kimi qiymətləndirilməli və həmin subyektin portabillik sorğusu əsasında ona və ya digər operatora ötürülməlidir. [10 – 9]

Buna baxmayaraq, üçüncü şəxslərə aid məlumatları ehtiva edən fərdi məlumatlar portabillik sorğusu əsasında digər operatora ötürülərsə, həmin operator bu cür məlumatları heç bir halda işləməməlidir, çünki bu, üçüncü şəxslərin mənafeyinə ziyan vura bilər [10 – 9]. Daha deqiq desək, yeni operatorun fərdi məlumat subyektinin məlumatlarını işləməyə subyekt razılığı olsa da, üçüncü şəxslərin məlumatlarının işlənilməsinə subyekt razılığı mövcud olmayacaqdır. İşçi Qrupun təlimatlarına görə isə, yeni operator üçüncü şəxslərə aid məlumatları hər hansı bir digər əsasla, məsələn, qanundan irəli gələn öhdəliyin həyata keçirilməsi ilə bağlı iş-

ləyə bilər [10 – 11]. İşçi Qrupun tövsiyəsinə müvafiq olaraq, üçüncü şəxslərin məlumatları ilə bağlı riskləri azaltmaq məqsədilə, operatorlar öz aralarında xüsusi mexanizmlər hazırlamalıdırlar. Bu mexanizmlər fərdi məlumat subyektlərinə yalnız öz məlumatlarını əldə etmək və ötürmək imkanı yaratmalı, digər üçüncü şəxslərə aid məlumatları isə bu məlumatlardan ayırmalıdır [10 – 12].

İkincisi, məlumatların portabilliyi hüququnun tətbiq oluna bilməsi üçün məlumatlar fərdi məlumat subyektlərinin özləri tərəfindən təqdim edilməlidir [7 – 20 (1)]. İşçi Qrupun təlimatına əsasən, subyektin onlayn formalar vasitəsilə təqdim etdiyi poçt ünvanları, istifadəçi adı, yaş, təvəllüd və digər məlumatlardan əlavə, fərdi məlumat subyektinin izlənilməsindən əmələ gələn məlumatlar, yəni veb-saytdan və ya axtarış portallarından istifadə zamanı generasiya olunan məlumatlar fərdi məlumat subyektləri tərəfindən verilmiş məlumat kimi təfsir edilməlidir. Digər tərəfdən, bu cür məlumatların müxtəlif proqramlar və alqoritmlər vasitəsilə işlənilməsindən törəyən məlumatlar fərdi məlumat subyekti tərəfindən təqdim edilmiş məlumat kimi qiymətləndirilməməlidir [10 – 9].

*Misal 3:Hər hansı bir internet istifadəçisi Google axtarış portalında müxtəlif axtarış sorğuları verir. Həmin sorğular, yəni istifadəçinin axtardığı məlumatlar (bu cür məlumatlar adətən "çiy"(raw) məlumatlar adlandırılır) fərdi məlumat subyekti tərəfindən təqdim edilmiş məlumat kimi qiymətləndirilməlidir. Bu cür çiy məlumatlar Google şirkətinin müxtəlif proqramları və alqoritmləri vasitəsilə işlənilir və nəticədə istifadəçinin maraq dairəsi, həyat tərzi, məşğuliyyəti haqqında məlumatlar generasiya olunur. Bu generasiya olunmuş məlumatlar vasitəsilə Google istifadəçi qarşısına çıxardığı reklamları tənzimləyir. Məsələn, müntəzəm olaraq futbol ilə bağlı axtarış verən şəxsin qarşısına futbol ayaqqabılarının və formalarının reklamı çıxır. Alqoritm vasitəsilə alınmış bu məlumatlar "subyekt tərəfindən təqdim edilmiş məlumatlar" dairəsindən kənardır.*

Əlavə olaraq, İşçi Qrupun fikrincə, "fərdi məlumat subyekti tərəfindən təqdim edilən məlumatlar" məhdud kontekstdə təfsir edilməlidir. Belə ki, operatorun proqram təminatı, müxtəlif analizlər və ya alqoritmlər nəticəsində əldə olunan məlumatlar istisna edilməlidir [10 - 10]. Bu cür məhdud təfsir, yəni subyektlərin yalnız "çiy" (işlənilməmiş) məlumatları tələb edə bilməsi fərdi məlumat subyektlərinin operatorlardan tələb edəcəyi məlumatların dairəsini məhdudlaşdırır. Nəticə etibarilə, məlumatların portabilliyi hüququnun ilk baxışdan göründüyü qədər geniş olmadığı qənaətinə gəlmək olar. Misal olaraq, evdə yaşayan sakinlərin hərəkət alqoritmini müəyyən edən və bu sistem vasitəsilə evdə istiliyi optimallaşdırmaqla enerjinin qənaət edilməsinə xidmət edən Nest termostatının [14] topladığı "çiy" məlumatların ötürülməsi mümkün olsa da, alqoritmlər vasitəsilə generasiya olunmuş məlumatların ötürülməsi məlumatların portabilliyi hüququnun təbiətinə ziddir [14].

Bu cür məhdud təfsir, yəni operatordan əldə edilə bilinəcək məlumatlar dairəsinin məhdudluğu məlumatların portabilliyi hüqunun yaradılması zamanı nəzərdə tutulan funksiyalara, *inter alia*, istehlakçılara müxtəlif xidmət provayderləri tərəfindən göstərilən xidmətləri müqayisə etmək və özləri üçün daha məqbul qərar qəbul etmək funksiyasına ziddir. Belə ki, alqoritmlə işlənilmiş və generasiya olun-

muş məlumatların deyil, yalnız "çiy" məlumatların ötürülməsi zamanı istehlakçıların (istifadəçilərin) yuxarıda qeyd edilmiş məqsədə çatması mümkün görünmür.

Digər tərəfdən, alqoritmlər vasitəsilə generasiya olunmuş məlumatların bir operatordan digərinə ötürülməsi operatorların özləri üçün müəyyən problemlər yarada bilər. Belə ki, bu cür xüsusi alqoritmlər kommersiya sirri sayıla və ya əqli mülkiyyət hüquqlarının obyekti ola bilər. Digər sözlə, bu cür xüsusi alqoritmlərin digər operatorlara ötürülməsi həmin proqram təminatını və ya alqoritmi hazırlamış operatorun qanuni mənafeyinə və sahibkarlıq maraqlarına ciddi ziyan vura bilər. Beləliklə, operatorların sahibkarlıq maraqları və fərdi məlumat subyektlərinin maraqları arasında tarazlığı saxlamaq kifayət qədər mürəkkəb məsələdir.

Requlyasiya ilə təsbit edilmiş məlumatların portabilliyi hüququnun tətbiq edilməsi praktikada çoxsaylı İT mütəxəssislərinin və hüquqşünasların birgə səylərini tələb edir. Buna baxmayaraq, ən azı nəzəri olaraq, məlumatların portabilliyi hüququ bazarda sahibkarlıq subyektləri arasında sağlam rəqabətin gücləndirilməsi ilə yanaşı, fərdi məlumat subyektləri üçün də bir sıra müsbət dəyişikliklər vəd edir. Birincisi, bu hüquq şirkətlər və korporasiyalar tərəfindən toplanılan məlumatların aşkarlığını təmin edir. İkincisi, istifadəçilər öz məlumatlarını analiz edə və daha yaxşı xidmətlərdən istifadə edə bilərlər. Üçüncüsü, bu hüquq istifadəçilərə heç bir maneə olmadan öz xidmət provayderlərini dəyişmək və məlumatları bir provayderdən digərinə ötürülmək imkanı verir.

Yekun olaraq, Requlyasiya, portabillik sorğularının açıq-aşkar əsassız və həddən artıq olduğu hallar istisna olmaqla, operatorlara məlumatların portabilliyi hüququnun həyata keçirilməsi üçün hər hansı bir ödəniş tələb etməyi qadağan edir [7 – 12(5)]. Bundan əlavə, Requlyasiya bir sıra hallarda operatorlara portabillik sorğularından imtina etmək hüququ verir. Bu hallara portabillik sorğusu vermiş şəxslərin identifikasiya edilməsinin mümkün olmadığı [7 – 12(2)] və ya portabillik sorğusunun açıq-aşkar əsassız və həddən artıq olduğu hallar aiddir [7 – 12(5)(b)].

**ƏDƏBİYYAT**


1. Stacy-Ann Elvy, *'Paying for Privacy and the Personal Data Economy'* 117 Columbia Law Review Association, Inc. (2017) <http://www.jstor.org/stable/44392955> accessed 7 February 2019.
2. Data Protection (Privacyinternational.org) <https://www.privacyinternational.org/node/44> accessed 22 January 2019.
3. Lee A Bygrave, *Data Protection Law* (Kluwer Law International 2002).
4. Council Directive 95/46/EC of 24 October 1995 on the protection of individuals with regard to the processing of personal data and on the free movement of such data (1995) OJ L281/31 (Data Protection Directive).
5. Viviane Reding, '*Outdoing Huxley: Forging a High Level of Data Protection for Europe in the Brave New Digital World*', Speech at Digital Enlightenment Forum, 18 June 2012 http://europa.eu/rapid/press-release_SPEECH-12http://europa.eu/rapid/press-release_SPEECH-12-464_en.htm accessed 2 December 2017464_en. accessed 2 February 2019.
6. Mira Burri and Rahel Schär, (2016). The Reform of the EU Data Protection Framework: Outlining Key Changes And Assessing Their Fitness For A Data-Driven Economy 6 Journal of Information Policy <http://www.jstor.org/stable/10.5325/jinfopoli.6.2016.0479> accessed 7 February 2019.
7. Council Regulation (EU) 2016/679 of 27 April 2016 on the protection of natural persons with

regard to the processing of personal data and on the free movement of such data, and repealing Directive 95/46/EC [2016] OJ L119/1 (General Data Protection Regulation).
8. https://dictionary.cambridge.org/dictionary/english/portability.
9. Orla Lynskey, The Foundations Of EU Data Protection Law (Oxford University Press 2015).
10. Article 29 Data Protection Working Party, *Guidelines on the right to data portability*, (As last Revised and adopted on 5 April 2017).
11. Gerard Debreu, Theory of Value: An Axiomatic Analysis of Economic Equilibrium, Yale University Press, New Haven CT (September 10, 1972).
12. *'Data Protection in Europe- Academics Are Taking a Position'* 29 Elsevier: Computer Law & Security Review (2013) 181 <https://www.sciencedirect.com/science/article/pii/S026736491300037X> accessed 2 February 2019.
13. Handbook on European Data Protection Law (Publication Office of the European Union 2014).
14. 'Nest Learning Thermostat - Install & Explore' (Nest, 2018) <https://nest.com/thermostats/nest-learningthermostat/tech-specs/> accessed 5 February 2019

## ПРАВО НА ПОРТАБЕЛЬНОСТЬ ИНФОРМАЦИИ В АСПЕКТЕ ЗАКОНОДАТЕЛЬСТВА ЕС

**А.Г.ПОЛАДОВ**

**РЕЗЮМЕ**

Интенсивное распространение информационных технологий в наши дни, а также сбор и обработка персональных данных с использованием новых технологий делают необходимым обеспечение защиты персональных данных на международном и региональном уровнях. Для обеспечения защиты персональных данных субъектам данных предоставляются различные права, в частности, право на доступ, право на исправление неправильных данных и право на обжалование. Основная цель данной статьи - проанализировать право на портабельность информации**,** сформировавшееся на основе принятого Общего Регламента по Защите Данных ЕС.

**Ключевые слова:** защита персональных данных, персональные данные, субъект данных, право на портабельность, портабельность.

## THE RIGHT TO DATA PORTABILITY FROM THE EU PERSPECTIVE

**A.G.POLADOV**

**SUMMARY**

Intensive dissemination of information technologies nowadays, as well as the collection and processing of personal data using new technologies make it necessary to ensure the protection of personal data at the international and regional levels. To ensure the protection of personal data, data subjects are granted various rights, such as the right of access, the right to correct incorrect data and the right to appeal. The main purpose of this article is to analyze the right to portability of information as a right formed on the basis of the adopted General Regulation on data Protection of the EU.

**Keywords:** Data protection; personal data; data subject; right to data portability; portability.

**UOT 342.7**

# İNSAN VƏ VƏTƏNDAŞIN HÜQUQ VƏ AZADLIQLARININ MƏHDUDLAŞDIRILMASI: *DE LEGE LATA* QANUNVERİCİLİYİN TƏKMİLLƏŞDİRİLMƏSİ BARƏDƏ BƏZİ QEYDLƏR

**R.M.İSMAYILOV**
***Bakı Dövlət Universiteti***
***RMİsmaılov@oilfund.az***

*İnsan hüquq və azadlıqlarının məhdudlaşdırılması dövlət və insanın qarşılıqlı əlaqəsinin mühüm aspektlərindən birini təşkil edir. Məhdudiyyətlər ictimai, dövlət maraqları ilə hüququn subyektinin maraqlarının kompromis yaratmaq məqsədini daşıyır. İnsan və vətəndaşın hüquq və azadlıqların məhdudlaşdırılması hallarından biri də, şəxsi toxunulmazlıq hüququ ilə bağlıdır. AR Konstitusiyasının 32-ci maddəsi bu hüququ təsbit edir. Məqalədə ictimai yerlərdə və iş yerlərində şəxsi həyata müdaxilə kimi vdeonəzarət sisteminin legitimik şərtləri təlil olunur.*

**Açar sözlər:** insan hüquqları, məhdudiyyətlər, qanunçuluq, qanuni məqsədlər, mütənasiblik

İnsan hüquq və azadlıqlarının məhdudlaşdırılması dövlət və insanın qarşılıqlı əlaqəsinin mühüm aspektlərindən birini təşkil edir. Məhdudiyyətlər ictimai, dövlət maraqları ilə hüququn subyektinin maraqlarının kompromis yaratmaq məqsədini daşıyır. Əgər subyektiv hüquqlar şəxsin dövlətin özbaşınalığından müdafiəsinin əsas vasitəsidirsə, hüquqların məhdudlaşdırılması isə cəmiyyətin, digər şəxslərin hüquq və azadlıqlarının hüququn subyektlərinin özbaşınalığından müdafiə vasitəsi olmaqla birgə həm də insanın dövlətin zorakı davranışlarından müdafiə vasitəsi kimi çıxış edir. Buraya məhdudiyyətlərin prinsiplərinin, məqsədlərinin və hüquqi formalarının Konstitusiya ilə müəyyən olunması ilə nail olunur və bununla da dövlətin şəxsin hüquq və azadlıqları sferasına əsassız və qanunsuz müdaxiləsinin qarşısını almaq mümkün olur.

İnsan və vətəndaşın hüquq və azadlıqların məhdudlaşdırılması hallarından biri də, şəxsi toxunulmazlıq hüququ ilə bağlıdır. AR Konstitusiyasının 32-ci maddəsi bu hüququ təsbit edir. Bu hüququn məzmununda öz razılığı olmadan kimsənin şəxsi həyatı haqqında məlumatın toplanılmasına, saxlanılmasına, istifadəsinə və yayılmasına yol verilmir. Bu maddənin III hissəsinə görə qanunla müəyyən edilmiş hallar istisna olmaqla, heç kəs onun xəbəri olmadan və ya etirazına baxmadan izlənilə bilməz, video və foto çəkilişinə, səs yazısına və digər bu cür hərəkətlərə məruz qoyula bilməz. Başqa sözlə, şəxsin video və foto çəkilişinə, səs

yazısına və digər bu cür hərəkətlərə məruz qalması üçün ya şəxsin razılığı olmalıdır, ya da razılığı olmadığı halda müvafiq hərəkətlərə məruz qalması üçün hökmən qanunda nəzərdə tutulmalıdır. Bununla bağlı əhəmiyyətli məsələlərdən biri də elmi-texniki tərəqqi ilə bağlı olaraq ictmai yerlərdə videonəzarət sistemlərinin yerləşdirilməsi ilə bağlıdır. Bütün dünyada olduğu kimi, Azərbaycanda da bu kimi yeniliklərdən, xüsusən dövlətin mühafizə funksiyalarını həyata keçirilməsində geniş istifadə olunur.

Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 30 iyun tarixli 291 nömrəli Sərəncamı ilə təsdiq edilmiş və artıq icra olunmuş "Azərbaycan Respublikasında polis orqanlarının fəaliyyətinin təkmilləşdirilməsinə dair" dövlət proqramı çərçivəsində "Təhlükəsiz şəhər" avtomatlaşdırılmış idarəetmə sistemi yaradılmışdır. Daha sonra "Azərbaycan Respublikasının inkişafı naminə informasiya və kommunikasiya texnologiyaları üzrə Milli Strategiya (2003-2012-ci illər)" çərçivəsində görülən tədbirlərdən biri də, "Təhlükəsiz şəhər" avtomatlaşdırılmış idarəetmə sisteminin yaradılması və təkmilləşdirilməsi barədə Azərbaycan Respublikasının Prezidenti 15 may 2009-cu il tarixli Sərəncam qəbul etmişdir. Bütün bunlara uyğun olaraq Nazirlər Kabineti "Əhalinin sıx toplaşdığı yerlərdə və obyektlərdə videonəzarət sistemlərinin yaradılması barədə" qərar qəbul etmişdir. Həmin qərarda göstərilir ki, Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin videonəzarət sistemlərinin müvafq yerlərdə quraşdırılmasının məqsədi "əhalinin təhlükəsizliyinin, dövlətin, fiziki və hüquqi şəxslərin qanuni mənafelərinin hüquqazidd əməllərdən qorunması, hüquq qaydasına riayət edilməsi vəziyyətinin fasiləsiz və canlı izlənilməsi, qanunazidd hərəkətlərə, fövqəladə hallara çevik reaksiya verilməsi"ndən ibarətdir. Bu məqsədləri legitim məqsəd saymaq olar.

Aydındır ki, ictimai yerlərdə quraşdırılmış olsa da, videonəzarət sistemləri vasitəsilə şəxsin kimliyini birbaşa və ya dolayısı ilə müəyyənləşdirməyə imkan verən müəyyən məlumatı toplamaq mümkündür.

AR Prezidentinin 19 yanvar 2006-cı il tarixli "Azərbaycan Respublikasında məhkəmə sisteminin müasirləşdirilməsi və "Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına dəyişikliklər və əlavələr edilməsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Fərmanı və AR Ali Məhkəməsinin 30 mart 2006-cı il tarixli "Ədalət mühakiməsinin həyata keçirilməsi zamanı "İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Avropa Konvensiyası müddəalarının və İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin presedentlərinin tətbiqi haqqında qərarını nəzərə alaraq məsələnin AİHM-in presedent hüququ baxımında araşdırılması zəruridir.

Problemlə bağlı AHİM-in presedent hüququna nəzər yetirdikdə görmək olar ki, Məhkəmə "P.G. və J.H. Birləşmiş krallığa qarşı işində (§57) qeyd edir ki, "şəxsin mənzilindən və ya şəxsi evindən kənarda olduqda onun şəxsi həyatına müdaxilənin olub-olmadığı məsələsinin həlli üçün əhəmiyyətli olan bəzi elementlər vardır. Elə hallar mövcuddur ki, insanlar iradəvi və ya qəsdən fiksə olunan və ya gerçək olaraq yazmaqla fiksə olunan və ya ictimai şəkildə yayımlanan davranışlara cəlb olunsun, belə hallarda insanın onun şəxsi həyatınn toxunulmaz-

lığı həlledici faktor olmasa da, əhəmiyyət kəsb edir. Küçə ilə gedən adam istənilən başqa şəxs, həmçinin yaxınlıqda olan şəxslər görür. Müəyyən ictimai yerdə mütəmadi olaraq baş verənlərin texniki vasitələrlə nəzarət edilməsi də (məsələn, mühafizə xidmətinin işçisi qapalı televiziya nəzarət sisteminin manitoruna baxdıqda) belə xarakter daşıyır. Şəxsi həyata müdaxilə məsələsi başqaları üçün əlçatana olan materialın sistematik və ya daimi olaraq istənilən növ yazılmaqla fiksə edilməsi zamanı yarana bilər."

Beləliklə də, əgər ictimai yerdə aparılan videonəzarət fiksə olunmursa, şəxsi həyata müdaxilədən söhbət gedə bilməz (Herbecq and the association «Ligue des droits de l'homme» v. Belgium). Əgər videonəzarət sistemində görülənlər yazılırsa, bu zaman şəxsi həyata müdaxilədən söhbət gedə bilər ki, bu barədə daha geniş mövqeyi Rotaru v. Romania və Amann v. Switzerland işində görmək olar.

İctimai yerlərdə video müşahidənin şəxsi həyata müdaxilə sayılmaması, Konvensiyanın 8-ci maddəsinin pozuntusu kimi qəbul olunmaması üçün həmin işlərdə Məhkəmənin mövqeyini və ümumilikdə müdaxilənin qanunilik şərtlərini müəyyən etməklə milli qanunvericiliyin bu tələblərə uyğunlaşdırılması üçün müqayisəli təhlil zəruridir.

Biz hesab edirik ki, bu məsələdə Pekin Birləşmiş krallığa qarşı işini qısa xülasə etmək zəruridir. Bu işdə ictimai yerlərdə videonəzarət sisteminin qanunilik şərtlərinin gözlənildiyi nəticəsinə gəlinmişdir.

Vətəndaş Pek özünü öldürməyə cəhd edərkən əlində bıçaqla küçədə yeriyir, bu fakt bələdiyyənin videonəzarət sisteminə düşən kimi qurulmuş sistem əsasında bu barədə məlumat dərhal polisə ötürülmüşdür. Hadisə yerinə gələn polis Pekin həyatının xilas olunması üçün zəruri tədbirlər görmüşdür. Sonradan Bələdiyyənin bu sistemin effektivliyi barədə mülahizəsini göstərmək üçün Pekin müvafiq faktla video çəkilişini mətbuata yaymışdır. Hökumət iddia edirdi ki, bu işdə yol verilən müdaxilə (videoçəkilişin həyata keçirilməsi – müəl.) "qanunla" nəzərdə tutulmuş müdaxilədir və Cinayət mühakimə icraatı və ictimai qayda haqqında 1994-cü il qanununun 163-cü maddəsinin və 1972-ci il "Yerli özünüidarətmə haqqında" qanunun 111-ci madəsinin təsir dairəsinə düşür.  Hökumət həm də iddia edirdi ki, müdaxilə qanunla nəzərdə tutulmuş məqsədlər üçün həyata keçirilmişdir. Müvafiq iş üzrə milli məhkəmələr tərəfindən həyata keçirilən baxış zamanı da müəyyən olunduğu kimi, bələdiyyə şurasnın aparılan videoçəkiliş materialının KİV-ə verilməsi barədə qərarı hüquq pozuntularının açılması və profilaktikası məqsədilə həyata keçirilmişdir." İşin digər təfərrüatına varmadan qeyd etməliyik ki, burada AİHM videoçəkilişin qanuni məqsədlərlə aparıldığı qənaətinə aşağıdakılara görə gəlmişdir (§66, 67):

"Məhkəmə 1994-cü il qanunun 163-cü və 1972-ci il qanunun 111-ci maddəsinə istinad edərək bildirmişdir ki, 1994-cü il qanunun 163-cü maddəsinin məqsədi yerli orqanlara hüquq pozuntularının profilaktikası və zərər çəkmiş şəxslərin müdafiəsi üçün videonəzarət sisteminin quraşdırılmasına səlahiyyət verməkdir. Daha sonra Məhkəmə göstərir ki, bələdiyə şurasının 1994-cü il qanunun 16-cü maddəsindəki səlahiyyətini həyata keçirmək üçün müvafiq materialları KİV-ə

ötürmək səlahiyyəti var idi. Məhz buna görə də, videoçəkilişin KİV-ə verilməsi qanunla nəzərdə tutulmuş qaydada həyata keçirilmişdir.

Beləliklə də, videonəzarət sistemi ilə müşahidə olunanlar fiksə olunursa, milli hüquq sisteminin təhlili onu deməyə əsas verir ki, videoçəkiliş sistemi görüntüləri fiksə edir və müvafiq müddət ərzində saxlanılır, bu halda şəxsi həyatın toxunulmazlığının məhdudlaşdırılması qanunla nəzərdə tutulmalıdır. Videoçəkiliş zamanı şəxsin kimliyini birbaşa və ya dolayısı ilə müəyyənləşdirməyə imkan verən müvafiq məlumat toplanır ki, bu da fərdi məlumatdır. Bu məlumatın toplanması hökmən qanunla təsbit olunmalıdır. Başqa sözlə, milli qanunvericilikdə ictimai yerlərdə videonəzarət sistemi vasitəsilə müşahidənin həyata keçirilməsi şəxsi həyata müdaxilə kimi qiymətləndirildiyi üçün onun mümkünlüyü və məqsədləri qanunda nəzərdə tutulmalıdır. Şühbəsiz ki, hətta fiksə olunmadan videonəzarət zamanı da faktiki olaraq müxtəlif əməliyyat-axtarış tədbirləri həyata keçirmək olar. Məsələn, şəxslərin izlənməsi əməliyyat-axtarış tədbirini rahatlıqla videonəzarət sisteminin monitor qarşısında oturmaqla həyata keçirilə bilər ki, bu məsələnin araşdırılması tədqiqat predmetindən kənara çıxdığı üçün ona toxunmuruq.

Həm fərdi məlumatlar, həm də İnformasiya haqqında qanunların təhlili onu deməyə əsas verir ki, burada videonəzarət sistemlərinin tətbiqi üçün qanunla nəzərdə tutulmuş hər hansı əsas yoxdur. Belə ki, "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının 30 sentyabr 2005-ci il tarixli 1024-IIQ saylı qanunun 6.2-ci maddəsinə görə əməliyyat-axtarış tədbirləri keçirilən hallar istisna olmaqla, şəxsin onun xəbəri olmadan və ya etirazına baxmayaraq kütləvi informasiya vasitələrinin nümayəndələri və başqa şəxslər tərəfindən izlənilməsi, video və foto çəkilişinə, səs yazısına və digər bu cür hərəkətlərə məruz qalması qanunvericiliklə müəyyən edilmiş məsuliyyətə səbəb olur. Həmçinin "Fərdi məlumatlar haqqında" Azərbaycan Respublikasının 11 may 2010-cu il tarixli 998-IIIQ saylı qanunun 3.2-ci maddəsinə görə Azərbaycan Respublikasının milli təhlükəsizliyinin, habelə qanunçuluğun təmin edilməsi məqsədilə kəşfiyyat və əks-kəşfiyyat, əməliyyat-axtarış fəaliyyətinin həyata keçirilməsi ilə əlaqədar fərdi məlumatların toplanılması və işlənilməsi, dövlət sirrinə aid edilən və milli arxiv fondunda toplanılan fərdi məlumatların mühafizəsi qaydaları Azərbaycan Respublikasının müvafiq qanunvericiliyi ilə müəyyən edilir. Həmçinin qanunun 8.1-ci maddəsinə görə Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən olunmuş qaydada fərdi məlumatların məcburi şəkildə toplanılması və işlənilməsi halları istisna olmaqla, hər hansı şəxs barəsində fərdi məlumatların toplanılmasına və işlənilməsinə yalnız subyekt tərəfindən verilmiş yazılı, o cümlədən gücləndirilmiş elektron imzalı elektron sənəd formasında razılıq və ya özünün yazılı təqdim etdiyi məlumatlar əsasında yol verilir. Göründüyü kimi, belə bir nəzarət barədə qanunda əsas olmalıdır ki, bunu milli qanunvericilikdə tapmaq mümkün deyildir. Fikrimizcə, videonəzarət ümumi qaydada fərdi məlumatların toplanması və işlənməsi ilə bağlı olduğu üçün Fərdi məlumatlar haqqında qanunda nəzərdə tutulmalı idi. Milli qanunvericilikdə "Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında" Azərbaycan Respublikasının qanunun 36.2-ci maddə-

sində nəzarət həyata keçirilərkən video, elektron və ya digər texniki vasitələrdən istifadə edilməsi imkanı təsbit olunur ki, bu halda hüququn məhdudlaşdırılmasının qanunla nəzərdə tutulması deməkdir. Qeyd olunanları ümumiləşdirərək hesab edirik ki, bu müddəalar "Fərdi məlumatlar haqqında" Azərbaycan Respublikası qanununa müvafiq əlavələr edilməlidir.

Bundan başqa, işəgötürənlərin iş yerində işçiyə əmək funksiyalarını yerinə yetirməsinə nəzarət etməsi üçün bu videonəzarət mexanizmlərindən istifadəsi geniş yayılmış təcrübədir. Fikrimizcə, bu halda da, şəxsi həyata müdaxilə olduğu üçün onun məhdudlaşdrılması qanunla nəzərdə tutulmalıdır. Faktiki olaraq nə "Fərdi məlumatlar haqqında" qanunda, nə də AR Əmək məcəllәsində belə bir məhudiyyət nəzərdə tutulmamışdır ki, bu da faktiki olaraq müdaxilənin qanunilik şərtinin pozulması deməkdir və sonrakı şərtlərin müzakirəsinə ehtiyac olmadan pozuntunu tanımağa əsas verir. Məsələnin hüquqi tənzimlənməsi barədə təkliflər irəli sürmədən məsələ ilə bağlı AİHM-in Kopkenin Almaniyaya qarşı işində qanunilik şərtlərinə nəzər yetirmək yerinə düşərdi.

İşin qısa xülasəsi belədir ki, ərizəçi supermarketdə satıcı və kassir işləyirdi. İşəgötürən mühasibat hesabatı ilə supermarketdəki mallar arasında uyğunsuzluq müəyyən etdikdə dedektiv agentliyinin köməyilə mağazada gizli video çəkiliş apardı ki, ərizəçinin oğurluq edib-etmədiyini müəyyən etsin. Video kamer seyf də daxil olmaqla kassa və onun ətrafını çəkirdi. Dedektiv agentliyi sonra video çəkilişlə birgə bir neçə foto əlavə etməklə (başqa işçilər barədə də hesabat və video çəkilişlər var idi) işəgötürənə hesabat təqdim etdi və işəgötürən xəbərdarlıqsız işçini işdən azad elədi. Ərizəçi iddia edirdi ki, bu video çəkilişlər qanunda nəzərdə tutulmuş müdaxilə sayılmamalıdır, onun qanuni məqsədi mövcud deyildir.

Müvafiq dövrdə işəgötürənin video müdaxiləsi cinayətin araşdırılması ilə bağlı olduğu üçün qanuni olması nəticəsinə gəlindi.

Bundan başqa, AFR "Fərdi məlumatlar müdafiəsi haqqında"qanunun 6b maddəsi vətəndaşlar üçün çatımlı olan yerlərin optik-elektron vasitələrin köməyilə nəzarətin həyata keçirilməsi qaydasını nəzərdə tuturdu. Belə bir video müşahidə o halda qanuni sayılırdı ki, o zəruridirsə, xüsusi olaraq müyyən olunmuş şərtlərə ciddi şəkildə riayət etməklə qanuni məqsədlərə nail olmaq üçün nəzərdə tutulsun və məlumatların aid olduğu şəxsin qanuni maraqları pozulması əlamətləri olmasın. Nəzarətin həyata keçirilməsi və müşahidəçinin şəxsiyytinin bəlli olması üçün tədbirlər görülməlidir. Onların əldə olunması zərurəti aradan qalxdıqda, müvafiq məqsədlərə nail olunduqda və ya müvafiq məlumatların saxlanması onların aid olduğu şəxslərin qanuni maraqlarına zidd olduqda məhv olunmalıdır. Daha sonra 1 sentyabr 2009-cu ildə həmin qanuna 32-ci maddə əlavə olundu ki, bu maddədə iş yerlərində video müşahidə aparılması qaydaları təsbit olunmuşdur. 32-ci maddənin 1-ci hissəsinə görə işçinin fərdi məlumatları əmək fəaliyyəti ilə bağlı münasibətlərdə əmək müqaviləsinin bağlanması və ya ona xitam verilməsi məqsədilə toplana və istifadə oluna bilərdi. İşçinin fərdi məlumatları yalnız o halda cinayətlərin araşdırılması üçün toplana, işlənə və istifadə oluna bilər ki, fərdi məlumatların aid olduğu şəxsin əmək fəaliyyəti gedişində cinayət törətməsini ehtimal

etməyə sənədləşdrilmiş faktiki əsaslar olsun, belə məlumatların toplanması, işlənməsi və istifadəsi araşdırma üçün zəruridirsə, əgər işçi belə məlumatların toplanması, işlənməsi və istifadəsi imkanı ilə bağlı məsələsinin həlli zamanı daha əhəmiyyətli qanuni maraqlara malik deyilsə, habelə bu məlumatların növü və hədləri gözlənən məqsədlərə mütənasib olsun.

Bu halda videomüşahidə cinayətin araşdırılması məqsədilə həyata keçirilməsi cinayət mühakimə icraatı ilə bağlı qaydalar qanunvericilikdə nəzərdə tutulduğu üçün lüzumsuz görünə bilər. Burada bir cəhəti nəzərə almaq vacibdir ki, cinayət mühakimə icraatının qaydaları cinayətin araşdrılması ilə bağlı dövlət orqanları ilə şəxslərin münasibətləri tənzimlənirsə, burada söhbət işəgötürənin cinayətin araşdırılması ilə bağlı həyata keçirə bildiyi qanuni müdaxilə hərəkətlərindən gedir.

Qeyd olunanları nəzərə alaraq hesab edirik ki, əmək münasibətlərində video müşahidə ilə nəzarət fərdi məlumatlara müdaxilə olduğu üçün bu, AR Əmək məcəlləsində nəzərdə tutulmalıdır.

İnsan və vətəndaşların hüquq və azadlıqlarının məhdudlaşdırılması ilə bağlı əhəmiyyətli məsələlərdən biri də, məhdudlaşdırılması qadağan olunan mütləq hüquqlardır.

"Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının həyata keçirilməsinin tənzimlənməsi haqqında" Azərbaycan Respublikasının Konstitusiya qanununun 2-ci maddəsinə görə məhdudlaşdırlması və qeyd-şərt müəyyən edilməsi qadağan olunan insan hüquqlarından biri də, Konstitusiyanın 63-cü maddəsində nəzərdə tutulmuş təqirsizlik prezumpsiyasıdır. Təqsirsizlik prezumpsiyasını təsbit edən 63-cü maddəsinin 4-cü hissəsinə görə ədalət mühakiməsi həyata keçirilərkən qanunu pozmaqla əldə edilmiş sübutlardan istifadə olunması qadağandır.

Bununla bağlı qüvvədə olan Azərbaycan Respublikası Cinayət-Prosessual məcələsinin (bundan sonra AR CPM) sübutlarla bağlı bəzi müddəalarını müqayisəli təhlil etmək istərdik. AR CPM-in 125-ci maddəsi sübutların məhz qanunla əldə olunması qaydalarını nəzərdə tutulan mümkünlük şərtlərini ifadə edir. Həmin maddənin 125.2.1-ci maddəsinə görə əgər insan və vətəndaşların konstitusiya hüquqlarının və azadlıqlarının, yaxud bu Məcəllənin digər tələblərinin pozulması ilə (söhbət qanunun pozulması ilə əldə olun sübutdan gedir – müəl.) cinayət prosesi iştirakçılarının qanunla təminat verilən hüquqlarından məhrum etmə və ya onları məhdudlaşdırmaqla bu sübutların həqiqiliyinə hər hansı yolla təsir göstərəcəyi və ya göstərə biləcəyi halda əldə edilmiş məlumatların, sənədlərin və digər əşyaların cinayət işi üzrə sübut kimi qəbul edilməsinə yol verilmir. Başqa sözlə, burada CPM-in tələblərinin pozulması ilə cinayət prosesi iştirakçılarının qanunla təminat verilən hüquqlarından məhrum etmə və ya onları məhdudlaşdırması sübutu qeyri-mümkün etmir, bundan başqa belə bir pozuntu həm də sübutun həqiqiliyinə hər hansı yolla təsir göstərəcəyi və ya göstərə biləcəyi halda onu qeyri-mümkün sübut edir. Əks halda qanunsuz əldə olunmuş sübutdan ədalət mühakiməsində istifadə oluna bilər.

Bundan başqa, CPM-in 125.2.7-ci maddəsinə görə də, istintaq və ya digər prosessual hərəkətlərin icraatı qaydaları kobud pozuntularla aparıldıqda onun nəticələrindən sübut kimi istifadə oluna bilməz. Məlumat üçün qeyd etməliyik ki, CPM-in 303.3-cü maddəsində belə kobud pozuntuların dairəsi müəyyən olunmuşdur. Belə bir halda sual yaranır ki, əgər istintaq və ya digər prosessual hərəkətlərin icraatı qaydaları kobud deyil, kobud olmayan pozuntularla, yəni CPM-in 303.3-cü maddəsində göstərilən nəticələrə səbəb olmayana pozuntularla aparıldıqda müvafiq icraatın nəticələrindən sübut kimi istifadə etmək olarmı? Formal müəyyənlik tələbinə görə cavab aydındır ki, həmin sübutlar qeyri-mümkün sübut sayılmır.

Belə olan şəraitdə faktiki olaraq AR CPM-in həm 125.2.1 və 125.2.7-ci maddələrinin məzmunu adı çəkilən Konstitusiya qanunun 2-ci maddəsinə zidd olmuş olur. Fikrimizcə, roman-german hüquq sisteminin ədalət mühakiməsinin ənənələri baxımından 125.2.1 və 125.2.7-ci maddələrin məzmunu qəbuledilən və normal hal sayılmalıdır. Hər iki halda sübutların məzmunundakı həqiqiliyə xələl gəlmədiyi üçün məhkəmə icraatının həqiqətin müəyyən edilməsi vəzifəsi baxımından onlardan istifadə olunması zəruri sayılmalıdır. Məhz bu səbəbdən də, təqsirsizlik prezumpsiyasının insan və vətəndaş hüquq və azadlıqlarının təsbit olunduğu beynəlxalq hüquqi aktlardakı məzmununda da belə bir müddəa nəzərdə tutulmamışdır. Fikrimzcə, De Lege Lata qanunvercilikdə belə bir kolliziya birmənalı şəkildə lex superior derogat legi inferiori maksiması əsasında həll oluna bilməz.

## ƏDƏBİYYAT


1. Azərbaycan Respublikası Konstitusiyası. 12 noyabr 1995-ci il.
2. “Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının həyata keçirilməsinin tənzimlənməsi haqqında” Azərbaycan Respublikasının Konstitusiya Qanunu. №404-IIKQ, 24 dekabr 2002-ci il.
3. “İnformasiya əldə etmək haqqında” Azərbaycan Respublikasının Qanunu. №1024-IIQ, 30 sentyabr 2005-ci il.
4. “Fərdi məlumatlar haqqında” Azərbaycan Respublikasının Qanunu. №998-IIIQ, 11 may 2010-cu il.
5. “Azərbaycan Respublikasının inkişafı naminə informasiya və kommunikasiya texnologiyaları üzrə Milli Strategiya (2003-2012-ci illər)
6. “Təhlükəsiz şəhər” avtomatlaşdırılmış idarəetmə sisteminin yaradılması və təkmilləşdirilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. 15 may 2009-cu il.
7. “Əhalinin sıx toplaşdığı yerlərdə və obyektlərdə videonəzarət sistemlərinin yaradılması barədə” Nazirlər Kabineti qərarı. № 131, 6 iyul 2010-cu il.
8. Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsi. 14 iyul 2000-ci il. http://e-qanun.az/code/14

## ОГРАНИЧЕНИЕ ПРАВ И СВОБОД ЧЕЛОВЕКА: НЕКОТОРЫЕ ЗАМЕТКИ ПО СОВЕРШЕНСТВОВАНИЮ ЗАКОНОДАТЕЛЬСТВА DE LEGE LATA

**Р.М.ИСМАИЛОВ**

**РЕЗЮМЕ**

Ограничение прав и свобод человека является одним из важных аспектов отношений государства и человека. Ограничения предназначены для компромисса интересов субъекта общественности и интересов государства. Одно из ограничений прав и свобод человека и гражданина связано с правом на личную неприкосновенность. Статья 32 Конституции Азербайджанской Республики определяет это право. В статье рассматриваются законные условие вмешательство в частную жизнь в общественных местах и на рабочих местах.

**Ключевые слова:** права человека, ограничения, законность, легитимные цели, пропорциональность

## RESTRICTION OF THE RIGHTS AND FREEDOMS OF MAN AND CITIZEN: DE LEGE LATA SOME NOTES ON IMPROVING THE LEGISLATION

**R.M.ISMAYILOV**

**SUMMARY**

The restriction of human rights and freedoms is an important aspect of the relations between the state and the individual. Restrictions are intended to compromise the interests of the public and the interests of the state. One of the limitations of human and civil rights and freedoms is related to the right to personal inviolability. Article 32 of the Constitution of the Republic of Azerbaijan defines this right. The article deals with the legal condition of interference in private life in public places and in the workplace.

**Key words:** human rights, restrictions, legality, legitimate goals, proportionality.

BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№1 Sosial-siyasi elmlər seriyası 2019

## PEDAQOGİKA

UOT 37.01.

# "KREATİV" VƏ "TƏNQİDİ" TƏFƏKKÜR ANLAYIŞLARININ MƏZMUNU, TƏCRÜBƏDƏ TƏTBİQİ MƏSƏLƏLƏRİ

**N.E.ZEYNALOVA**
***Azərbaycan Dillər Universiteti***
***nigarzeynalova777@gmail.com***

*Məqalədə tənqidi təfəkkür, onun mahiyyəti, əhəmiyyəti, kreativ təfəkkürün formalaşdırılmasındakı roluna dair ətraflı məlumat verilmiş, geniş təhlillər aparılmışdır. Həmçinin tənqidi təfəkkürlə kreativlik arasındakı əlaqələr araşdırılmış, müxtəlif tədqiqatçıların bu istiqamətdəki yanaşmaları nəzərdən keçirilmiş, təlim prosesində tənqidi təfəkkürün inkişafına zəmin yaradan metodlar sadalamış, hər biri ayrı-ayrılıqda analiz edilmişdir. Məqalədə təfəkkürün inkişafı metodlarının üstün və zəif cəhətlərinə dair müqayisəli məlumatlar təqdim olunmuşdur. Təfəkkürün inkişafının ilk növbədə müəllimdən, onun hazırlığından, yararlandığı metodlardan və pedaqoji bacarıqlarından düz mütənasib asılılığı xüsusi vurğulanmışdır.*

**Açar sözlər:** tənqidi təfəkkür, kreativ təfəkkür, metod, keys, fəaliyyət, təhlil, qərar qəbulu, mühakimə

Müasir dövrdə təhsilin əsas vəzifəsi təhsilalanların təfəkkürünün, düşüncə bacarıqlarının inkişafıdır. Təfəkkürün inkişafının əhəmiyyəti gündəlik həyatda, əmək fəaliyyətində, təhsildə, cəmiyyətdə insanlar arasındakı əlaqələrdə özünü göstərir. O, insanın həyat tərzinin səviyyəsi ilə birbaşa əlaqəli olduğundan təlim prosesində nəzərə alınması mütləqdir. İdeal həyat tərzi müstəqillik, uğurlu ünsiyyət, innovasiya, inam və əmin-amanlıqla səciyyələnir. Qeyd olunan xüsusiyyətlər bir-birinin inkişafına güclü təkan verir. "Kreativ təfəkkür" və "tənqidi təfəkkür" anlayışlarının araşdırılması və istifadə dairəsinin genişləndirilməsi, real həyat problemlərinin həlli, fəaliyyətin təkmilləşdirilməsi, ictimai kontekstdə məlumat və arqumentlərin dəyərləndirilməsi, vacib qərarların qəbulu kimi məsələlər bu məqsədə xidmət edir. Pedaqoqlar tələbələrin kreativ olmasını: köhnə nümunə və biliklərin təkrarlanması deyil, yeni, naməlum vəziyyətlərə düzgün reaksiyanın verilməsini, problemlərin yeni və daha səmərəli həllinin təklifini, orijinal fəaliyyətin nümayişini və s. arzu edirlər. Təlim prosesində tənqidi və kreativ təfəkkürün formalaşdırılması, adətən, bir-birindən ayrı nəzərdən keçirilir, hər ikisinin fəaliyyəti müstəqil təşkil olunur. İnsan, adətən, vaxtını, istedad və maddi vəsaitlərini əhəmiyyətli, dəyərli hesab etdiyi məsələlərə sərf edir. Bu, təfəkkür bacarıqlarına da

şamil edilir. Təfəkkürün, düşüncə bacarıqlarının inkişafına lazımi dəyər verilmədikcə, təlimdə onun əhəmiyyəti və inkişafı məsələləri diqqətdən kənarda qalacaqdır. Bu səbəbdən hər iki təfəkkür növünün təlimdə əlaqələrinə dair birmənalı mövqe bildirilməli və təlim prosesində onların inkişafı istiqamətləri müəyyənləşdirilməlidir. Tənqidi təfəkkür, adətən, analiz kimi dəyərləndirilir, müəyyən struktur və ya kontekst çərçivəsində mühakimə yürütmək vasitəsi olaraq qəbul edilir. Kreativ təfəkkür isə təxəyyül, konstruktivizm, generativliyin xüsusiyyətlərini daşıyır. O, strukturun çərçivəsindən çıxmaq, hüdüdları aşmaq imkanı yaradır. Alimlərin hər iki təfəkkür növü arasındakı əlaqələrə dair fikirləri fərqlənir. Bəzi tədqiqatçılar bildirmişlər ki, onlar ayrı-ayrı fəaliyyət göstərərək biri digərini tamamlayır. Məsələn, Qlazerin təbirincə desək, "kreativlik tənqidi təfəkkürü zənginləşdirir, lakin onun mühüm komponenti kimi çıxış etmir" [7, 25]. De Bono isə əksinə, vurğulamışdır ki, hər iki təfəkkür növü arasında ziddiyyət mövcuddur. Belə ki, müəyyən çərçivənin hüdudlarından çıxmaq strukturu səciyyələndirən tənqidi qiymətləndirmə üçün məntiq və standartlardan imtinanı tələb edir. Lakin hər iki qrup bir fikirdə həmrəydir: tənqidi və kreativ təfəkkür əsaslı şəkildə fərqlənir və bu səbəbdən fərqli pedaqoji yanaşmaların hazırlanmasını labüdləşdirir [6]. Tənqidi təfəkkürün inkişafı ilə bağlı müxtəlif fikirlər mövcuddur. Bəzi alimlərin fikrincə, tənqidi təfəkkürün inkişafına dair bacarıqlar tələbələrin müstəqil fəaliyyəti prosesində formalaşdırılmalı, tədris olunan fənlər, təlim materialları vasitəsilə inkişaf etdirilməlidir. Burada divergent düşüncə, çevikliyi stimullaşdıran texnikalar yaddan çıxarılmamalı, əksinə, diqqət mərkəzində saxlanılmalıdır. Digərləri isə bildirir ki, tənqidi təfəkkürün bir sıra amilləri yaradıcılığa, kreativliyin inkişafına mənfi təsir göstərir. Lateral düşüncə tərzinin tədqiqatı ilə tanınan E.De Bono belə bir fikir irəli sürmüşdür: "İstənilən sahədə zəngin təcrübə kreativliyi məhdudlaşdıra bilər, çünki sahə haqqında ətraflı biliklərə malik olmaq yeni ideyaların yaranmasına maneçilik törədir, bəzən isə qarşısını alır" [5].

Əlbəttə, tənqidi və kreativ təfəkkür arasında əsaslı dixotomiya (müqayisə, tutuşdurma) mövcuddur. Lakin buna baxmayaraq, biri digərinin tərkibinə inteqrasiya edərək onun yaranmasına öz töhfəsini verir. Kreativ nəticələrin generasiyasında tənqidi (analitik), mühakimə aspektləri mövcud olduğu kimi, tənqidi təfəkkürün inkişafında da təxəyyül və kəşfetmə elementləri vardır. Buna görə də təfəkkür növlərini bir-birindən ayırmaq mürəkkəb məsələdir. Əslində onların inkişafına dair problemlər ənənəvi təlim paradiqmindən qaynaqlanır. Təlim proqramları müəllimyönümlü yanaşmanı, avtoritar metodları təbliğ etdiyindən, tənqidi və kreativ təfəkkürün inkişafı, ən yaxşı halda, yalnız əlavə tapşırıqlar vasitəsilə mümkünləşirdi. Təfəkkürün inkişafı təlim məqsədləri və təlim nəticələrində nəzərə alınmalıdır. Müasir dövrdə təfəkkürün növlərinin mahiyyəti haqqında fikirlər istər psixoloji, istərsə də pedaqoji ədəbiyyatda fərqlənir. Tədqiqatçıların əksəriyyəti onların arasında kəskin fərqin olduğunu vurğulayır.

Tənqidi təfəkkür insanı müəyyən çərçivə ilə məhdudlaşdırır. O, qapalı strukturda qurulduğundan, hüdudları aşmaq vasitələri ilə təmin edilməmişdir, hətta qiymətləndirilməsi də çərçivə daxildə aparılır. Tənqidi təfəkkür əsaslandırılmış mü-

hakimə, qərar qəbulu ilə məşğuldur, əsasən analitik, qiymətləndirici, seçici qaydalara bağlılığı ilə fərqlənir. Çərçivə daxilində verilən lazımi məlumat və müvafiq əsaslandırma texnikaları mühakimə və alqoritm xarakterlidir.

Kreativ təfəkkür isə əksinə, çərçivənin hüdudlarını aşır və kəşfedici, təxəyyüllü, yeni ideyaların generasiyasını, köhnə çərçivənin qırılmasını nəzərdə tutur, tənqidi təfəkkürə zidd göstəricilərə malikdir. O, spontan, generativ və qeyri-qiymətləndiricidir, məntiqə və dəlillərə deyil, intuisiyaya, şüuraltı proseslərə əsaslanır.

Kestler nizamlı təfəkkürlə yaradıcı akt arasında müqayisəli təhlillər aparmışdır. Qaydalı, nizamlı təfəkkür müəyyən qaydalar əsasında zəif idarə olunan oyundur. Bəzi qaydalar açıq-aydın göstərilir, bəziləri isə gizli saxlanılır. Yaradıcı akt şüursuz resurslardan asılı olduğundan nəzarətin zəifləməsi ilə paralel baş verir, ziddiyyətlərə məruz qalmır və sağlam fikir adlanır [8].

Tədqiqatımızda hər iki təfəkkür növünün bir-biri ilə qarşılıqlı əlaqəsinə və tənqidi təfəkkürün kreativ təfəkkürə təsir etməsinə, onun inkişafına zəmin yaratması haqqında fikrə əsaslanırıq.

İstənilən təfəkkür tərzi yeniliklərin axtarışı və kəşfidir. Tələbə fənn üzrə baza biliklərinə malikdirsə, məsələnin həlli zamanı fənnin əvvəllər məlum olmayan aspektlərini aşkarlayır, beləliklə də təfəkkürün inkişafı baş verir. Qavrama prosesində tələbə biliklərinə əsaslanaraq, onları inkişaf etdirərək, obyektin yeni tərəflərini üzə çıxarır.

Hazırda tələbələrlə müstəqil təlim və düşüncə bacarıqlarının aşılanması istiqamətində məqsədyönlü fəaliyyət təşkil olunmur. Uzun illər təhsildə əsas məqsəd məzmunun əzbərlənməsi idi, bu da tənqidi və kreativ təfəkkürün diqqətdən kənarda qalmasına gətirib çıxarmışdı. Tənqidi təfəkkür nadir hallarda anadangəlmə olur. Onun inkişafı üçün tələbələrdə sistemli şəkildə təhlil (analitik) bacarıqları formalaşdırmaq, yeni biliklərin axtarışına açıqlıq, qərəzsizlik nümayiş etdirməyi öyrətmək lazımdır. Belə yanaşma nəticəsində təhsilalanlar istənilən sahədə tənqidi təfəkkürə dair bacarıqlara əsaslanıb, onları tətbiq edə biləcəklər. Lakin orta məktəbdən müstəqil qərar qəbuluna, problem həllinə deyil, ənənəvi, müəllimyönümlü, reproduktiv təlim metodlarına alışan tələbələrin ali məktəbdə müqavimətlə üzləşmək təhlükəsi böyükdür.

Tənqidi təfəkkürün kreativliyin inkişafına təsirini müəyyənləşdirmək məqsədilə onun təlim prosesində inkişafına təsir göstərən amilləri nəzərdən keçirək. Burada bəzi priyomlardan istifadəni nümunə kimi göstərmək mümkündür. Onlardan mətnlə işləmək, məlumatın qrafik təşkili, mətnlə birbaşa əlaqəsi olan çalışmalar, təlimatların verilməsi, beyin xəritələri (klasterlər), beyin həmləsi və keysləri sadalamaq mümkündür.

Təhsilalanlarla mətn üzrə iş aparılması və klasterdən istifadə tənqidi təfəkkürün inkişafına zəmin yaradır. Mətnin üzərində markerlərlə qeydlərin edilməsi, məlum və naməlum faktların, yeni məlumatların, ziddiyyətli məqamların rənglərlə fərqləndirilməsi tələbələrə mətnin oxunuşuna məqsədyönlü və dərk edilmiş şəkildə yanaşmaq imkanı verir. Mətnin müstəqil şəkildə oxunuşu, təhlilindən sonra qrupda müzakirələrin təşkili, fikir mübadiləsi, məlumatın sistemləşdirilməsi yeni

materialın daha yaxşı mənimsənilməsinə kömək göstərir. Qrupda diskussiyaların aparılması qarşılıqlı öyrənməni, qaranlıq məqamların aydınlaşdırılmasını, əlavə fakt və arqumentlərin irəli sürülməsini təmin edir.

Oxuya başlamazdan əvvəl tələbələr oxunun məqsədini müəyyənləşdirməlidirlər: oxunun səbəbi, mətnin sərlövhəsinin (başlığının) təhlili, məzmunun proqnozlaşdırılması, əsas və ikinci dərəcəli məlumatın dəyərləndirilməsi, qeydiyyat aparılması. Oxu zamanı mətnin daha yaxşı qavranılmasına kömək edən priyomlardan yararlanmaq mütləqdir:

- Məlumatın sadələşdirilmiş şəkildə ifadəsi;
- Seçilmiş hissələrin oxunması;
- Əsas cümlələrin qeyd olunması;
- Mürəkkəb hissələrin ucadan oxunması;
- Qeydlərin aparılması.

Oxu prosesi başa çatdıqdan sonra tələbələr əsas məlumatları yazılı şəkildə qeyd etməli, ayrı-ayrı hissələrin yenidən oxunub-oxunmamasına dair qərar verməli, oxuduqlarının qısa xülasəsini yazmalı, mövcud bilikləri ilə yeni məlumat arasında əlaqələr yaratmalıdırlar. Mətnlə iş zamanı tələbələr təkcə onun məzmunu və əsas məqamlarını deyil, eləcə də dəyərli hesab etdiklərini, aydınlığa ehtiyac olan və əlavə tamamlama işlərini müəyyənləşdirə bilərlər. Fəaliyyətin qrup şəklində təşkili öyrənənlərə mətnə fərqli mövqelərdən baxmaq imkanı verir, konstruktiv tənqid, düzgün, adekvat qərar qəbulu və s. bu kimi bacarıqları formalaşdırır.

Məlumatın qrafik təşkili təfəkkür proseslərini daha da sürətləndirir, cədvəl, diaqram, beyin xəritələri, sxemlər və s. məlumatın mənimsənilməsi və emalına münbit şərait yaradır. İdeyalar arasında əlaqələrin qurulması, düşüncə strategiyaları, düşüncə prosesi əyani şəkildə təsvir edildikdə daha anlaşıqlı olur. Məlumatın qrafik şəkildə təşkili təlimin hər mərhələsində: mövzu ilə bağlı araşdırmanın əvvəlində, hazırlıq mərhələsində, tədqiqatın düzgün istiqamətləndirilməsi və onun ətrafında düşüncə prosesinin təşkilində mümkündür .

Mətnlə birbaşa əlaqəli çalışmalar tələbələrin mətni anlamaq, onu refleksiya etmək bacarıqlarının inkişafına təkan verir, fəal oxu, yazı, dinləmə kimi fəaliyyətlərə yönəldir. Bu tapşırıqlar geniş tətbiq dairəsinə malik təlim strategiyalarıdır. Çalışmaların tərkibinə oxu kitabları və internetdən əldə olunan yazılı, vizual materiallar daxil etmək mümkündür. Onun hazırlanma və istifadə məqsədi öyrənənlərin mətn üzərində işini tənzimləməkdir. Mətn üzrə iş zamanı lazımi sözlərin seçilib siyahısının tutulması, sadalanması, diaqramların çəkilməsi və ya nəsr şəklində təsviri kimi fəaliyyətlərdən yararlanmaq faydalıdır. Təhsilalanlara verilən tələblərin səviyyəsi, yəni təlimin diferensiallaşması müəllim tərəfindən onların ehtiyaclarının müəyyənləşdirilməsi əsasında təyin olunmalı və həyata keçirilməlidir. Pedaqoqun göstərişlərini düzgün şəkildə anlayıb yerinə yetirmək məqsədilə dinləməyə dair çalışmalar hazırlamaq mümkündür [4].

Təlimatların verilməsinə müxtəlif tipli tapşırıqların təqdim olunması daxildir: məsələn, istənilən problemlə bağlı məlumatın toplanılması və s. Adətən, tələbələr tapşırığın şərtinə (təlimatına) diqqətsiz yanaşırlar. Şərtin (təlimatın) akade-

mik üslubda yazılmasına, hər mərhələnin ayrı-ayrılıqda anlaşıqlı olmasına baxmayaraq, bütövlükdə çətinliyi, yerinə yetirməyə inamsızlıq, layihənin maraqsızlığı səbəb kimi göstərilir [3, 160]. Problemlərin aradan qaldırılması öyrənənlərin bacarıq və diqqətindən asılıdır, lakin aşağıda göstərilmiş məqamlar da nəzərdə saxlanılmalıdır:

- Tapşırıq və ya layihə üçün şərtlərin tələbələrlə birgə hazırlanması. Tapşırıq tələbələr tərəfindən hazırlandığı üçün onun yerinə yetirilməsi addım-addım yoxlanılmalıdır.
- Nömrələnmiş kağızlar üzərində təlimatların yazılması. Vərəqlər tələbələrə verilir, ardıcıllıqla düzülməsi tapşırılır. Tapşırığın məqsədəuyğun və ya yanlış olması müzakirə edilir. Yekun variant yazılı şəkildə tələbələrin kitablarına yapışdırılır.
- Şərtləri oxuduqdan sonra onlara müvafiq hadisələri seçmək, ardıcıllığı müəyyənləşdirmək tapşırılır.
- Tələbələrə əvvəl tapşırığın müzakirəsini aparmaq, sonra isə şərtini yazmaq təklif edilir.

Eyni yanaşma prosesin gedişində və ya təsvirində də tətbiq oluna bilər. Məsələn, məlumat bazasını araşdırmaq və s.

Klasterlər (beyin xəritələri) anlayışı asan başa düşmək üçün sözün beyində yaratdığı ilk assosiasiyaları toplamağın ən əlverişli üsuludur. Hadisəni yadda saxlamaq üçün mövzu ilə əlaqəli hörümçəkşəkilli diaqram qurulur. Buradakı ox işarələri məfhumlar arasındakı əlaqələri göstərir. Beyin xəritələri mövzu üzrə biliklərin xülasə və ya ümumiləşdirmə şəklində qrafik ifadə formasıdır. O, konstruktivizm təlim nəzəriyyəsindən qidalanır. Konstruktivistlər yeni biliklərin mövcud məlumatlar üzərində qurulmasını dəstəkləyirlər. Xəritələr tam (bütöv) və hissələrin qarşılıqlı əlaqələrini müəyyənləşdirmək, yeni bilikləri köhnələrlə genişləndirib sistemləşdirmək imkanı verir, tələbələrə yeni bilikləri öz sözləri ilə izah etməyə kömək göstərir. Fəaliyyətin əvvəlində hazırlanan xəritələrə refleksiya mərhələsində (sonda) əlavələr oluna bilər. Əyanilik biliklərin daha yaxşı və möhkəm mənimsənilməsini təmin edir. Xəritələrin tərtibatı mərhələsi çətindir, lakin hazırlıq prosesinin özü də faydalı fəaliyyətdir. Onların yaradılması tələbələrin ideyalarını əyaniliyə transformasiya edir [9].

Müəllimin əsas vəzifəsi tələbələri problemlə bağlı daha çox ideyanın yaradılmasına və əlaqələrin qurulmasına həvəsləndirməkdir. Beyin həmləsi öyrənənlərdə yaradıcı fəaliyyəti stimullaşdırmağa əsaslanan metoddur. Bu zaman iştirakçılara qısa müddət ərzində mümkün qədər fikir, ideya, problem həlli təklif etmək imkanı verilir. Daha sonra səsləndirilən ideyalardan təcrübədə tətbiq oluna bilən ən yaxşıları seçilir. Beyin həmləsi üç əsas mərhələdən ibarətdir: problemin qoyuluşu, ideyaların generasiyası, ideyaların qruplaşdırılması, seçimi və dəyərləndirilməsi.

Problemin qoyuluşu mərhələsində problem hər kəs üçün anlaşıqlı və dəqiq şəkildə ifadə olunur.

İdeyaların generasiyası mərhələsində iştirakçılara məhdudiyyətlər qoyulmamalı, deyilən fikirlərə müsbət və ya mənfi rəy bildirilməməli, ideyalar tənqidə

məruz qalmamalıdır. Çünki fikirlərin qiymətləndirilməsi yaradıcılığa mənfi təsir göstərə bilər. Söylənilən fikirlər birləşdirilə və inkişaf etdirilə bilər.

İdeyaların qruplaşdırılması, seçimi və dəyərləndirilməsi mərhələsində ən böyük əhəmiyyət kəsb edən ideyalar seçilir, beyin həmləsi yekunlaşdırılır, hər bir ideyaya rəy bildirilir, onlar təhlil olunur, qiymətləndirilir.

Keys və ya konkret vəziyyətlər metodu (ing. case-vəziyyət) istənilən sahə üzrə müəyyən vəziyyətin təsviridir. Adətən, problem və ziddiyyət üzərində qurulur və real həyati faktlara əsaslanır. Keys fəal təlim metodudur. Onun məqsədi tələbələrin birgə səyi ilə situasiyanın (keysin) təhlili, praktik qərarın qəbulu, prosesin sonunda təklif olunmuş alqoritmlərin dəyərləndirilməsi və problemin optimal həllinin seçimidir. Ənənəvi təlim metodları ilə müqayisədə onun bir sıra üstünlükləri var: praktiklik, interaktivlik, konkret bacarıqların formalaşdırılması. Keyslər aşağıdakı üstünlüklərə malikdir:

- Ali məktəbdə alınan nəzəri biliklərin fərqli istiqamətlər üzrə tətbiqinə, praktik bacarıqların formalaşmasına geniş imkan yaradır.
- Təhsilalanların problem həllinə cəlb olunması materialın tam mənimsənilməsini təmin edir. Keysin təhlilində bütün tələbələr problem həllinə istiqamətləndirilir.
- Prosesdə əsas diqqət hazır biliklərin əldə olunmasına deyil, onların qurulmasına, yaradılmasına yönəldilir.
- Keyslərin həlli akademik mühitdə, peşə fəaliyyətində əhəmiyyətli sayılan bir çox bacarıqların formalaşdırılmasını təmin edir.

Yuxarıda sadalanan bir neçə metod vasitəsilə təlimdə tənqidi və kreativ təfəkkürün inkişafına nail olmaq mümkündür. Bu fəaliyyətin təşkili aşağıdakı mərhələlər üzrə həyata keçirilə bilər: fəaliyyətin genişləndirilməsi, imkanların müəyyənləşdirilməsi, ideyaların mübadiləsi, fərziyyələrin dəyərləndirilməsi, qərarların qəbulu.

Fəaliyyətin genişləndirilməsi problemin tədqiqatı üçün sualın müəyyənləşdirilməsini nəzərdə tutur: tələbələr qısa müddət ərzində problemlə əlaqədar ağıla gələn bütün fikirləri sadalamalıdırlar. Bu, mövcud bilik və təcrübəni fəallaşdırmaq, assosiasiyalar vasitəsilə ideyalar generasiya etmək imkanı verir.

İmkanların müəyyənləşdirilməsi mərhələsində əvvəlcə toplanılan məlumatları, ideyaları genişləndirmək məqsədilə beyin xəritələri tərtib olunur. Beyin xəritələri tələbələrin ideyalarını əyaniliyə transformasiya etmək imkanı verir. Bu mərhələdə müəllimin əsas vəzifəsi tələbələri problemlə bağlı daha çox fikir irəli sürüb əlaqə qurmağa yönəltməkdən ibarətdir. Beyin xəritələrinin tərtibi üçün ideya mübadiləsinə 10 dəqiqəyədək vaxt ayrılır.

Növbəti mərhələdə auditoriya kiçik qruplara bölünür, qrupun hər bir iştirakçısı öz fikrini bildirir. Tələbələr yoldaşlarını diqqətlə dinləyir, suallar verir və müzakirələr aparırlar.

Fərziyyələri daha yaxşı anlamaq və dəyərləndirmək məqsədilə suallar verilməlidir. Bu mərhələ müəyyən vaxt tələb edir. Çünki bütün fikirlər suallarla müşahidə olunur, müzakirələr aparılır, qeyri-müəyyən təkliflərə aydınlıq gətirilir.

Qrup işi öyrənənlər üçün xüsusi əhəmiyyət kəsb edir. Belə ki, tələbələr öz fikirləri ilə yanaşı, qrup yoldaşlarının alternativ ideyalarını dinləyir, problemin həllinə dair müxtəlif yanaşmaları götür-qoy edirlər. Bununla birlikdə, digər fikirləri dinləyərkən tələbələr ruhlanır və onlarda yeni ideyalar yaranır. İdeyaların genişləndirilməsi daxili refleksiya ilə xarici modellərin birləşməsi hesabına baş verir.

Qərarların reallaşdırılması mərhələsində tələbələr müzakirə zamanı reaksiyalarının qeydiyyatını aparır, "keçmiş biliklərlə yeniləri arasında ziddiyyətlər varmı?", "hansı ideyalar yarandı?", "bu fəaliyyətdə yeni nə öyrəndim?" və s. sualları cavablandırırlar.

Tələbələr fikirlərini əsaslandırmayana qədər onların səhv və ya düzgün cavab vermələri barədə rəy bildurmək olmaz. Təhsilalanlarda təfəkkürün hər iki növünün inkişafını təmin etmək məqsədilə düşüncə tərzinin qiymətləndirilməsinə dair meyarları öncədən hazırlamaq vacibdir. Belə halda tələbələr bilik və bacarıqlarının tətbiqinə, müstəqil işləməyə meyil göstərirlər. Təhsilalanlarda hər şeyi bilmək, öyrənmək həvəsini formalaşdırmaq onlara məntiqi əsaslandırma aparmaq, mühakimə yürütmək, düşüncə proseslərini idarə etmək imkanı yaradacaqdır.

Təfəkkürün inkişafı metodlarının üstün və zəif cəhətləri mövcuddur. Müsbət xüsusiyyətlərə tələbələrin aktivliyinin, müstəqilliyinin, kreativliyinin, marağının, məsuliyyətliliyinin yüksəlməsi, müəllimdən asılılığın azalması, məzmunun daha tez və rahat anlaşılması, qavranılması, idrak motivasiyasının, uzun müddət qorunub saxlanılması, təlimin mexaniki deyil, dərketmə vasitəsilə həyata keçirilməsi aiddir. Zəif cəhətlər isə bacarıqların qiymətləndirilməsində yaranan problemlər və nizam-intizama nəzarət məsələləridir.

Təlim prosesində beyin xəritələri, klasterlər, diaqram, sxem və cədvəllərdən istifadə təlim materiallarının sistemləşdirilməsi, məntiqi təşkili və təqdimatı baxımından xüsusi əhəmiyyət daşıyır. Əyani istinadlar tələbələr tərəfindən şəxsi ideya, təsəvvür və düşüncələr əsasında tərtib olunduğu üçün yaddaşda assosiasiyaların yaradılması, məzmunun bərpası prosesini asanlaşdırır. Bu səbəbdən tələbələr tərəfindən əyani vasitələrin yaradılması həvəsləndirilməli və dəstəklənməlidir. Sadalanan üsullar keys-stadi, problemli və tədqiqat əsaslı təlim yanaşmaları ilə birgə istifadə olunarsa, təlimin səmərəsi yüksələr.

Tənqidi təfəkkür şəxsiyyətin fəal həyat mövqeyini nümayiş etdirir, yeni imkanlara şərait yaradan kreativ təfəkkürü yüksək dəyərləndirir. Kreativ təfəkkür bacarıqlarına yaratmaq, kəşf etmək, fərziyyələr irəli sürmək, təxəyyül aiddir. Kreativ təfəkkür kifayət qədər bilik, dərrakə tələb edir. Qeyd olunan metodların əksəriyyəti istər tənqidi, istərsə də kreativ təfəkkürün formalaşdırılmasında müstəsna əhəmiyyətə malikdir.

Müasir dövrdə dəyişikliklər gündəlik həyatın normasıdır. Bu baxımdan təlimdə müəllimin əsas vəzifəsi təhsilalanların təfəkkür proseslərini modelləşdirmək və zəruri bacarıqların inkişafı, tətbiqi və nümayişi üçün münbit şərait yaratmaqdır.

Səmərəli fəaliyyət üçün bilik və məlumatlılıq kifayət deyil. Tənqidi düşüncəyə malik tələbələr problem həllində səmərəli yanaşma nümayiş etdirirlər. Belə halda pedaqoqun tənqidi təfəkkürün inkişafına yönələn, öyrənənləri təhlilə, sinte-

zə və qiymətləndirməyə həvəsləndirən metodlardan yararlanması tövsiyə olunur.

Tədqiqat zamanı təlimdə tənqidi təfəkkürün inkişafına maneə yaradan amillər də sistemləşdirilmişdir: təlimdə çatışmazlıqlar, vaxt məhdudiyyəti, məlumat və resursların çatışmazlığı.

Tənqidi təfəkkürün inkişafına mənfi təsir göstərən amillərdən biri də müəllimlərin bu mövzuda səriştəsizliyidir. Metodik vəsaitlərdə tənqidi təfəkkürün inkişafı ilə bağlı materiallar həddindən artıq azdır. Bəzi dərsliklərdə fəsillərin müzakirəsi üçün tənqidi təfəkkürə əsaslanan suallara yer verilmişdir. Lakin onlarda təfəkkürün sistemli inkişafı məsələsi nəzərdə tutulmamış, resurslardan istifadə əksini tapmamışdır. Vaxtın məhdudluğu da təlim prosesində tənqidi təfəkkürün inkişafına maneələr törədir. Bəzi müəllimlər irihəcmli materialın qavranılmasına çalışır, təlim prosesinin təşkilinə deyil, məzmunun mənimsənilməsinə üstünlük verir, mühazirə və testlərdən bolluca istifadə edirlər. Əsasən tez və rahat qiymətləndirildiyi üçün pedaqoqlar onlardan daha çox yararlanırlar. Lakin tədqiqatlar sübut etmişdir ki, müasir təlimdə mühazirə ən yaxşı təlim forması, testlər isə qiymətləndirmənin yaxşı forması deyil.

Təhlillər belə qənaətə gəlməyə imkan verir ki, tənqidi təfəkkürün inkişafına dair müxtəlif metodlardan istifadə idrak proseslərini fəallaşdırır, müstəqil fəaliyyəti təmin edir, həmçinin məlumat axtarışı və emalı prosesində analiz, qavrama, anlama, qiymətləndirmə, müqayisə aparmaq, fikrini əsaslandırmaq, arqumentlər irəli sürmək, nəticə çıxarmaq, problem həllinə dair imkanlar müəyyənləşdirmək bacarıqları, planlaşdırma, çeviklik, səhvlər üzərində iş, inadkarlıq kimi xüsusiyyətləri formalaşdırır, kreativliyin inkişafına zəmin yaradır.

Tənqidi təfəkkürün inkişafı ilk növbədə müəllimdən, onun hazırlığından, seçdiyi, yararlandığı, tətbiq etdiyi metodlardan, təlim materiallarına tənqidi yanaşmasından, müstəqil, çevik qərar qəbulundan, təhsilalanların maraq, meyil və tələbatlarının nəzərə alınmasından asılıdır.

Təlim prosesində hər iki təfəkkür növünün inkişafına nail olmaq üçün müəllim yeganə məlumat mənbəyi kimi deyil, habelə öyrənənləri stimullaşdıran qüvvə, fasilitator, əlaqələndirici qismində çıxış etməli, tədqiqatın aparılması, yeni, naməlum məsələlərin öyrənilməsi üçün münbit şərait yaratmalıdır.

Sadalanan metodlarla yanaşı, tənqidi təfəkkürün inkişafına təkan verən başqa üsullar da vardır. Təlim prosesində səmərəli nəticələrin əldə olunması çoxçeşidli metodlar vasitəsilə mümkündür. Hər iki təfəkkür növünün inkişafı vaxt aparan və gərgin əmək tələb edən prosesdir. Bu səbəbdən qeyd olunan priyomlar təhsilin ilk səviyyəsindən etibarən müəllimin gündəlik fəaliyyətində nəzərə alınmalıdır.

Deyilənləri nəzərə alaraq, hesab edirik ki, təlim prosesində tələbələrdə tənqidi təfəkkürün inkişafı, dərketmə vasitələrinin və lazımi məlumatın əldə olunması və təhlili kreativliyin inkişafına bilavasitə zəmin yaradır.

**ƏDƏBİYYAT**

1. Əhmədov H., Zeynalova N. Pedaqogika, Bakı: Elm və təhsil, 2016, 456 s.
2. Qəndilov R., Zeynalova N. Həyati bacarıqlara əsaslanan təhsil. Müəllimlər üçün tədris vəsaiti (V-IX siniflər), Bakı: Çaşıoğlu, 2007, 496 s.

3. Zeynalova N. Müasir təhsilin əsasları: Dərslik. Bakı: Elm və təhsil, 2017, 288 s.
4. Davision J. and Dowson J. (2003). Learning to Teach English in the Secondary School: A Companion to School Experience, 2nd Edition. London: Routledge.
5. De Bono E. (1976). Practical Thinking. Middlesex: Penguin Books, p. 165.
6. De Bono E. (1969). The Mechanism of Mind. Middlesex: Penguin Books, p. 228.
7. Glaser E. (1985). "Critical Thinking: Educating for Responsible Citizenship in a Democracy," National Forum, pg. 25.
8. Koestler A. (1975). The Act of Creation. London: Pan Books, p. 178.
9. Lambert D. and Balderstone D. (2000). Learning to Teach Geography in the Secondary School: A Companion to School Experience, London: Routledge.

## СОДЕРЖАНИЕ ПОНЯТИЙ “КРИТИЧЕСКОЕ” И “КРЕАТИВНОЕ” МЫШЛЕНИЕ И ИХ ПРИМЕНЕНИЕ НА ПРАКТИКЕ

**Н.Э.ЗЕЙНАЛОВА**

**РЕЗЮМЕ**

В статье дана подробная информация о критическом мышлении, его сущности, значении и роли в формировании креативного мышления. Исследованы связи между критическим мышлением и креативностью, и высказывания учёных по данному вопросу. Описаны методы, влияющие на развитие критического мышления в учебном процессе и проанализировал каждый описанный метод. В статье представлена сравнительная информация о положительных и отрицательных сторонах каждого метода, влияющего на развитие мышления. В заключении приходим к выводу, что развитие мышления зависит от педагога, его подготовки, применяемых методов и педагогических навыков.

**Ключевые слова:** критическое мышление, креативное мышление, метод, кейс, анализ, принятие решений, суждение

## THE CONTENT OF THE NOTIONS OF “CREATIVE” AND “CRITICAL” THINKING, AND THE PROBLEMS OF THEIR USAGE IN THE PRACTİCE

**N.E.ZEYNALOVA**

**SUMMARY**

The article provides detailed information about critical thinking, its essence, meaning and role in the formation of creative thinking. Connections between critical thinking and creativity, and statements of scientists on the matter are investigated. The author described the methods influencing the development of critical thinking in the educational process and analyzed each described method. The article presents comparative information on the positive and negative aspects of each method that affects the development of thinking. In conclusion, the author concludes that the development of thinking depends on the teacher, his training, methods and pedagogical skills.

**Key words:** critical thinking, creative thinking, method, case, activity, analysis, decision-making, opinion

**BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ**

***№1*** ***Sosial-siyasi elmlər seriyası*** ***2019***

**УОТ 37 (094)**

# ОТКРЫТИЕ ШКОЛ ДЛЯ НАЦИОНАЛЬНЫХ МЕНЬШИНСТВ И МАЛОЧИСЛЕННЫХ НАРОДОВ АЗЕРБАЙДЖАНА И ОБУЧЕНИЕ ИХ НА РОДНОМ ЯЗЫКЕ (1920 – 1940 годы)

**С.Р.ГАДЖИЕВА**
***АГПУ***
***hajievasabina@gmail.com***

*Статья посвящена исследованию одной из важных проблем организации образования национальных меньшинств и малочисленных народов Азербайджана. В условиях суверенитета и демократии в многонациональной Азербайджанской республике, вопросы культурного развития и просвещения национальных меньшинств и малочисленных народов, проживающих в нашей стране было очень актуально.*

*В статье приводятся и исследуются фактические данные о создании прочной учебной базы, открытии школ и других культурно–просветительских учреждений для этих народностей в 1920–1940-х годах, подчеркивается значение огромной работы* Азербайджанского правительства, проведенной в данной сфере общественной жизни.

**Ключевые слова:** национальные меньшинства, малочисленные народы, родной язык, школы, культурное развитие, архивные документы, алфавит.

Народное образование, как важнейшая органическая часть культурной революции, явилась той стартовой площадкой, откуда началось последовательное и неуклонное восхождение нашего народа и всех национальных меньшинств к высотам культуры.

Изучение и обобщение опыта развития народного образования в Азербайджане за годы Советской власти имеет огромное значение. В этом отношении особый интерес представляет исследуемая тема – открытие школ для национальных меньшинств и малочисленных народов Азербайджана в 1920–1940 годы.

Это исследование дает возможность лучше понять, в каких своеобразных условиях шла борьба за утверждение новой советской системы образования, какие трудности пришлось преодолеть при этом. Исследование истории народного образования в Азербайджане и политики Азербайджанского правительства не могут быть полностью раскрыта без изучения данной проблемы, необходимость которой приобретает особое важное общественно

– политическое, педагогическое и культурное значение в современных условиях.

Об актуальности данной темы свидетельствует политика суверенной и независимой Азербайджанской Республики во главе с выдающимся политическим деятелем Г.А.Алиевым. Эта политика, продолжаемая нынешним президентом И.Г.Алиевым, направлена на культурное развитие всех населяющих Азербайджан национальных меньшинств.

Нормативной базой для осуществления культурно–просветительной работы среди национальных меньшинств Азербайджана являлись документы и постановления партийных органов Российской Федерации о постановке работы среди этой категории населения в России. И Азербайджан использовал его у себя для решения неотложных культурно–просветительных мероприятий, в организации для них школы на родном языке. (1)

Национальным меньшинствам было предоставлено право обучаться и развивать свою культуру, в первую очередь, на родном языке.

14 июля 1920 года было принято постановление о создании при Наркомпросе Республики отдела просвещения национальных меньшинств.

Отдел нацмен посылал своих инструкторов в уезды для обследования дел на местах и принятия соответствующих мер по решению возникших проблем.

На первом беспартийном съезде женщин Азербайджана, состоявшемся 11 февраля 1921 года, Народный Комиссар Просвещения Д.Буниат–заде отметил: что требуется вести обучение в школах на том языке, на котором мальчик говорит со своей родной матерью. Для этого надо иметь культурные силы. Нам нужно 40.000 учителей и воспитателей, но имеем мы всего 5.000. (2)

Потребность в расширении школьной сети вынуждала Наркомпрос организовать открытие как можно больше школ, в которых приходилось увеличивать количество классов и групп. В 1924–1925 учебном году в Кубинском уезде было открыто 129 классов и групп, Закатальском – 58, Ленкоранском – 40. В том же учебном году школ I ступени было 1.165, а II ступени – 47. Во всем Азербайджане прирост школ составлял всего 185. (3)

В середине 20–х годов в республике пока еще не существовали школы с талышским, курдским, лезгинским, татским, аварским, цахурским языками обучения. Причина заключалась в отсутствии учебников и учебных пособий, а также культурных сил. Сведения о распределении школ в архивных документах и в правительственных отчетах дается с 1925–1926 учебного года.

В 1923 году Еленендорфская немецкая школа I ступени состояла из 12 групп, в которых обучалось 318 учеников. В школе работало 15 учителей.

В 1924–1925 учебном году количество школ нацмен составляло : I ступени – 325; групп – 1.823; учащихся – 55.417; а в 1925 – 1926 году школ – 382; групп – 2.090; учащихся – 64.311. Рост школ I ступени за год вырос на

17,5%; групп– 14,7%; учащихся – 16%. Количество школ II ступени увеличилось на 3,7%; групп – 9,59%; учащихся – 5,3%. (4)

В 1925–1926 учебном году сеть школ I ступени для нацмен достигла хороших результатов: русских школ – 136, учащихся – 25.230; школ для поволжских татар – 5, учащихся – 481; немецких школ – 8, учащихся – 1.092; греческих школ – 2, учащихся – 98; грузинских школ – 5, учащихся – 380; персидских школ – 2, учащихся – 646; еврейских школ – 1, учащихся – 27; ассирийских школ – 1, учащихся – 64 и смешанных школ – 34, учащихся – 7.182.

Таким образом, в 1926–1927 учебном году в школах нацмен I и II ступени было 74.728 учащихся, тогда как в 1921–1922 учебном году численность учащихся составляла 42.485, то есть прирост за 5 лет составлял 32.243 школьника. (5)

В результате проведенных практических мер в 1926 году увеличилось количество культурных учреждений в Ленкоранском уезде : школ I и II ступени – 65 (229 групп, 5.327 учащихся), из них в городе – 13, а остальные – в селах.

ЦИК и Совнарком Азербайджана в июне 1928 года приняли совместное постановление о введении всеобщего обязательного начального образования в Азербайджанской ССР. Этим постановлением был установлен нормативный тип школ I ступени и установлено бесплатное обучение в них.

Об обязательном и окончательном введении нового тюркского алфавита в Азербайджане был установлен конкретный срок – 1 января 1929 года. В связи с этим постановлением ЦИКа день 1 января объявлен исторической датой культурной революции в Азербайджане. (6)

В марте 1929 года в Баку под руководством С.Агамали оглы прошла конференция, посвященная вопросу о создании нового татского алфавита. Конференция постановила: полностью перейти на новый горско – еврейский (татский) алфавит.

Совет Народных Комиссаров Азербайджанской ССР принял постановление от 6 января 1931 года о создании Комитета по просвещению национальных меньшинств Азербайджана (Комнац). В нем были определены: достижения и темпы культурного строительства среди нацмен; дошкольное воспитание; профессиональное образование среди нацмен; высшее образование среди нацмен. (7)

Были организованы курсы по переподготовке учителей для лезгин в Кусарах на 30 человек, для татов в Кубе – на 40 человек, в Ленкорани для талышей – 60 человек. Летом в 1932 года были организованы красные палатки в Кусарском, Хачмасском, Закатальском, Куткашенском районах в целях ликвидации неграмотности кочевников.

С 1932–1933 гг. учебного года школьные здания были построены и сданы в эксплуатацию: в Кубинском районе – 3, в Хачмасском – 2, Кельбаджарском – 3, Конахкендском – 2, Варташенском – 2, Лачинском – 18,

Белоканском – 2, За-катальском – 4. Значительно увеличился охват детей школами отдельных национальностей на родном языке. Среди отсталых нацмен осуществлялся всеобуч. (8)

Согласно решению центральных руководящих органов Республики во всех курдских селениях с 1931/1932 учебного года курдские дети стали учиться на родном языке. В 1931 году для курдов был принят унифицированный латинский алфавит.

Несмотря на успехи в работе по вопросам нацмен оставалось еще много нерешенных проблем. Большинство учителей не имели высшего образования. В 1935–1936 учебном году из 308 учителей – лезгин только 12 человек было с высшим образованием, 278 – со средним образованием, 18 – с семилетним образованием. Среди талышей – 4 человека с высшим образованием.

В 1934 году задача всеобщего обязательного обучения в основном была разрешена. Была практически выполнена и задача создания единой трудовой школы с преподаванием на родном языке, в которой в 1934 году обучалось 14 национальностей. Одним из достижений в этой области было создание в 1934 году цахурского алфавита.

Интересы дальнейшего культурного процветания, политического и хозяйственного роста всех национальностей, живущих в Азербайджанской ССР, требовали коренного улучшения дела их народного образования путем реорганизации и перевода преподавания в школах нацменьшинств на азербайджанский, русский и грузинский языки. Удины, таты, лезгины сами ставили вопрос о переводе преподавания в национальных школах на азербайджанский или русский языки.

Распределение учащихся школ Наркомпроса по языку обучения и по типу школ за 1937–1938 учебный год из числа национальных меньшинств и малочисленных народов имели школы II ступени только грузины – 2, лезгины – 4, немцы – 1, талыши – 1, курды – 2. Это обстоятельство в какой – то мере подсказывало этим народностям решение, желание обучать своих детей в азербайджанской или в русской школах. (9)

Это были последние данные о функционирующих в республике школах для национальных меньшинств и малочисленных народов. С учетом пожелания национальных меньшинств и малочисленных народов, для них были созданы азербайджанские, русские или интернациональные школы.

Таким образом, вместо школ на 16 национальных языках в Азербайджане продолжали функционировать азербайджанские, русские, армянские и грузинские школы. Это мероприятие имело большое значение для дальнейшего культурного развития этих народностей, создав им условия для получения среднего и высшего образования, активного участия в различных отраслях народного хозяйства. При этом была сохранена возможность изучения своего родного языка в качестве учебного предмета.

Переворот в культурной жизни Азербайджана после установления

Советской власти являлся объективным процессом, частью социалистической революции. Особая забота на общегосударственном уровне к национальным меньшинствам и малочисленным народам, их национально – культурному развитию предполагала защиту родного языка, культурно–этнических особенностей и национально–духовных ценностей. Ни один народ, каким бы малочисленным он ни был, не должен был потерять свою культуру, язык, свои неповторимые, веками складывавшиеся облик и характер.

Многое делалось для них в деле создания школы родного языка. Со второй половины 20–х годов в ряде школ в начальных классах обучение было на родном языке.

После перехода ко всеобщему семилетнему образованию на родном языке, положение этих народностей осложнялось, во–первых потому что для них не было школ II ступени. Во–вторых, не было также учителей, умеющих работать в таких школах. В–третьих, получая начальное, а потом неполное среднее и полное среднее образование на родном языке, они практически лишились возможности получить высшее образование из–за незнания азербайджанского или русского языка, которые являлись государственными. Это обстоятельство вынуждало обучать своих детей на одном их этих языков.

Такова краткая история создания школ для национальных меньшинств и малочисленных народов, составления учебных программ и учебников на их языках.

**ЛИТЕРАТУРА**


1. Государственный архив Азербайджана. Ф. 57, оп. 1, д. 222, л. 3–8
2. АГАПП и ОД. ф. 1, оп. 2, д. 191, л. 128, 135
3. Отчет о деятельности правительства IV Всеазербайджанскому съезду, 1924, г., Баку, 1925 г., л. 82–83
4. Государственный архив Азербайджана. ф. 57, оп. 1, д. 777, л. 168, 169
5. Государственный архив Азербайджана. ф. 57, оп. 1, д. 452, л. 20
6. Обзор деятельности правительства за 1927 – 1928 г. Отчет Всеазербайджанскому съезду Советов, 1924 г., Баку, 1929 г., л. 10
7. Государственный архив Азербайджана. ф. 57, оп. 1, д. 864, л. 127
8. Государственный архив Азербайджана . ф. 57, оп. 1, д. 1014, л. 90–91
9. АГАПП и ОД. ф. 1, оп. 88, д. 393, л. 66


## AZƏRBAYCANDA MİLLİ AZLIQLARIN VƏ AZSAYLI XALQLARIN DOĞMA DİLLƏRİNDƏ MƏKTƏBLƏRİN AÇILMASI VƏ ONLARIN ORADA TƏHSİL ALMALARI (1920 – 1940 illər)


**S.R.HACIYEVA**


**XÜLASƏ**


Məqalə çox mühüm bir problemin araşdırılmasına həsr edilmişdir. Müstəqil dövlət quruculuğu və demokratikləşmə şəraitində Azərbaycan kimi çoxmillətli respublikada milli azlıqların və azsaylı xalqların milli–mədəni inkişafı məsələləri olduqca aktualdır.

Məqalədə 1920–1940-cı illərdə bu xalqların mədəni inkişafını təmin etmək sahəsində məktəb işinin xüsusi bazasının yaradılması, məktəblərin açılması və başqa mədəni-maarif işlərini təşkil etmək sahəsində görülən işlərdən bəhs edilir. Bu sahədə uğurla görülən bütün işlər, Azərbaycan hökumətinin misilsiz qayğısı nəticəsində həyata keçirildi.

**Açar sözlər:** milli azlıqlar, azsaylı xalqlar, doğma dil, məktəblər, mədəni inkişaf, arxiv sənədləri, əlifba.

## OPENING OF SCHOOLS FOR NATIONAL MINORITIES AND SMALL NATIONS OF AZERBAIJAN AND TEACHING THEM IN THEIR NATIVE LANGUAGE (1920 – 1940 years)

**S.R.HAJIEVA**

**SUMMARY**

The article is devoted to the study of one of the topical problems of the organization of education of national minorities and small nations of Azerbaijan. In the conditions of sovereignty and democracy in the multinational Republic of Azerbaijan, the issues of cultural development and education of national minorities and small nations living in our country were very important.

The article presents and studies the actual data on the creation of a solid educational base, the opening of schools and other cultural and educational institutions for these peoples in the 1920s-1940s, emphasizes the importance of the huge work of the Azerbaijani government carried out in this sphere of public life.

**Key words:** national minorities, small nations, native language, cultural development, archival documents, alphabet.

BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№1 Sosial-siyasi elmlər seriyası 2019

## PSİXOLOGİYA

UOT 159.9.

# KÜTLƏVİ KOMMUNİKASİYA PROSESİNİN STRUKTUR KOMPONENTLƏRİNƏ ƏSASƏN MEDİANIN SOSİAL-PSİXOLOJİ TƏDQİQİ METODLARI

**L.M.CABBAROVA**
***Bakı Dövlət Universiteti***
***lalajabbarova@gmail.com***

*Kütləvi kommunikasiya vasitələrinin və texnologiyaların günü-gündən inkişafı onların insanların şüur və davranışına psixoloji təsir imkanlarının öyrənilməsini də paralel olaraq aktuallaşdırır. Günümüzdə media psixologiyası sahəsinə marağın artmasına baxmayaraq, bu sahədə tədqiqatların aparılması üçün adekvat yol və vasitələrin seçilməsi, problemin spesifikliyi ilə əlaqədar hələ də tam həllini tapmamışdır.*

*Məqalədə medianın sosial-psixoloji tədqiqi zamanı müvafiq metodların seçilməsinin və onların effektivlik səviyyəsinin müəyyənləşdirilməsinin əhəmiyyəti vurğulanaraq bu istiqamətdə araşdırmalar aparılmışdır. Kommunikasiya prosesinin 5 əsas elementinə müvafiq olaraq sosial-psixoloji tədqiqatın təşkili zamanı adekvat metodların seçim imkanları təhlil olunmuşdur.*

**Açar sözlər:** kütləvi kommunikasiya, media, kommunikator, kontent analiz, intent analiz, fokus qruplar.

Medianın insanlara, şəxsiyyətlərarası münasibətlərə təsirinin öyrənilməsi son dövrlərdə psixologiya üçün aktual problemlərdəndir. Günü-gündən artan texnologiyalar və bununla əlaqədar mürəkkəbləşən kommunikasiya prosesinin psixoloji təsir məsələləri bu sahədə ciddi elmi tədqiqatların aparılmasını labüd edir. Elmi tədqiqatların aparılması isə öyrənilən problemin adekvat metodlarla araşdırılması zərurətini yaradır.

Medianın insanlara, şəxsiyyətlərarası münasibətlərə təsirinin öyrənilməsi özü-özlüyündə sosial-psixoloji problem olduğu üçün, bu problemin öyrənilməsi üçün istifadə olunan metodlar mahiyyəti etibarilə sosial-psixoloji metodlar olmalıdır.

Ümumiyyətlə, sosial-psixoloji tədqiqatlar üçün spesifik olan bəzi cəhətlər, burada daha mürəkkəb və özünəməxsus çalarlar alır. Bu, ilk növbədə, öyrənmək istədiyimiz obyektin xarakterinin dəyişməsi ilə əlaqədardır. Yəni adi sosial-psixoloji kommunikasiya prosesini öyrənərkən biz adətən kommunikator və resipiyent arasındakı münasibətləri nəzərdə tuturuqsa, burada həmin tərəflərdən biri və

yaxud hər ikisi artıq qrup şəklində təmsil olunduğundan (media və auditoriya) onların öyrənilməsi də konkretlikdən çıxaraq daha qarışıq, çətin xarakter alır. Digər tərəfdən, burada kommunikasiya prosesinin özünün çox dinamik olması digər sosial-psixoloji təzahürlərlə müqayisədə onun öyrənilməsini spesifikləşdirir.

Qeyd olunanları nəzərə alaraq, medianın psixoloji tədqiqi üçün tədqiqat sahələrinin müəyyən edilməsi məqsədilə görkəmli Amerika alimi Harold Lasvellin təklif etdiyi komminikasiyanın klassik modelinə istinad etməyi məqsədəuyğun hesab edirik [15; 23]. H.Lasvell 1948-ci ildə çap olunmuş "Cəmiyyətdə kommunikasiyanın strukturu və funksiyası" adlı məqaləsində kommunikasiya prosesinin 5 əsas elementini ayırd etmiş və bu elementlərə müvafiq olaraq tədqiqatın təşkil olunmasını məqsədəmüvafiq hesab etmişdir. Onun müəyyən etdiyi elementlər haqqında daha aydın təsəvvür yaratmaq üçün onları aşağıdakı kimi təsvir etmək olar:

| | |
|---|---|
| Kim**?-** | *Kommunikator* |
| Nə deyir? - | *Medianın məzmunu* |
| Hansı kanal vasitəsilə?- | *Medium-vasitə* |
| Kimə? - | *Resipiyent (Auditoriya)* |
| Hansı effektlə? - | *Effekt* |

Beləliklə də göründüyü kimi, apardığı tədqiqatın obyekti və predmetinə müvafiq olaraq hər bir tədqiqatçı qeyd olunan elementlərdən hansısa birinə daha çox diqqət verməlidir. Lasvellin fikrinə görə, "Kim" – yəni kommunikatoru öyrənən tədqiqatçı kommunikasiya aktını başlayan, onu yönəldən amillərə xüsusi diqqət verməlidir. "Nə deyir" – yəni informasiyanın məzmununu öyrənməyi məqsəd kimi qoyduqda kontent analizdən istifadə olunması məqsədəmüvafiqdir. Televiziya, radio, mətbuat və digər kommunikasiya kanallarının spesifikliyinin araşdırılması üçün media analiz, KİV-in təsir əhatəsində olanların öyrənilməsi üçün isə auditoriyanın analizi diqqət mərkəzində saxlanılmalıdır. Auditoriyaya təsir məsələlərinin öyrənilməsi təsirin təzahürlərinin, spesifikliyinin analizini tələb edir.

Göründüyü kimi, biz medianın psixoloji tədqiqi məsələsini araşdırmaq üçün məsələyə bir neçə aspekdən yanaşa bilərik:

İlk növbədə, qeyd etdiyimiz kimi, medianın tədqiqində kommunikasiya prosesinin ayrı-ayrı sahələrini tədqiqat obyekti kimi götürərək buradakı spesifikliyə uyğun olaraq optimal araşdırma metodlarını müəyyənləşdirə bilərik.

İkincisi, psixologiyanın, xüsusən də sosial psixologiyanın metodlarını ayrı-ayrılıqda medianın psixoloji tədqiqi baxımından tətbiqi və effektivlik səviyyəsini təhlil edə bilərik.

Üçüncüsü, media sahəsində aparılan psixoloji tədqiqatları və orada istifadə olunan metodları araşdıra bilərik.

Hər 3 yanaşma problemin müəyyənləşməsi üçün araşdırmamızın ilkin mərhələsində bizə cəlbedici gəlsə də, klassik kommunikasiya modelinə əsaslanaraq araşdırmamızı davam etməyi tədqiqat obyektinin konkretliyi və strukturluğu baxımından daha məqsədəmüvafiq hesab etdik.

**Kommunikator – informasiyanı ötürənin kimliyi**

Kommunikasiya prosesi hansısa bir məlumatın yaradılması və ötürülməsinə tələbat yarandığı zaman başlayır. Burada kommunikasiya mənbəyi, yəni informasiyanı ötürən həm ayrıca götürülmüş fərd, həm də cəmiyyətin müəyyən institutları, təşkilatlar, radio və televiziya kanalları, jurnal və qəzet redaksiyaları, vebsaytlar və s. ola bilər. Kommunikasiyanın məzmunu da məhz buna görə orada çalışan insanlardan, mütəxəssislərdən, o cümlədən, redaktor, müxbir, jurnalistlər və s. asılı olur. Burada kommunikatorun peşəkarlıq səviyyəsi, şəxsi keyfiyyətləri ilə yanaşı, onun informasiya istehsalçısı kimi maraq və məqsədlərinin psixoloji cəhətdən öyrənilməsi də xüsusi maraq yarada bilər.

Ənənəvi şəxsiyyətlərarası kommunikasiya prosesindən fərqli olaraq, kütləvi kommunikasiya prosesində mənbə çox vaxt konkret məlum olmadığından onun öyrənilməsi prosesi mürəkkəbləşir. Məsələn: televiziyadan hansısa xəbəri çatdıran jurnalist real olaraq kommunikator kimi görünsə də, əslində kommunikasiyanın mənbəyi siyasi təşkilatlar, hansısa bir qrup insanlar ola bilər. Buna görə də, bəzi araşdırmaçılar kommunikasiya aktının təşəbbüskarı və onu reallaşdıranı bir-birindən ayırmağı tövsiyə edirlər [6]. İnformasiya "istehsalçıları" kimi kommunikasiyanın məqsədini müəyyən edən dövlət strukturları, təşkilatlar, rəhbərlər çıxış edir ki, onlar da bu məqsədlərin reallaşdırılması üçün peşəkar KİV işçilərinə ehtiyac duyurlar. Beləliklə də, informasiyanı hazırlayıb ötürən redaksiyalar, jurnalistlər kommunikator, bütövlükdə kommunikasiya prosesinin təşəbbüskarı, onun məqsədlərini müəyyən edənlər isə kommunikasiya prosesinin mənbəyi rolunda çıxış edirlər.

Qeyd etmək lazımdır ki, müasir kommunikasiya texnologiyalarının inkişafı şəxsiyyətlərarası müstəvidən kütləvi müstəviyə keçən kommunikasiya aktını daha da mürəkkəbləşdirdi. Kompüter, internet, sosial şəbəkələrin yaranması və inkişafı ilə media kommunikasiya kütləyə, ictimaiyyətə doğru yönəldi. Bu isə öz növbəsində, cəmiyyətə, cəmiyyəti təşkil edən ayrı-ayrı insanlara informasiyanı "istehsal etmək", yaymaq, nəşr etdirmək kimi geniş imkanlar verdi. Əslində, bu ənənəvi medianın sıxışdırılması demək idi. Yeni media (We media era) "Biz media dövrü"nün inkişafına təkan verir. "Biz media" anlayışı 2004-cü ildə Dan Qillmor tərəfindən eyniadlı kitabın nəşrindən sonra işlədilməyə başlanıldı[11]. O qeyd edirdi ki, vətəndaş jurnalistikasının artması istənilən insana jurnalist ola bilmə imkanı verəcək və bir çox istedadlı insanlar peşəkar jurnalistlərin tapa bilmədikləri şeyləri tapmağa cəhd edəcəklər [10].

Məsələnin bu cür gedişatı medianı, onun psixoloji təsir məsələlərini öyrənən tədqiqatçıların işinə də ciddi təsir göstərir. Belə ki, kommunikasiya mənbəyinin konkret müəyyən olunmaması informasiya "istehsalçısının"motiv və məqsədlərinin, maraqlarının öyrənilməsində maneə rolunu oynayır.

Beləliklə də, kommunikatorun kimliyi, onun statusu ilə bağlı araşdırmamız bizi medianın tədqiqi zamanı onun aşağıdakı cəhətlərinin psixoloji təhlil obyekti ola biləcəyi qənaətinə gətirir:

1) Şəxsi keyfiyyətlər, peşəkarlıq səviyyəsi;

2) Motivasiya sahəsi, əqidə və maraqlar.

Kommunikatorun şəxsi keyfiyyətlərinin öyrənilməsi üçün müşahidə, konkret tədqiqatın məqsəd və vəzifələrinə uyğun şəxsiyyətin tədqiqi üçün nəzərdə tutulmuş müxtəlif testlərdən, sorğulardan istifadə etmək olar. Lakin informasiyanı "istehsal" edən və çox zaman şəxsiyyətini konkret müəyyənləşdirə bilmədiyimiz kommunikatorun tədqiqi üçün bu metodlar yararsız görünür. Burada "fəaliyyət məhsullarının təhlili", yəni onların "istehsal etdiyi" informasiyaların təhlili bizə kommunikatorun maraq və ideologiyasını öyrənməyimizə imkan verə bilər. Media məhsullarının kontent və intent təhlili metodları bu baxımdan, xüsusi maraq doğurur. Lakin qeyd olunan metodlar əsasən medianın məzmunun tədqiqi üçün nəzərdə tutulduğundan onları elə bu kontekstdən nəzərdən keçirməyi məqsədəuyğun hesab edirik.

### Medianın məzmununun psixoloji tədqiqi metodları

Medianın psixoloji tədqiqi əslində onun özündə daşıdığı, auditoriyaya ötürdüyü informasiyaların məzmununun, onun xarakteristikasının psixoloji cəhətdən araşdırılmasını tələb edir. İnformasiyanın ötürülmə kanalından asılı olaraq onun fərqli çalarları ola bilir. Məsələn: televiziyada bədii görüntü formasında təqdim olunan film, radioda səsli proqram, çap məhsulu kimi mətn şəklində, bəzən, hətta yalnız şəkillərdən ibarət təqdim olunan kitab, qəzet, jurnal materialları, interaktiv iştirak tələb edən rəqəmsal oyunlar və s.

Psixologiyada mətnlərdə psixoloji aspektləri araşdırmaq üçün kontent-analiz metodundan geniş istifadə olunur. Bu metod mətnlərdə və sözlü məlumatlarda olan informasiyanın xarakteristikasını üzə çıxarmaq və onu qiymətləndirmək üçün nəzərdə tutulmuş bir texnikadır [7; 19]. Ötən əsrin 20-ci illərində Harold Lasvell (1927) tərəfindən medianın, xüsusən də təşviqat prosesinin öyrənilməsinin sistematik metodu kimi təklif olunan kontent analiz, hazırda sosial psixologiyada, sosiologiyada, psixodiaqnostikada, politologiyada, reklam və təşviqat psixologiyasında aktiv şəkildə istifadə olunur. Tədqiqatçının öyrəndiyi problem, nəzəri yanaşmasından, maraqlarından asılı olaraq kontent analiz fərqli çalarlar kəsb etdiyindən [13], onun vasitəsilə filmlərin, televiziya və radio proqramlarının, qəzet və jurnal materiallarının, kitabların, reklamların və təhlil üçün kifayət qədər həcmə malik olan digər media məhsullarının məzmununun kəmiyyət və keyfiyyət araşdırmasını aparmaq olar [21].

Kontent analiz mətnlərdəki müxtəlif formal və mənalı elementlərin (müəyyən anlayışların, fikirlərin, mövzuların, obrazların və s.) tezliyinə, təkrarolunması prinsipinə əsaslanır. Buna görə də, kontent analiz üçün seçilən materiallarda tədqiqatçını maraqlandıran elementlər kifayət qədər tez-tez rast gəlinməli və mətnin həcmi də onu təhlil etmək üçün yetərli olmalıdır. Əks halda aldığımız nəticələr statistik etibarlığa malik olmayacaqdır.

Kontent analiz metodunun tətbiqinin bir sıra üstünlüklərini qeyd edirlər [3; 167]:

1) İrihəcmli empirik məlumatlarda zahirən fərqləndirilməyən göstəricilərin dəqiq

qeydə alınmasının mümkünlüyü;
2) gizlin qalan meylləri və qanunauyğunluqları aşkara çıxarma qabiliyyəti;
3) prosedurun və nəticələrin etibarlılığının nisbətən obyektiv olması;
4) tədqiq olunanların davranışına tədqiqatçının təsir effektinin olmaması.

Qeyd olunan üstünlüklər bu metodun medianın məzmununda onun ilk nəzərdə gözə çarpmayan tərəflərini müəyyən etməyə imkan verir. Burada ən vacib məsələ tədqiqatın məqsədinə müvafiq olaraq düzgün analiz meyarlarının seçilməsidir. Meyarların siyahısının tam əhatəli olması, mətnin bu və ya digər hissəsinin birmənalı olaraq konkret kateqoriyaya aidliyinin təmin olunması çox önəmlidir. Məsələn, mediada aqressiya, zorakılıq məsələlərinin tədqiqini qarşıya qoyan tədqiqatçının eyni bir media məhsulunda analiz üçün ayırd etdiyi meyarlarla (verbal, qeyri-verbal, instrumental və s. aqressiya) gender stereotiplərini öyrənməyi planlaşdıran alimin analiz meyarları (zəif, özünü sevən, seksual obyekt, müstəqil və s.qadın obrazları) bir-birindən tamamilə fərqlənəcəkdir. Bununla bağlı mövcud elmi məqalə və tədqiqatları araşdırarkən eyni bir media vasitəsinin, hətta məhsulunun tədqiqatın məqsəd və fərziyyəsinə müvafiq olaraq tamamilə fərqli meyarlar aspektindən təhlil olunduğunun şahidi ola bilərik [12; 18; 24].

Mahiyyət etibarilə, kontent analiz keyfiyyət baxımından təqdim olunan informasiyanın hesab dilinə tərcüməsini nəzərdə tutur [3].

Mediada təqdim olunan istənilən formada informasiya ilə rastlaşdıqda ilk ağıla gələn "nə demək istəyir?" sualına cavabı tapmaq olur. Məhz bu suala cavab kommunikatorun şüurunun intensional məzmununu ifadə edir. İntensiya (latın dilində *intentio* - niyyət, plan deməkdir) kommunikatorun niyyətini ifadə etmək üçün elmə gətirilən bir termindir [8]. Son dövrlərdə mətnin psixoloji məzmununu analiz etmək üçün istifadə olunan intent analiz metodunun köməyilə müəyyən olunan intensiyalar (niyyətlər) əsasında müəllifin, mətni "istehsal" edən insanın şüurunun məzmun xarakteristikasını aşkar etmək mümkün olur.

İntent analiz Rusiya Elmlər Akademiyasının Psixologiya İnstitutunda T.Uşakovanın rəhbərliyi ilə hazırlanmışdır [9]. Bu metodunun mahiyyəti mətndə müəllifin kommunikasiya məqsədlərini müəyyən edərək onları mümkün obyektlərə görə qruplaşdırmaq, qiymətləndirmək və aşkar olunan intensiyaların (niyyətlərin, məqsədlərin) xüsusiyyətlərini ortaya çıxarmaqdır. İntent analizin tətbiqində ən çətin və mübahisəli məqam intensiyaların təsnif olunması məsələsidi. Bu təsnifat da kontent analizdə olduğu kimi konkret tədqiqatın məqsəd və vəzifələrinə uyğun dəyişilə bilər. Lakin kontent analizlə müqayisədə burada insan faktorunun daha çox rol oynaması səbəbindən subyektivliyin daha çox ola biləcəyini vurğulayır və bunu həmin metodun zəif cəhəti kimi göstərirlər [8]. Yəni eyni bir mətnin təhlilində müxtəlif tədqiqatçılar fərqli niyyət və məqsədlər müəyyən edə bilərlər. Rus alimi Qrebenşikova [4] apardığı tədqiqatlarda mətndə olan sinonim və antonimlərin sayına müvafiq olaraq stabil və qeyri-stabil (qarışıq) intensiyaları fərqləndirməyi lazım bilir. Onun fikrinə görə, mətndə hər-hansı bir intensiya ilə bağlı nə qədər az sinonim və antonim işlədilirsə bir o qədər də onu mətndə aşkara çıxarmaq asan olur.

Ümumilikdə, intent analiz metodunun tətbiqi ilə aparılan tədqiqatlarda (1; 4; 8 və b.) əsasən baza kimi T.Uşakovanın tərtib etdiyi 27 sayda intensiyalara (analiz, özünütəqdimetmə, ittiham, təhdid, auditoriyanı sakitləşdirmə, nikbin və bədbin proqnoz, davranış aktlarına təhrik və s.) əsaslanırlar. Lakin burada da kontent analizdə olduğu kimi tədqiqatın məqsədindən asılı olaraq intensiyalar dəyişilə bilər. Apardığımız araşdırmalara görə, bu metoddan medianın tədqiqində təqdim olunan informasiyaların, kommunikatorun məqsəd və niyyətlərini müəyyən etmək üçün uğurla istifadə oluna bilər.

**Media auditoriyası və ona təsir effektlərinin öyrənilməsi**

Medianın auditoriyaya təsirinin öyrənilməsi özü-özlüyündə səbəb-nəticə əlaqələrinin müəyyən olunmasını tələb edir. Psixologiyada bu cür səbəb-nəticə əlaqələrnin tədqiqi üçün adətən eksperiment üsulundan istifadə edirlər. Elə medianın auditoriyaya təsir effektlərinin öyrənilməsinə həsr olunmuş tədqiqatları [2] araşdırarkən məlum olur ki, bu işlərin böyük əksəriyyətində ənənəvi olaraq eksperiment metodu tətbiq olunur. Medianın təsirinin tədqiqi üçün təbii eksperimentlər bəzi hallarda işlədilsə də, burada əsasən laborator eksperimentlərdən daha çox istifadə olunur. Adətən bu cür eksperimentlərdə mətnin ayrı-ayrı elementlərinin onun qavranılmasına təsiri tədqiq olunur və həmin eksperimentlər aşağıdakı model üzrə aparılır:

1. Kontrol qrup neytral məzmunlu media məhsulunu oxuyur, baxır və yaxud dinləyir (hansı media vasitəsinin tədqiq olunmasından asılı olaraq);
2. Eksperimental qrup xüsusi tədqiq olunan elementləri özündə daşıyan eksperimental materialı oxuyur, baxır və ya dinləyir;
3. Müxtəlif metodların (sorğu, intervyü, özünümüşahidə və s.) köməyilə media məhsulunun təsiri ölçülür və kontrol qrupla eksperimental qrupun nəticələri müqayisə edilir.

Bu cür eksperimentlərdə medianın təsirindən yaranan dəyişikliklər həm subyektiv (əvvəlcədən hazırlanmış forma əsasında iştirakşıların özünümüşahidə məlumatları), həm də obyektiv yolla əldə olunur. Yəni subyektiv yolla ölçmə zamanı biz iştirakçının media məhsuluna baxarkən, dinləyərkən və ya oxuyarkən özündə gedən dəyişikliklərlə bağlı subyektiv fikirlərinə əsaslanaraq, obyektiv ölçmədə isə onun koqnitiv fəaliyyətinin psixofizioloji göstəricilərinə, fizioloji parametrlərinə, məsələn, qan təzyiqi, bədən temperaturu, ürək döyüntüləri və s. istinad edərək müəyyən nəticələrə gələ bilərik.

Medianın tədqiqində ən çox işlədilən metodlardan biri də sorğulardı. Sorğular yazılı (anket) və şifahi (intervyü) formalarda aparılır. Anket tədqiqatın əsas məqsəd və vəzifələri ilə birbaşa bağlı olan məntiqi ardıcıllıqla təşkil olunmuş suallar toplumudur və o, yazılı şəkildə respondentlər arasında paylanılır. Son illərdə elektron poçt və sosial şəbəkələrdən də anketlərin paylanılması məqsədilə istifadə olunur.

İlk baxışdan anketin tərtibi sadə görünsə də, sualların hazırlanması bir sıra vacib tələblərə riayət olunmasını tələb edir. Burada ilkin olaraq ən vacib məsələ

təlimatın düzgün, dəqiq və respondent üçün aydın olan dildə tərtib olunmasıdır.

Anketdə qoyulan suallar açıq və qapalı formalarda ola bilər. Açıq sualların cavab variantları olmur və respondentlər hansısa bir məsələ haqqında öz fikirlərini geniş şəkildə bildirə bilmə imkanları əldə etdiklərindən zəngin məlumatlar almaq olur. Lakin bu cür açıq sualların işlənilməsi çətin olur və çox vaxt bu məqsədlə kontent-təhlildən istifadə olunur. Qapalı suallarda isə müxtəlif variantda cavabların içərisindən respondent bir və ya bir neçəsini (təlimata müvafiq) seçmə imkanına malik olur. Bu cür anketlərdə respondentlərin fikirlərinin psixoloji çalarlarını qeydə almaq üçün müxtəlif qiymətləndirmə şkalalarından, o cümlədən, Likert [17; 14], Tyorstoun şkalaları [5], semantik diferensial metodundan istifadə olunur.

Həmçinin auditoriyanın və medianın təsir effektlərinin öyrənilməsi üçün intervyü metodundan da istifadə olunur. İntervyü həm ayrı-ayrı media istifadəçiləri ilə üz-üzə, həm də telefon, digər texniki vasitələrin köməyilə həyata keçirilə bilər.

İntervyü anketdən fərqli olaraq sosial qarşılıqlı təsiri də özündə ehtiva edir. Əksər hallarda tədqiqatçı intervyü materiallarını sonradan daha dərindən təhlil etmək məqsədilə onun audio və ya video yazısını aparır. Həmin lent yazılarının sonradan transkriptləri (sual və cavabların yazılı mətn şəklində qeydi) və yaxud stenoqramı intervyü materiallarının analizi baxımından çox əhəmiyyətlidir.

Medianın, xüsusən də, auditoriyanın tədqiqi üçün intervyünun bir forması kimi fokus qruplarından istifadə olunur. Yarımstandartlaşdırılmış intervyünu xatırladan və qrup şəklində diskussiya formasında həyata keçirilən bu metod ayrı-ayrı media məhsullarının qrup iştirakçıları tərəfindən necə qavranılmasını əks etdirən "subyektiv informasiyaların" əldə olunmasına yönəlib. Fokus qrupları metodu ilk dəfə olaraq R.Merton və P.Lazarsfeld tərəfindən 1941-ci ildə radio verilişlərinin əhaliyə təsirinin effektivliyinin öyrənilməsi üçün tətbiq edilmişdir [20; 16]. Hal-hazırda da psixologiya, media psixologiyası, sosiologiya və b. elmlər tərəfindən geniş istifadə olunur. Lakin fokus qrupların effektivliyinin əsas psixoloji mexanizmi qrup müzakirəsidi ki, onun da aparılması zamanı qrup dinamikası fenomenindən istifadə olunur. Təsadüfi seçmə sayəsində 6-12 nəfərdən ibarət reprezentativ, məqsədli auditoriya seçilir və qrup olaraq onlarla xüsusi hazırlanmış suallar əsasında təxminən 1,5 saatdan 3,5 saata qədər intervyü aparılır. Fokus qrupda baş verənlər sonradan təhlillər aparılması üçün mütləq şəkildə audio və ya video yazıda qeydə alınır. Nəticələr adətən keyfiyyət baxımından təhlil olunur və hətta bəzi hallarda stenoqramda yazılan mətnlər üzərində orada olan gizli mənaları aşkara çıxarmaq üçün kontent-təhlil aparılır.

Qeyd etmək istərdik ki, medianın tədqiqi zamanı psixoloji testlərdən çox nadir hallarda istifadə olunur və hətta istifadə olunduqda belə, digər metodlarla birgə tətbiq olunur. Daha çox bu məqsədlə proyektiv testlər işlədilir. Ən çox istifadə olunan metodlardan biri "Tamamlanmamış cümlələr" testidir. Test haqqında təsəvvür yaratmaq məqsədilə televiziya verilişlərinin qavranılma xüsusiyyətlərinin öyrənilməsi üçün nəzərdə tutulan bəzi cümlələri nümunə gətirmək istərdik:

1. Bu cür verilişlərə mən ona görə baxıram ki .....

2. Mən bu verilişə baxanda özümü ..... hiss edirəm.
3. Bu veriliş məndə ..... dəyişdirdi.
4. Mən bu verilişin..... istəyirəm.

Ümumiyytlə, son illər müxtəlif elm sahələrində aparılan tədqiqat işləri və alınan nəticələrin zənginliyi bu tədqiqatların yenidən araşdırılması və ümumiləşdirilməsini, qanunauyğunluqların müəyyən edilməsini tələb edir. Bu məqsədlə tətbiq olunan meta-analitik tədqiqatlar medianın psixoloji tədqiqi baxımından mühüm əhəmiyyət kəsb edə bilər.

Meta-analiz keyfiyyət və eyni zamanda kəmiyyət metodlarına aiddir. Burada ilkin olaraq öyrənilən problemlə bağlı mövcud tədqiqatların sistematik şərhi verilir, ikinci mərhələdə isə artıq seçilmiş tədqiqatlardan alınan məlumatların statistik qiymətləndirilməsi aparılır. Digər metodlardan fərqli olaraq, meta-analizdə medianın təsiri ilə bağlı “ilkin” məlumatlar əldə etmək əvəzinə, mövcud empirik tədqiqatlar sistematik şəkildə inteqrasiya olunaraq müəyyən bir mövzu ətrafında statistik analizdən keçirilir. Media sahəsinin tədqiqinə həsr olunmuş bəzi mənbələrdə düzgün həyata keçirilən meta-analizin daha obyektiv və etibarlı nəticələr verdiyi diqqətə çatdırılır [2; 35).

Medianın təsir effektlərinin tədqiqində ən çox rast gəldiyimiz metod hansısa bir media təsirlə, media məhsulun məzmunuyla digər bir göstərici arasında əlaqənin olub-olmadığını bizə obyektiv şəkildə göstərən korrelyasiyanın tapılmasıdır. Bu metod yalnız ilkin mərhələdə asılı olan və asılı olmayan dəyişən arasında əlaqənin mövcudluğu barədə məlumat verir. Lakin onlar arasında səbəb-nəticə əlaqələri izah olunmur. S.Prot və K.Andersonun apardığı araşdırmalara görə [21], korrelyasiya araşdırması eksperimental tədqiqatlarla müqayisədə daha az daxili validliyə malikdir.

Qeyd etməyi lazım bilirik ki, media məhsullarının istifadəçiləri və onlara təsir effektlərinin öyrənilməsi üçün qeyd olunan bu metodlar əslində tədqiqatın obyekt və predmetindən, fərziyyəsindən asılı olaraq müxtəlif formalarda, çalarlarda tətbiq oluna bilər.

Medianın psixoloji cəhətdən tədqiqi üçün müvafiq metodları araşdırarkən, məlum oldu ki, medianın sosial-psixoloji tədqiqi bir sıra məqsədlər üçün həyata keçirilə bilər:

1. *Elmi tədqiqatlar* – elmi məqsədlər üçün kütləvi kommunikasiyanın sosial-psixoloji mexanizmlərini müəyyən etmək üçün həyata keçirilir;
2. *Tətbiqi tədqiqatlar* praktiki məqsədlərlə həyata keçirilir.

Media məhsullarının təhlili tədqiqatın həm kəmiyyət, həm də keyfiyyət metodları ilə aparılır. Lakin son illər bir çox sahələrdə olduğu kimi, keyfiyyət metodları KİV məhsullarının qavranılmasının daha dərin mexanizmlərini aşkara çıxardığı üçün daha çox populyarlıq əldə edir.

Ümumilikdə kütləvi kommunikasiya prosesinin, o cümlədən, medianın sosial-psixoloji tədqiqi zamanı, demək olar ki, bütün psixoloji metodlardan istifadə olunur. Lakin bəzi metodlar var ki, məhz media sahəsində problemin spesifikliyini, tətbiq imkanlarını nəzərə alaraq, daha çox istifadə olunur və bu sahənin

əsas metodları kimi xarakterizə olunur. Bu baxımdan, apardığımız araşdırmaya görə, kontent analiz, sorğu üsulları, “subyektiv qiymətləndirmə” şkalaları, meta-analiz medianın psixoloji tədqiqi baxmından daha geniş tətbiq edilən və effektiv nəticələr verə bilən metodlardan hesab olunur. Lakin bütün bu metodların tətbiqi yalnız kommunikasiya prosesinin xüsusiyyətləri və spesifikliyi nəzərə alınarsa məhsuldar ola bilər.

**ƏDƏBİYYAT**


1. Бажан Е. Интент-анализ инаугурационных речей С.Берлускони и М.Ренци перед сенатом Италии//ОбозревАтель-Observer, 2015, №12(311), с.74–83. https://www.researchgate.net/publication/295253567
2. Брайант Дж., Томпсон С. Основы воздействия СМИ. М.: Вильяме, 2004, 432 с.
3. Горбатов Д.С. Методы психологического исследования: Учеб. пособие. Воронеж: Воронежский экономико-правовой институт, 1999, 197 с.
4. Гребенщикова Т.А., Павлова Н. Д. Интент-анализ и другие методы исследования речи в психологии //Актуальные Проблемы Психологического Знания: Теоретические и Практические Проблемы Психологии, 2015, №4(37), с. 56-63. http://www.mpsu.ru/sites/default/files/files/pub/act_probl_4_15site.pdf#page=56
5. Кулаков А.Измерение в социологии. Новосибирск : НГАСУ (Сибстрин),2005, 124 с.
6. Сидорская И.В. Оптимизация Процесса Коммуникации Средства Массовой Информации С Аудиторией: Методологический Аспект // Веснiк БДУ, 2012, Сер. 4.(№ 1), 87–91. http://elib.bsu.by/bitstream/123456789/44571/1/87-90.pdf
7. СемёноваА.,КорсунскаяМ.Контент-анализ СМИ: проблемы и опыт применения. М.: Институт социологии РАН, 2010, 324 с.
8. Тимина М.В. Опыт использования расширенной методики интент-анализа в процессе обучения специалистов информационного профиля. Труды Санкт-Петербургского государственного института культуры, 2013, 197 , 83-88. КиберЛенинка: https://cyberleninka.ru/article/n/opyt-ispolzovaniya-rasshirennoy-metodiki-intent-analiza-v-protsesse-obucheniya-spetsialistov-informatsionnogo-profilya
9. Ушакова Т., Цепцов В., Алексеев К. Интент-анализ политических текстов // Психологический журнал. 1998. № 4. С. 98–109.
10. Bowman S., Willis C. (2003).We Media: How Audiences are Shaping the Future of News and Information Thinking Paper //The Media Center at The American Press Institute, Retrieved from http://www.hypergene.net/wemedia/download/we_media.pdf
11. Gillmor D. (2004). We the Media Grassroots Journalism by the People, for the People. USA: O'Reilly Media, 312 p. Retrieved from http://library.uniteddiversity.coop/Media_and_Free_Culture/We_the_Media.pdf
12. Coyne S., Linder J., Rasmussen E., Nelson D. and Birkbeck V. Pretty as a Princess: Longitudinal Effects of Engagement With Disney Princesses on Gender Stereotypes, Body Esteem, and Prosocial Behavior in Children// Child Development, 2016, No 87, pp. 1909-1925.
13. Hsieh H., Shannon S. (2014). Three Approaches to Qualitative Content Analysis// Qualitative Health Research, No 15(9), pp.1277–1288.
14. Joshi A., Kale S., Chandel S., Pal D. (2015). Likert Scale: Explored and Explained//British Journal of Applied Science & Technology, No 7(4), pp. 396–403.
15. Lasswell H.The Structure and Function of Communication in Society// İletişim kuram ve araştırma dergisi, 2007, No 24, pp.215–228.
16. Lee R. (2010). The Secret Life of Focus Groups: Robert Merton and the Diffusion of a Research Method// The American Sociologist, Vol. 41, Number 2, p.115.
17. McLeod S. (2008). Likert scale. Retrieved from https://www.simplypsychology.org/likert-

scale.html
18. Martins N., Weaver A. J., Yeshua-Katz D., Lewis N., Tyree N. & Jensen J. (2013). A Content Analysis of Print News Coverage of Media Violence and Aggression Research //Journal of Communication, No 63, pp.1070–1087.
19. Macnamara J. (2005). Media Content Analysis: Its Uses; Benefits and Best Practice Methodology // Asia Pacific Public Relations Journal, Vol. 6, pp.1-34. Retrieved from https://opus.lib.uts.edu.au/bitstream/10453/10102/1/2007002122.pdf
20. Merton R. (1987). The Focussed Intervıew And Focus Groups Contınuıtıes And Dıscontınuıtıes // Public Opinion Quarterly, Vol. 51, pp.550-566. Retrieved from http://citeseerx.ist.psu.edu/viewdoc/download?doi=10.1.1.890.112&rep=rep1&type=pdf
21. Prot S., Anderson C. (2013). Research methods, design, and statistics in media psychology// The Oxford Handbook of Media Psychology, pp.109-136.
22. Stemler S. (2001). An Overview of Content Analysis // Practical Assessment, Research & Evaluation., Vol. 7(17). Retrieved from http://pareonline.net/getvn.asp?v=7&n=17
23. Wenxiu P. (2015). Analysis of New Media Communication Based on Lasswell's "5W" Model //Journal of Educational and Social Research, Vol. 5(3).Retrieved from https://doi.org/10.5901/jesr.2015.v5n3p245
24. Whitlock C. Gender Roles and Superpowers: A Content Analysis of Action Cartoons from 1982-2016. Retrieved from https://static1.squarespace.com/static/58bf6539a5790a1ebba9ffe5/t/58e91c2e2e69cf2772761beb/1491672111119/HT500+Final+Project.pdf

## МЕТОДЫ СОЦИАЛЬНО-ПСИХОЛОГИЧЕСКОГО ИССЛЕДОВАНИЯ МЕДИИ НА ОСНОВЕ СТРУКТУРНЫХ КОМПОНЕНТОВ МАССОВОЙ КОММУНИКАЦИИ

**Л.М.ДЖАББАРОВА**

### РЕЗЮМЕ

Стремительное развитие средств массовой коммуникации и технологий, соответственно, актуализирует изучение их психологического воздействия на поведение и сознание людей. Несмотря на рост интереса к проблемам психологии медии в наши дни, выбор адекватных средств и методов для проведения исследований в этой области не нашли своего решения в связи со специфичностью проблемы.

В статье рассматривается выбор адекватных методов и определение уровня их эффективности во время социально-психологического изучения проблем медии. В соответствии с пятью основными элементами процесса коммуникации были проанализированы возможности выбора соответствующих методов в ходе организации этих исследований.

**Ключевые слова:** массовая коммуникация, медиа, коммуникатор, контент-анализ, интент-анализ, фокус-группы.

**SOCIAL-PSYCHOLOGICAL RESEARCH METHODS OF THE MEDIA ON THE STRUCTURAL COMPONENTS OF THE MASS COMMUNICATION PROCESS**

**L.M.JABBAROVA**

**SUMMARY**

The day-to-day development of mass media and technology also parallels the study of psychological impacts on people's consciousness and behavior. Despite the increasing interest in the field of media psychology today, the selection of adequate methods and tools for research in this area has not yet been resolved, with regard to the specificity of the problem.

The article underlined the importance of selection of appropriate methods in the socio-psychological research of the media and the determination of their efficacy level. In accordance with the 5 main elements of the communication process, the selection of adequate methods for the analysis of social and psychological research has been analyzed.

**Key words:** mass communication, media, communicator, content analysis, intent analysis, focus groups.

.

**BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ**

***№1*** ***Sosial-siyasi elmlər seriyası*** ***2019***

**SOSİOLOGİYA**

**UOT 316.33; 316. 27**

# İCTİMAİ MÜNASİBƏTLƏR SİSTEMİNDƏ SAĞLAMLIQ İMKANLARI MƏHDUD OLAN ŞƏXSLƏRƏ GÖSTƏRİLƏN QULLUQ VƏ PALLİATİV YARDIM

**R.O.MƏMMƏDOVA**
***Bakı Dövlət Universiteti***
***rena_mammadova@yahoo.com***

*Bu məqalədə sağlamlıq imkanları məhdud olan insanların müasir ictimai münasibətlər sistemində yeri haqda məlumat təqdim olunub. Qeyd olunub ki, əlillər əhalinin ən az müdafiə ölünmüş və ən zəif təbəqələrinə aiddirlər. Ağır xəstələrə qulluğun mərhələləri haqda informasiya araşdırılıb. Məqalədə aromaterapiyanın nailiyyətlərindən istifadə qaydaları haqda bəhs olunub. Xarici ölkələrdə və Azərbaycanda palliativ yardımın inkişafi haqda məlumat analiz edilib. Hospis xidmətinin fəaliyyəti və hospis konsepsiyasının əsas müddəaları nəzərdən keçirilib.*

**Açar sözlər:** sağlamlıq, əlillik, xroniki xəstəliklər, aromaterapiya, palliativ yardım, hospis.

Hər bir vətəndaşın sağlamlığı millətin yaşamaq qabiliyyətini şərtləndirir. Məşhur filosof A.Şopenhauer deyirdi: "Bizim xoşbəxtliyimizin 9/10-u sağlamlığımızdan asılıdır." Sokrat isə qeyd edirdi: "Əgər insan özü öz sağlamlığına fikir verirsə, ondan yaxşı öz sağlamlığı üçün daha faydalı olanı bilən həkim tapmaq çətindir".

Əlillik təkcə bir insanın və ya cəmiyyətin bir hissəsinin deyil, bütün cəmiyyətin problemidir. Müasir dövrdə əlillər əhalinin ən az müdafiə ölünmüş, zəif təbəqələrinə aiddirlər. Onların gəliri orta gəlirdən əhəmiyyətli dərəcədə aşağıdır, tibbi və sosial xidmətə olan tələbatları isə daha yüksəkdir. Əlillərin ictimai istehsalatda iştirakı azalır. Öhdəliyində əlil olan ailə və qohumlar bir qayda olaraq mühüm maddi və psixoloji çətinliklərlə üzləşirlər.

Xroniki xəstələrə tibbi, sosial yardımın əsas məqsədi pasiyent ev şəraiti və ya stasionarda olarkən peşəkar qayğı, diqqət, dəstək, qayğının kim tərəfindən (qohumlar, tibb bacısı) həyata keçirilməsindən asılı olmayaraq almaq imkanının əldə edilməsidir. Qayğının təminatında aparıcı rol ailəyə məxsusdur. Çünki ailə pasiyentin psixoloji-emosional iqlim və rahat vəziyyətini yaradan əhatəsi kimi çıxış edir. Qohumların sağlamlığı bərpa etmək sahəsində olan hazırlığı xəstədə özünə inam və ümid yaradır.

Sağlamlıq imkanları məhdud olan ağır xəstələrə qulluğun bir neçə mərhə-

ləsini qeyd etmək olar:

1 ) Əgər imkan varsa xəstə ayrı otaqda yerləşdirilməlidir. Əks halda ona pəncərənin yanında yer ayrılmalıdır; 2) yüngül yun örtüklərdən istifadə edilməlidir; 3) xəstənin çarpayısının yanında oturacaq, lampa yerləşdirilməlidir; 4) dərini qıcıqlandıran və yara əmələ gətirən əşyalardan istifadə edilməməlidir; 5) xəstə ifrazını idarə edə bilmirsə, bezlərdən istifadə edilməlidir; 6) yalnız pambıq geyimdən istifadə olunmalıdır və geyimin bağlanan yeri öndə olmalıdır; 7) otağın havası gündə 5-6 dəfə dəyişdirilməlidir. Nəm əski ilə otaq təmizlənməlidir; 8) gecələr xəstənin yanında mütləq bir nəfər qalmalıdır; 9) xəstənin arzuları mümkün qədər yerinə yetirilməlidir; 10) yataq xəstəsini gün ərzində bir neçə dəfə çevirmək lazımdır. Dərisini təmiz saxlamaq lazımdır. Dərinin qızaran yerlərini masaj etmək, müxtəlif məlhəmlərlə silmək lazımdır; 11) xəstənin ağız boşluğunu və gözlərini ada çayı və çoban yastığı məhlulu ilə silmək və yaxalamaq lazımdır; 12) hər qida qəbulundan sonra stomatitin profilaktikası üçün ağız boşluğunu müxtəlif məhlullarla yaxalamaq lazımdır (gülümbahar, çay sodası, şalfey və s.); 13) xəstənin gün ərzində 5-6 dəfə az miqdarda qida ilə yedizdirmək lazımdır. Qida rahat çeynənilən və həzm olunan olmalıdır. Məsələn: kəsmik, xama, bulyon, buxarda bişirilmiş kotlet, tərəvəz, mayasız lavaş, püre, yüngül desertlər və s. Qida rasiyonu tez - tez dəyişilməlidir.

Sinir sisteminin bəzi xəstəlikləri zamanı xəstələr elə ağır vəziyyətdə ola bilərlər ki, onların xəstəxanaya transportasiyası belə həyatları üçün təhlükə yarada bilər. Bu səbəbdən belə xəstələri bəzən evdə müalicə edirlər. Yataq rejimində xəstələrin hərəkətsiz vəziyyətdə uzun müddət qalması ağır fəsadlara gətirə bilər (pnevmoniya, sidikqovucu yolların və böyrəklərin iltihabı və s.). Bu səbəbdən xəstələrə qulluq birinci dərəcəli əhəmiyyət kəsb edir. İnsult keçirtmiş xəstəni ilk günlərdə kürəyi üstə uzatmaq şərti ilə ona tam rahat şərait yaratmaq lazımdır. Xəstə diş protezindən istifadə edirsə, protezlər çıxarılmalıdır, alnına buz qoyulmalıdır. Şüur uzun müddət yerində olmayanda həkim sünu qidalanma təyin edə bilər.

Sinir sisteminin kəskin infeksion xəstəlikləri olan, eləcə də kəllə-beyin travmaları olan xəstələrdə tez-tez psixi pozuntular müşahidə olunur. Belə hallar yarananda onlara qulluq edənlərin səliqəli görkəmi və təmkini, sakitlik, təmizlik müsbət psixoterapevtik effekt yaradır. Belə xəstələrə qısa zamanda sağalmalarına aktiv motivasiyanın olması böyük əhəmiyyət kəsb edir.

Ruhi xəstələrə qulluq edəndə onların davranışına və durumuna nəzarət etmək lazımdır. Belə xəstələr ya özlərinə qapanırlar, ya həddən çox narahat və qıcıqlı olurlar. Belə vəziyyətdə səbirli və hövsələli olmaq lazımdır.

Yuxarı, aşağı ətrafları iflic vəziyyətində olan xəstələrin kənardan yardıma xüsusi ehtiyacı var. Qıcolma baş verəndə xəstəni zərbədən qorumaq lazımdır. Başının altına yumşaq balış qoymaq lazımdır, dilini dişləməmək üçün dişlərin arasına qaşıq və ya dəsmal qoymaq lazımdır, əl-ayağları tutmaq lazımdır, lakin qıcolmanın qarşısını almaq lazım deyil. Qıcolma bitəndən sonra xəstəni çarpayıya qoymaq və yuxu rejimini təmin etmək lazımdır. Onurğada zədələnmə olanda xəstəni bərk yerdə uzatmaq lazımdır.

Bədxassəli törəmələri və şişləri olan xəstələrə qulluq özünəməxsus xüsusiyyətlərə malikdir. Belə xəstələr adətən uzun müddət yataqda olurlar. Dərmanları, eləcə də ağrıkəsici preparatları həkimin məsləhəti ilə vermək lazımdır (6).

Xroniki xəstələrə qulluq edəndə aromaterapiyanın nailiyyətlərindən istifadə olunmalıdır. Xəstəliklərin kəskinləşməsi zamanı efir yağlarından istifadə olunur. Qoxu və ətirlər depressiyanı aradan qaldırır, ağrı simptomlarını yox edir, həyata marağı geri qaytarır. Əhval-ruhiyyəni yaxşılaşdırmaq üçün xəstənin qaldığı otaqda aroma-lampalardan istifadə etmək məsləhətlidir. Məsələn: darçın, lavanda, kəklikotu, rozmarin, dəfnə ağacının yarpaqlarından, zəncəfil, bergamot və s. bitkilərdən efir yağları hazırlanıb istifadə olunur. Fiziki zəiflik zamanı reyhan, qreypfrut, zəncəfil, qara istiotun efir yağları istifadə olunur.

Xroniki xəstələrə qulluqda təcrübəli dayə və peşəkar tibb bacısının xidmətlərindən istifadə etmək lazımdır. Ən optimal variant – xəstəyə yaxın qohumları tərəfindən qulluq edilməsidir. Lakin burada çoxlu sayda problemlər yarana bilər. Məsələn: qohumların iş rejimi ilə xəstəyə qulluq etmənin parallel şəkildə həyata keçirilməsi; qohumlar tərəfindən xəstəyə yazıq, rəhimli münasibətin nümayişi və s. Buna görə də ağır xəstələrə peşəkar xidmətçilərin, təcrübəli dayələrin qulluq etməsi daha məqsədə uyğundur.

Cəmiyyətin sivilliyinin meyyarlarından biri fərdlərin və bütövlükdə cəmiyyətin palliativ yardıma ehtiyacı olan xəstələrə münasibətidir. Palliativ yardım həyata təhlükə yaradan xəstəliklərin problemləri ilə üzləşən pasiyentlərin və onların ailələrinin həyatının keyfiyyətinin yaxşılaşdırılmasına imkan yaradan yanaşmadır. Bu yanaşmada ağır fiziki simptomların erkən üzə çıxarılması, qiymətləndirilməsi və müalicəsi, eləcə də psixi, sosial və mənəvi dəstək həyata keçirilir. “Palliativ” termini etimoloji cəhətdən latın dilində “palliare”, yəni “örtmək” feli ilə əlaqəlidir (7, 7). Palliativ yardım sağalmayan xəstəliklərin təzahürlərini bir növ örtür, pasiyentin son aylarına və günlərinə rəng qatır.

“Sosial iş izahlı terminlər lüğəti”ndə palliativ xidmətlər haqqında verilən tərifə əsasən bu xidmətlər müalicəsi mümkün olmayan şəxslərin və onların ailə üzvlərinin fiziki, psixoloji, mənəvi və digər problemlərinin müəyyən edilməsi, qiymətləndirilməsi və bu şəxslərə yardımın göstərilməsinə yönəlmişdir (3, 118).

2011-ci il yanvar ayının 27-si Azərbaycan Respublikasının İnsan Hüquqları İnstitutunda “Palliativ dəstək proqramı və bioetikanın əsas prinsipləri” mövzusunda elmi-praktiki seminar keçirilmişdir. İnstitutun direktoru, Milli Məclisin deputatı Aytən Mustafayeva qeyd etmişdir ki, palliativ yardım və bioetika probleminin işlənib hazırlanması institutun fəaliyyətində əsas yer tutur. Onun sözlərinə görə burada dövlət əsas dəstəyi həyata keçirməlidir. Azərbaycanda palliativ yardım çox aşağı səviyyədədir. Seminarda iştirak edən “Palliativ yardım təşəbbüsü” Beynəlxalq proqramın direktoru Meri Kollabey qeyd etmişdir ki, bu sistemin həyata keçirilməsi üçün təhsil sistemində də dəyişikliklər baş verməlidir. Palliativ yardım üzrə bakalavr və magistr səviyyələri yaradılmalıdır.

Qeyri-rəsmi məlumata görə Azərbaycanda onkoloji xəstələrin sayı 24 min nəfərdən çoxdur. İndiyə kimi Azərbaycanda hospis xidməti yaradılmayıb və

onkoloji xəstələrə əsasən ailə üzvləri qulluq edir. 2006-cı ildə Azərbaycanda onkoloji xəstələrin zəruri preparatlarla təmin olunması haqqında Dövlət Proqramı qəbul olunmuşdur. Lakin bu sahədə çoxlu sayda çatışmazlıqlar mövcuddur. "Onkoloji xəstələrin şiş əleyhinə əsas preparatlarla təminatı üzrə tədbirlər proqramı" çərçivəsində onkoloji xəstələrə dövlət hesabına verilən dərman preparatlarının siyahısında 229 dərman və preparat var. Azərbaycanda stasionar tibb müəssisələrində müalicə olunan və imtiyazlı qruplara daxil olan xəstələr də dərman preparatları və tibbi ləvazimatlarla təmin olunmalıdırlar. Ölkədə stasionarda müalicə olan bütün xəstələrə 166 adda dərman vasitələri, müxtəlif imtiyazlı qruplara daxil olan xəstələrə isə 99 adda dərman preparatları pulsuz paylanılmalıdır.

Mütəxəssislər hesab edirlər ki, palliativ yardım səhiyyə xidmətinin əsas prioritet sahələrindən biri olmalıdır. Açıq Cəmiyyət İnstitutu-İctimai Səhiyyə Proqramının direktoru Leyla Əliyeva bildirib ki, Dövlət Statistika Komitəsinin məlumatına görə, Azərbaycanda hər bir ailə orta hesabla 10 ildə bir dəfə sağalmaz xəstəyə qulluq edir. Palliativ yardım hər bir xəstənin ağrılarının azaldılması, ömrünün son günlərini ləyaqətlə yaşaması deməkdir (4).

Milli Məclisin deputatı İlham Məmmədov bildirib ki, Azərbaycanda 45000 nəfərin palliativ yardıma ehtiyacı var. Onlardan yalnız 7 000 onkoloji xəstə və QİÇS xəstələri ağrıkəsicilərlə təmin edilir. Amma ehtiyacı olan hər bir insana palliativ yardım və xidmət göstərilməlidir. Onlar ağrıkəsicilərlə təmin edilməli, hüququ, sosial, mənəvi və psixoloji yardım almalıdır. Ömrünün sonuna çatmış insanlar bir qayda olaraq Allah ilə danışırlar. Günahlarının bağışlanmasını istəyirlər. Özləri istədikdə, din xadimləri də onlara yardımçı olmalıdır (4).

Səhiyyə Nazirliyinin İctimai Səhiyyə və İslahatlar Mərkəzi (İSİM) ölkəmizdə palliativ yardım xidmətinə olan ehtiyacların qiymətləndirilməsini həyata keçirəcək. Bu barədə AZƏRTAC-a nazirliyin mətbuat xidmətindən məlumat verilib. İSİM-in mütəxəssisləri paytaxtda və regionlarda seçilmiş tibb müəssisələrinin rəhbərliyi, həkimləri, orta tibb personalın köməyilə bu xidmətdən bəhrələnə biləcək xəstələri və onların yaxınlarını sorğuya cəlb edəcəklər. Araşdırma zamanı palliativ yardım xidmətinin yaradılması üçün mövcud imkanlar və maneələr müəyyən ediləcək. Layihə çərçivəsində palliativ yardım xidmətinin yaradılması üçün kadr potensialının gücləndirilməsi, texniki və digər resursların əlçatanlığının təmin edilməsi, habelə xidmətin təşkili üzrə metodoloji və institusional inkişafa dair təkliflərin hazırlanması, o cümlədən palliativ yardıma ehtiyacı olan əsas xəstə qruplarının və xəstəliklərin siyahısının tərtib edilməsi planlaşdırılır.Araşdırmanın nəticələrinə əsasən müvafiq tövsiyələrlə hesabatın hazırlanması və Səhiyyə Nazirliyinin müvafiq qurumlarının, ictimai təşkilatların mütəxəssislərinin iştirakı ilə müzakirələrin aparılması nəzərdə tutulur.

Bu qiymətləndirmə "Azərbaycan Respublikasında qeyri-infeksion xəstəliklərlə mübarizəyə dair 2015-2020-ci illər üçün Strategiya"nın icrası üzrə Səhiyyə Nazirliyinin Fəaliyyət Planının 9.1.3 və 9.3.1-ci bəndlərinə, "Səhiyyə Nazirliyinin 2014-2020-ci illər üçün Strateji Planı" üzrə Fəaliyyət Planının 3.3.11-ci bəndinə uyğun olaraq həyata keçirilir (1).

Palliativ tibbi yardım hospisdə həyata keçirilir. Hospis sözü qədim fransız dilində "hospice" sözündən yaranıb, lakin bunun kökündə latın sözü "hospitum" (qonaqpərvərlik) sözü durur. Hospis termini VII əsrdə ziyarətçilərin, zəvvarların istirahət etdiyi yer adlanırdı. Orta əsrlər dövründə Fələstinə gedən zəvvarlar üçün monastır evləri fəaliyyət göstərirdi və belə evlər o dövrdə hospis adlanırdı. Tədqiqatçı R.Polletti öz araşdırmalarında qeyd edir ki, hospislər Müqəddəs Torpağa üz tutan zəvvarların istirahət yerlərinə deyilirdi (7, 10). Artıq XIX əsrdə bu termin bir sıra Avropa ölkələrində yayılmağa başladı. Müasir mənada hospis ümidsiz xəstə, pasiyentin layiqli qayğı aldığı tibb müəssisəsidir. Hospisin pasiyentləri adi ev əşyaları ilə əhatə olunurlar, onların yanına yaxın qohumlar və dostlar sərbəst buraxılır.

Hospisdə xəstə ağrıdan və əzabdan azad olur, xəstəliyi və xəstə oluduğunu qəbul edir, həyatının və ölümün mənasını tapır. Bu ideya hospis fəlsəfəsinin əsasında durur. Hospisdə xəstələr oksigen, ağrıkəsici, zondla qida və s. xidmətlər ala bilirlər. Hospisdə həkimlərin sayı az, orta-tibbi xidmətdə çalışanların sayı isə çox olur. Hospis xidmətində narkotik maddələrdən istifadə olunur (məsələn: morfiy). Postsovet məkanında, həmçinin Azərbaycanda hospis problemi hələ ki tam həll olunmayıb. Çünki burada narkotik maddələrlə çalışmaq üçün xüsusi lisenziya tələb olunur.

Hospis konsepsiyasının əsas müddəaları aşağıdakılardır:

1) Hospisdə tibbi, sosial və psixoloji yardımın ilkin obyekti xəstə və onun yaxın əhatəsidir. Xəstəyə xüsusi hazırlaşdırılmış tibbi və xidməti heyət, eləcə də xəstənin qohumları və hospisdə xüsusi təlim keçmiş könüllülər qulluq edir; 2) Hospis xəstəliyin ən ağır mərhələsində xəstələrə yardım göstərməlidir; 3) Hospis xəstələrə ambulator və stasionar yardım göstərir. Bundan əlavə bir sıra ölkələrdə evdə hospis xidməti də fəaliyyət göstərir; 4) Hospisdə "diaqnozun açıqlığı" prinsipi realizə olunur. Xəstə özü tələb etsə ona diaqnozu haqqında məlumat verilir; 5) İntellektual bacarıqlar və şüur mümkün qədər saxlanılmaq şərti ilə xəstəyə tibbi, sosial və psixoloji yardım kompleksi ağrı sindromunun və ölümdən qorxunun məhv olunmasına yönəldilməlidir; 6) Hər bir xəstə hospisdə fiziki və psixoloji rahatlıqla təmin olunmalıdır; 7) Hospisin maliyyələşdirilməsinin mənbəyi büdcə vəsaitlərinin, xeyriyyə cəmiyyətlərinin, vətəndaşların və təşkilatların könüllü sərmayələridir.

Müasir təsəvvürdə hospis ilk növbədə ölümcül xəstələrə yardım fəlsəfəsidir. Hospisin ingilis və amerikan modeli mövcuddur. İngilis modeli stasionar hospisdir, Amerikan modeli isə mobil hospisdir (evdə xidmət).

Hospis xidməti öz müasir mənasında İngiltərədə XX əsrin 60-70-ci illərində yaranıb və onkoloji xəstələrlə çalışan həkim Sesilia Sandersin adı ilə bağlıdır. Hospis hərəkatının yaranması ölümə və əzaba xüsusi münasibətə təkan verən humanist ənənələrlə əlaqədədir. Bu baxımdan ictimai rəyin hazırlanmasında Elizabet Kübler-Rossun "Ölüm və ölmək haqqında" adlı əsəri xüsusi rol oynamışdır (5). Hospis hərəkatında palliativ yardım düzgün təşkil olunaraq yaşamağa davam etməyə, ömrün uzadılmasına köməklik göstərir. Palliativ yardım müxtəlif mənbə-

lərdən qidalanır: KİV-lərdən, məşhur insanların çıxışlarından, din xadimlərinin ideyalarından. Palliativ yardımda həkim vasitəçiliyi ilə evtanaziya və intihara qadağa qoyulur. Hospisdə tibbi yardımla, ağrını kəsməklə, xəstəliyin simptomatikasına nəzarət ilə yanaşı xəstəyə, onun qohumlarına psixoloji dəstək və sosial kömək göstərilir.

Rusiyada onkoloji xəstələr üçün ilk profilli hospis 1903-cü ildə Moskvada MDU-nun professoru, onkoloq Levşinin təşəbbüsü ilə açılmışdır. 1897-ci ildə Levşin Moskva xeyriyyəçilərindən maliyyə vəsaitlərinin yığılmasını təşkil etmişdir. 1920-ci illərdə bu təşkilat hospis funksiyalarını itirmişdir. Hazırda həmin klinika P.A.Gersen adına Moskva Elmi-Tədqiqat Onkoloji İnstitut kimi fəaliyyət göstərir. Ən yeni dövrdə Rusiyada ən nüfuzlu və təchizatlı hospis Sankt-Peterburq şəhərində yaradılıb. Bu hospisin yaranmasında ingilis jurnalisti Viktor Zorzanın böyük xidməti olub. Hospisdə əyləncəli, psixoloji proqramlar, məşğulluq terapiyası, sosial reabilitasiya tədbirləri həyata keçirilir. Sankt-Peterburq hospisində pravoslav keşiş fəaliyyət göstərir, burada həmçinin uşaq hospisi də mövcuddur.

Bütün müsbət tərəfləri ilə yanaşı hospisdə çalışan heyətlə çoxlu problemlər yaranır. Çünki iş ağır olduğundan burada kadrların axını sürətlə artır. Baxmayaraq ki, hospisdə evtanaziyaya qadağa qoyulub, hospis müəyyən mənada evtanaziyanın alternatividir. Burada psixiatrik və psixoloji nöqteyi-nəzərdən ölümün gəlməsini sürətləndirmək qərarını qəbul edən insanın psixi durumu bloklaşdırılır. Müasir dövrdə Mərkəzi və Şərqi Avropa ölkələrində (Macarıstan, Rumıniya, Polşa, Sloveniya) hospis xidməti daha çox inkişaf etmişdir.

Xəstənin məhdud mobilliyi evdən çıxmaq, digər insanlarla ünsiyyətdə olmaq imkanının azlığı şəraitində yaranan vəziyyətin ağırlığını ailə kompensasiya etməlidir. Lakin bir çox hallarda qohumlar reabilitasiyanın imkanlarından, sosial imtiyazlardan, öz hüquqlarından az xəbərdar olur. Bir çoxu sadə manipulyasiya qaydalarını bilmir, xəstəxananın heyəti və sosial işçilər tərəfindən əldə olunan biliklərdən istifadə etmirlər. Ağır xəstələrə göstərilən qayğı çox vaxt aparan fiziki və mənəvi güc tələb edir. Xəstəyə baxan tibbi heyətin xidmətlərindən istifadə xəstənin vəziyyətinin ağırlığından, xəstəliyin müddəti və gedişatından, konkret insanın maliyyə vəziyyətindən asılıdır. Xroniki xəstələrə qayğının təminatında ailə tibbi sosial yardımın təşkilində gücün azaldılmasına şərait yaratmalıdır. Sosial müdafiə xidmətləri ehtiyacı olan xəstələrə qulluğu həyata keçirməyə hazır olan könüllülərin ictimai birliklərini təşkil etməlidirlər. Bura isə tələbələr, evdar xanımlar, təqaüdçülər, müvəqqəti işsizlər, ümumilikdə bu sahədə çalışmaq istəyənlər cəlb olunmalıdır. Effektiv tədbir kimi xroniki xəstələrə qulluğun təliminin, bu sahədə fəaliyyət göstərən kursların təşkili praktikası çıxış edir.

Sağlamlıq imkanları məhdud olan insanlarla sosial işin inkişafına onların inteqrasiyası məqsədi belə insanların peşə yönümlərinin, peşə təlimlərinin, psixoloji, hüquqi, təşkilati problemlərinin həlli istiqamətində məsləhətvermənin keçirildiyi yerlər olan reabilitasiya mərkəzlərinin şəbəkəsinin yaradılması münasib şərait yarada bilər (Tədqiqat BDU üzrə Universitetdaxili “50+50”qrant layihəsinin dəstəyi ilə aparılmışdır).

**ƏDƏBİYYAT**

1. Azərbaycanda palliativ yardım xidmətinə olan ehtiyaclar öyrəniləcək. https://azertag.az/xeber/Azerbaycanda_palliativ_yardim_xidmetine_olan_ehtiyaclar_oyrenilecek-985800
2. Şəfiyev Ü.A. Azərbaycanda sosial iş və sosial siyasət. Bakı: Elm və təhsil, 2018, 696 s.
3. Şəfiyev Ü.A. Sosial iş izahlı terminlər lüğəti. Bakı: Elm və təhsil, 2018, 208 s.
4. Palliativ yardım - ləyaqətli həyat fəlsəfəsi və ya ləyaqətli ölüm. https://www.amerikaninsesi.org/a/palliativ-yardm--lyaqtli-hyat-flsfsi-v-ya lyaqtli-olum--132062028/724795.html
5. Кюблер-Росс Э. О смерти и умирании. София, 2001, 217 с.
6. Особенности ухода за больными при различных заболеваниях. http://ufasidelka.ru/artcles/item/8-osobennosti-ukhoda-za-bolnymi-pri-razlichnykh-zabolevaniyakh
7. Хосписы. Сборник материалов: литературный обзор, рекомендательные и справочные материалы. 2-е издание, исправленное и дополненное. М.: Благотворительный фонд помощи хосписам «Вера», 2011, 528 с.

## УХОД ЗА ЛЮДЬМИ С ОГРАНИЧЕННЫМИ ВОЗМОЖНОСТЯМИ ЗДОРОВЬЯ И ПАЛЛИАТИВНАЯ ПОМОЩЬ В СИСТЕМЕ ОБЩЕСТВЕННЫХ ОТНОШЕНИЙ

**Р.О.МАМЕДОВА**

**РЕЗЮМЕ**

В данной статье предоставлена информация о месте людей с ограниченными возможностями здоровья в системе общественных отношений. Отмечено, что инвалиды относятся к наименее защищенным и самым слабым слоям населения, а также изучена информация об этапах ухода за тяжелобольными людьми. В статье изложен материал о приемах использования достижений ароматерапии, проанализирована информация о развитии паллиативной помощи в зарубежных странах и Азербайджане, изучены основные положения концепции хосписа и деятельность хосписной службы.

**Ключевые слова:** здоровье, инвалидность, хронические заболевания, ароматерапия, паллиативная помощь, хоспис.

## CARE FOR PEOPLE WITH DISABILITIES OF HEALTH AND PALLIATIVE HELP IN THE SYSTEM OF PUBLIC RELATIONS

**R.O.MAMMADOVA**

**SUMMARY**

This article provides information about the place of people with disabilities in the system of public relations. It is noted that people with disabilities are among the least protected and weakest segments of the population. There has been studied information about the stages of care for seriously ill people. The article presents the material on the methods of using the achievements of aromatherapy, analyzes information on the development of palliative care in foreign countries and Azerbaijan, and studies the basic provisions of the concept of hospice and hospice service.

**Key words:** health, disability, chronic diseases, aromatherapy, palliative care, hospice.

BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ

№1 Sosial-siyasi elmlər seriyası 2019

UOT 336.244.2

# İQTİSADİ NƏZƏRİYYƏNİN PREDMETİNİN İNKİŞAFI: İQTİSAD, SİYASİ İQTİSAD, EKONOMİKS (I hissə)

**M.Y.YADULLA, N.U.MURADOVA, F.Ç.HƏSƏNOV**
***Bakı Dövlət Universiteti***
***narqiz@mail.ru***

*Məqalədə iqtisadi nəzəriyyənin predmetinin inkişafında ayrılan üç mərhələ: iqtisad, siyasi iqtisad və ekonomikslə bağlı uzunmüddətli tarixi inkişafın araşdırılması və onların yaranmasının səciyyəvi xüsusiyyətlərinin əsaslandırılması nəzərdən keçirilir. Tədqiqatın metodologiyası – sistemli yanaşma və müqayisəli təhlil metodları. Tədqiqatın nəticələri – Siyasi iqtisadın klassiklərinin əsərləri və tədqiqatları üzrə yeni elmi-nəzəri əsaslandırmalar zəminində uyğun gələn təkliflərin irəli sürülməsi. Tədqiqatın məhdudiyyətləri – elmi-nəzəri əsaslar baxımından daha geniş araşdırmalar tələb olunur. Tədqiqatın praktik əhəmiyyəti – siyasi iqtisadın diqqət mərkəzində sərvət yox, ictimai istehsal prosesi dayanmalıdır. Onda qiymət nəzəriyyəsi dəyər nəzəriyyəsini, istehsal faktorları nəzəriyyəsi əmək nəzəriyyəsini, konkret situasiyaların təhlili nəzəri abstraksiyanı sıxışdırmayacaq. Tədqiqatın orijinallığı və elmi yeniliyi – siyasi iqtisadın klassiklərinin fikirlərinin araşdırılması üzrə spesifikliyi ilə fərqlənən ilkin elmi-tədqiqat əsaslandırmalarından biri kimi çıxış etməsi.*

**Açar sözlər:** siyasi iqtisad, xremastika, merkantilistlər, dəyər nəzəriyyəsi, əmək nəzəriyyəsi, ortodoksal marksist siyasi iqtisad.

İqtisadi nəzəriyyənin predmetinin inkişafında üç mərhələni ayırmaq olar: iqtisad, siyasi iqtisad, ekonomiks.

*İqtisad və xrematistika.* İqtisadi nəzəriyyənin predmeti bir elm kimi dərhal müəyyən edilməyib, o, uzunmüddətli tarixi inkişafın nəticəsidir. İqtisadi fikrin mənbəyi öz kökləri ilə qədim tarixə gedib çıxır. Artıq ibtidai insanlar iqtisadi biliklərin rüşeymlərinə, həyat rifahlarının istehsalı, bölgüsü, mübadiləsi və istehlakı üzrə ibtidai icma üzvləri arasında formalaşan münasibətlər haqqında müəyyən təsəvvürə malik idilər. Amma bu təsəvvürlər sərbəst bilik sahəsinə ayrılmamış və sinkretik ictimai şüur çərçivəsində mövcud idi ki, bunun da əsas tərəfi din idi.

Qədim Şərqdə ilk sinfi cəmiyyətlərin yaranması ilə iqtisadi fikrin mərkəzində dövlət təsərrüfatının təşkili və idarəedilməsi problemləri dayandı ki, nəticədə də müxtəlif əsərlər və nəzəriyyələr yarandı (Konfutciy təlimi və s.), bunlar da dövlətdə və cəmiyyətdə sabitliyin saxlanmasına istiqamətlənmişdi. Amma Qədim Şərq mütəfəkkirlərinin baxışları Avropa sivilizasiyası ilə doğulan iqtisadi elmin

inkişafına, ancaq dolayısı ilə təsir etdi.

İqtisadi nəzəriyyə ilkin olaraq antik cəmiyyətdə iqtisad – evdarlıq, ev təsərrüfatı haqqında elm kimi yaranıb. Onun məqsədi layiqli vətəndaşların tərbiyəsi idi. "İqtisad" termini ilk dəfə olaraq Ksenofont tərəfindən təklif olunub. O, Aristotelin (b.e.ə. 384-322-ci illər) ədalət haqqında təlimi çərçivəsində də rast gəlinir (Aristotel. "Siyasət" 1-ci Kitab). Aristotel təsərrüfat fəaliyyətinin iki növünü: **iqtisad** – özünü təmin etmək naminə təsərrüfat və **xremastikanı**-varlanmaq məqsədilə təsərrüfatı fərqləndirirdi. O, natural təsərrüfata əsaslanan iqtisadı ədalətli hesab edirdi, çünki məhz o, antik cəmiyyətin əsasını təşkil edirdi. Aristotel pərakəndə ticarəti də iqtisada daxil edirdi, belə ki, burada, onun fikrincə, həlledici rolu tələbətların ödənilməsi oynayırdı. Aristotel xtemastikaya tənqidi olaraq yanaşırdı, hesab edirdi ki, pul "yaratmaq sənəti", ticarət və sələm kapitalının fəaliyyəti tədavülü sərvət mənbəyinə çevirir, ona görə də xremastika, Aristotelə görə, qeyri-təbiidir (1, 243).

Quldarlıq malikanəsinin təşkili və idarəolunması problemlərinin həllində müəyyən uğurlar romalılar tərəfindən nail olunmuşdu. Bu məsələlər romalı aqronomlar Katonun ("Bitkiçilik haqqında"), Varronun ("Kənd təsərrüfatı"), Kolumellanın ("Kənd təsərrüfatı haqqında") əsərlərində və Böyük Pliniyanın ensiklopedik əsərində ("Təbii tarix" XIV və XV əsrlər) kifayət qədər inkişaf etdirilmişdir. Xüsusi mülkiyyət problemləri romalı hüquqşünaslar tərəfindən təhlil olunurdu (Qayın "İnstitusiya"sı, Qreqoriy və Hermogenin Məcəllələri, II Feodosiyanın, Digestanın İmperator institusiyaları Əsərləri, Yustiniananın Məcəlləsi).

Antik dövrün iqtisadi düşüncəsinin işləyib hazırladığı mühüm problem quldarlıq idi. Onun şərhində antik cəmiyyət qulların "şövqləndirilmiş əmək aləti", "gəlir gətirən əmlak" hesab olunduğu (Aristotelin əsərlərində) "barbarların nəsibi" kimi quldarlığa tam bəraət qazandırmaqdan tutmuş bütün insanlar arasında prinsipial bərabərliyin qəbul edilməsinə qədər uzun yol keçmişdir. Bərabərlik ideyası ilə ümumi işləmək öhdəliyi fikri sıx əlaqədardır: əmək insanların həyatının əsasını təşkil edir, ona görə də bölgü əməyə görə həyata keçirilməlidir. Erkən iqtisadi əsərlərdə sosial bərabərsizlik və sələmçilik mənəvi mühakiməyə məruz qalırdı. İlkin iqtisadi əsərlərdə olan radikal baxışlar Orta əsrlərin və utopik sosializmin ideya mənbələri idi (2, 80).

*Siyasi iqtisad – xalqların sərvəti haqqında elm kimi.* Kapitalizmin bərqərar olması sərbəst elm olan-siyasi iqtisadın yaranmasını müəyyən etdi. Onun diqqət mərkəzində ilkin olaraq istehsal yox, tədavül sferası dayanırdı. Dünya ticarətinin inkişafı ticarətin rolunun artmasına səbəb oldu. Onun maraqlarının təcəssümü siyasi iqtisadda yaranan ilk məktəb-**merkantilizm** (XVI-XVIII əsrlər) oldu. 1615-ci ildə Antuan de Monkretyen "Siyasi iqtisadın traktatı"nı nəşr etdirir, bu da gələcək elmin adını müəyyən edir.

Merkantilistlərin (A.Serra, T.Men, C.Fortrey) tədqiqat məqsədi burjua sərvətinin mənbəyinin axtarışı, müşahidə obyekti kapitalist ticarəti, diqqət predmeti isə ayrı-ayrı ölkələr arasında pul və əmtəələrin hərəkəti idi. Merkantilistlər passiv müşahidəçi deyildilər, onlar absolyut dövlətin köməyilə iqtisadi həyata fəal təsir

göstərməyə çalışırdılar. Erkən merkantilistlər pul balansının tərəfdarı olaraq, ölkədən qızıl və gümüşün çıxarılmasına qarşı idi. Sonrakı merkantilistlər isə ticarət balansı sisteminin tərəfdarları olaraq, ticarətdə ümumilikdə müsbət saldo olduğu təqdirdə qiymətli metalların ölkədən çıxarılmasını mümkün sayırdılar. Onlar xammalın sənaye emalının və tranzit ticarətin mənfəətindən istifadənin tərəfdarı idilər, onların baxışları təkcə ticarət yox, sənaye kapitalının da maraqlarını əks etdirirdi.

Amma onlar kapitalizmin inkişaf ziddiyyətlərinin bütün dərinliyini sezmirdilər və bu haqda onun tədavül sferasında təcəssüm olunması üzrə mühakimə edirdilər. Həm də onlar bu təcəssümü birtərəfli anlayırdılar. Merkantilizm ədəbiyyatı əsasən empirik, praktik xarakter daşıyırdı. Pozitiv yanaşma normativ yanaşmanı sıxışdırır.

Klassik siyasi iqtisadın formalaşması kapitalizmin inkişafı ilə hazırlanmışdı. Onun ilk nümayəndələri İngiltərədə Uilyam Petti (1623-1687) və Fransada Pyer Buagilber (1646-1714) olmuşdur. Onların hər ikisi dəyəri əməyə yönləndirmiş və bununla da kapitalist sərvətinin mənbəyini istehsal sferasında axtaran dəyərin əmək nəzəriyyəsi istiqamətinə addım atmışlar. Fransada aparıcı sahə bitkiçilik qalırdı, ona görə də fransız siyasi iqtisadın nümayəndələri-fiziokratlar (F.Kene, A.Tyurqo və s.) kapitalın artım mənbəyini bitkiçilikdə axtarır, "xalis gəlirə" isə təbiətin hədiyyəsi kimi baxırdılar. Fiziokratlar məktəbinin banisi F.Kene (1694-1774) ictimai kapitalın təkrar istehsalı nəzəriyyəsinin əsasını qoydu və bununla da ilk makroiqtisadi model yaratdı. Onun əsasını məcmu ictimai məhsulun millətin vətəndaşlarının üç sinfi: istehsalçılar (bura o, əkinçiləri aid edirdi), torpaq mülkiyyətçiləri sinfi və qeyri-istehsalçılar (bura əkinçiliklə əlaqəli olmayan bütün şəxsləri aid edirdi) arasında hərəkəti təşkil edirdi.

Manafaktura istehsalının genişlənməsi və maşınlı istehsalın bərqərar olması adekvat olaraq, kapitalizmin maddi-texniki bazasının yaranması demək idi (3, 121).

*Adam Smit (1723-1790)* onun istehsal və yığım şərtlərini müəyyən etdi. "Xalqların sərvətinin təbiəti və səbəbləri haqqında tədqiqat" əsərində (1776) A.Smit əmək bölgüsünə istehsal qüvvələrinin yüksəldilməsi amili kimi həlledici əhəmiyyət verdi. İctimai əmək bölgüsünün çərçivəsində mövcud olan məhz əməyi, ümumiyyətlə, kapitalizmdə maddi sərvətin mənbəyi kimi elan edir. Nəinki kapitalist istehsalının mahiyyətini, həm də onun təcəssümünün xarici formalarını təsvir etməyə çalışan A.Smit dəyərin dörd müəyyənliyini qarşıya qoydu ki, bu da çoxlu ziddiyyətlər yaratdı və David Rikardo (1772-1823) bunları aşmağa cəhd göstərdi. D.Rikardonun diqqət mərkəzində istehsal sferası yox, bölgü sferası dayanırdı ki, bu da siyasi iqtisadın predmetinin müəyyən edilməsində əks olunur. O, açıq formada burjua cəmiyyətinin sinifləri-kapitalistlər və proletariatın iqtisadi qarşıdurmasını dürüstləşdirir. D.Rikardonun xidməti ondadır ki, o, siyasi iqtisadın kateqoriyalar sistemini dəyərin əmək nəzəriyyəsi əsasında qurmağa çalışmışdır. Kapitalist həqiqətlərinin mürəkkəb kateqoriyalarını birbaşa olaraq, əməyin dəyəri ilə müəyyən etməyə çalışdığından və bir çox digər səbəblərdən o, bunu tam edə

bilməmişdir. D.Rikardonun monistik (red.-vahid) konsepsiyasını istehsal faktorlarının plyüralistik konsepsiyası əvəz etdi ki, bu da, demək olar ki, dəyərin əmək nəzəriyyəsini "dəfn etdi".

Rikardo məktəbinin əleyhdarları da (T.R.Maltus, S.Beyli, N.U.Senior, J.B.Sey) belə nəticəyə gəldilər. Artıq T.R.Maltus dəyər qanunundan tələb və təklif nəzəriyyəsinə keçid etdi. S.Beyli dəyəri mübadilə münasibətləri ilə eyniləşdirdi. N.U.Senior isə mübadilə münasibətlərinin əsaslarını insanın psixoloji duyğularında tapmağa çalışdı. *Con Stüart Mill (1806-1873*) iqtisadi fikrin müxtəlif axınlarını barışdırmağa cəhd göstərdi. Amma onun tədqiqatlarının mərkəzində dəyər nəzəriyyəsi deyil, tələb və təklif nəzəriyyəsi dayandı. Faktiki olaraq, onu qiymətin əsası kimi dəyər yox, ona təsir göstərən müxtəlif amillər və bütövlükdə qiymətəmələgəlmə mexanizmi maraqlandırırdı.

Sərvətin siyasi iqtisadının qısa xarakteristikasının sonunda *Jan Şarl Leonar Simond de Sismondinin (1773-1842*) töhfəsini də vurgulayaq. Sismondi üçün kapitalist sərvətinin mütləq artımından çox, onun nisbi artımı, əhalinin dinamikası, onun *istehlak* ölçüləri ilə əlaqələndirilmiş artımı vacibdir. Sərbəst rəqabət onun fikrincə, nəinki burjua fərdiyyəçiliyinin, şəxsi azadlıq hissinin, məsuliyyət və təşəbbüskarlığın inkişafına səbəb olur, o, cəmiyyəti utilitarizmlə (red.-işbazlıqla) yoluxdurur.

Kapitalist sərvətinə proletariat mövqeyindən nəzər yetirmək cəhdi ilk dəfə olaraq, sosialist-rikardoçular (T.Qodskin, U.Tompson və s.) və daha məntiqi K.Marks və F.Enfels tərəfindən (əməyin ikili xarakteri haqqında təlim, əlavə dəyər nəzəriyyəsi) təşəbbüs edilmişdir.

Tədqiqat metodunda etdiyi inqilab K.Markın tədqiqatlarındakı uğura əhəmiyyətli dərəcədə səbəb olmuşdur. Alman klassik fəlsəfəsinin nailiyyətlərindən istifadə edərək, K.Marks ilk dəfə olaraq materialist dialektika metodunu sosial-iqtisadi hadisələrin təhlilinə tətbiq etdi. Bu ona imkan verdi ki, həm əvvəlki siyasi iqtisadı tənqid etsin, həm də fəhlə sinfi mövqeyindən kapitalist istehsal üsulunun kateqoriyalar və qanunlar sisteminə nəzər salmaq vəzifəsini qarşıya qoysun.

K.Marks və F.Engels kapitalizmin tədqiqatı ilə kifayətlənmədilər. Bütün həyatları boyunca kapitalizmdən əvvəlki istehsal üsullarını öyrənmiş, gələcək kommunust formasiyası haqqında bir sıra maraqlı fikirlər yürütmüş və bununla da, sözün geniş mənasında siyasi iqtisadın əsaslarını qoymuşlar.Siyasi iqtisad davamlı olaraq bir-birini əvəz edən ictimai formasiyaların istehsal münasibətlərini öyrənən elm kimi baxılmağa başladı.

Ortodoksal marksist siyasi iqtisadının gələcək inkişafında Bladimir İliç Leninin tədqiqatları böyük rol oynadı. XIX əsrin 90-cı illərində onun əsərlərində mərkəzi yeri əmtəə istehsalı nəzəriyyəsi tutur. Leninin təhlili kapitalist dünyası periferiyasında bazar iqtisadiyyatının bərqərar olması tədqiqatları üçün böyük əhəmiyyət kəsb edirdi. Lenin göstərdi ki, siyasi iqtisad nəinki daha inkişaf etmiş ölkələri, həm də bir istehsal üsulundan digərinə keçid münasibətlərini və hətta belə keçidin müxtəlif variantlarını (modellərini) öyrənir.

Leninin işləri Marks və Engelsin kommunist formasiyası haqqında təsəvvür-

lərinin konkretləşməsinə istiqamətlənmişdi, amma bu ideyaları kəndli Rusiyasında reallaşdırmaq cəhdi uğurla nəticələnmədi və ilkin marksizmin də təhrif olunmasına səbəb oldu.

*Nəticə çıxaraq*. Merkantilistlər fərqli olaraq, siyasi iqtisadın klassikləri (F.Kene, A.Smit, D.Rikardo və s.) kapitalist sərvətinin mənbəyini istehsal sferasında axtarırdılar. Klassik siyasi iqtisadın, hətta ən yaxşı nümayəndələrinin diqqət mərkəzində ictimai istehsal prosesinin özü yox, əsasən, onun xarici nəticəsi-kapitalist sərvəti idi. A.Smit onun istehsal və yığımına, D.Rikardo bölgüyə, Sismondi istehlaka daha çox diqqət yetirirdi. Feodal ideologiyası ilə mübarizə arxa plana keçdikcə, təsərrüfat fəlsəfəsi praktiki tövsiyyələrlə sıxışdırılırdı. Əgər A.Smit ezoterik və ekzoterik yanaşmalar, dəyər nəzəriyyəsi ilə qiymət nəzəriyyəsi arasında tərəddüd edirdisə, D.Rikardonun davamçılarında (R.Torrens, C.Mill, D.R.Mak-Kullox) və əlehdarlarında (T.R.Maltus, S.Beyli, N.U.Senior) qiymət nəzəriyyəsi dəyər nəzəriyyəsini, istehsal faktorları nəzəriyyəsi əmək nəzəriyyəsini, konkret situasiyaların təhlili nəzəri abstraksiyanı sıxışdırırdı.

## ƏDƏBİYYAT


1. Матвеева Т.Ю., Никулина И.Н. Основы экономической теории. М.: Дрофа. 2013. с.243
2. Автономов В.С. Человек в зеркале экономической теории. М.: Наука,1993, с.80
3. Нуреев Р.М. Предмет политической экономии и основные черты ее метода. М.: МГУ, 1986, с.121


## РАЗВИТИЕ ПРЕДМЕТА ЭКОНОМИЧЕСКОЙ ТЕОРИИ: ЭКОНОМИЯ, ПОЛИТИЧЕСКАЯ ЭКОНОМИЯ, ЭКОНОМИКС (I часть)


**М.Я.ЯДУЛЛА, Н.У.МУРАДОВА, Ф.Дж.ГАСАНОВ**


## РЕЗЮМЕ


В статье говориться о развитии предмета экономической теории. Предмет экономической теории как науки определился не сразу, он является результатом длительного исторического развития.

В статье определяется отличие взглядов меркантилистов от классиков политической экономии. И говорится о том, что в центре внимания даже лучших представителей классической политической экономии был не сам общественный процесс производства, а в, основном, лишь внешний его результат-капиталистическое богатство.

По мере углубления экономических противоречий происходило «закрытие» остроактуальных тем, что вело в итоге к вырождению практической функции политической экономии и упадку ее научного авторитета.



**Ключевые слова:** политическая экономика, хремастика, меркантилисты, теория стоимости, теория труда, ортодоксальная марксистская политическая экономика .

## DEVELOPMENT OF THE SUBJECT OF ECONOMIC THEORY: ECONOMY, POLITICAL ECONOMY, ECONOMICS (I part)

**M.Ya.YADULLA, N.U.MURADOVA, F.Ch.HASANOV**

**SUMMARY**

The article deals with the development of the subject of economic theory. The subject of economic theory as a science has not been determined immediately, it is the result of a long historical development.

The article defines the difference in the views of mercantilists from the classics of political economy. It is noted that, in the center of attention of even lichting representatives of classical political economy was not the social process itself, but mainly its external result-capitalist wealth.

In the process of deepening of economic contradictions there was a "closure" of the urgent ones, which resulted in the degeneration of the practical function of political economy and the decline of its scientific authority.

**Keywords**: political economy, mercantilists, value theory, labor theory, orthodox Marxist political economy.

BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№1 Sosial-siyasi elmlər seriyası 2019

UOT 311, 311.3

# İNSAN KAPİTALININ STATİSTİK TƏDQİQATLARDA İSTİFADƏSİNİN XÜSUSİYYƏTLƏRİ

**V.E.TEYMUROVA**
***Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)***
***vusala_teymurova@unec.edu.az***

*Məqalədə insan kapitalı göstəricilərinin statistik tədqiqatlarda istifadəsinin xüsusiyyətləri araşdırılır. İnsan kapitalının statistik uçotu rəsmi statistikanın bütün səviyyələrində bir çox göstəricilərlə təmin olunur. İnsan kapitalının inkişafının öyrənilməsi çoxölçülü statistik təhlil metodları əsasında həyata keçirilməlidir.*

**Açar sözlər:** insan kapitalı, insan potensialı, innovativ iqtisadiyyat, iqtisadi fəallıq, statistik uçot, həyat səviyyəsi, statistik məlumatlar

Azərbaycanda əmək resurslarının artırılmasının əsas mənbələrindən biri kimi insan kapitalının inkişafı dövlət əhəmiyyətli məsələlərdən biridir. İqtisadiyyatın sabit inkişafının əsas şərtlərinə insan kapitalının toplanması və saxlanması daxildir. Bu şərtlərin dövlət səviyyəsində yerinə yetirilməsi dövlət proqramlarının işlənib hazırlanmasına gətirib çıxardı. Belə ki, “2013-2017-ci illərdə Azərbaycan Respublikasında rəsmi statistikanın inkişafı Dövlət Proqramı”na İnsan kapitalının statistik öyrənilməsinə dair metodoloji izahatların və statistik göstəricilər sisteminin hazırlanması ilə bağlı tədbir daxil edilmişdir. Bu metodoloji izahatlar və göstəricilər sistemi qeyd olunan Dövlət Proqramının həyata keçirilməsi üzrə Tədbirlər Planına uyğun olaraq insan kapitalının inkişafına dair ölkə proqramlarının və strategiyalarının hazırlanmasına dair məlumatlarla təminatın sistemləşdirilməsi məqsədilə hazırlanmışdır. Azərbaycan Prezidentinin 06 dekabr 2016-cı il tarixli “Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsinin başlıca istiqamətləri” adlı Fərmanının 7.3 bəndində məhz insan kapitalının inkişaf etdirilməsi öz əksini tapmışdır [7].

İqtisadi artım templəri innovasiya proseslərinin sürətli gedişatı ilə müəyyən olunur ki, bu da, öz növbəsində, bəzi amillərdən asılıdır. Bu amillərə elm və texnologiyanın prioritet istiqamətlərinin inkişafı, müəssisə və təşkilatların bütün səviyyələrində çalışan işçilərin innovativ yönümlülüyü, eləcə də rəqabətqabiliyyətli, mütərəqqi vasitələrin istifadəsi və s. aiddir. Hazırda elmi nöqteyi-nəzərdən daha populyar olan insan kapitalı cəmiyyətin təbii ehtiyatları və sərvətlərindən də daha

böyük əhəmiyyət kəsb edən ən qiymətli resursdur.

İnsan kapitalının xüsusiyyətlərini müəyyən etmək, öyrənmək məqsədilə AR DSK "İnsan kapitalı"nın statistik öyrənilməsinə dair metodoloji izahatlar və statistik göstəricilər sistemi adlı bülletendə bizim ölkənin insan kapitalını səciyyələndirən bir sıra göstəricilərin inkişaf etmiş bazar iqtisadiyyatına malik ölkələrin göstəriciləri ilə müqayisəsi həyata keçirilmişdir.

Müasir dövrdə insan kapitalına fitri qabiliyyətlərin, ümumi və xüsusi təhsilin, əldə olunmuş peşə təcrübəsinin, yaradıcı potensialın, mənəvi-psixoloji və fiziki sağlamlığın, gəlir gətirmək imkanını təmin edən fəaliyyət növlərinin məcmusu kimi baxılır. Nəticə etibarı ilə sosial-iqtisadi tərəqqi ilk növbədə elmi-tədqiqat işçiləri tərəfindən əldə olunan və sonralar işçilərin təhsili, peşə hazırlığı və ixtisaslarının təkmilləşdirilməsi prosesində mənimsənilən yeni biliklərlə müəyyən olunur. İnsan kapitalını təşkil edən əsas fəaliyyət sahəsi elm-təhsil kompleksi, səhiyyə sistemi, həyat və məişət şəraitini bilavasitə formalaşdıran sahələr hesab olunur.

2015-ci ildə dünya üzrə 1000 işçiyə verilən patentlərin sayı ilə səciyyələnən insan kapitalına görə Yaponiya 1 yerdə, ABŞ 2 yerdə, Çin isə 3 yerdə durur [8]. Elmi-tədqiqat və işləmələrin sayı Azərbaycanda 2018-ci ilin əvvəlinə olan məlumatlara görə 20580 nəfər olmuşdur [6]. Lakin bu göstərici 2015-ci ilin əvvəlində 23329 nəfər təşkil edərək qonşu dövlətlərlə müqayisədə Rusiya və Türkiyədən sonra 3 yerdə olmuşdur. Ümumiyyətlə, ölkədə elmi-tədqiqat və işləmələri yerinə yetirən işçilərin sayının dinamikasını aşağıdakı qrafikdə görmək olar (şəkil 1).

Qeyd etmək lazımdır ki, araşdırılan dövrdə tədqiqatçıların sayında da 2015-ci ilədək artım, daha sonra isə azalma müşahidə olunmuşdur. Belə ki, bu göstərici 2015-ci ilədək 16337 nəfərədək artaraq, 2018-ci ilin əvvəlində 14732 nəfərədək aşağı düşmüşdür [6]. Aydındır ki, tədqiqatçıların sayının azalması ali təhsilli məşğul əhalinin xüsusi çəkisinin artması fonunda baş verir. Belə ki, 2015-ci il ilə müqayisədə 2017-ci ildə seçmə müayinənin yekunları əsasında ali təhsilli məşğul əhalinin sayı 150,5 min. nəfər artaraq 4822,1 min. nəfər təşkil etmişdir.




**Şək. 1.** Azərbaycanda 2006-20018-ci illərdə
elmi-tədqiqat və işləmələri yerinə yetirən işçilərin sayı (ilin əvvəlinə, nəfər)

Beləliklə, ölkədə insan kapitalı kifayət qədər inkişaf etməkdə olan səviyyədədir, lakin bəzi xüsusiyyətlərində mövqenin zəifləməsi müşahidə olunur. Buna görə əlverişli şərtlərdə insan kapitalının formalaşması regionların sosial-iqtisadi inkişafının elmi əsaslandırılmış siyasətindən asılıdır. Regionlarda insan kapitalının inkişafı prosesinin idarə olunmasında çətinlik ümumi statistik tədqiqatların aparılmasını tələb edir, bu da metodoloji vasitələrin daim təkmilləşdirilməsi olmadan mümkün deyil.

İnsan kapitalı haqqında statistik məlumat ümumi dövlət səviyyəsində Dövlət Statistika Komitəsi, regional səviyyədə statistika idarələri, həmçinin bələdiyyə səviyyəsində dövlət statistikasının şəhər və rayon idarələri tərəfindən toplanır.

Hal-hazırda əsas hesabat ölkənin milli sərvətinin elementlərinin, həmçinin onun bir hissəsi kimi insan kapitalının qiymətləndirilməsi çərçivəsində aparılır. İnsan kapitalını səciyyələndirən, əhalinin sayı, onun sosial-iqtisadi tərkibi kimi, məlumatlar ilk növbədə əhalinin siyahıya alınması nəticələrinə, şagirdlərin, tələbələrin və s. sayı haqqında məlumat verən təşkilatların statistik hesabatına görə, həmçinin xüsusi nümunəvi (məsələn, əhalinin məşğulluq problemi) yoxlamalar çərçivəsində formalaşır. Əhalinin təbii artıb-azalması, həmçinin doğum, ölüm, gözlənilən ömür müddəti göstəricilərinin statistik məlumatları dövlət statistikasının ərazi xidmətinin vətəndaş vəziyyəti aktları əsasında formalaşır.

Milli sərvət sistemində insan kapitalının əsas xüsusiyyətləri kimi iqtisadi fəallılıq, əhalinin məşğulluq və işsizlik göstəriciləri nəzərdən keçirilir. Əmək bazarının monitorinqi, əməyin effektivliyini artıran və onun inkişafını təmin edən amillərin aşkara çıxarılması məsələləri, əmək bazarının iqtisadiyyatın və s. tələblərinə uyğun olaraq zəruri keyfiyyətli işçi qüvvəsi ilə ödənməsi məsələləri bu məlumatlar əsasında həll olunur [4]. Əhalinin iqtisadi fəallılıq və məşğulluq uçotu AR İqtisadiyyat Nazirliyi, AR Dövlət Statistika Komitəsi, AR Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Beynəlxalq Əmək Təşkilatının (BƏT) tövsiyələrinə müvafiq olaraq Azərbaycan Respublikası Dövlət məşğulluq xidməti, Dövlət məşğulluğa kömək fondu (Məşğulluq fondu) tərəfindən həyata keçirilir. Bu haqda məlumatlar dövlət statistika sistemində əhalinin siyahıya alınması, təşkilat, müəssisə və idarələrin cari statistika hesabatı, həmçinin xüsusi seçmə müşahidəsi nəticəsində alınan məlumatlar əsasında formalaşır.

Əhalinin iqtisadi fəallılıq və məşğulluq uçotunun Azərbaycan təcrübəsini təhlil edərək belə nəticəyə gəlmək olar ki, hal-hazırda insan kapitalının statistik bazasının tərtibi zamanı əhalinin gəlirlərinin, yaranma səviyyəsindən asılı olaraq, qarşılıqlı əlaqəsinə kifayət qədər diqqət ayrılmır. Seçmə müşahidələrin nəticəsinə görə ölkə üzrə yalnız təşkilatların işçilərinə məşğuliyyət, cins və təhsil səviyyəsinə görə əlavə olunan orta əmək haqqı barədə məlumatlar təqdim olunur. Buna görə təhsil səviyyəsinin əhalinin gəlir səviyyəsinə, xüsusən də regional baxımdan, iqtisadi təsirinin öyrənilməsi çətin görünür [1,319]. Bizim fikrimizcə, bu tarixi-siyasi sistemlə bağlıdır. Sovet dövründə təhsil xərclərini bütövlükdə dövlət daşıyırdı, buna görə müqavilə ilə təhsil ödənişinin yarandığı müasir dövrlə müqayisədə əhalinin gəlirlərinin effektivliyinin təhsil səviyyəsi üzrə qiymətləndiril-

məsi belə aktual deyildi.

İnsan kapitalının formalaşması dövlət statistika sistemində məlumatı toplanan əhalinin həyat səviyyəsi ilə müəyyən olunur. Bu məlumatlar əhalinin gəlirinin strukturu və mənbəyi, xərclərinin strukturu (xüsusən sağlamlıq, təhsil, mədəniyyət), gəlir üzrə əhalinin təbəqələşməsinin və s. təhlilində istifadə olunurlar. Məsələn, təşkilat, müəssisə və idarənin gəlirləri haqqında məlumatın toplanması üçün, hesabatdan əlavə, əhaliyə göstərilən təhsil, tibb, mədəniyyət, incəsənət üzrə xidmətləri, məişət xidmətləri və s. haqqında məlumatlar təqdim olunur.

Həyat səviyyəsi haqqında statistik məlumatın öyrənilməsi zamanı təhsil müəssisələrinin ödənişli xidmətlərini təsvir edən qiymət sahəsində, xüsusən də regional statistika nöqteyi-nəzərindən, məlumat azlığı aşkar olunmuşdur. Məsələn, Dövlət Statkomun dərc etdiyi məcmuələrdə AR subyektlər üzrə statistikasında ev təsərrüfatının (ailə) büdcə və müqavilə formalı təhsil səviyyəsindən asılı olaraq 1 uşağın təhsilinə ayrılan orta illik xərcləri, ailənin 1 uşağın ibtidai peşə təhsili, orta peşə təhsili və ya ali təhsil müəssisələrinə hazırlıq və daxil olması üçün ayrılan orta illik xəcləri haqqında məlumatlar yoxdur.

Qeyd edək ki, insan kapitalının statistik uçotu dövlət statistikasının bütün səviyyələrinin çoxsaylı göstəriciləri ilə təmin olunur. Azərbaycanda insan kapitalı haqqında statistik hesabat mənbəyinin yekun nəticəsi sxem 1-də göstərilmişdir.

Dünya təcrübəsində insan kapitalının statistik uçotuna böyük diqqət ayrılır. Bunun səbəbi bir tərəfdən İkinci Dünya müharibəsi nəticəsində yaranan demoqrafik problemlər, digər tərəfdən isə elmi-texniki tərəqqinin inkişafıdır.

BMT-nin göstəricilərinin hesablanması üçün statistik baza kimi müxtəlif beynəlxalq ictimai təşkilatlar tərəfindən təqdim olunan məlumatlar xidmət edir. Beynəlxalq Əmək Təşkilat (BƏT), Beynəlxalq Valyuta fondu (BVF), İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (OECD), Dünya Bankı və s. bu təşkilatlar arasındadır. Nəticədə onların statistik məlumatı Birləşmiş Millətlər Təşkilatının Komissiyasına – qlobal statistika sisteminin əsas şöbəsinə daxil olur. O dünya üzrə üzv dövlətlərin statistika xidmətləri rəhbərlərinin hamısı birləşdirir. Bu şöbə çərçivəsində beynəlxalq statistika fəaliyyəti üzrə, əsasən də statistik standartlar, konsepsiya və metodlar üzrə, onların milli və beynəlxalq səviyyədə həyata keçirilməsi üzrə qərarlar qəbul olunur [9].

BMT-nin İP ilə sıx əməkdaşlıq nəticəsində Azərbaycanda İPİİ ətraflı işlənib hazırlanır. Dövlət statistika xidməti tərəfindən, həmçinin Azərbaycanın nazirlikləri və müəssisələri tərəfindən təqdim olunan rəsmi statistika, əsasən, məlumat bazası kimi istifadə olunur.

Beynəlxalq təşkilatlar arasında Dünya bankı da insan inkişafı sahəsi üzrə tədqiqatlarla məşğul olur. Onun analitikləri tərəfindən insan kapitalı nəzərə alınmaqla milli sərvətin geniş konsepsiyası təklif olunur. İnsan kapitalı ümumi milli sərvət ilə fiziki və təbii (təbii qazıntılar, meşə və dəniz resursları və s.) kapitalların dəyəri arasında fərq kimi müəyyən olunur. Dünya bankı ölkənin milli sərvətini səciyyələndirən göstəricilərə ölkənin fiziki kapitalını (trilyon dollarla), ölkənin

insan kapitalını (trilyon dollarla), təbii kapitalı (trilyon dollarla) daxil edir [2,27].

Statistik məlumatlar müxtəlif beynəlxalq təşkilatlar tərəfindən dərc olunur. Dünya bankına borclar üzrə hesabat şəklində məlumat verən ölkələrə əsaslanan dünya inkişaf indikatorları (WDI), maliyyə inkişafının qlobal indikatorları (OBR) ilkin baza kimi seçilirlər [5].

Azərbaycan dövlət statistikası ölkənin fiziki, insan və təbii kapital haqqında məlumatlarına əsaslanan, milli sərvətinin elementlərinin qiymətləndirilmə problemləri ilə məşğul olur. Lakin Dünya bankının təklif etdiyi metod üzrə insan kapitalının qiymətləndirilməsi yalnız müxtəlif tədqiqatlar çərçivəsində təqdim olunur.




**Sxem1.** Azərbaycan Respublikasında insan kapitalı haqqında statistika məlumatının mənbəyi

İnsan kapitalının statistik uçotunun Azərbaycan və beynəlxalq təcrübəsinə həsr olunan tədqiqatların ümumi yekununda vahid yanaşmanın olmadığı nəticəsinə gəlirik. Bizim fikrimizcə, Azərbaycan regionlarında insan kapitalının inkişafının öyrənilməsi çoxölçülü statistik təhlil üsulları əsasında yerinə yetirilməlidir.

İnsan kapitalının inkişafı sosial-iqtisadi dövlət siyasəti çərçivəsində aparılan

elmi əsaslı tədbirlərin vaxtında keçirilməsindən asılıdır, effektivliyi isə daimi müşahidənin və insan kapitalının vəziyyətinin qiymətləndirilməsindən asılıdır. Buna görə də onun ümumi tədqiqatının statistik üsullar ilə, böyük həcmli məlumatın emalı şəraitində aparılması ehtiyacı yaranır. Azərbaycan Respublikasında insan kapitalını qiymətləndirmək və müqayisə etmək imkanı verən məlumatların hazırlanması mövcud olan elmi nəzəriyyələrin təhlilinə, onun qiymətləndirilməsi və ümumiləşdirilməsinin tədqiqinə əsaslanır.

İnsan kapitalının əsas tərkib hissələrindən biri təhsildir. Təhsil sayəsində yüksək ixtisaslaşmış işçi qüvvəsi hesabına əmək resurslarının əksikliyini ödəmək olar. Kadrların formalaşması dövlətin düzgün siyasətinə müvafiq olaraq təhsildə müasir texnologiyaların tətbiqi ilə həyata keçirilməlidir. Əmək resurslarının keyfiyyətinin yaxşılaşdırılması ölkənin milli sərvətinin, fərdin gəlirinin artmasına imkan yaradır.

Bu gün, ümumi və xüsusi təhsil, peşə təhsilinə qoyulan kapitaldan əlavə ev təsərrüfatının (ailə) müstəqil təhsilinə investisiya qoyuluşu da vacibdir, belə ki, əmək bazarında ixtisaslaşmış kadrlar daha zəruridir. İşçinin əməyinin keyfiyyətinin artırılmasına yönəlmiş motivasiyası ilə bağlı xərcləri də nəzərdən keçirmək lazımdır: özünü reallaşdırma şərtləri, gördüyü işdən məmnunluq, öz müvəffəqiyyətini dərk etmə və s. [3,11].

Cəmiyyətin inkişafının müasir mərhələsində informasiya-kommunikasiya texnologiyaları (İKT) artan rola malikdirlər. Onların insanın həyat fəaliyyətinin bütün sahələrinə cəlb olunması müvafiq hazırlıq və bacarıq tələb edir. Beləliklə, insan kapitalını formalaşdıran daha bir komponent – informasiya -kommunikasiya texnologiyalarıdır.

İnsan kapitalının növbəti əsas tərkib hissəsi mədəniyyətdir, belə ki, o sosial əhəmiyyətli, siyasi aktiv şəxsiyyətin formalaşması və inkişafına təsir göstərir. Bu zaman şəxsiyyətin əxlaqi dəyərlərinin formalaşmasına, sağlam həyat tərzinin qorunmasına və s. yönəlmiş dövlət proqramlarının tərtib olunması tələb olunur. Əsas həyat dəyərlərinin təməli erkən yaşlarda qoyulur, buna görə ailə tərbiyəsi insan kapitalının yaranması, inkişafı və yığılmasında sosial, təhsil bazası rolunu oynayır. Bizim fikrimizcə, uşaqların tərbiyəsinə, xüsusilə də dövlət səviyyəsində, ayrılan xərcləri insan kapitalına investisiyaya aid etmək lazımdır.

Miqrasiya da əsas komponentlərdən biridir, belə ki, o, insan kapitalının fiziki əsası olan əhali sayının əksikliyinin yüksək ixtisaslaşmış xarici mütəxəssislər hesabına tamamlanması qaynağıdır.

Beləliklə, bu komponentlər Azərbaycanda insan kapitalının inkişaf səviyyəsini təsvir edən göstəricilərin kompleks statistik sisteminin işlənib hazırlanmasına bünövrə kimi xidmət edirlər. Lakin sistemi formalaşdıran və qoyulan məsələlərə optimal cavab verən kəmiyyət göstəricilərinin müəyyən edilməsi üçün insan kapitalının kəmiyyətcə qiymətləndirilməsinin mövcud üsullarının öyrənilməsinə ehtiyac yaranır.

XXI əsrdə iqtisadiyyatın dayanıqlığı və müvəffəqiyyətliliyi innovativ, keyfiyyət yerdəyişmələrinin generasiyası bacarığı ilə müəyyən edilir. İstənilən

ölkənin əsas var - dövlətinin insanlar və insan kapitalının olması, cəmiyyətin sosial-iqtisadi tərəqqisinin əsas meyarı kimi isə insanın inkişafı və onun tələbatlarının ödənilməsinin çıxış etməsi ümumən qəbul edilir.

Müasir şəraitdə, işçinin özünü reallaşdırması imkanlarının artması, əmək prosesinin qeyri-yaradıcı elementlərinin azalması, əməyin məzmununun zənginləşməsi ilə yanaşı eyni vaxtda işçi qüvvəsinin keyfiyyətinə tələblərin artması tendensiyası müşahidə olunur. İnkişaf etmiş ölkələrdə işçi qüvvəsinin keyfiyyətinin artırılması və sağlamlığın və ətraf mühitin qorunması, əmək şəraitinin təhlükəsizliyi, insanın sosial müdafiəsi sistemi infrastrukturun inkişafına yönələn xərclərin artırılması ilə eyni vaxtda əhalinin bütün təbəqələrində gəlir və güzəştlərin səviyyəsinin artırılması vəzifəsi durur. Bu məqsədlə, insan potensialının dəstəklənməsi və inkişafı proqramları reallaşdırılır. İqtisadi elmin insana, onun keyfiyyət xarakteristikalarına, onların formalaşması və inkişafı xüsusiyyətlərinə marağı xeyli artmışdır. "İnsan həyatının səviyyəsi", "əhalinin yaşayışının keyfiyyəti", "insan inkişafı", "davamlı inkişaf", "insan potensialı", "insan kapitalı" anlayışları aktiv şəkildə işlənilir və inkişaf etdirilir. Sadalanan anlayışların hər birinin xüsusiyyətlərinin əks olunmasına, onların fərqləndirici xüsusiyyətlərinin bu istiqamətdə nəşr edilmiş elmi tədqiqatların öyrənilməsi xüsusi əhəmiyyət kəsb edir.

Ölkədə insan kapitalı kifayət qədər inkişaf etməkdə olan səviyyədədir, lakin bəzi xüsusiyyətlərində mövqenin zəifləməsi müşahidə olunur. Buna görə əlverişli şərtlərdə insan kapitalının formalaşması regionların sosial-iqtisadi inkişafının elmi əsaslandırılmış siyasətindən asılıdır. Regionlarda insan kapitalının inkişafı prosesinin idarə olunmasında çətinlik ümumi statistik tədqiqatların aparılmasını tələb edir, bu da metodoloji vasitələrin daim təkmilləşdirilməsi olmadan mümkün deyil. Bu halda insan kapitalının formalaşması və inkişafının hesabatı xüsusi məna kəsb edir.

Azərbaycan Respublikası əmək ehtiyatlarının artan məhdudluğu şəraitində inkişaf edir. Bu məsələ, onların keyfiyyətinin yüksəldilməsi, yəni respublika regionlarında insan kapitalının inkişafı səviyyəsini artırmaq hesabına həll edilə bilər. Beynəlxalq reytinqin nəticələrinə görə Azərbaycan yüksək insan potensialına malik dövlətlərin ikinci qrupunda yer alır və yüksək insan potensialına malik yüksək inkişaf etmiş dövlətlərdən geri qalır.

Azərbaycan Respublikasının regionlarında insan kapitalının formalaşması, inkişafı və istifadəsi proseslərinin səmərəli idarə edilməsi müvafiq informasiya və metodiki təminat olmadan mümkün deyil. Ondan əlavə, tədqiq olunan hadisələrin təbiəti, iqtisadi proseslərin mürəkkəbliyi və göstəricilərin məlumat bazasının böyük ölçüdə olması çoxölçülü statistik təhlil metodlarının istifadəsinin zəruriliyini şərtləndirir.

Beləliklə, müasir dövrdə statistik tədqiqatlarda insan kapitalının rolu daha da artmaqdadır, bu da gələcək perspektivdə innovativ iqtisadiyyatın inkişafına dəlalət edir. Cəmiyyətin hər bir üzvünün informasiya, təhsil, intelektual imkanlarının artması, dövlətin intelektual resursunun yüksəlməsinə gətirib çıxaracaqdır, bununla da Azərbaycanın dünyada mövqeyi daha da güclənəcəkdir.

## ƏDƏBİYYAT


1. Кибанов А.Я. Управление персоналом организации: Учебник - ("Высшее образование") (ГРИФ). М.: Инфра, 2005, 638 с.
2. Корчагин Ю.А. Российский человеческий капитал: фактор развития или деградации? [Текст]: монография / Ю.А.Корчагин. Воронеж: ЦИРЭ. 2005, 252 с.
3. Корицкий А.В. Введение в теорию человеческого капитала: учеб. пособие [Текст] / А.В. Корицкий. Новосибирск: СибУПК, 2000, 112 с.
4. Нестеров Л.И. Человеческий потенциал и Российская Федерация // Вопросы статистики. 1999, № 2, с. 31-33.
5. Тихомирова Н.В. Система показателей и индикаторов качества образования // Вопросы статистики. 2004, № 9, с. 50-54.
6. www.stat.gov.az
7. www.prezident.az
8. http://www.gks.ru rosstat
9. http://data.worldbank.org


## ОСОБЕННОСТИ ИСПОЛЬЗОВАНИЯ ЧЕЛОВЕЧЕСКОГО КАПИТАЛА В СТАТИСТИЧЕСКИХ ИССЛЕДОВАНИЯХ


**В.Э.ТЕЙМУРОВА**


### РЕЗЮМЕ


В статье рассматриваются особенности использования показателей человеческого капитала в статистических исследованиях. Статистический учет человеческого капитала обеспечивается множеством показателей на всех уровнях официальной статистики. Изучение развития человеческого капитала должно осуществляться на основе методов многомерного статистического анализа.



**Ключевые слова:** человеческий капитал, человеческий потенциал, инновативная экономика, экономическая активность, статистический учет, уровень жизни, статистические данные


## FEATURES OF THE USE OF HUMAN CAPITAL IN STATISTICAL STUDIES


**V.E.TEYMUROVA**


### SUMMARY


The article discusses the features of using human capital indicators in statistical researches. Statistical accounting of human capital is provided by many indicators at all levels of official statistics. The study of the development of human capital should be carried out on the basis of methods of multidimensional statistical analysis.



**Keywords:** human capital, human potential, innovative economy, economic activity, statistical accounting, standard of living, statistical data

**BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ**

***№1*** ***Sosial-siyasi elmlər seriyası*** ***2019***

**UOT 330: 59**

# MÜƏSSİSƏDƏ İSTEHSAL, İDARƏETMƏ VƏ MOTİVLƏŞDİRMƏ MÜNASİBƏTLƏRİ

**D.Ə.ƏMİRASLANOVA**
***Sumqayıt Dövlət Universiteti***
***dilare.amiraslanova@mail.ru***

*Müasir dövrdə sənaye müəssisələrinin iqtisadi potensialından səmərəli istifadə etmək və idarəetmə səviyyəsinin yüksəldilməsi və ixrac potensialının artırılması ilə əlaqədar ölkədə iqtisadi islahatların aparılması çox əhəmiyyətlidir. Bunun üçün ilk növbədə müəssisədə menecmentin təşkili, inkişafı və motivləşdirmə üçün şəraitin yaradılması vacibdir. Məqalədə sənaye müəssisələrinin istehsal, idarəetmə və motivləşdirmə amilləri təhlil edilmiş, daxili bazarın timsalında menecmentin strukturu və motivləşdirmə elementləri tədqiq edilmişdir.*

**Açar sözlər:** motivləşdirmə, rəqabət, müəssisə, istehsal, idarəetmə

Müasir dövrdə cəmiyyətdə istehsal və idarəetmə münasibətləri inkişaf etmiş və artıq öz mütərəqqi formasını almışdır. Cəmiyyətin iqtisadi həyatında əhəmiyyətli rol oynayan istehsal münasibətlərinin formalaşması, bilavasitə maddi və şəxsi amillərin qarşılıqlı əlaqəsi və fəaliyyəti ilə bağlı olaraq, nəticə etibarilə əmtəə (və ya xidmət) mübadiləsi ilə başa çatır.

Müasir şəraitdə hər cür istehsal prosesi özünün iqtisadi, sosial, təşkilati, texniki, texnoloji və s. məsələlərinə görə konkret sahibkar (müəssisə, firma, şirkət və s.) tərəfindən koordinasiya olunaraq müəyyən tələblərə uyğun şəkildə idarə olunur.

Bazar iqtisadiyyatı şəraitində azad iqtisadi subyektlər kimi çıxış edib sahibkarlıq fəaliyyəti göstərən müəssisə və təşkilatlar müəyyən istehsal sisteminə malik olurlar. Son məqsədə – maksimum mənfəətə nail olmaq üçün həmin müəssisələr öhdələrinə götürdükləri məhsul istehsalını həyata keçirmək məqsədilə səmərəli idarəetmə sistemini təşkil edirlər. Keçmiş inzibati-direktiv idarəetmə münasibətlərindən fərqli olaraq müasir dövrdə idarəetmə münasibətləri bazar iqtisadiyyatının tələblərinə uyğun formada, özündə ayrı-ayrı spesifik təşkilati və sahibkarlıq xüsusiyyətlər daşımaqla qurulur.

***Müasir şəraitdə müəssisədə istehsal, idarəetmə və motivləşdirmə münasibətləri***

Müasir dövrdə fəaliyyət göstərən firma və müəssisələrin idarəetmə sistemi, onların səmərəli işləməsi və istehsal-təsərrüfat fəaliyyətinin inkişafı üçün zəruri olan normal, demokratik şəraitin yaradılmasını nəzərdə tutur. Burada söhbət, bazar münasibətli təsərrüfatçılığın obyektiv zəruriliyi və qanunauyğunluğu ilə əmələ gəlmiş menecmentdən gedir ki, onun da özünün prinsipləri, funksiyaları, metodları və üslubları vardır. Belə bir idarəetmə sisteminin formalaşması bir sıra zəruri amillərlə əlaqədardır.

Müasir menecmentin bir xüsusiyyəti də ondan ibarətdir ki, o, məhdud resurslar şəraitində təsərrüfatın müəssisə səviyyəsində düzgün aparılmasının təminatına, minimum xərclərlə maksimum son nəticələrə nail olunmasına, müəssisənin şəraitə optimal adaptasiyasına yönəldilir. Belə tələblərə cavab verən idarəetmə sistemi sosial-iqtisadi inkişafın məntiqinə və qanunauyğunluğuna görə çevik və səmərəli olmalı, həmçinin ayrı-ayrı amillər baxımından daim təkmilləşdirilməlidir.

Bununla yanaşı, müasir istehsalın təşkili üzrə işin əsas məqsədi nəzərdə tutulmuş mənfəətə nail olmaq üçün istehsal xərclərinin aşağı salınmasından və məhsulun rəqabət qabiliyyətinin mümkün qədər yüksəldilməsindən ibarətdir. Məqsədlərə nail olmaq üçün burada əsas vəzifə əməyin məhsuldarlığı və intensivliyinin (işçilərin əmək məhsuldarlığının) yüksəldilməsidir ki, bu da yüksək səviyyədə motivləşdirməni zəruri edir.

Aydındır ki, biz rəqabət dedikdə, təsərrüfat fəaliyyəti ilə məşğul olan iqtisadi subyektlər arasında məhsulların və xidmətlərin daha əlverişli istehsal və satış şəraiti uğrunda bəhsləşməsini başa düşürük. Bazarda rəqabət mübarizəsinin güclənməsi öz rəqibləri ilə eyni səviyyədə dura bilməyən müəssisələrin müflisləşməsinə gətirib çıxarır və nəticədə daha güclü, mövcud vəziyyətə yaxşı uyğunlaşan müəssisələr bazarda öz mövqelərini qoruyub saxlayır və daha da möhkəmləndirirlər.

Rəqabət, iqtisadiyyatın inkişafında mühüm rola malik olmaqla, hər şeydən əvvəl müəssisə və təşkilatların iqtisadi fəaliyyətinin genişləndirilməsinin güclü motivləşdiricisi kimi çıxış edir. Onun sayəsində məhsulun keyfiyyətinin yüksəldilməsi və istehsal məsrəfləri səviyyəsinin aşağı salınması təmin olunur. Bu isə öz növbəsində müəssisənin mənfəətinin artması və işçilərin mükafatlandırılması üçün zəmin olur.

Sahədə rəqabətin təbiətini, onun strukturunu təşkil edən beş elementin təhlili vasitəsilə dərk etmək olar. Bu elementlər sahənin mənfəətlilik səviyyəsini müəyyənləşdirən amillərdir. M.Porterin [1] konsepsiyasına görə rəqabət üstünlüyünün bazarda realizə olunmasına yalnız rəqib müəssisələr deyil, digər rəqabət qüvvələri: potensial rəqiblər, əvəzedici məhsullar, alıcılar və təchizatçılar da böyük təsir göstərirlər *(şəkil 1).*

Potensial rəqiblər sahə bazarına daxil olmaqla müəyyən alıcılar qrupunu öz məhsullarına cəlb edir və bununla digər müəssisələrin məhsullarının satış həcmini azaltmaqla onların mənfəətini azaldırlar. Potensial rəqiblərin sahəyə daxil olma imkanları buradakı maneələrin mürəkkəbliyi və rəqib müəssisələrin reaksiyası ilə səciyyələnir.




**Şək. 1.** Sahədə rəqabəti müəyyən edən amillər.

Müəyyən alıcılar qrupu üçün eyni funksiyanı, başqa texnologiya əsasında yerinə yetirən məhsullar kimi, əvəzedici məhsulların mövcudluğu, onların keyfiyyət və qiymət nisbətinin yaxşılaşması, bazarda məhsulların yuxarı qiymət həddlərinə təsir göstərir. Əvəzedici məhsul alıcı üçün nə qədər cəlbedici olarsa, əsas məhsulun qiymətinin yüksəldilməsi imkanları bir o qədər məhdudlaşır.

Xammal, enerji, yarımfabrikatlar, maliyyə, avadanlıq, informasiya və işçi qüvvəsi kimi istehsal amillərini müəssisəyə təklif edən digər təşkilatlar – təchizatçılar, öz məhsullarına qiyməti yüksəltmək imkanına malik olduqda, alıcı müəssisənin məsrəflərini artırmış olurlar.

Sahədə rəqabətin təbiətini müəyyən edən dörd elementdən – potensial rəqiblər, əvəzedici məhsullar, alıcılar və təchizatçılar – birinci iki element sahənin mənfəətliliyinə dolayı, o biri iki element isə birbaşa təsir göstərir. Sahənin mənfəətliliyinə ən güclü təsir göstərən element isə sahənin müəssisələri (mövcud rəqiblər) arasındakı rəqabətdir. M.Porter ölkədə rəqabət mühitini determinantlar sistemi kimi təqdim edərək onu "milli romb" adlandırmışdır. Bir-biri ilə qarşılıqlı təsirdə olan bu determinantlar sistemi şəkil 2-də əks olunmuşdur[1, 76].




**Şək. 2.** Rəqabət mühitinin determinantları.

Şəkil 2-də göstərilən rəqabət mühitinin determinantları bir-birilə qarşılıqlı surətdə əlaqədar olaraq hər bir ölkədə rəqabət şəraitinin mövcud vəziyyətini əks etdirir. Ölkədə istehsal amillərinin mövcudluğu rəqabət üstünlüyünün əldə edilməsində mühüm rol oynayır. M. Porter istehsal amillərini (istehsal parametrləri determinantını) aşağıdakı qruplar üzrə bölmüşdür:

1. İnsan ehtiyatları, yəni işçi qüvvəsinin miqdarı, qiyməti, iş vaxtı və əmək etikası.

2. Fiziki ehtiyatlar, yəni torpaq sahələrinin, suyun, faydalı qazıntıların, enerji mənbələrinin miqdarı, keyfiyyəti və qiyməti.

3. Bilik ehtiyatları, yəni elmi, texniki və bazar haqqında informasiyaların mövcudluğu, keyfiyyəti və qiyməti.

4. Maliyyə ehtiyatları, yəni sənayenin maliyyələşdirilməsinə sərf oluna biləcək kapitalın miqdarı və qiyməti.

5. İnfrastruktur (ölkənin nəqliyyat sistemi, rabitə, poçt xidməti, bank sistemi, səhiyyə və s.), onun keyfiyyəti və istifadə qiyməti.

Müəssisənin rəqabət qabiliyyətliliyində istehsal amillərinin rolu çox mürəkkəbdir. Müasir dövrdə rəqabət üstünlüyü əldə etmək üçün istehsal ehtiyatlarının mövcudluğu, ancaq kafi şərtdir. Rəqabət üstünlüyü üçün zəruri şərt istehsal ehtiyatlarının yaranma, təkmilləşdirmə və müəssisənin ehtiyaclarına uyğunlaşdırılma sürətidir.

Müasir dövrdə yaranmış rəqabət şəraitinin törətdiyi çətinliklərlə kəskinləşən böhran vəziyyətindən çıxmaq üçün respublikamızda istehsalın rəqabət mühitinin determinantlarının tədqiqi ilə əsaslandırılmış inkişaf istiqamətlərinin seçilməsi çox mühümdür. Bu baxımdan, M.Porterin irihəcmli elmi tədqiqatlar üzərində qurulmuş və böyük tətbiqi potensiala malik "milli romb" konsepsiyası əsasında respublikamızda sənaye istehsalının formalaşmış rəqabət mühitinin aparılması təqdirəlayiqdir.

Respublikamızın kimya sahəsi bazarlarında əvəzedici məhsullar, demək olar ki, yoxdur. Ona görə də əvəzedici məhsullar amilinin bu sahənin mənfəətliyinə təsiri yox dərəcəsindədir.

Kimya sahəsində "alıcılar" amilinin rolu birmənalı deyil. Azərbaycanın daxili bazarlarında xarici firmalar deyil, onların rəsmi distribyüterləri fəaliyyət göstərirlər. Öz fəaliyyətlərində müstəqil olan bu satış kanalları satış həcmini artırmaqla və öz imicini möhkəmlətməklə istehsalçı firmalara öz qiymətlərini təklif edə bilərlər. Yerli alıcıların sosial-psixoloji cəhətlərini daha dəqiq nəzərə almaq bacarığı və irihəcmli alışlar ilə yerli distribüterlər firmaların satış fəaliyyətində mühüm amilə çevrilirlər. Ona görə də iri alıcı kimi qəbul olunan distribüterlər müəssisənin qiymətlərinə təsir göstərmək imkanlarını qazanırlar [2].

Bütün hallarda alıcıların maraqlarını artırmaq, cəlbediciliyi yüksəltmək və keyfiyyət üstünlüklərinin təmin edilməsi motmvləşdirmə amillərinin təsirinin yüksəldilməsi yolu ilə mümkün ola bilər. Məhz bu səbəbdən də, motivləşdirmə amillərinin gücləndirilməsinə xüsusi diqqət yetirilməlidir.

**Motivləşdirmə, rəqabət və personal amillərinin qarşılıqlı təsiri**

Müəssisənin istehsal xərclərini aşağı salmaq, mütərəqqi texnologiyanı mənimsəmək, yüksək ixtisaslı kadrları cəlb etmək, səmərəli maliyyə əlaqələrini və reklam fəaliyyətini təşkil etmək, həmçinin marketinq fəaliyyətini genişləndirmək və s. bu kimi problemlər ayrı-ayrılıqda öz həllini tapmalıdır. Müəssisədə motivləşdirmə amili kimi, kollektivin hər bir üzvünün şəxsi məqsədilə müəssisənin ümumi məqsədinin uyğunluğu və bunu təmin edən amillərin inkişafı da böyük rol oynayır.

Məhsulun hazırlanması və idarə edilməsinin bütün sahələri üzrə qərarların sistemli qəbulu (ticarət markasının yaradılması və qablaşdırma da aid olmaqla) kimi səciyyələnən məhsulun planlaşdırılması prosesi müəssisəyə potensial imkanları üzə çıxarmağa, məhsul üzrə uyğun marketinq proqramını həyata keçirməyə imkan verir.

Bazarın, məhsulun və müəssisənin xüsusiyyətlərini təhlil etməklə satış kanallarının seçilməsi də marketinq fəaliyyətinin mühüm mərhələlərindəndir.

Bununla yanaşı, yerli müəssisələrinin maliyyə imkanlarının və marketinq sahəsindəki bilik və bacarıqlarının azlığı, bu müəssisələrin rəqabət qabiliyyətinin yüksəldilməsi istiqamətində onların dünya bazarlarında müəyyən qədər tanınmış və seçilmiş bazar seqmentini daha geniş əhatə edilməsi zərurətini, yaxın xarici bazarlara daxil olmaq üçün qısa satış kanallarından istifadə etməyi daha məqsədəuyğun edir.

Bu zaman ölkələr üzrə distribüterlərin, dilerlərin seçilməsi və cəlb edilməsi işi aparılmalıdır. Bir ölkədə (və ya bir şəhərdə) bir distribüter və ya dilerlər sistemi üzrə qurulmuş satış kanallarından istifadə, bölüşdürmə xərclərinin azaldılmasına, vasitəçilərlə səmərəli əməkdaşlığa imkanlar verir. Distribüterlərin (və ya dilerlərin) seçilməsi göstərilən xidmətin keyfiyyəti, texniki bilik, imkanların səviyyəsi və ticarət formasının satış həcmi kimi meyarlar əsasında aparılmalıdır.

Satış fəaliyyətinin təşkili zamanı satış funksiyalarının hansı hissəsinin distribüterlərə (və ya dilerlərə) verilməsi və bu vasitəçilərin fəaliyyətinə müəyyən nəzarət vasitələrinin əldə edilməsi kimi məsələlər konkret bazarda mövcud olan şəraitə uyğun olaraq həll edilməlidir.

Müəssisələrin geniş reklam və satışın həvəsləndirilməsi kompaniyasının tələb etdiyi iri maliyyə ehtiyatlarına, xüsusi biliklərə malik olmaması, onlara əlverişli distribüterlərin tapılmasında problemlər yaradır.

Buna görə də fikrimizcə, həmin vasitəçiləri öz satış fəaliyyətinə cəlb etmək və bununla özlərinin rəqabət qabiliyyətini müəyyən qədər yüksəltmək üçün aşağıdakı işlərin görülməsi vacibdir:

- qiymətə ticarət əlavəsinin mümkün qədər yüksəkliyi;
- distribüter hüquqlarının verilməsi və bundan səmərəli istifadə edilməsi;
- əlverişli təchizat şərtlərinin təklif edilməsi;
- satış və xidmət heyətinin ixtisasının artırılması, məhsul haqqında geniş texniki informasiyaların verilməsi;
- motivləşdirmə - maddi həvəsləndirmə və stimul yaradılması;

- təminatlı xidmət xərclərinin ödənilməsi;

- reklam fəaliyyətinə vəsaitlərin ayrılması, reklam üçün materialların verilməsi və s.

Satış kanalları ilə əks əlaqələrin qurulması distribüterlərdən alıcıların məhsula dair fikir və təkliflərinin sistemləşdirilmiş halda istehsalçıya ötürülməsi, rəqib məhsullar haqqında, həmçinin rəqib müəssisələrin digər satışı stimullaşdırıcı tədbirləri haqqında ətraflı məlumatların alınması kimi işlərin təşkili də önəmlidir.

Motivləşdirmə amilləri tətbiq olduqları sahələrə görə müxtəlif tiplərə ayrılırlar [3]:

-***texnologiyadan asılı olan amillər*** (istehsal prosesində innovasiya imkanları, yeni əmtəələrin hazırlanması imkanları, texnologiyanın tətbiqi dərəcəsi və s.),

- ***istehsala aid olan amillər*** (aşağı məsrəfli məhsul, məhsulun keyfiyyəti, ixtisaslaşmış işçi qüvvəsinin səviyyəsi və s.),

- ***marketinq yönümlü amillər*** (məhsul növlərinin müxtəlifliyi, satış üsulları, cəlbedici dizayn və s.).

Bu kimi digər tiplər idarəetmə prosesində motivləşdirmənin gücləndirilməsinin ilkin şərtləri kimi nəzərə alınmalıdır.

Rəqabətin gücləndirilməsində mühüm idarəetmə amillərini şərti olaraq iki tərəfə ayırsaq, birinci tərəfə müəssisənin motivləşdirmə amillərini, ikinci tərəfə isə müəssisənin rəqabət strategiyasını əhatə edən amilləri aid etmək olar. Əlbəttə, rəqabətin gücləndirilməsi zamanı idarəetmə prosesində bu iki tərəfi praktiki olaraq bir-birindən ayırmaq mümkün deyil. Lakin bu tərəflərin nəzəri cəhətdən tədqiq olunması şərti olaraq onları ayırmağa imkan verir.

Müəssisənin rəqabət üstünlüyü – rəqiblərlə müqayisədə hər hansı fəaliyyət sahəsi və ya məhsul buraxılışına görə müəssisənin birinciliyi və yüksək səriştəliliyi ilə səciyyələnir. Rəqabət üstünlüyünə xas olan amillər isə rəqiblərini ötüb keçməyə imkan verən, müəssisənin xarici və ya daxili mühitinin konkret elementləridir. Bu amillər zaman baxımından taktiki (öz rəqiblərini yaxın dövr ərzində ötüb keçməyə imkan verən ümumi amillər) və strateji (perspektiv baxımdan konkret strateji şərtləri yerinə yetirməklə rəqibləri uzun müddət ərzində ötməyə şərait yaradan ümumi amillər) formada təzahür edə bilərlər.

Motivləşdirmə strategiyalarına kompleks baxımdan yanaşdıqda onların müxtəlif təyinatda və formada olduqları nəzərə çarpır. Məsələn, məsrəflər üzrə liderlik strategiyası, geniş diferensiyasiya strategiyası, optimal məsrəflər strategiyası, aşağı məsrəflər üzrə cəmləşmək və xüsusiləşdirilmiş diferensasiya strategiyaları, həmçinin bazarın seqmentləşdirilməsi, yeniliklərin tətbiqi və bazarın tələbatına cəld reaksiya vermək strategiyaları hər biri ayrı-ayrılıqda müəssisə üçün müəyyən dərəcədə və istiqamətdə rəqabət üstünlüyü yaratmalıdır. Bu zaman müəssisə öz məhsulunu əlverişli qiymətə sataraq rəqiblərinə nisbətən böyük həcmdə mənfəət qazanır.

Hal-hazırda rəqabət üstünlüyünün əldə edilməsi qeyd etdiyimiz kimi, əsasən iki formada aparılır [4]: məsrəflər üzrə və diferensiasiya üzrə. Rəqabət üstünlüyünün mənbələrini rəqabət mühiti ilə yanaşı müəssisənin fəaliyyətinin ayrı-ayrı

mərhələlərində də axtarmaq lazımdır. Rəqabət üstünlüyü qazanmaq üçün müəssisə bu mərhələlərin hər birində yeniliklər tətbiq etməklə son nəticəni – eyni keyfiyyətli məhsulu aşağı məsrəflərlə və ya eyni məsrəflərlə daha yüksək keyfiyyətli məhsulu - əldə etməlidir *(şəkil 3).*




**Şək. 3.** Motivləşdirmə və rəqabət səviyyəsinin yüksəldilməsi

Texniki və maliyyə imkanlarına görə xarici rəqiblərdən geri qalmamaq üçün müəssisələr məsrəflər üzrə üstünlüyü artırmalı və ondan məharətlə istifadə etməlidir. Daxili bazarların xarici firmalar üçün açıldığı dövrdən burada da kəskin rəqabət formalaşmaqdadır. Belə rəqabət şəraitində öz satış əməliyyatlarını bərpa və inkişaf etdirmək naminə satışı stimullaşdıran səmərəli tədbirlərin görülməsi də müəssisələrimiz üçün ən mühüm vəzifələrdəndir.

Bununla yanaşı, fikrimizcə müəssisədə ənənəvi motivləşdirmə - əmək haqqı, maddi və mənəvi mükafatlar saxlanılmaqla, qeyri-ənənəvi motivləşdirmə - rəqabətdən, keyfiyyətdən və riskdən doğan motivləşdirmə amilləri gücləndirilməli və daha geniş tətbiq olunmalıdırlar; Rəhbər işçilərin və mütəxəssis kadrların təhsillərinin və səriştələrinin artırılmasında mövcud olan motivləşdirici amillər açıqlanmalı və bütün işçilərə əyani surətdə çatdırılmalıdır.

**ƏDƏBİYYAT**

1. Əliyev T.N, Əhmədli A.M, Məmmədov R.M. Müştərək müəssisə və sahibkarlıq. Bakı: Elm, 2001
2. Əliyev T.N. Marketinqin təşkili və idarə olunması. Bakı: Elm, 2004.
3. İmranov A.M., Mustafayev A.M. Menecmentdə motivləşdirmə. Bakı: Nurlan, 2004.
4. İmranov A.M. Menecment (dərslik). Bakı: Nurlan, 2007.


## ПРОИЗВОДСТВЕННЫЕ, УПРАВЛЕНЧЕСКИЕ И МОТИВАЦИОННЫЕ ОТНОШЕНИЯ НА ПРЕДПРИЯТИИ


**Д.А.АМИРАСЛАНОВА**


**РЕЗЮМЕ**


В связи с эффективным использованием экономического потенциала промышленных предприятий, повышением уровня управления и увеличением экспортного потенциала сегодня в стране существует потребность в экономических реформах. Прежде всего, для этого необходимо создать условия для организации, развития и мотивации в менеджменте предприятий. В статье проанализированы факторы производства, управления и мотивации промышленных предприятий, а также на примере внутреннего рынка рассмотрены структура менеджмента и элементы мотивации.



**Ключевые слова:** мотивация, конкуренция, предприятие, производство, управление


## PRODUCTION, MANAGEMENT AND MOTIVATIONAL RELATIONS AT THE ENTERPRISE


**D.A.AMIRASLANOVA**


**SUMMARY**


In modern time it is important to carry out economic reforms in the country due to the efficient utilization of economic potential of industrial enterprises, raising the level of management and increasing the export potential. First of all, it is necessary to create conditions for the organization, development and motivation of the management at the enterprises. The factors of production, management and motivation of industrial enterprises, as well as the management structure and elements of motivation on the example of the domestic market are studied in the article.



**Keywords:** motivation, competition, enterprise, production, management

# MÜNDƏRİCAT

## HÜQUQ

**İsmayılov X.C.**
Azərbaycanda parlamentarizmin formalaşdırılması
və inkişafının tarixi-hüquqi əsasları ........................................................................ 5
**Qasımov A.M.**
İntizam məsuliyyətinin anlayışı haqqında məsələyə dair........................................... 20
**Mehdiyev N.H.**
İnsan hüquqlarının pozulması sahəsində dövlətlərin məsuliyyəti.............................. 29
**Əzizov C.H.**
Hərbi xidmət əleyhinə olan cinayətlər üzrə cinayət işinin başlanması
mərhələsinin bəzi problemləri..................................................................................... 40
**Poladov A.G.**
Məlumatların portabilliyi hüququ Avropa İttifaqının qanunvericiliyi
perspektivindən ......................................................................................................... 53
**İsmayılov R.M.**
İnsan və vətəndaşın hüquq və azadlıqlarının məhdudlaşdırılması:
*De Lege Lata* qanunvericiliyin təkmilləşdirilməsi barədə bəzi qeydlər...................... 61

## PEDAQOGİKA

**Zeynalova N.E.**
"Kreativ" və "tənqidi" təfəkkür anlayışlarının məzmunu, təcrübədə tətbiqi
məsələləri .................................................................................................................. 69
**Hacıyeva S.R.**
Azərbaycanda milli azlıqların və azsaylı xalqların doğma dillərində məktəblərin
açılması və onların orada təhsil almaları (1920 – 1940 illər)..................................... 78

## PSİXOLOGİYA

**Cabbarova L.M.**
Kütləvi kommunikasiya prosesinin struktur komponentlərinə əsasən medianın
sosial-psixoloji tədqiqi metodları............................................................................... 84

## SOSİOLOGİYA

**Məmmədova R.O.**
İctimai münasibətlər sistemində sağlamlıq imkanları məhdud olan şəxslərə
göstərilən qulluq və palliativ yardım ......................................................................... 95

## İQTİSADİYYAT

**Yadulla M.Y., Muradova N.U., Həsənov F.Ç.**
İqtisadi nəzəriyyənin predmetinin inkişafı: iqtisad, siyasi iqtisad, ekonomiks
(I hissə) ........................................................................................................ 102
**Teymurova V.E.**
İnsan kapitalının statistik tədqiqatlarda istifadəsinin xüsusiyyətləri........................... 108
**Əmiraslanova D.Ə.**
Müəssisədə istehsal, idarəetmə və motivləşdirmə münasibətləri............................... 116

# СОДЕРЖАНИЕ

## ПРАВО

**Исмайлов Х.Дж.**
Историко-правовые основы формирования и развития парламентаризма в Азербайджане ........ 5
**Гасымов А.М.**
О понятии дисциплинарной ответственности ........ 20
**Мехтиев Н.Г.**
Ответственность государств в области нарушений прав человека ........ 29
**Азизов Дж.Г.**
Некоторые проблемы стадии возбуждения уголовного дела по преступлениям против военной службы ........ 40
**Поладов А.Г.**
Право на портабельность информации в аспекте законодательства ЕС ........ 53
**Исмаилов Р.М.**
Ограничение прав и свобод человека: некоторые заметки по совершенствованию законодательства De Lege Lata ........ 61

## ПЕДАГОГИКА

**Зейналова Н.Э.**
Содержание понятий “критическое” и “креативное” мышление и их применение на практике ........ 69
**Гаджиева С.**
Открытие школ для национальных меньшинств и малочисленных народов Азербайджана и обучение их на родном языке (1920 – 1940 годы) ........ 78

## ПСИХОЛОГИЯ

**Джаббарова Л.М.**
Методы социально-психологического исследования медии на основе структурных компонентов массовой коммуникации ........ 84

## СОЦИОЛОГИЯ

**Мамедова Р.О.**
Уход за людьми с ограниченными возможностями здоровья и паллиативная помощь в системе общественных отношений ........ 95

## ЭКОНОМИКА

**Ядулла М.Я., Мурадова Н.У., Гасанов Ф.Дж.**
Развитие предмета экономической теории:
экономия, политическая экономия, экономикс (I часть)...................................... 102
**Теймурова В.Э.**
Особенности использования человеческого капитала в статистических
исследованиях ........................................................................................................ 108
**Амирасланова Д.А.**
Производственные, управленческие и мотивационные отношения на
предприятии ........................................................................................................... 116

## CONTENTS

### LAW

**Ismayilov Kh.J.**
Historical and legal bases for formation and development of parliamentarism in Azerbaijan................................................................ 5
**Gasymov A.M.**
On the concept of disciplinary responsibility ........................................................ 20
**Mehtiyev N.H.**
State responsibility in the area of human rights violations ........................................ 29
**Azizov J.H.**
Some problems of the stage of initiation of legal proceedings on crimes against military service................................................................ 40
**Poladov A.G.**
The right to data portability from the EU perspective .............................................. 53
**Ismayilov R.M.**
Restriction of the rights and freedoms of man and citizen: de lege lata some notes on improving the legislation................................................................ 61

### PEDAGOGICS

**Zeynalova N.E.**
The content of the notions of “creative” and “critical” thinking, and the problems of their usage in the practice ........................................................ 69
**Hajieva S.R.**
Opening of schools for national minorities and small nations of Azerbaijan and teaching them in their native language (1920 – 1940 years) ...................................... 78

### PSYCHOLOGY

**Jabbarova L.M.**
Social-psychological research methods of the media on the structural components of the mass communication process ....................................................... 84

### SOCIOLOGY

**Mammadova R.O.**
Care for people with disabilities of health and palliative help in the system of public relations.............................................................................................. 95

## ECONOMICS

**Yadulla M.Ya., Muradova N.U., Hasanov F.Ch.**
Development of the subject of economic theory:
economy, political economy, economics (I part) ........................................................ 102
**Teymurova V.E.**
Features of the use of human capital in statistical studies .......................................... 108
**Amiraslanova D.A.**
Production, management and motivational relations at the enterprise........................ 116

## MÜƏLLİFLƏRİN NƏZƏRİNƏ!

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının sədrinin 20 dekabr 2010-cu il tarixli 48-01-947/16 saylı məktubunu əsas tutaraq «Bakı Universitetinin Xəbərləri» jurnalının redaksiya heyəti bildirir ki, nəşr etdirmək üçün təqdim edilən məqalələr aşağıdakı qaydalar əsasında tərtib edilməlidir:

1. Təqdim olunan məqalənin mətni – A4 formatında, sətirlərarası – 1 intervalla, yuxarıdan – 5 sm, aşağıdan – 3,75 sm, soldan – 4 sm, sağdan – 3,5 sm, Times New Roman – 12 (Azərbaycan dilində – latın əlifbası, rus dilində – kiril əlifbası, ingilis dilində – ingilis əlifbası ilə) şrifti ilə yığılmalıdır.

2. Hər bir məqalənin müəllifinin (müəlliflərinin) adı və soyadı tam şəkildə yazılmalı, elektron poçt ünvanı, çalışdığı müəssisənin (təşkilatın) adı göstərilməlidir.

3. Hər bir məqalədə UOT indekslər və ya PACS tipli kodlar və açar sözlər verilməlidir (açar sözlər məqalənin və xülasələrin yazıldığı dildə olmalıdır).

Məqalələr və xülasələr (üç dildə) kompyuterdə çap olunmuş şəkildə disketlə (disklə) birlikdə təqdim olunur, disketlər geri qaytarılmır!

Əlyazmalar kvartalın əvvəlindən bir ay keçməmiş verilməlidir.

4. Hər bir məqalənin sonunda verilmiş ədəbiyyat siyahısı Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının «Dissertasiyaların tərtibi qaydaları» barədə qüvvədə olan Təlimatının «İstifadə edilmiş ədəbiyyat» bölməsinin 10.2-10.4.6 tələbləri əsas götürülməlidir.

**Kitabların (monoqrafiyaların, dərsliklərin və s.) biblioqrafik təsviri kitabın adı ilə tərtib edilir**. Məs.: Qeybullayev Q.Ə. Azərbaycan türklərinin təşəkkülü tarixindən. Bakı: Azərnəşr, 1994, 284 s.

**Müəllifi göstərilməyən və ya dörddən çox müəllifi olan kitablar (kollektiv monoqrafiyalar və ya dərsliklər) kitabın adı ilə verilir**. Məs.: Kriminalistika: Ali məktəblər üçün dərslik / K.Q.Sarıcalinskayanın redaktəsi ilə. Bakı: Hüquq ədəbiyyatı, 1999, 715 s.

**Çoxcildli nəşrə aşağıdakı kimi istinad edilir.** Məs.: Azərbaycan tarixi: 7 cilddə, IV c., Bakı: Elm, 2000, 456 s.

**Məqalələrin təsviri aşağıdakı şəkildə olmalıdır**. Məs.: Vəlixanlı N.M. X əsrin ikinci yarısı – XI əsrdə Azərbaycan feodal dövlətlərinin qarşılıqlı münasibətləri və bir daha «Naxçıvanşahlıq» haqqında // AMEA-nın Xəbərləri. Tarix, fəlsəfə, hüquq seriyası, 2001, № 3, s. 120-129.

**Məqalələr toplusundakı və konfrans materiallarındakı mənbələr belə göstərilir**. Məs.: Məmmədova G.H. Azərbaycan memarlığının inkişafında Heydər Əliyevin rolu / Azərbaycan Respublikasının Prezidenti H.Ə.Əliyevin 80 illik yubileyinə həsr olunmuş elmi-praktik konfransının materialları. Bakı: Nurlan, 2003, s.3-10.

**Dissertasiyaya istinad belə olmalıdır.** Məs.: Süleymanov S.Y. Xlorofill-zülal kompleksləri, xlorplastların tilakoid membranında onların struktur-molekulyar təşkili və formalaşmasının tənzimlənməsi: Biol. elm. dok. … dis. Bakı, 2003, 222 s.

**Dissertasiyanın avtoreferatına da eyni qaydalarla istinad edilir, yalnız «avtoreferat» sözü əlavə olunur.**

**Qəzet materiallarına istinad belə olmalıdır**. Məs.: Məmmədov M.A. Faciə janrının tədqiqi. «Ədəbiyyat və incəsənət» qəz., Bakı, 1966, 14 may.

**Arxiv materiallarına aşağıdakı kimi istinad edilir**. Məs.: Azərbaycan Respublikası MDTA: f.44, siy.2, iş 26, vv.3-5.

İstifadə edilmiş ədəbiyyat siyahısında son 5-10 ilin ədəbiyyatına üstünlük verilməlidir.

***PS: Rəhbərliyin bizə verdiyi göstərişə əsasən növbəti saylarda bu tələblərin hər hansı birinə cavab verməyən məqalələr nəşriyyat tərəfindən qəbul edilməyəcək.***

Redaktorları: *Məryəm Qədimova*
*Yafəs Quliyev*
*Nərgiz Əliyeva*

Kompüter tərtibçisi: *Azadə İmanova*

***Yığılmağa verilmişdir:06.05.2019. Çapa imzalanmışdır:10.07.2019***
***Formatı: 70x100 1/16. Həcmi 8,25 ç.v. Sayı 120.***

***«Bakı Universiteti Nəşriyyatı», Bakı ş., AZ 1148, Z.Xəlilov küçəsi, 23.***
***Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeydə alınmışdır.***
***Şəhadətnamə B310.30.04.1999.***
**bun@box.az**